AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

**BƏXTİYAR ƏHMƏDOV**

# GÖYÇƏ MAHALI AZƏRBAYCANLILARINA QARŞI DEPORTASİYALAR VƏ SOYQIRIMLAR

# (XX ƏSR)

**Bakı - 2021**

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun
Elmi Şurasının qərarı ilə çap olunur

**Elmi redaktoru:** **Kərim Şükürov**
tarix elmləri doktoru, professor,
Dövlət mükafatı laureatı

**Elmi məsləhətçi:** **İsrafil Məmmədov**
tarix üzrə fəlsəfə doktoru

**Rəyçilər:** **Hacı Həsənov**
tarix üzrə fəlsəfə doktoru, dosent,
**Elmar Məhərrəmov**
tarix üzrə fəlsəfə doktoru, dosent

**Əhmədov Bəxtiyar.** Göyçə mahalı azərbaycanlılarına qarşı deportasiyalar və soyqırımlar (XX əsr). "İdeal-Print" MMC, Bakı, 2021, - 180 s.

Monoqrafiyada Göyçə mahalında yaşayan azərbaycanlılara qarşı ermənilərin keçən əsrdə törətdiyi qətliam və soyqırımların ictimai-siyasi əsasları tədqiq edilir, hakim dairələrin bölgədə apardığı etnik təmizləmə siyasətinin yaratdığı problemlər araşdırılır.

**ISBN** – 978-9952-8434-3-9

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2021

# GİRİŞ

Son iki əsrdə Cənubi Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən bu cür qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus yüzlərlə tarix və mədəniyyət abidəsi və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

Azərbaycan alimlərinin əsas vəzifəsi soy kökümüzə, tariximizə yeni baxış formalaşdırmaq, xalqımızın tarixi keçmişinin bütün səhifələri yenidən və obyektiv şəkildə tədqiq etməkdir.

Azərbaycan xalqının yaxın keçmişdəki tarixinin sovet dövründə öyrənilməmiş sahələrindən biri də xalqımızın dəfələrlə erməni quldurları tərəfindən öz dədə-baba yurdlarından didərgin salınmaları və bu zaman soyqırıma məruz qalmalarının tarixidir. Həmçinin sovet dövründə SSRİ rəhbərliyi tərəfindən indiki Ermənistan adlanan Qərbi Azərbaycanda yaşayan türklərin dövlət səviyyəsində Azərbaycana deportasiya olunması məsələləri də tariximizin sovet dövrünün qaranlıq səhifələrindəndir.

Bu baxımdan XX əsrdə azərbaycanlıların ermənilər tərəfindən soyqırıma və deportasiyaya məruz qalmaları məsələləri həmişə olduğu kimi bu gün də aktual problemlərdən biri kimi öz hərtərəfli tədqiqini gözləməkdədir. Həmçinin son iki yüzildə azərbaycanlıların ermənilər tərəfindən diskriminasiyaya məruz qalmaları, kütləvi qırğınların qurbanına çevrilmələri və öz doğma yurdlarından qovulmaları faktlarının cəmiyyətimizə və dünya ölkələrinə elmi əsaslarla çatdırılması olduqca böyük tarixi, elmi, mənəvi və siyasi əhəmiyyət kəsb edir.

Ermənistan adlanan ərazidən son iki əsrdə Azərbaycan türklərinin min illərlə yaşadıqları tarixi-etnik torpaqlarından məqsədyönlü şəkildə deportasiya olunmalarında nəinki öz havadarlarına arxalanan

ermənilər, həmçinin müxtəlif adlar altında rəsmi fərman vermiş Sovet İttifaqının o zamankı rəhbər şəxsləri də azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı törədilməsində bilavasitə iştirak etmişlər. Sovet İttifaqı rəhbərlərinin törətdiyi bu cinayət əməlləri, əlbəttə ki, müxtəlif adlar altında pərdələnmişdir. Bu əməllərin bariz nümunələri o zamankı SSRİ-nin ali rəhbər orqanlarının 1947-ci il 23 dekabr tarixli 4083 saylı qərarı və SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli sərəncamıdır. Bu qərar və sərəncam əsasında 1948-1953-cü illərdə 100 mindən çox azərbaycanlı öz dədə-baba yurdlarından könüllülük adı altında xüsusi plan əsasında kütləvi surətdə və zorakılıqla səfalı yerlərdən Azərbaycan SSR-in Kür-Araz ovalığına faktiki olaraq sürgün edilmişlər. Uzun illər bu qərarların mənfur mahiyyəti xalqdan gizlədilmişdir. Yalnız Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdikdən sonra, xüsusilə 1993-cü ildə H.Ə.Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra bu cinayətkar qərar və sərəncamın əsl, gizli mahiyyəti açıqlanmışdır. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 18 dekabr 1997-ci ildə imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" [24] və 26 mart 1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" fərmanları [26] ilə həmin hadisələrə doğru tarixi-siyasi qiymət verilmiş, o zamankı SSRİ rəhbərlərinin cinayətkar siyasətinin əsl məğzi açılıb göstərilmiş və həmin cinayətkar qərarların hüquqi-siyasi mahiyyəti beynəlxalq ictimaiyyətə çatdırılmışdır. Haqqında danışdığımız sonuncu fərmanda 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi məsələsi qoyulmuşdu.

Monoqrafiiyanın xronoloji çərçivəsi tədqiq olunan dövrə əsasən müəyyənləşdirilmiş, araşdırma zamanı xronoloji ardıcıllıq gözlənilmişdir. Bu tədqiqat əsəri Göyçə mahalının tarixi coğrafiyası və inzibati-ərazi bölgüsünün tədqiqi ilə başlayır, çar Rusiyasının Azərbaycanı işğalından sonra Göyçə mahalında ermənilərin məskunlaşdırılması və demoqrafik vəziyyətin dəyişməsi prosesinin araşdırılması ilə davam etdirilir, 1905-1907, 1918-1920, 1948-1953, 1960-1988 və 1989-1990-cı illərdə Göyçə mahalında bu bölgənin

aborigen əhalisi olan azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti ardıcıl olaraq izlənilir və araşdırılır.

Çağdaş dövlət müstəqilliyi xalqımıza öz milli mənsubiyyətini açıq şəkildə ifadə etmək, milli mənafelərini maksimum dərəcədə reallaşdırmaq imkanı vermişdir. Eyni zamanda müstəqillik qazandıqdan sonra xalqımız öz tarixi keçmişini obyektiv yazmaq imkanı əldə etmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulmuş, dəfələrlə təhrif edilərək sovet ideologiyasının qurbanına çevrilən tariximiz yenidən obyektiv şəkildə yazılmağa başlanmışdır. Azərbaycan tarixinin gizli saxlanılan, uzun illər boyu təhrif edilən səhifələrindən biri də Azərbaycan türklərinə qarşı dəfələrlə törədilmiş, lakin indiyə qədər özünün layiqli və hər tərəfli hüquqi və siyasi qiymətini almamış soyqırımıdır. Azərbaycanlıların soyqırımı tarixi sovet imperiyası dövründə demək olar ki, qətiyyən işıqlandırılmamış, bəzi hallarda isə qeyri-obyektiv şəkildə təqdim edilmişdir. Müstəqillik dövründə tariximizin bu hissəsi daha obyektiv və fundamental şəkildə araşdırılmağa başlanmış və bu sahədə ciddi nəticələr əldə edilmişdir.

Azərbaycan tarixçilərinin və bir sıra xarici ölkə tədqiqatçılarının XX əsrdə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı və deportasiya siyasəti ilə bağlı tədqiqat əsərləri XX əsrdə azərbaycanlıların deportasiya və soyqırımı tarixinin tədqiqi üçün geniş elmi baza rolunu oynayır. Yerli və xarici mütəxəssislərin bu dövrdə ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən vəhşiliklər, kütləvi qırğınlar, həyata keçirilən deportasiya siyasəti sahəsində apardığı araşdırmalar mövzunun tədqiq olunması üçün əlverişli imkan yaratmışdır.

Azərbaycan xalqının ermənilər tərəfindən soyqırıma məruz qalmasının canlı şahidi olmuş dahi mütəfəkkir ziyalılarımızdan Məmməd Səid Ordubadinin “Qanlı sənələr” [84], Mir Möhsün Nəvvabın “1905-1907-ci illərdə erməni-müsəlman davası” ,[81] və Mirzə Rəhim Fənanın “1905-ci il hadisələri” [39] əsərləri erməni vandalizmi haqqında ən qiymətli əsərlərdəndir. Erməni vəhşiliklərini öz gözləri ilə görmüş bu şəxslər azərbaycanlıların ermənilər tərəfindən kütləvi surətdə qətlə yetirilməsini, onlara verilən

işgəncələri, qadınların və uşaqların kütləvi işgəncələrə məruz qalmasını öz əsərlərində təfərrüatı ilə qələmə almışlar. Bu əsərlər azərbaycanlıların soyqırımı tarixinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir.

Onu qeyd etmək istərdik ki, azərbaycanlılara qarşı törədilmiş soyqırımı və deportasiyaların tarixinin öyrənilməsi və tədqiq olunmasında görkəmli alim İsrafil Məmmədovun da böyük xidmətləri vardır. Onun "Трилогия панарменизма" [185] əsərində panarmenizmin yaranması, siyasi və strateji mahiyyəti, ermənilərin Cənubi Qafqazda yerləşdirilməsi, "erməni məsələsi"nin gündəmə gəlməsi, xüsusilə də XX əsrdə azərbaycanlıların soyqırımı və deportasiyalara məruz qalması tarixi faktlar və rəsmi sənədlər əsasında geniş şərh olunmuşdur.

Onun "Tariximiz, torpağımız, taleyimiz" [64] əsərində də erməni separatizminin tarixi kökləri, oyanışı, türklərin tarixi torpaqlarında "Erməni dövləti" qurmaq proqramları, Birinci Dünya müharibəsi illərində ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri məkrli siyasət və bu siyasətin qanlı nəticələri elmi faktlarla sübuta yetirilmişdir. O, həmçinin Azərbaycanın qərb bölgələrində, o cümlədən Göyçə mahalında ermənilərin törətdiyi cinayətlər və azərbaycanlılara qarşı vəhşilikləri arxiv sənədləri əsasına tutarlı faktlarla izah etmişdir. Bu kitabda öz əksini tapan onlarla arxiv sənədlərindən biri olan, "erməni qoşunlarının Göyçə müsəlmanlarına qarşı törətdikləri vəhşiliklər haqqında Gəncə qəza rəisinin adına göndərilmiş məktubda deyilir: "60 min əhalisi olan 22 kənd dağıdılmış, yandırılmışdır". 1918-1920-ci illərdə Yeni Bəyazid və İrəvan qəzalarından didərgin salınmış azərbaycanlıların sayı 200 min nəfərə yaxın olmuşdur [64, 398].

İsrafil Məmmədovun "Erməni kilsəsi və türk-Azərbaycan torpaqlarında dolaşmaqda olan "Böyük Ermənistan" kabusu" [62] və "Об истории, исконной земле и горькой судьбе азербайджанцев, изгнанных из нынешней Республики Армения" [183] əsərlərində də XX əsrin əvvəllərində İrəvan quberniyasında yaşayan əhali, onun etnik tərkibi, o cümlədən Göyçə gölü hövzəsinin daxil olduğu Yeni Bəyazid qəzasının demoqrafik vəziyyəti, xüsusi ilə də bu bölgədə

ermənilərin həyata keçirdiyi etnik təmizləmə siyasəti geniş şəkildə tədqiq olunmuşdur.

İsrafil Məmmədov və Sabir Əsədovun birgə müəllifliyi ilə nəşr olunan “Ermənistan azərbaycanlıları və onların acı taleyi” [65] və “Терроризм: причина и следствие” [186] əsərləri də Göyçə mahalında ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini əks etdirən fundamental monoqrafiyalardan sayılmalıdır.

Göyçə mahalının tarixi coğrafiyasını, inzibati-ərazi bölgüsünü və sosial-demoqrafik vəziyyətinin öyrənilməsində “Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası” [32] əsərinin əhəmiyyəti olduqca böyükdür. Akademik Budaq Budaqovun rəhbərliyi ilə nəşr olunmuş bu əsərdə Göyçə mahalının tarixi coğrafiyası, inzibati-ərazi bölgüsü, bu bölgədə yaşayan əhalinin etnik tərkibi, həmçinin demoqrafik vəziyyəti haqqında qiymətli məlumatlar toplanmışdır.

Akademik Budaq Budaqovun və görkəmli tarixçi alim Qiyasəddin Qeybullayevin birgə nəşr etdirdikləri “Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti” [29] adlı monoqrafiyada Göyçə mahalının tarixi coğrafiyası və toponimləri haqqında olduqca geniş və sistemli məlumat toplanmışdır.

Bu tipli əsərlərdən biri də İbrahim Bayramovun “Qərbi Azərbaycanın türk mənşəli toponimləri” [28] əsəridir. Bu əsərdə konkret faktlara istinad edilərək Qərbi Azərbaycan (indiki Ermənistan Respublikası) ərazisində türk mənşəli toponimlər toplu halda əks olunmuş, bu bölgəyə ermənilərin köçürülməsi, yerli türk əhalisinin müxtəlif dövrlərdə ermənilər tərəfindən soyqırımlara məruz qoyulması aydın şəkildə göstərilmişdir.

Göyçə mahalının tarixi coğrafiyası haqqında məlumat verən əsərlərdən biri də tarix elmlər doktoru, professor Vaqif Piriyevin “Azərbaycanın tarixi-siyasi coğrafiyası” [89] əsəridir. Zəngin tarixi dəlillər əsasında yazılmış bu əsərdə müxtəlif tarixi dövrlərdə Azərbaycanın əraziləri, sərhədləri, inzibati bölgüsü şərh olunur torpaqlarımızın itirilmə dinamikası izlənilir.

XX əsrin əvvəllərində İrəvan quberniyasında və Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında Azərbaycan türklərinə qarşı soyqırımı siyasətinin tədqiq edilməsində Nazim Mustafanın

rolu böyükdür. Onun "Vandalizm: tarixi adlara qarşı soyqırımı" [107] və "İrəvan quberniyasında azərbaycanlıların soyqırımı (1918-1920)" [71] adlı əsərlərində ermənilərin azərbaycanlılara qarşı riyakar siyasəti və vəhşilikləri mötəbər qaynaqların zəngin məlumatları əsasında tədqiq edilmişdir.

Azərbaycanlıların soyqırımı tarixinin öyrənilməsində Vaqif Arzumanlı və Nazim Mustafanın birgə müəllifliyi ilə yazılmış "Tarixin qara səhifələri: deportasiya, soyqırımı, qaçqınlıq" [5] əsərinin də əhəmiyyəti böyükdür. Bu əsərdə 1905-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı siyasəti, 1948-1953-cü illərdə azərbaycanlıların deportasiyası, 1980-ci illərdə erməni şovinizminin yenidən qızışıb dirçəlməsi və azərbaycanlıların diskriminasiyası elmi dəlillər əsasında inandırıcı şəkildə işıqlandırılmışdır.

Azərbaycanlıların soyqırımı və deportasiyasının tədqiqatçılarından biri də mərhum tarixçi Bəxtiyar Nəcəfovdur. Onun iki hissədən ibarət olan "Düşmənin iç üzü. XIX əsrin sonları – XX əsrin əvvəllərində Zaqafqaziyada erməni millətçiliyinin tarixi" [190; 191] və üççildlik "Deportasiya" [77; 78; 79] əsərlərində sərsəm "Böyük Ermənistan" ideyasının siyasi tərəfləri və məqsədləri, erməni millətçiliyinin Cənubi Qafqazda kök salması, zaman-zaman azərbaycanlıların deportasiya olunması arxiv sənədləri əsasında tədqiq olunaraq işıqlandırılmışdır. O, həmçinin erməni terrorist təşkilatlarının Türkiyədə, İranda, Qafqazda, o cümlədən də Azərbaycan, habelə indi Ermənistan adlanan Qərbi Azərbaycanda törətdikləri qırğın və talanlardan əvvəllər nəşr olunmamış elmi sənədlər əsasında geniş söhbət açır. Bu əsərin 1890-1917-ci illərdə baş vermiş hadisələrdən bəhs edilən hissəsində həmin müəllif "Daşnaksutyun", "Hnçak" kimi terrorçu təşkilatların yaranmasından və onların Azərbaycan xalqına qarşı törətdiyi əməlləri araşdırmış, həmin hadisələri XX əsrin 90-cı illərində baş verən hadisələrlə əlaqəli təhlil etmişdir. Adı çəkilən əsərin 1917-1924-cü illəri əhatə edən ikinci hissəsində mərhum tarixçi B.Nəcəfov ermənilərin vəhşi təbiətlərini göstərərək, onların Bakıda, Qarabağda, Zəngəzurda, Göyçə mahalında törətdikləri qanlı hadisələrdən ətraflı bəhs edir.

Azərbaycan türklərinə qarşı soyqırımı siyasəti tarix üzrə elmlər

doktoru, professor A.İsgəndərovun əsərlərində də geniş şəkildə öz əksini tapmış və bu hadisələr müqayisəli elmi təhlillərlə araşdırılmışdır [48].

1947-1953-cü illərdə azərbaycan türklərinin Ermənistan SSR-dən deportasiyası t.ü.f.d. Ə.Qurbanlının "Azərbaycan türklərinin Ermənistandan deportasiyası (1947-1953)" [56] əsərində geniş şəkildə işıqlandırılmışdır. Kitabda 1947-1953-cü illərdə Ermənistandan Azərbaycan türklərinin deportasiyasını doğurmuş səbəblər üzə çıxarılmış, baş verən proseslər tarixi hadisələr kontekstində ətraflı şəkildə nəzərdən keçirilmişdir.

XX əsrin axırlarında azərbaycanlıların soyqırımını əks etdirən elmi monoqrafiyalardan biri də İ.Vəlizadə və B.Muradovun "Ermənistan azərbaycanlılarının soyqırımı" [108] əsəridir. Bu əsərdə 1988-ci ildə Ermənistan SSR-də yaşayan azərbaycanlıların öz torpaqlarından vəhşicəsinə qovulması, törədilmiş qanlı cinayətlər faktlar əsasında, ardıcıllıqla təsvir olunmuşdur.

Uzun illər Ermənistanda rəhbər vəzifədə işləmiş Talıb Musayev ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş cinayətlərin canlı şahidi olmuşdur. Onun yazdığı "Ermənilər və faciələrimiz" [70] adlı kitabında ermənilərin azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlər, heç bir ölçüyə gəlməyən erməni şovinizmi, onun mahiyyəti, erməni nankorluğunun əsl mahiyyəti faktlar əsasında əks olunmuşdur.

Azərbaycanlıların soyqırımı haqqında fundamental tədqiqatlardan biri də Vaqif Abışovun "Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər)" [2] əsəridir. Monoqrafiyada Birinci Dünya müharibəsi dövründə Qərb dövlətləri və Rusiyanın köməyi ilə Osmanlı imperiyası və Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq xülyası ilə dinc əhaliyə qarşı amansız cinayətlər törədən ermənilərin cinayətkar əməlləri tutarlı arxiv sənədləri əsasında araşdırılmışdır.

Tədqiqat mövzusu kimi seçilmiş problemin araşdırılması baxımından azərbaycanlıların soyqırımı tarixi ilə bağlı ümumiləşmiş toplu əsərlərin də əhəmiyyəti böyükdür. Bu səpkili əsərlərdən biri də "Deportasiya" [30] toplusudur. Bu topluda XX əsrdə azərbaycanlılara qarşı planlı şəkildə həyata keçirilmiş deportasiya, soyqırımı

faktlarını əks etdirən çoxlu tarixi sənədlər, materiallar toplanmışdır.

Tarix üzrə elmlər doktoru Ataxan Paşayevin 2011-ci ildə nəşr etdirdiyi "XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında)" əsəri müxtəlif ilkin mənbələr, ilk növbədə də arxiv materialları əsasında yazılmış ən sanballı əsərlərdən biridir [86]. Müəllif bu əsərdə əvvəllər çar Rusiyası və bir sıra Avropa dövlətlərinin, sonralar isə bolşevik-kommunist rəhbərlərinin bilavasitə iştirakı və köməyi ilə şovinist erməni millətçilərinin xalqımıza qarşı törətdikləri soyqırım və vəhşilik faktları, xalqımızın öz qədim ata-baba yurdlarından deportasiya olunması və bu zaman soydaşlarımızın məruz qaldıqları işgəncə və məhrumiyyətləri təkzibedilməz arxiv sənədləri əsasında ətraflı işıqlandırılmışdır. Həmçinin onun digər tədqiqatlarında da XIX-XX əsrlərdə azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı və deportasiya siyasəti olduqca geniş şəkildə işıqlandırılmış və arxiv sənədləri ilə sübuta yetirilmişdir [85; 87].

Azərbaycan sovet tarixşünaslığında 1905-1906-ci illər hadisələri ilə bağlı yazılan ilk əsərlərdən biri Əhməd Əhmədova məxsusdur. Onun hələ 1926-cı ildə yazdığı "Azərbaycan türkləri 1905-ci il inqilabında" adlı əsərində 1905-1906-cı ildə baş verən hadisələr ətraflı şəkildə təsvir olunmuşdur [137].

XIX əsrin sonu – XX əsrin əvvəlləri Azərbaycan tarixinin tanınmış araşdırmaçılarından biri olan tarix elmlər doktoru İ.S.Bağırovanın "XX əsrin əvvəllərində Azərbaycanda siyasi partiyalar və təşkilatlar" əsəri həm də XX əsrin əvvəllərində Şimali Azərbaycanda siyasi vəziyyəti və erməni siyasi partiyaları olan "Hnçak" və "Daşnaksutyun"un terrorçu fəaliyyətini təhlil etməyə imkan verir [139].

XX əsrin əvvəllərində, xüsusilə də Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə Azərbaycanda baş vermiş siyasi hadisələri təhlil etmək baxımından tarix elmlər doktoru, professor C.P.Həsənlinin apardığı tədqiqatların əhəmiyyəti olduqca böyükdür. Onun əsərlərində 1918-1920-ci illərdə baş vermiş siyasi hadisələr, həmin dövrdə azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı

siyasəti, buna qarşı görülən tədbirlər və s. digər məsələlər işıqlandırılmışdır [41-42].

Tarix elmlər doktoru, professor M.C.Qasımlının "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920)" əsərində də ermənilərin Cənubi Qafqazda məskunlaşması, onların siyasi və terrorçu fəaliyyəti, əsrin əvvəllərində azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımlar ətraflı şəkildə təsvir olunmuşdur [52].

Mövzu araşdırılarkən K.N.İsmayılovun "Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920)" [50] və İ.V.Niftəliyevin "İrəvan quberniyasında azərbaycanlıların soyqırımı" [193] əsərlərindən də istifadə edilmişdir. Bu əsərlərdə erməni vandalizminin mahiyyəti, meydana gəlməsi və ermənilərin Azərbaycan türklərinə qarşı həyata keçirdiyi planlı terror hadisələri geniş şəkildə öz əksini tapmışdır.

XX əsrdə Göyçə mahalında yaşayan azərbaycanlıların deportasiyası və soyqırımı əcnəbi tarixşünaslığında da bu və ya digər formada işıqlandırılmışdır. Bu mövzuya həsr olunan əsərlərin bəzilərində daha çox qeyri-obyektivliyə yol verilsə də bəzi siyasi hadisələr və müəyyən tarixi faktlar obyektiv surətdə əks olunmuşdur.

Rus tarixçisi N.N.Şavrovun "Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам" [213] adlı əsərində XIX-XX əsrin əvvəllərində Cənubi Qafqazda baş vermiş siyasi hadisələr, ermənilərin bu ərazilərə kütləvi şəkildə köçürülməsi və Azərbaycanın tarixi torpaqları olan İrəvan, Naxçıvan, Qarabağ və digər ərazilərdə məskunlaşdırılması dolğun şəkildə əks olunmuşdur.

Digər rusdilli müəllif V.Veliçkonun "Qafqaz" əsəri də ermənilərin siyasi riyakarlığının, mənfur siyasi fəaliyyətinin təhlil olunması, 1905-1906-cı illərdə törədilmiş qırğınlar ərəfəsində Cənubi Qafqazın ictimai-siyasi vəziyyətini təhlil etmək baxımından ciddi əhəmiyyətə malikdir [143].

XIX əsrin sonu – XX əsrin əvvəllərində Osmanlı imperiyasında fəaliyyət göstərmiş rus konsulu V.Mayevski "Qafqazda erməni-müsəlman nifaqı erməni məsələsinin bir fazası kimi" əsərində Anadoluda və Cənubi Qafqazda baş vermiş hadisələrdə erməni-

qriqorian kilsəsinin və siyasi təşkilatlarının əsas rol oynadığını göstərmişdir [181].

ABŞ tədqiqatçısı Tadeuş Svyaxatovski özünün "Rusiya Azərbaycanı 1905-1920-ci illərdə" adlı əsərində o dövrdə baş vermiş hadisələri geniş şəkildə əks etdirmişdir [217, 145-158].

Castin və Karolin Makkartilərin yazdıqları "Türklər və ermənilər. Erməni məsələsinin əsasları" adlı kitabda [182] və Samuel Uimzin "Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri" adlı əsərində [106] də erməni siyasi təşkilatlarının 1905-1906-cı illərdə həyata keçirilən qırğınlarda birbaşa oynadığı rolu əks olunmuşdur.

Türk tarixçisi Kamran Gürünün "Erməni dosyesi" adlı [156] əsərində də erməni millətçilərinin siyasi fəaliyyəti, türklərə qarşı həyata keçirdikləri terror hadisələri və digər təxribatçılıq planları haqqında geniş məlumat verir.

Azərbaycanlıların etnik təmizləmə siyasətinə məruz qalması Qarabağlı Saleh Bəyin "Erməniçilik" ("Армянство") [152] əsərində də geniş şəkildə öz əksini tapmışdır. Bu əsərdə XIX əsrdə çar Rusiyasının Cənubi Qafqazda həyata keçirdiyi müstəmləkə siyasəti, ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsi, Rusiyanın "erməni dövləti" yaratmaq planları öz əksini tapmışdır.

Fransız tarixçisi Jorj de Malevil "1915-ci ilin erməni faciəsi" ("Армянская трагедия 1915 года") əsərində [159] qondarma erməni soyqırımı məsələsini araşdırmış, bu mifoloji təəssüratın yaradılmasının, onun ortaya atılmasının siyasi tərəflərini təhlil etmişdir.

XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş qırğınları obyektiv şəkildə tədqiq edən tarixçilərdən biri də N.Sarıahmetoğludur. Onun "Azeri-ermeni ilişkileri (1905-1920)" adlı əsəri o dövrdə baş vermiş hadisələri obyektiv təhlil etməyə imkan verir [128].

Türkiyədə çap olunmuş "Azerbaycan Belgelerinde Ermeni sorusu (1918-1920)" [113] əsərində qeyd olunan illərdə baş vermiş siyasi hadisələr, erməni vəhşiliyi, ermənilərin siyasi fəaliyyəti və digər riyakar planları faktlar əsasında araşdırılmışdır.

Tədqiqatın əsas məqsədi XX əsrdə tarixi Azərbaycan torpağı

olan Göyçə mahalında ermənilərin Azərbaycan türklərinə qarşı törətdikləri vəhşilikləri araşdırmaq, 1905-1907, 1918-1920, 1948-1953, 1960-1988 və 1989-1990-cı illərdə Azərbaycan xalqına qarşı yürüdülmüş soyqırımı, diskriminasiya və deportasiya siyasətini tədqiq edib əsl həqiqətləri üzə çıxarmaqdır. Bu başlıca məqsədə çatmaq üçün isə konkret olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsinə cəhd göstərilmişdir:

- Göyçə mahalının tarixi coğrafiyası və inzibati-ərazi bölgüsü mərhələlərinin qısa xülasəsini vermək;
- Çar Rusiyasının Şimali Azərbaycanı işğalından sonra Göyçə mahalında ermənilərin məskunlaşdırılması və demoqrafik vəziyyətin dəyişməsi prosesini araşdırmaq;
- Çarizmin bu köçürmə siyasətinin başlıca məqsədləri və mürtəce nəticələrini təhlil etmək;
- XX əsrin əvvəllərində Göyçə mahalının tarixi coğrafiyası və inzibati-ərazi bölgüsünü işıqlandırmaq;
- 1905-1920-ci illərdə Göyçə mahalında azərbaycanlıların ermənilər tərəfindən soyqırıma məruz qalmasını tədqiq etmək;
- 1948-1953-cü illərdə azərbaycanlıların deportasiyaya məruz qalması və bunun acı nəticələrini mötəbər qaynaqlar əsasında elmi cəhətdən dəyərləndirmək;
- 1960-1980-ci illərdə Göyçə mahalında erməni şovinizminin yenidən dirçəlməsi və azərbaycanlıların diskriminasiyası siyasətini müqayisəli şəkildə araşdırmaq;
- 1988-89-cu illərdə ermənilər tərəfindən azərbaycanlıların kütləvi şəkildə deportasiya edilməsi siyasətini tədqiq etmək, bu siyasətin məqsəd və nəticələrini qiymətləndirmək.

Əsərdə qarşıya qoyulan məsələləri tədqiq edərkən tarixilik prinsipinə əsaslanaraq mövcud fakt və hadisələrin müqayisəli təhlilinə üstünlük verilmiş, nəzəri yanaşma metodu əsas götürülmüş, dövrün demoqrafik məsələləri nəzərə alınaraq statistik yanaşma metoduna da əsaslanmışdır.

Monoqrafiya üzrə mövzu araşdırılarkən XX əsrdə Göyçə mahalında ermənilər tərəfindən azərbaycanlılara qarşı yürüdülmüş deportasiya və soyqırımı siyasətini özündə əks etdirən arxiv ma-

teriallları, statistik materiallar, rəsmi dövlət sənədləri, müxtəlif dillərdə olan bir sıra qaynaqlar tədqiqata cəlb olunmuşdur. Problemin mənbəşünaslıq bazası olduqca genişdir. Buraya Rusiyanın, Türkiyənin və Azərbaycanın arxivlərindən əldə edilmiş materiallardan tutmuş XIX-XX əsrin əvvəllərində nəşr olunmuş müxtəlif məcmuələrə, icmallara, mətbu orqanlarının məlumatlarına, hadisələrin müasirlərinin məlumatlarına və s. qədər geniş mənbələr daxildir.

Erməni vilayətinin xəzinə əmlakı və gəlirləri üzrə idarəsinin keçmiş sədri, Rusiya imperator dəftərxanasının əməkdaşı dövlət müşaviri İ.Şopen tərəfindən qələmə alınmış "Rusiya imperiyasına birləşdirilməsi dövründə Erməni vilayətinin vəziyyəti" adlı əsəri [216] Göyçə mahalına daxil olan ərazilərin XIX əsrdəki real vəziyyətinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Altı hissədən ibarət olan bu əsər Rusiya imperiyasının hegemonçuluq siyasətinə, müstəmləkəçilik mənafeyinə uyğun şəkildə yazılmış olsa da XIX əsrin əvvəllərində Göyçə mahalına aid olan ərazilərin də daxil olduğu İrəvan əyalətinin coğrafi və topoqrafik vəziyyəti (sərhədləri, dağları, su hövzələri, torpaqları və s.), siyasi vəziyyəti və inzibati bölgüsü, idarəçilik sistemi, əhalisinin say və sosial tərkibi, dini inancları, burada yerləşən məscid, monastır və kilsələr, bölgənin təbii sərvətləri, əhalisinin məşğuliyyəti, dövlət vergiləri və s. haqqında geniş məlumat əldə etməyə imkan verir.

Rusiya hakimiyyətinin ilk dövrlərində – XIX əsrin 30-40-cı illərində İrəvan əyaləti 4 dairədən – İrəvan, Şərur, Sürməli və Sərdarabad dairələrindən təşkil olunmuşdu. İrəvan dairəsinə Göyçə, Dərəçiçək, Qırxbulaq mahalları, Şərur dairəsinə Şərur, Gərnibasar, Vedibasar, Zəngibasar mahalları, Sürməli dairəsinə Sürməli, Dərəkənd-Parçenis mahalları, habelə Gərnibasar, Vedibasar mahallarının Araz çayının sağ sahilinə daxil olan əraziləri, Sərdarabad dairəsinə isə Səədli, Talın, Seyidli-Axsaxlı, Sərdarabad, Körpübasar, Abaran mahalları daxil idi [216, 447]. Şopen öz əsərində bəhs olunan dövrdə əyalətin əhalisinin ümumi sayının 115155 nəfərdən (20920 ailə) ibarət olduğunu bildirir. Onlardan türk-müsəlman əhalisi 49875 nəfər (9196 ailə), yerli ermənilər 20073 nəfər (3498 ailə), Qacarlar

imperiyasından köçürülən ermənilər 23568 (4559 ailə), Osmanlı imperiyasından köçürülən ermənilər isə 21639 nəfər (3674 ailə) təşkil edirdi [216, 635-638]. Bu dövrdə İrəvanda pravoslav və qriqorianlara aid 6 kilsənin (Pyotr və Pavel, Müqəddəs Yekaterina, Müqəddəs Sergey, Müqəddəs Georgi, Müqəddəs İohan, Müqəddəs Apostol Anania), müsəlmanlara aid 10 məscidin (Zalı xan, Novruzəli bəy, Sərtip xan, Hüseynəli xan, Hacı İmamverdi, Hacı Cəfərbəy və digər 4 məscid) olduğu bildirilir [216, 686-687]. Hər iki fakt sübut edir ki, XIX əsrin əvvəllərinə qədər Göyçə ətrafı ərazilərin əhalisinin mütləq çoxluğunu Azərbaycan türkləri təşkil edirdi. Göründüyü kimi, Rusiya işğalından sonra bölgəyə Qacar və Osmanlı imperiyasından çoxsaylı erməni ailələri köçürülmüş, əyalətin yararlı torpaqlarının xeyli hissəsi onların ixtiyarına verilmiş, azərbaycanlı əhali diskriminasiyaya məruz qalaraq bu ərazilərdən sıxışdırılmış və nəticədə etnik-demoqrafik vəziyyət tədricən ermənilərin xeyrinə dəyişmişdir. Məsələn, Qafqaza aid məlumatlar toplusunda İrəvan quberniyasında məskunlaşmış əhali haqqında verilmiş məlumatlardan bəlli olur ki, XIX əsrin 70-ci illərinin sonuna doğru quberniya əhalisinin ümumi sayı 538730 nəfər idi. Onlardan 11918 nəfər (2551 ailə) İrəvan şəhərində, 84174 nəfər (11457 ailə) İrəvan qəzasında, 83039 nəfər (11109 ailə) Eçmiədzin qəzasında, 58487 nəfəri (7630 ailə) Sürməli qəzasında, 51791 nəfər (6886 ailə) Şərur-Dərələyəz qəzasında, 19976 nəfər (3118 ailə) Aleksandropol şəhərində, 87639 nəfər (9943 ailə) Aleksandropol qəzasında, 5363 nəfəri (804 ailə) Yeni Bəyazid şəhərində, 67799 nəfər (7489 ailə) məskunlaşmışdı. Yerdə qalan əhali Naxçıvan və Ordubad qəzalarında yaşayırdılar [204, 86-87].

"Rusiya İmperiyası Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsinin xəbərləri" adlı illik məcmuələrdə XIX-XX əsrin əvvəlləri dövrü üçün Göyçə mahalı haqqında geniş məlumatlar əks olunmuşdur [161; 164; 165; 166]. A.Y.İoakimovun məcmuədə əks olunan məqaləsində göstərilir ki, Osmanlı imperiyasının Qars və Ərzurum vilayətlərindən köçürülən ermənilər tərəfindən 1829-cu ildə keçmiş Gümrü kəndinin yerində imperatriçə Aleksandra Fyodorovnanın şərəfinə Aleksandropol şəhər-qala inşa edildi [166, 1-2]. "1900-cü ildə Qafqazda

geodeziya və topoqrafiya işləri” adlı məqalədə İrəvan quberniyasının İrəvan və Yeni Bəyazid əyalətlərinə dair təsvirlər vardır. Həmin məlumatlarda Göyçə mahalında kəndlərin əksəriyyətinin erməni kəndləri olduğu, yalnız Məzrin düzünün cənub-şərq qurtaracağına doğru bir neçə türk-müsəlman kəndinin olduğu, torpağın münbitliyi və məhsuldarlığı sayəsində bu ərazilərdə əhalinin kifayət qədər varlı yaşadığı, bölgəyə Osmanlı imperiyasından çoxlu erməni ailələrin köçürüldüyü bildirilir [165, 210-211]. Bu isə onu göstərir ki, cəmi bir neçə on il ərzində çar hökumətinin etnik təmizləmə siyasəti öz bəhrəsini vermiş və bu ərazilərdə yaşayan azərbaycanlılar öz yurdlarından didərgin salınmışlar.

Məcmuədə diqqətçəkən maraqlı məlumatlardan biri Göyçə gölünün adının necə yaranması haqda xalq arasında gəzən deyimdir. Guya bir gün hökmdar Teymur Məlik Mənüçöhrdən var-dövlətinin nə qədər olduğunu soruşur. O da cavabında bildirir ki, “hökmdar sağ olsun, mənim var-dövlətim o qədər çoxdur ki, bütün Məzrin düzünü (Göyçə ətrafı torpaqları) kətan yağı ilə suvara bilərəm”. Bunu eşidən Teymur heyrətlə “çox gözəl (çox göyçək)” deyə qışqırır və elə o zamandan da Yeni Bəyaziddəki göl ətrafları ilə birgə Göyçə adlanır (164, 80-81).

Məcmuənin 1898-ci ildəki nəşrində Alagöz yaylağı və Araz çayı arasındakı torpaqları əhatə edən Göyçə mahalında yaşayan əhalinin etnik tərkibinə toxunulur: “Bu ərazinin əhalisi etnik tərkibinə görə çox müxtəlifdir. Cənub-qərbdə əksərən ruslar (pravoslavlar, molokanlar, duxoborlar) və ermənilər, şimal-şərqdə ermənilər, gürcülər, yunanlar və türklər (azərbaycanlılar – B.Ə.) yaşayırlar. Ruslar taxılçılıq, bağçılıq, çarvadarlıqla, digər əhali qrupları isə əvvəlki kimi əkinçilik və bağçılıqla məşğul olur” (164, 48).

Cənubi Qafqaz Statistika Komitəsinin nəşr etdirdiyi əsərlərində komitə sədri general-leytenant A.A.Frezenin tapşırığı əsasında İrəvan quberniyasının İrəvan və Yeni Bəyazid qəzalarında yerləşən xəzinə, mülkədar, monastır-kilsə və məscid torpaqları, habelə mülk və tiyul torpaqları, mübahisəli torpaqlar haqqında məlumatlar tərtib olunub [160] çap edilmişdir.

Qafqazın mülki işlər üzrə rəisi general-adyutant knyaz Dondu-

kov-Korsakovun tapşırığı əsasında E.Veydenbaum tərəfindən hazırlanan Qafqaza dair soraq kitabçasında Qafqaz vilayətinin sərhədləri, məkan və inzibati bölgüsü, oroqrafiyası (iqlim və relyef xüsusiyyətləri), hidroqrafiyası, dəniz, göl və çayları, irriqasiya sistemləri, əhalisinin sosial və etnik tərkibi nəzərdən keçirilib [142]. Kitabçada əks olunan məlumatlara görə, Qafqaz diyarında ermənilər əsasən İrəvan quberniyasında məskunlaşmışdılar və burada onlar əhalinin 52%-ə qədərini təşkil edirdilər. Lakin, bununla yanaşı həmin müəllif onu da təsdiq edirdi ki, "heç də bütün Qafqaz erməniləri buranın yerli əhalisi deyil. Rusiya hakimiyyətinin himayəsi ilə bir neçə dəfə Türkiyə və İran ərazisindən buraya erməni ailələri köçürülmüşdür. 1828-ci ildə İranla müharibə başa çatdıqdan dərhal sonra bu əraziyə 40 000 erməni köçürülmüşdü. Hökumətin himayəsi ilə əllərində böyük kapital cəmləşdirən ermənilər vilayətin bütün ticarət və sənayesini inhisara alaraq əkinçi əhalini iqtisadi asılılıqda saxlayırlar" [142, 78].

Cənubi Qafqaz diyarı xəzinə kəndlilərinin iqtisadi vəziyyətini öyrənmək üçün tərtib olunmuş toplularda bütövlükdə İrəvan quberniyası əhalisinin sayı, əhalinin dini tərkibi, torpaq təminatı, xəzinəyə məxsus meşə torpaqları, yaylaq və qışlaqlar, əhalinin ödədiyi torpaq töycüsü, ev heyvanlarının sayı və s. məsələlərə toxunulub.

Problemin işıqlandırılmasında mühüm rola malik olan mənbələrdən biri də İrəvan quberniyasının müxtəlif illərə aid olan "İcmal"larıdır [194-197]. Bu icmallarda quberniya əhalisinin məşğuliyyət sahələri – əkinçilik, maldarlıq, üzümçülük, arıçılıq, ipəkçilik, dağ-mədən sənayesi, ticarəti, habelə veterinar-sanitar vəziyyəti, fabrik və zavodların sayı, dövlət vergilərinin miqdarı və vergilərin qəzalar və şəhərlər üzrə bölgüsü haqqında dəqiq statistik rəqəmlər əks olunub.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Göyçə mahalının sosial həyatı və demoqrafik vəziyyətini araşdırarkən ən qiymətli mənbələrdən biri müxtəlif illərdə tərtib edilmiş "Qafqaz təqvimi"ndə əks olunan məlumatlardır. Bu "Təqvimlərdə" XIX-XX əsrin əvvəllərində İrəvan quberniyasının əhalisi, inzibati ərazi bölgüsü, dini və etnik tərkibi və digər rəsmi məlumatlar təsvir olunmuşdur [170-174].

Araşdırmalar aparılarkən tarix elmlər doktoru A.Ə.Paşayevin redaktəsi ilə işıq üzü görmüş "Azərbaycanlıların Ermənistan SSRİ-dən deportasiyası (1948-1953-cü illər)" adlı sənədlər toplusunun böyük əhəmiyyəti olmuşdur. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi tərəfindən nəşrə hazırlanmış bu sənədlər toplusunda 1948-1953-cü illərdə sovet-bolşevik Rusiyası və ermənilər tərəfindən azərbaycanlıların başına gətirilmiş müsibətlər rəsmi sənədlər (322 sənəd) əsasında verilmişdir [25].

Rusiya Dövlət Tarix Arxivi və Rusiya Dövlət Hərbi Tarix Arxivində saxlanılan və AMEA Tarix İnstitutunun əməkdaşları tərəfindən Bakıya gətirilərək 2010-2012-ci illərdə üç cilddə nəşr edilən üç yüzə yaxın rəsmi sənəd çar Rusiyasının XIX əsrin sonu – XX əsrin əvvəllərində Cənubi Qafqazda yeritdiyi siyasət və erməni şovinizminin iç üzünü açmaq baxımından çox qiymətli qaynaqlardır [13-17].

Mövzu araşdırılarkən M.Bağırov və H.Verdiyevanın müəllifliyi ilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivindən toplanmış sənədlərin cəmləşdirildiyi "Həqiqət axtarışında... Erməniliyin sifəti" adlı əsərində təqdim olunan rəsmi materiallardan da istifadə edilmişdir [138].

XX əsrin əvvəllərində nəşr olunan dövri mətbuat da ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınları işıqlandırmaq baxımından mühüm rol oynayır. O dövrdə Ə.Hüseynzadə və Ə.Ağayevin redaktorluğu ilə nəşr olunan "Həyat" qəzetinin demək olar ki, bütün nömrələrində Bakı, İrəvan, Naxçıvan, Şuşa və s. kimi azərbaycanlıların yaşadıqları ərazilərdə törədilən erməni vəhşilikləri haqqında adı çəkilən bölgələrdən qəzet müxbirlərinin göndərdikləri məlumatlar çap olunub [45].

Ə.Ağayevin "Həyat" qəzetində nəşr olunmuş məqalələrindən birində ermənilərin müsəlman millətinə yağdırdığı böhtanlardan bəhs edilir. Ermənilərin uydurmalarına görə guya müsəlmanlar ermənilərin boynunda bir yük olaraq onları geri, cəhalətə çəkir, inkişaf etməyə qoymur. Müəllif bütün bunların böhtan olduğunu söyləyərək göstərirdi ki, bir çox illər ermənilər daim gürcülərin, müsəlmanların tərəqqi və inkişaf etməsini istəməmişlər, çünki onlar

özləri Qafqazda ağalıq etmək iddiasındadırlar. Buna görə onlar "Həyat" qəzetinin nəşrini hay-küylə qarşıladılar. "Tiflisskiy listok" və "Mşak" qəzetləri hay-küy salaraq yazırdılar ki, "Həyat" qəzeti islamlaşdırmaq siyasəti aparır. Bununla onlar millətimizi rus hökumətinin gözündən salmaq siyasəti yeridirdilər. "Mşak" son nömrələrinin birində yenə bir iftira söyləyir: "Guya neçə gündür Qarabağ müsəlmanları ermənilərlə ona görə vuruşur ki, Ə.Ağayev bu günlərdə Şuşada olmuş və müsəlmanları ermənilərə qarşı qətliamlara təhrik etmişdir" [4].

1918-1920-ci illərdə nəşr olunmuş "Azərbaycan" qəzetində də İrəvan müsəlmanlarının soyqırımı ilə əlaqədar bir çox materialları dərc edilmişdir [145-151]. Qəzetin məlumatlarına görə Ararat Respublikasının qoşunları Yeni Bəyazid qəzasının Göyçə mahalındakı müsəlman kəndləri üzərinə hücum etmişlər. Onların məqsədi türk-müsəlman əhalini həmin ərazidən qovub çıxartmaq olmuşdur. Ermənilərin hücumları nəticəsində bölgənin 60 mindən çox əhalisi olan 22 kəndi dağıdılmış və yandırılmışdır [149].

Qəzet həmin faciə barədə ətraflı məlumat verərək ürək ağrısıyla bildirirdi: "...bədbəxt müsəlman əhalisi erməni qoşunlarının top atəşi altında amansızcasına öldürülür. Erməni hökuməti öz müsəlman təbəələrinin heç bir xahişinə, yalvarışına baxmayaraq vəhşicəsinə onları qırır. Erməni qoşunlarının əlinə keçən müsəlmanlara daha ağır işgəncələr verilir, uşaqları, qadınları və qocaları ağlasığmaz işgəncələrlə öldürür, cavan qadınlara və qız uşaqlarına isə dəyməyib əsir götürürlər. Erməni quldurları qırğından xilas olub qaçan müsəlman əhalisini izləyib öldürürdü. Göyçə qırğınından xilas olan əhalinin bir qismi Gəncə qəzasının ərazisinə pənah gətirir, başlarına açılan soyqırımını danışırdılar" [149].

Qafqaz, o cümlədən Azərbaycan tarixinə dair çox qiymətli məlumatlarla zəngin "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları" adlı çoxcildlik topluda da XIX əsrdə Göyçə mahalında baş vermiş ictimai-siyasi proseslər, ermənilərin bölgənin müsəlman əhalisinə qarşı törətdikləri cinayətlər haqqında müəyyən məlumatlar əldə etmək mümkündür [134].

İrəvan quberniyasının statistik komitəsinin nəşr etdirdiyi "İrəvan

quberniyasının yaddaş kitabçası”nda İrəvan quberniyasına, o cümlədən Göyçə mahalına daxil olan ərazilərin inzibati idarəetmə sistemi, kənd əhalisinin sosial-iqtisadi vəziyyəti, quberniya üzrə əhalinin siyahısı və milli yerləşmə xüsusiyyətləri və qəza kəndlərinin idarəçilik sistemi haqqında, tədqiqatımız üçün olduqca əhəmiyyətli məlumatlar vardır [168].

Tədqiq olunan mövzunun müxtəlif tərəfləri və istiqamətləri ilə bağlı istər Vətən tarixşünaslığında, qismən də əcnəbi tarixşünaslıqda geniş tədqiqatlar aparılsa da, lakin XX əsrdə Göyçə mahalı azərbaycanlılarına qarşı deportasiyalar və soyqırımları ilk dəfə olaraq bütöv halda monoqrafiya kimi kompleks halda məhz bizim əsərdə tədqiq edilmişdir. Burada ilk dəfə olaraq azərbaycanlıların Qərbi Azərbaycan ərazilərindən – qədim türk yurdundan deportasiya olunmasının və bu zaman soyqırıma məruz qalmalarının kökündə duran ermənilərin rusların havadarlığından istifadə edərək həyata keçirmək istədikləri məkrli planları haqqında da ətraflı araşdırmalar aparılmışdır. XX əsrdə Göyçə mahalı azərbaycanlılarına qarşı deportasiyalar və soyqırımları mövzusunu tədqiq edərkən bir sıra yeni müddəalar irəli sürülmüş, elmi vəzifələr həll olunmuşdur:

- Çar Rusiyasının Şimali Azərbaycanı işğalından sonra Göyçə mahalında ermənilərin məskunlaşdırılması və demoqrafik vəziyyətin dəyişməsi prosesi araşdırılmışdır;
- Göyçə mahalının tarixi coğrafiyası və XX əsrin əvvəllərində inzibati-ərazi bölgüsü, bu bölgünün tədqiq olunan dövrdə təkamülü elmi faktlar əsasında tədqiq edilmişdir;
- 1905-1920-ci illərdə Göyçə mahalında azərbaycanlıların ermənilər tərəfindən qətliama və soyqırıma məruz qalması elmi cəhətdən əsaslandırılmışdır;
- 1948-1953-cü illərdə azərbaycanlıların deportasiyaya məruz qalması və bunun acı nəticələri mötəbər qaynaqlar əsasında işıqlandırılmışdır;
- 1960-1980-ci illərdə Göyçə mahalında erməni şovinizminin yenidən dirçəlməsi və azərbaycanlıların diskriminasiyası siyasəti müqayisəli şəkildə araşdırılmış, bu dövrdə ermənilər tərəfindən azərbaycanlıların kütləvi şəkildə deportasiya siyasəti tədqiq edilərək

qiymətləndirilmişdir.

Azərbaycan tarixşünaslığında Göyçə mahalında yaşamış azərbaycanlıların çar Rusiyasının, sonra isə bolşeviklərin bilavasitə maddi və hərbi dəstəyi ilə ermənilər tərəfindən XX əsrdə deportasiyası və soyqırımı haqqında ayrı-ayrı tədqiqat işlərində, elmi məqalələrdə, şahidlərin xatirələrində və kütləvi-informasiya vasitələrində müəyyən fikirlər söylənilsə də göstərilən məsələlər təqdim olunan monoqrafiyada ilk dəfə xüsusi araşdırma mövzusu kimi tədqiqata cəlb edilmişdir. Bu da adı çəkilən mövzunun öyrənilməsi sahəsində prinsipial əhəmiyyətə malik bir addım sayıla bilər. Tədqiq olunan bu məsələlərin əksəriyyəti Azərbaycan tarixşünaslığında ilk dəfə araşdırıldığından bu tədqiqatın nəticələri, ümumiyyətlə deportasiya və soyqırımı tarixinin öyrənilməsinə həsr edilmiş gələcək elmi-tədqiqat işləri zamanı müəyyən əhəmiyyət daşıya bilər.

Əsərdə XX əsrdə Göyçə mahalı azərbaycanlılarına qarşı deportasiyalar və soyqırımları tarixi mənbələr, statistik materiallar, arxiv materialları və digər mənbələr əsasında çox sadə dildə izah edilir. Burada tədqiq olunan məsələlərin nəticələrindən Azərbaycan türklərinin Qərbi Azərbaycanın başqa bölgələrində deportasiyası və soyqırımının tədqiqində bir mənbə kimi istifadə edilə bilər.

Monoqrafiyanın materiallarından həmçinin ali məktəblərdə deportasiya və soyqırımı mövzusunda mühazirə və fakültativ kurslarda istifadə oluna bilər. Tədqiqatın praktik əhəmiyyəti həm də ondan ibarətdir ki, onun nəticələri ali təhsil müəssisələri üçün Azərbaycan türklərinin deportasiya və soyqırımına dair dərsliklərin və dərs vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər.

Təqdim olunan əsər giriş, üç fəsil, altı yarımfəsil, nəticə, istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir.

# I FƏSİL

## GÖYÇƏ MAHALININ TARİXİ COĞRAFİYASI, İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ, SOSİAL-DEMOQRAFİK VƏZİYYƏTİ

### 1.1. Göyçə mahalının tarixi coğrafiyası və inzibati-ərazi bölgüsü

Göyçə mahalı Azərbaycanın ən qədim tarixə malik ərazilərindən biri olmaqla tarixən Azərbaycan xalqının təşəkkül tapdığı vahid və nəhəng areala daxildir. Qədim zamanlardan bu ərazilərdə yaşayan avtoxton əhali dil, maddi və mənəvi mədəniyyət, iqtisadi həyat şərtləri, ənənəvi təsərrüfat sahələrinin xüsusiyyətləri baxımından Azərbaycanın digər ərazilərində yaşayan əhali ilə mənşə birliyinə malik olmuş və xalqımızın çoxəsrlik tarixi ənənələrinin formalaşmasında mühüm rol oynamışdır. Həmin ərazidə mövcud olan türk mənşəli toponim, etnonim, etnotoponim, antroponim, hidronim, oronim və s. onomastik vahidlər, erkən orta əsrlərə aid oğuz qəbiristanlıqlarının qalıqları, X-XII əsrlərə və daha əvvələ aid alban kilsələri, qoçbaşı heykəllər, çoxəsrlik tarixə malik qalalar və s. bunu sübut edən çoxsaylı faktlara misal olaraq göstərilə bilər.

Tarixən türk tayfalarının yaşadığı Göyçə mahalında hələ e.ə. VIII-VII əsrlərdən başlayaraq Qara dəniz bölgəsində yaşayan türk mənşəli kimmer, iskit, sak tayfalarının axını və məskunlaşması prosesi başlamışdır. Müxtəlif türk tayfalarının buraya köç prosesi XI – XII əsrlərə və sonralaradək davam etmişdir. Müxtəlif dövrlərdə bu bölgəyə türk tayfaları olan kimmer, sak, quqar, şirak, katak, peçeneq, oğuz tayfalarının gəlişi nəticəsində yerli türk əhalisinin demoqrafik və etnik mövqeyi daha da güclənmişdir.

Orta əsrlər dövründə də bu bölgənin Azərbaycan türklərinin tarixi Vətəninin bir hissəsi olması haqqında qaynaqlarda təkzib olunmaz məlumatlar mövcuddur.

Oğuz türklərinin böyük tarixi və ədəbi ensiklopediyası olan "Kitabi Dədə Qorqud" dastanında Göyçə mahalı haqqında geniş məlumatlar verilmiş, bu bölgə Oğuz türklərinin vətəni kimi təsvir

olunmuşdur. Bu bölgədə olan bir çox toponimlər dastanda verilən toponim və şəxs adları ilə eyniyyət təşkil edir. Göyçə mahalında ən qədim yaşayış məskənlərindən olan Babacan kəndinin toponim və antroponim (ad bildirən) üzrə yanaşmalarda tarixinə baxsaq bu ad "Kitabi Dədə Qorqud" dastanında Baybecan adı çəkilən oğuz igidlərindən birinin adı ilə bağlı olduğunu görə bilərik.

Eyni zamanda "Kitabi-Dədə Qorqud" dastanında Göyçə gölü çevrəsini əhatə edən Göyçə mahalı, Göyçə gölü, Ağlağan dağı, Ayğır bulağı kimi toponimlər azərbaycanlıların qədim yaddaşının və mədəniyyətinin izidir.

Akademik Y.M.Mahmudovun "Azərbaycan: qısa dövlətçilik tarixi" adlı kitabında Oğuz xaqan haqqında verdiyi məlumatda qeyd edir: "Başqa ilk mənbələrlə yanaşı, Oğuz türklərindən olan ağqoyunluların ən qüdrətli hökmdarı Uzun Həsənin (1453-1478) hökmü ilə Əbu Bəkr əl-Tehrani əl-İsfahaninin yazdığı "Kitabi-Diyar-bəkriyyə" adlanan oğuznamədə verilən faktlar da oğuz türklərinin, o cümlədən xalqımızın soykökündə duran ağqoyunlu və qara-qoyunluların Azərbaycanın, həmçinin bütövlükdə Cənubi Qafqazın və Ön Asiyanın ən qədim sakinlərindən biri olduğunu sübut edir. Göstərilən müəllif Uzun Həsənin böyük babası-Ağqoyunlu dövlətinin banisi Qara Yuluk Osman bəyin nəsil şəcərəsini bir-bir araşdıraraq, nəhayət, Oğuz xaqana çatdırır. Oğuz xaqanın başçılıq etdiyi böyük türk dövlətinin tərkibinə daxil olan əraziləri sadalayır və bütün oğuz türklərinin kökündə duran bu böyük hökmdarın, yəni Oğuz xaqanın Göyçə dənizi ətrafında vəfat etdiyini göstərir. Azərbaycanın Oğuz xaqanın başçılıq etdiyi dövlətin tərkibinə daxil olması və böyük xaqanın özünün də burada-Göyçə dənizi ətrafında vəfat etməsi faktı bu diyarın ən qədim oğuz-türk məskənlərindən biri olduğunu sübut edir. "Kitabi-Diyarbəkriyyə"nin müəllifi Oğuzun nəvəsi xanlar xanı Bayandır xaqanın da "Qarabağ qışlağı və Göyçə dənizi yaylaqlarında ömür sürdüyünü", burada "böyük bir qurultay çağırıb, məmləkəti oğlanları arasında qabiliyyətlərinə görə bölüşdü-rüldükdən sonra Allahın dəvətini qəbul etdiyini" yazır. Əbu Bəkr əl-Tehrani əl-İsfahani təsdiq edirdi ki, ağqoyunlu Qara Yuluk Osman bəyin 20-ci babası Sunqur bəy Məhəmməd peyğəmbərin müasiri idi.

O, Alagöz və Göyçə dənizi yaylaqları tərəfdəki sərhədlərdə "kafirlərlə müharibə etmiş" və döyüşlərdən birində həlak olmuşdu. Qara Yuluk Osman bəyin 14-cü babası Şəktur xan isə Əlincə qalası uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş, onu "kafirlərin" əlindən geri almışdı. Xəlifə Harun ər-Rəşidin müasiri olan Qıpçaq xan da Əlincə qalası uğrunda "kafirlər"lə müharibələr aparmış, onları məğlubiyyətə uğradaraq qalanı azad etmişdi" [58, 135].

Göyçə mahalı ərazisi türk mənşəli Sacilərin, sonra Salari və Rəvvadilərin, Səlcuq İmperiyasının, Atabəylər, Hülakü və nəhayət XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətləri, sonralar isə Səfəvi dövlətinin tərkibində olub.

Qaraqoyunlu və Ağqoyunlu dövlətləri dövründə Çuxursəd vilayətinin tərkibində olan Göyçə mahalı, Səfəvi dövləti dövründə 13 bəylərbəyilikdən biri olan Çuxursəd bəylərbəyiliyinin inzibati-ərazi vahidlərindən biri olmuşdur.

Qaraqoyunluların hakimiyyətinin ilk dövrlərində Çuxursəd vilayətini Sədlilər sülaləsi idarə edirdi. Lakin Qaraqoyunlu hökmdarı İsgəndərin dövründə Sədli tayfasının nümayəndələri idarəçilikdən uzaqlaşdırılmış və Çuxursədin idarəçiliyi birbaşa mərkəzi hakimiyyətə tabe edilmişdir [47, 38-39].

Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyəti dövründə Çuxursəd bəylərbəyiliyini səfəvi şahlarının təyin etdikləri iki Azərbaycan türk tayfasının – ustaclı və rumlu tayfalarının nümayəndələri idarə edirdi [47, 40].

Çuxursəd bəylərbəyiliyinin Həsən bəy Rumlunun "Əhsən-üt təvarix" əsərində 1538-ci ildə xatırlanan ilk bəylərbəyi Bədir xan Ustaclı olmuşdur. 1554-cü ildə Osmanlı sultan Süleyman Qanuni İrəvana hücum edərkən Hüseyn xan Rumlu Çuxursəd bəylərbəyi idi [200, 121-122].

Uzunmüddətli Səfəvi-Osmanlı müharibələri dövründə strateji cəhətdən böyük əhəmiyyət kəsb edən bu bölgə ciddi dağıntılara məruz qalmışdı. Nəhayət, 1590-cı il İstanbul sülh müqaviləsinə görə, Çuxursəd bəylərbəyiliyinin ərazisi Osmanlı imperiyasının tabeliyinə keçdi [3, 18].

1590-cı ildə Osmanlılar tərəfindən tərtib olunmuş "Müfəssəl dəftər"ə görə Çuxursəd bəylərbəyiliyinin ərazisi iki livaya – İrəvan

və Naxçıvan livalarına bölünmüşdür. XVII əsrdə baş verən Səfəvi – Osmanlı müharibələri nəticəsində, 1635-1639-cu illərdə Çuxursəd bəylərbəyiliyinin ərazisinin təqribən yarısı Osmanlı imperiyasının tabeliyinə keçdi. XIV-XVI əsrlərdə ona məxsus ərazilərin yalnız İrəvan və Şərqi Şörəyil bəylərbəyiliyin əlində qaldı [46, 8-9].

XVII əsrin 30-cu illərindən XVIII əsrin 20-ci illərinə qədər olan dövrdə Çuxursəd bəylərbəyiliyi İrəvan, Şərqi Şörəyel, Naxçıvan və Maku əyalətlərini əhatə edirdi [47, 42].

XVIII əsrin 20-ci illərində Səfəvi dövlətinin siyasi böhran dövründən istifadə edən Rusiya və Osmanlı imperiyası Cənubi Qafqaza – Səfəvi dövlətinin şimal bölgələrinə hərbi müdaxiləyə başladılar. 1724-cü ildə bağlanan Rusiya-Osmanlı birgə müqaviləsinə görə, Səfəvi dövlətinin şimal bölgələri tərəflər arasında nüfuz dairələrinə bölüşdürüldü. Bu müqavilədən sonra Azərbaycanın digər əraziləri ilə yanaşı, Çuxursəd bəylərbəyiliyinin əraziləri də müharibə meydanına çevrildi.

1724-cü ilin yazında 60 minlik Osmanlı qoşunu Əhməd paşanın komandanlığı altında İrəvana doğru hərəkətə keçdi. Çuxursəd əhalisi bəylərbəyi Əliqulu xanın rəhbərliyi ilə ciddi müqavimət göstərsə də, çoxsaylı Osmanlı qoşunlarının təzyiqi, əlavə hərbi kömək və müntəzəm top atəşi nəticəsində 92 günlük qəhrəmancasına müdafiədən sonra İrəvan qalası böyük çətinliklə osmanlılar tərəfindən ələ keçirildi. İrəvan qalasının mühasirəsi zamanı fitnəkar erməni katolikosu həmədanlı I Astvasaturunun irəvanlılara xəyanət edərək osmanlılara yardım etdiyi üçün, osmanlı paşası ona hədiyyələr vermiş və böyük ehtiram göstərmişdir [47, 46].

Lakin tezliklə böyük Azərbaycan sərkərdəsi Nadir rus və osmanlı qoşunlarını Azərbaycandan qovmuş və Azərbaycan Səfəvi dövlətinin süqutundan sonra bu bölgə Əfşarlar imperiyasının hüdudları daxilində Azərbaycan vilayətinin tərkibində olmuşdur.

Nadir şahın ölümündən sonra (1747-ci il) Göyçə mahalı çevrəsində İrəvan xanlığı yaranmışdır. İrəvan xanlığı faktiki olaraq Çuxursəd bəylərbəyiliyi əsasında təşəkkül tapmışdı. Nadir şah qətlə yetirildikdə İrəvan bəylərbəyi Pir Mahmud xan hakimiyyəti əldən verməməyə cəhd göstərmişdisə də, İrəvanda əfşarlar ağalığına qarşı üsyana başçılıq edən yerli feodal Mirmehdi xan özünü xan elan

edərək, müstəqil İrəvan xanlığının əsasını qoymuşdu (1747-1827).

Lakin İrəvan xanlığı keçmiş bəylərbəyiliyin bütün ərazisini əhatə edə bilmədi. Onun bir hissəsi Naxçıvan və digər xanlıqların tərkibinə daxil edildi. İrəvan xanlığı Azərbaycanın qərbində Göyçə gölü ətrafında yerləşmiş və 15 mahaldan ibarət idi: Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçenis, Səədli, Talın, Seyidli-Axsaxlı, Sərdarabad, Karpibasar, Abaran, Dərəçiçək və Göyçə. Xanlığın mərkəzi İrəvan şəhəri idi.

Tarixşünaslıqda Göyçə adının etimologiyası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Əksər alimlərin fikrincə, bu ad hidronimdir və Göyçə gölünün adından götürülmüşdür. “Göyçay” sözünün tədricən dəyişilərək Göyçə formasına düşməsi əsasında əmələ gəlmişdir. Gölün suyunun rəngi göy (təmiz, duru) olduğu üçün Göyçay adlandırılmışdır. “Kitabi-Dədə-Qorqud” dastanlarında Göyçə gölünün adı Göyçə dəniz, Gökcə dəniz, Gökçe dəniz formalarında qeyd edilmişdir [28, 433]

Orta əsr Azərbaycan tarixçisi İsgəndər bəy Münşi Türkmanın “Tarixe-aləmaraye-Abbasi” əsərində də Göyçə gölü haqqında olduqca maraqlı məlumatlar vardır. Bu əsərdə gölün adı Gökcə (Göyçə) dənizi və ya Gökcə Təngiz kimi verilmişdir [75, 1201-1205, 1299, 1654].

İsgəndər bəy Münşi öz əsərində Göyçə dənizinin təbiəti haqqında yazırdı: “... Təbiətin paklıq və xürrəmilik vaxtı olan bahar günlərində əlahəzrət zilləlah şah (I Şah Abbas – B.Ə.) havasının lətafəti, suyunun bolluğu, gül-çiçəyinin çoxluğu, çay və bulaqlarının göz oxşaması ilə göz oxşayan və cənnət gülzarına bənzəyən Göyçə dəniz yaylağında işrətlə məşğul olub ov edirdi” [75, 1204].

Səfəvi dövrünün Anonim müəllifi “Tarix-i aləmara-yi Səfəvi” əsərində də bu gölün adını “Göyçə dəryası” adlandıraraq yazırdı: “İsmayıl (Səfəvi – B.Ə.) Ərdəbildən “Göyçə dəryası” kənarına getmək, oradan isə Şərqi Anadoluya keçmək fikrində idi” [68, 124].

Erməni və rus mənbələrində bu göl Göyçay (Sinaya voda), Sevank, Qeqam, Qeqarkuni formasında qeyd edilir [216, 395-396]. Rus işğalından sonra məkrli siyasətini davam etdirən ermənilər Göyçə gölünün adını dəyişdirib Sevank (Qarakilsə) qoymuşlar. Bu

ərazidə qədim albanlar tərəfindən qara daşdan tikilmiş kilsə mövcuddur və Göyçə adının Sevank adlandırılması da bununla əlaqədardır. Bu yolla ermənilər ərazinin tarixi adını saxtalaşdırmaq məqsədi güdmüşlər. Bir çox müəlliflərə görə isə qədim erməni mənbələrində ümumiyyətlə Sevan adına rast gəlinmir. Bu ad Urartu dilindən erməni dilinə keçmiş sue – "su" sözündəndir. Əslində Göyçə gölünün Sevan adlandırılması 1930-cu ilə aiddir [54, 37]. Göyçə adının əmələ gəlməsini "gözəl", "göyçək" termini ilə əlaqələndirən bir xalq deyimi də var. Guya Əmir Teymur bu ərazilərə yürüş etdiyi vaxt Məlik Mənüçöhrdən sərvətinin nə qədər olduğunu soruşub. Cavabında Mənüçöhr "Sayənizdə o qədər sərvətim var ki, bütün Məzrin düzünü kətan yağı ilə suvararam" deyə cavab verdikdə, Əmir Teymur heyrətlə "Çox göyçək" (Çox gözəl) – deyə qışqırıb. Elə o vaxtdan da bu göl Göyçə adlanıb [164, 81-82].

Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutunun nəşrində Göyçə gölünün izahı ilə bağlı maraqlı məlumat verilir: "Bu gün Sevan gölü kimi 1930-cu ildən rəsmi ad daşıyan Göyçə dağ gölüdür. Onu Göyəm, Şahdağ, Pəmbək, Basarkeçər dağları əhatə edir (qeyd: ermənilər tərəfindən bu dağlar Geğam, Sevan dağları, Bambak, Vardenis adları ilə əvəzlənib). Ermənistanda tarixi Göyçə vilayəti adını və Dədəm Qorqud dastanlarında "Gökçə dəniz" kimi adı çəkilən Göyçə gölü adları dəyişdirildi. Bu ada Türkiyənin Adana bölgəsində Həmid Göyçəli kəndi (yazıçı Yaşar Kamal burada doğulmuşdur), Kökçeler (Trakyada kənd), Şərqi Anadoluda Kökçeli (Qars vilayəti), Kökçeli (Maraşda), Aşqabad vilayətində (Türkmənistan) Göyçə kəndi, yurdumuzda Göyçəli şəklində Qazax rayonunun kənd adlarında yaşamaqdadır. Adın tarixi taleyi çox qədimdir; Kara Göyçe indi Orconikidze (Türkmənistanda), Kökçe (Tatarıstanda), Molla Göyçə (Ermənistanda), Kökçe (Qaraqalpaqda tarixi məzarlıq – Kökçe dağının 6-7 km-liyində) eramızdan əvvəl XII-XI əsrlərə aid Tunc dövrü ilə səsləşən bir addır. Çox şübhəsiz Göyçə adı yerin çayır-çəmən örtüyünə görə, bir sözlə, xoş mənzərəsinə görə verilən adlardandır. Bu ada Əfqanıstanın möhkəm qat təşkil edən türk yer adları sırasında-Kökçe çay (Toxar vil.), Kökçe kənd (Herat vilayəti) adına rast gəlinir" [105, 73]

Topoqrafik cəhətdən Göyçə mahalı əsasən dağlıq ərazidir. Pəmbək, Əlibəy, Ağmanqan, Güneydağ, Alagöllərin başı dağ silsilələrindən ayrılan çıxıntılar Göyçə hövzəsinin demək olar ki, əsas hissəsini təşkil edir. Bölgənin ən mühüm dağ zirvələrini Pəmbək dağında Maymak (10170 fut*), Kömürlü (9480 fut), Pirdağ (7913 fut) zirvələri, Güneydağ silsiləsində Maralca (8550 fut), Soyuqbulaq (8806 fut), Kirkitdağ (9020 fut) zirvələri, Məzrə dağlarında Keytidağ (11284) zirvəsi, Ağmanqan dağlarında isə Ağmanqan (10173 fut) və Üçtəpələr (10717 fut) zirvələri təşkil edir [199, 2].

Dağ zirvələri ətraf ərazilərdən əhəmiyyətli dərəcədə yüksəklikdə yerləşmirdi. Bununla belə Göyçə hövzəsinin dəniz səviyyəsindən kifayət qədər yüksəkdə yerləşməsi ilə əlaqədar qışda bu ərazilər büsbütün qarla örtülü olurdu. Bəzi dağların şimal yamaclarında isə nəinki qışda, hətta bütün ilboyu qalın qar örtüyü müşahidə edilirdi. Tez-tez baş verən qar və çovğun yollar və keçidləri o dərəcədə keçilməz edirdi ki, dağətəyi ərazilərdə yerləşən kəndlər arasında əlaqə günlərlə kəsilirdi. Göyçə hövzəsinin yüksək dağlıq ərazilərində müşahidə olunan bu iqlim əhalinin məişət və məşğuliyyətinə də öz təsirini göstərirdi. Belə ki, yüksək dağlıq ərazilərində müşahidə olunan soyuq hava bu ərazilərdə taxılın, dənli bitkilərin becərilməsini mümkünsüz edirdi. Lakin, dağların şimal yamacları örtən daimi qar və tez-tez baş verən yağışlar burada bol rütubətin toplanmasına və maldarlıq üçün çox əlverişli çəmənliklərin, otlaqların yaranmasına səbəb olurdu. Odur ki, yay vaxtlarında təkcə Göyçə və Dərəçiçək mahallarından, sonralar Yeni Bəyazid qəzasından deyil, ətraf mahal və qəzalardan da çoxlu əhali öz mal-qara sürülərini otarmaq üçün bu ərazilərə köç edirdilər.

Dağ silsilələrindən ayrılan çıxıntılar Göyçə hövzəsinin aşağı hüdudlarında iki düzənlik – Məzrə və Zəngi düzənliklərini yaradır. Məzrə düzənliyi Göyçə hövzəsinin Yelizavetpol qəzası ilə həmsərhəd olan şərq hissəsində yerləşməklə cənub şərqdən Göyçə gölünə doğru uzanır, onun eni 15, uzunluğu isə 20 verst** təşkil

* Fut – təxminən 30-33 sm-ə bərabər uzunluq vahidi.

** Verst – 1063 metrə bərabər uzunluq vahidi.

edirdi. Bu düzənlik Gilli çayı ilə birləşən qərb hissədə tədricən bataqlığa keçirdi. Göyçə hövzəsinin qərbində yerləşən Zəngi düzənliyinin ümumi uzunluğu 30 verst təşkil edirdi. Hər iki düzənlik qəzanın ən alçaq hissəsini təşkil edirdi. Məzrə düzənliyi dəniz səviyyəsindən 6400 fut, Zəngi düzənliyi isə 6270 fut hündürlükdə yerləşirdi. Düzənliyin iqlimi qəzanın digər əraziləri ilə müqayisədə daha mülayim olub yayda orta hesabla +12 dərəcə, qışda isə – 7 dərəcə təşkil edirdi [199, 3].

Bölgədə havalar mülayimləşdikcə yüksək ərazilərdəki qar sürətlə əriyərək burada daşqın və bataqlıqlar yaradırdı. May və iyun aylarında təbiət sürətlə canlanır, ətraf yaşıllığa qərq olurdu. Hər yer yazlıq buğda, arpa, darı, pərinc, çətənə əkinləri, həmçinin otlaq və çəmənliklərlə örtülürdü [216, 349]. Dərəçiçək mahalının ərazisi bir-birindən gözəl, füsunkar gül və çiçəklər, eləcə də enliyarpaq ağaclardan ibarət sıx meşələrlə örtülürdü. Şopen Göyçə mahalını, xüsusilə bu mahala daxil olan Zod vadisini göz oxşayan gözəlliyinə görə “Cənubi Qafqazın İsveçrəsi” adlandırırdı [216, 349].

Göyçə mahalında öz mənbəyini yuxarıda adları çəkilən dağlardan götürən 36-dan çox çay axırdı. İ.Şopenə görə burada o qədər çay var ki, onların hamısı haqqında təfərrüata varmaq mənasızdır [216, 377].

Bu çaylardan ən mühümləri olan Havarçay Noradüz kəndi yaxınlığında, Altuntaxtçay və Ağdağçay Heyranis kəndi yaxınlığında, Qızılvəng çay Vəliağalı kəndi yaxınlığında, Qurudərə çayı Təzəkənd yaxınlığında, Siçanlı çayı Erkəcgöl kəndi yaxınlığında, mənbəyini Ağrıdağı, Vedibasar və Alagöz yaylaqlarından götürən və ərazinin ən əhəmiyyətli çaylarından hesab olunan Adıyaman çayı eyni adlı kəndin ərazisindən, Qaranlıqçay Aşağı Qaranlıq kəndi yaxınlığında, Tuxtuluçay Ağqara kəndi yaxınlığında, Gözəldərəçay Aşağı Gözəldərə kəndi ərazisində, Alçalı çay Qızılkilsə kəndi yaxınlığında, çoxsaylı daha kiçik göllərdən yaranan Zod çayı Kiçik Məzrə kəndi yaxınlığında Göyçə gölünə tökülür. Bundan başqa Kəsəmən və ya Göyçə çayı, Şişqayaçay, Cil, Ardanis, Ağbulaq, Toxluca, Balıqlı çayları və s. bu kimi ümumilikdə 28-dən çox çay Göyçə gölünə axır [216, 379].

Göyçə gölü Göyçə mahalının şərqində, dəniz səviyyəsindən təxminən 6340 fut (1925 m) hündürlükdə yerləşirdi. Göyçə gölü bütün Cənubi Qafqaz miqyasında ən əhəmiyyətli təbii göllərdən biridir. Gölün ümumi sahəsi 1413 kv km olmaqla şimal-qərbdən cənub-şərqə doğru 70 verst (72 km), eni isə şimal-şərqdən cənub-qərbə doğru 30 (37 km) verst təşkil edirdi. Gölün dərinliyi təqribən 95 metrdir. Şimal-şərqdə o daha dərin olsa da cənub-qərbə doğru xeyli dayazlaşır və qurşaqdan yuxarı qalxmır. 36 çayın suyunun qovuşduğu Göyçə gölündə buxarlanma o qədər güclüdür ki, gölün səthində ildən-ilə dəyişiklik baş verir və onun səviyyəsi getdikcə aşağı düşür. Bir çox əlamətlər, o cümlədən gölün sahilindəki güclü lava axınlarının açıq-aydın bilinən izləri gölün sönmüş vulkanın ağzında – kraterində yerləşdiyini sübut edir. Qış aylarında gölün donması ilə əlaqədar sakinlər onun səthindən istifadə edərək yüklü heyvanlarla Güney sahilə keçərək odun tədarük edirlər. Yayda isə göldə Sevan monastırına məxsus nasaz bərəni çıxmaq şərti ilə burada heç bir gəmiyə rast gəlinmirdi. Mütəmadi olaraq günorta vaxtlarından başlayan küləklər gecə yarısına qədər davam edir və sonra göldə çox sakit bir mənzərə yaranırdı. Göyçə gölü Araz çayından 3324, Qara dənizdən isə 5724 fut hündürlükdə yerləşir [216, 396-397; 180, 163].

Göyçə hövzəsi müxtəlif faydalı qazıntı yataqları və minerallarla zəngin bir ərazi hesab olunur. Burada dəmir mədənləri (Ağrıca vadisi), qızıl yataqları (Altuntaxt, Zod əraziləri), mineral maddələrlə zəngin, kükürd tərkibli, isti müalicəvi sular, arsen yataqları yerləşirdi [216, 401].

XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərində Göyçə gölü hövzəsi İrəvan xanlığının tərkibinə daxil idi. Xanlığa daxil olan 15 mahaldan ikisi – Dərəçiçək və Göyçə mahalları bu ərazidə yerləşirdi.

Topoqrafik cəhətdən İrəvan xanlığının mahalları dağlıq, orta və düzən olmaqla 3 qrupa ayrılırdı. Abaran, Dərəçiçək və Göyçə mahalları bütünlüklə dağlıq ərazidə yerləşən mahallar idi.

Dərəçiçək toponimi Azərbaycan dilində "iki dağ arasında dərin çuxur" mənasında işlənən "dərə" sözü ilə Azərabycan dilində "çiçəkləri olan bitki", "gül" mənasında işlənən "çiçək" sözünün birləşməsindən əmələ gəlmişdir. Bu bölgə güllü, çiçəkli, gözəl

mənzərəli dərədə yerləşdiyi üçün Dərəçiçək adlandırılmışdır [28, 277] Dərəçiçək mahalı iqliminə görə xanlığın ən əlverişli ərazisi idi. Göyçə gölündən ayrılan Zəngi çayı ilə Misxanaçayın yaratdığı dərin dərələrdə yerləşən mahal şimalda Pəmbək nahiyəsi, cənubda Qırxbulaq mahalı, qərbdə Abaran mahalı, şərqdə isə Göyçə gölü ilə həmsərhəd idi [216, 445]. Dərəçiçək mahalı indiki Dərəçiçək-Axta-Hrazdan (Tsaxkadzor-Razdan) rayonu ərazisinə uyğun gəlir [91, 16].

Göyçə mahalı İrəvan xanlığının şimal hissəsini əhatə etməklə, həm ərazisinə, həm də əhalisinin sayına görə xanlığın ən böyük mahalı hesab edilirdi. Bu mahal indiki Ermənistan Respublikası ərazisindəki Çəmbərək (Krasnoselo) rayonuna daxil olan Toxluca, Ağbulaq, Şorca, Ardanış, Cil kəndlərini, Basarkeçər (Vardenis), Qaranlıq (Martuni), Kəvər (Kamo) rayonlarının ərazilərini əhatə edirdi [91, 16; 28, 432].

Qeyd edildiyi kimi, II Rusiya-Qacar müharibəsi nəticəsində 10 fevral 1828-ci ildə imzalanan Türkmənçay sülh müqaviləsinə əsasən İrəvan xanlığı Rusiyanın tərkibinə daxil edildi. Çar I Nikolayın 1828-ci il martın 21-də verdiyi fərmana görə İrəvan və Naxçıvan xanlıqları ləğv edildi. Azərbaycanın qədim və tarixi torpaqlarında yeni inzibati bölgü – "Erməni vilayəti" yaradıldı.

Rus tarixçi-statistiki İ.Şopen tərəfindən 1829-1832-ci illərdə "Erməni vilayəti"ndə kameral siyahıyaalma həyata keçirilmişdir. Həmin siyahıyaalmanın nəticələrinə görə, 2 mahalda (Dərəçiçək və Göyçə) ümumilikdə 179 kənd mövcud olmuşdur. Bunlardan 83-ü tamamilə dağıdılmış və viran edilmiş, 96-sı isə yaşayış üçün yararlı, qismən dağılmış kəndlər idi. XIX əsrin 30-cu illərinə doğru Göyçə mahalında dağıdılmamış 59 kənddən 36-sında, Dərəçiçək mahalının 37 kəndindən 20-sində yaşayış olmuşdur.

1826-1828-ci illər Rusiya-Qacar və 1828-1829-cu illər Rusiya-osmanlı müharibələri nəticəsində Dərəçiçək mahalında 16, Göyçə mahalında isə 67 kənd tamamilə dağıdılmış və onların əhalisi didərgin salınmışdır. Həmin kəndlərə Dərəçiçək mahalında Keğam və ya Sevank monastırı, Kiçik Ördəkli, Alaparaq, Barat, Günahgörməz, Eşşəkquduran, Çobangölü, Kəqac, Məmən, Aydın, Şəkərbaşı, Misxana, Sütüqülyan, Çiçəkli, Pirpalıd, Zeynalağa, Göyçə

mahalında isə Buğdatəpə, Hacı Mumuxan, Allahverdibəy, Üçtəpə və onunla qonşuluqda yerləşən adı unudulmuş bir kənd, Kərim kəndi və onunla qonşuluqda yerləşən adı unudulmuş dörd kənd, Yuxarı Altıntaxt, Aşağı Altıntaxt, Dəmirçi-poqos və onlarla qonşuluqda yerləşən adı unudulmuş beş kənd, Ağrıca, Atdaş, Ağsağtovuz, Karvansaray və onunla qonşu olan adı unudulmuş bir kənd, Qasımbaşı, Mədinə və adı unudulmuş 6 kənd, Baş Gözəldərə, Xancığazoğlu və adı unudulmuş 4 kənd, Qızılkilsə və adı unudulmuş 5 kənd, Böyükağa və adı unudulmuş 9 kənd, Ağkilsə və adı unudulmuş 2 kənd, Göyçay (Göyçə), Sultanəli, Sultanağac, Karvansaray, Ağrıca və adı unudulmuş 2 kənd, Kərimağa kəndi, Dəli-Arıtyun, Hamasar kəndləri daxil idi [216, 515-517].

XIX əsrin 30-cu illərinin əvvəllərinə olan məlumata görə, Göyçə mahalının inzibati ərazisində 59, Dərəçiçək mahalının inzibati ərazisində 37 dağıdılmamış kənd mövcud olmuşdur. Bura Dərəçiçək mahalında Alpars, Rövzanlar, Gümüş, Arzakənd, Dəllər, Qabar Əli, Dərəçiçək (Bjni), Solaq, Qaxsı, Ağpara, Makravəng, Aşağı Axta, Yuxarı Axta, Gərniyov, Rəndəməl, Zəncirli, Faruq, Babakişi, Dəlipaşa, Sərincan, Taycarıx, Qorçulu, Çopur Əli, Dədəqışlaq, Təkəlik, Üləşik, Qaraqala, Qoruqgüney, Yaycı, Tutmaşen, Tsaxkunq, Şahruz, Çerçer, Böyük Ördəkli, Qomadzor, Çaxmaberd, Çubuxlu kəndləri, Göyçə mahalında isə Bığlı Hüseyn, Zeynalağalı, Rəhmankənd, Ağqala, Əyrivəng, Qızılçıq (Əbülkənd), Noradüz, Qışlaq, Kəvər, Qul-Əli, Kosa Məmməd, Paşakənd, Dəliqardaş, Kuzəcik, Başkənd, Heyranıs, Atamxan, Vəli Ağalı, Təzəkənd, Dəlikdaş, Gölkəndi, Aşağı Adyaman, Yuxarı Adyaman, Əbdul Ağalı, Gözəldərə, Ağqıraq, Aşağı Qaranlıq, Yuxarı Qaranlıq, Zolağac, Kolanı Qırılan, Alçalı, Qarasaqqal qışlağı, Yarpızlı, Zağalı, Qızılbulaq, Qırxbulaq, Qanlı Allahverdi, Basarkeçər, Qoşabulaq, Aşağı Keyti (Salman kənd), Baş Keyti, Yellicə, Daşkənd, Daş Keyti, Tatul Qışlağı, Zərzebil, Zod, Ağyoxus, Əyriçə (Ogruca), Böyük Məzrə, Kiçik Məzrə, Kəsəmən, Şisqaya, Cil, Ardanış, Adatəpə, Şor Əli, Ağbulaq, Toxluca kəndləri daxildir [216, 515-517].

Məlumdur ki, 10 aprel 1840-cı il tarixli fərmana əsasən "Erməni vilayəti" ləğv edilmişdi. Cənubi Qafqaz 2 böyük inzibati əraziyə –

Gürcüstan-İmeretiya quberniyasına və Xəzər vilayətinə bölündü. Bu qanuna əsasən Göyçə mahalı İrəvan qəzasının bir hissəsi kimi Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edildi.

1849-cu il iyunun 9-da Rusiya çarı II Nikolayın fərmanı ilə İrəvan quberniyası yaradıldı. 1850-ci yanvarın 1-dən qüvvəyə minən həmin fərmanla İrəvan quberniyası 5 qəzaya – İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Yeni Bəyazid qəzalarına bölünürdü. Elə həmin tarixdən etibarən İrəvan quberniyası tərkibində təşkil olunan qəzalardan biri də Yeni Bəyazid qəzası idi ki, Göyçə mahalı bütövlükdə bu qəzanın tərkibinə daxil idi. Buraya sonralar Hrazdan, Sevan, Yeni Bəyazid, Martuni, Vardenis adlandırılmış rayonların, Kotayk rayonu Qırxbulaq bölgəsinin azərbaycanlılar yaşayan kəndləri, habelə Krasnoselsk rayonunun Göyçə gölü ətrafı əraziləri daxil idi.

Beləliklə, XIX əsrin ortalarından etibarən əhalisinin mütləq əksəriyyətini – 98%-ni azərbaycanlılar təşkil edən Göyçə mahalı torpaqlarında tamamilə yeni inzibati ərazi vahidi – Yeni Bəyazid qəzası təşkil edildi. Əslində bu addımı atmaqda çar hökumətinin əsl məqsədi heç də inzibati-idarəçilik sistemini təkmilləşdirmək deyildi. Hökumət bu tədbirlə daha çox, Azərbaycanın tarixən formalaşmış ərazi bütövlüyünə növbəti dəfə qəsd etmək, azərbaycanlıların əksəriyyət təşkil etdiyi əraziləri ermənilər yaşayan ərazilərlə birləşdirib birincilərin təsir dairəsini azaltmaq, idarə aparatında ermənilərin nümayəndələrini yerləşdirmək, beləliklə, ərazini tədricən, planlı şəkildə erməniləşdirmək niyyəti güdürdü.

Yeni Bəyazid qəzası (4239 kv verst) ərazisinə görə quberniyanın ən böyük qəzası idi. Göyçə gölü ilə birlikdə ərazisi İrəvan və Şərur-Dərələyəz qəzalarının ərazisindən böyük olmuşdur [198, 40-42]. Qəza inzibati cəhətdən 4 sahəyə – nahiyəyə bölünürdü: I Dərəçiçək, II Göyçə, III Gözəldərə, IV Məzrə.

Ümumilikdə, Yeni Bəyazid qəzasının 4 nahiyəsinə 16 kənd icması, bu kənd icmalarına da 127 kənd daxil idi.

Dərəçiçək nahiyəsi 8 kənd icmasından ibarət idi: Arzakənd kənd icmasına Ağverən, Arzakənd, Bjni, Gümüş, Dəllər, Uzunlar (Ozanlar) kəndləri, Axta və ya Aşağı kənd icmasına Alapars, Yuxarı

Axta, Aşağı Axta, Qaxsı, Solak kəndləri, Axta və ya Aşağı rus icmasına Aşağı (rus) Axta, Konstantinovka (Dərəçiçək), Suxoy Fontan kəndləri, Yelenovka kənd icmasına Aleksandrovka (Zeynal-Abidin), Yelenovka, Semyonovka kəndləri, Kənkən kənd icmasına Dəvəxaraba, Dəlləkli, Qaraqala, Quylı, Kənkən, Qızqala, Tezxarab, Çoban-Qorxmaz kəndləri, Rəndəmal kənd icmasına Ağqara, Babakişi, Karvansaray, Makravəng, Rəndamal, Fərrux, Yaycı kəndləri, Tayçarığ kənd icmasına Dədəqışlaq, Dəlipaşa (Paşakənd), Qabağlı, Birinci Qaraqala, Qoruqgüney (Allahverdi), Qorçalı (Allahverdikənd), Novo-Mixaylovka (Misxana, Berzen), Soyuqbulaq, Tayçarığ, Təkəli (Molla Əli kənd), Üləşik kəndləri, Çirçir kənd icmasına Komadzor, Tutmaşen (Çamakapert, Qarakeşiş), Çaxkunq (Çiçəkli), Çirçir, Çubuğlu, Şahriz kəndləri daxil idi [209, 26-27].

Göyçə nahiyəsi 3 kənd icmasından ibarət idi: Ağzıbir kənd icmasına Ağzıbir, Ağqala, Əyrivəng, Bığli-Hüseyn-Saraclı, Qışlaq, Quləli, Noradüz, Ördəkli, Rəhmankənd (Əfəndikənd), Hacı Muxan (Hacı Avdi) kəndləri, Gölkənd kənd icmasına Yuxarı Adyaman. Aşağı Adyaman, Atamxan, Gölkənd, Vəliağalı, Təzəkənd, Çakarkar (Dəlikdaş), Heyranıs kəndləri, Dəliqardaş kənd icmasına Başkənd (Göyçə), Dəliqardaş, Kosaməmməd, Küzəcik, Kərimkənd, Paşakənd (Məmmədağalı) kəndləri daxil idi [209, 28].

Gözəldərə nahiyəsində 3 kənd icması var idi: Basarkeçər kənd icmasına Basarkeçər, Zağalı, Qanlı Allahverdi, Qayabaşı, Yeni Keyti (Şorcalı), Qızılbulaq (Çaxırlı), Qırxbulaq, Qoşabulaq, Kərkibaş, Sarıyaqub, Subatan, Daşkənd, Tüstülü, Şorca, Hüseyinquluağalı, Ağkilsə kəndləri, Gözəldərə kənd icmasına Yuxarı Alçalı, Aşağı Alçalı, Gödəkbulaq (Girdəbulaq), Gözəldərə, Qızılvəng, Qızılxaraba (Tatar Zağalı), Kolanıqırılan, Çəmərli (Çamırlı), Yarpızlı kəndləri, Yuxarı Qaranlıq kənd icmasına Abdulağalı, Əliqırığ, Zolaxaç, Karvansaray (Ayrıc), Yuxarı Qaranlıq, Aşağı Qaranlıq, Qızılxaraba (Ayrıc), Mədinə, Siçanlı, Xartlıq, Yanığ kəndləri daxil idi [209, 29].

Məzrə nahiyəsi 2 kənd icmasından ibarət idi: Cil kənd icmasına Ağbulaq, Babacandərəsi, Cil, Quşçudərəsi (Pəmbəkli), Nadejdino (Şorcalı), Ardanış, Sadanaxaç, Toxluca kəndləri, Böyük Məzrə kənd icmasına Ağkilsə, Ellicə-Qaraqoyunlu, Zərzebil, Zod, İnəkdağı,

Kəsəmən, Böyük Məzrə (Quluağalı), Kiçik Məzrə, Oğruca (Qaraiman), Sultanəli qışlağı (Can Əhmədli), Şişqaya kəndləri daxil idi [209, 30]

XIX əsrin sonunda İrəvan quberniyasında dövlət kəndlilərinin iqtisadi həyatını tədqiq edən V.A.Parvitskinin əsərlərində Göyçə mahalının coğrafi mövqeyini əks etdirən qiymətli məlumatlara rast gəlinir. Qeyd edək ki, tədqiqatçının Yeni Bəyazid qəzasında apardığı müşahidələr və tədqiqatlar 1862-ci və 1893-cü illərdə Tiflisdə nəşr olunan "Cənubi Qafqaz dövlət kəndlilərinin iqtisadi həyatının öyrənilməsi üçün materiallar" adlı topluda çap olunub. Onu da deyək ki, V.A.Parvitskin Yeni Bəyazid qəzasının şimal-şərq və cənub-qərb ərazilərini ayrı-ayrılıqda tədqiq etmişdir. Onun araşdırmalarından aydın olur ki, Yeni Bəyazid qəzasının şimal-şərq hissəsi şimal, qərb və cənub qərbdən İrəvan quberniyasının Aleksandropol, Eçmiədzin, İrəvan qəzaları ilə, şimal və şimal-şərqdən Yelizavetpol quberniyasının Qazax, Yelizavetpol, Cavanşir qəzaları ilə qərbdən isə Yeni Bəyazid qəzasının cənub-qərb əraziləri ilə həmsərhəd idi. Bu bölgənin sərhədləri Aleksandropol qəzasından Pəmbək dağları ilə, Eçmiədzin qəzasından Əlibəy silsiləsi və Zəngi çayı ilə, İrəvan qəzasından Ağmanqan dağları ilə, Qazax və Yelizavetpol qəzalarından Güneydağla, Cavanşir qəzasından isə Məzrə dağları ilə ayrılırdı. Göyçə gölü və gölün sahilyanı əraziləri qəzanın şimal-şərq və cənub-qərb ərazilərini bir-birindən ayırırdı [199, 2].

Yeni Bəyazid qəzasının cənub-qərb hissəsi isə Havarçayın mənsəbindən başlayaraq Ağmanqan dağlarına qədər, qərbdən və cənubdan Paltəpə dağlarından Alagöllərinbaşı dağlarına qədər uzanmaqla İrəvan və Şərur-Dərələyəz, Cavanşir qəzaları ilə həmsərhəd idi. Bu qəza şərqdən Gilli və Göyçə göllərini birləşdirən çaylara qədər, şimal və şimal-şərqdə isə Göyçə gölü sahili və Şorgöl meşələrinə qədər uzanırdı [199, 315].

XIX əsrin II yarısı – XX əsrin əvvəllərində də İrəvan bölgəsinin inzibati-ərazi bölgüsündə nəzərə çarpacaq əhəmiyyətli dəyişikliklər baş vermədi. Bütün bu dövr ərzində Göyçə mahalı Yeni Bəyazid qəzasının tərkibində qaldı.

XX əsrin əvvəllərində bütün Rusiya imperiyası ərazilərində və o

cümlədən də Cənubi Qafqazda baş verən inqilabi çıxışlar, milli-azadlıq hərəkatının nəticəsində çar üsul-idarəsinin devrilməsi və yeni müstəqil milli dövlətlərin yaranması bütün sahələrdə olduğu kimi bölgənin tarixi coğrafiyasında da yeni reallıqlar yaratdı. 90 illik fasilədən sonra milli dövlətçilik ənənələrimizin yenidən bərpa olunması və Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından sonra milli dövlətimizin xarici siyasətinin əsas prioritet kəsb edən hədəflərindən biri də tarixi torpaqlarımızın yenidən milli dövlətimizin tərkibinə qatılması məsələsi oldu. 1918-ci ilin yazında Cənubi Qafqazda üç dövlətin – Azərbaycan, Ararat və Gürcüstan Respublikalarının təxminən eyni vaxtda öz müstəqilliklərini elan etməsi bu dövlətlərin təcili öz sərhədlərini müəyyən etmək zərurətini də meydana çıxardı. İrəvan şəhərinin Ermənistanın paytaxtı elan edilməsinə icazə verilməsi barədə erməni nümayəndələrinin Azərbaycan hökumətinə israrlı müraciətindən sonra Batumda 1918-ci ilin mayın 29-da iki dövlətin nümayəndələri arasında danışıqlar keçirildi. Osmanlı dövlətinin ciddi təzyiqlərindən sonra Azərbaycan tərəfi İrəvanın, eləcə də, Eçmiədzin qəzasının Ermənistana verilməsinə razılaşdı və bununla bağlı Azərbaycanın Müvəqqəti Milli Şurasının iclasında qərar qəbul edildi. Lakin bunun əvəzində ermənilər Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəkməli idilər.

Elə həmin qərarla da tarix boyu Azərbaycanın tərkib hissəsi olmuş, sonralar İrəvan xanlığının ərazisi olan torpaqlar – Göyçə mahalının qərb hissəsi faktiki olaraq əldən çıxdı. Azərbaycan Xalq Cümhuriyyətinin qərb sərhədləri Göyçə gölü ilə məhdudlaşdı. Göyçə gölü iki respublika – Azərbaycan və Ermənistan arasında sərhəd zonasına çevrildi. Gölün şərq hissəsi "Göyçə dairəsi" statusu ilə Azərbaycan Cümhuriyyətinin tərkibində qaldı. Onun ərazisi əsrin ilk illərindəki Yeni Bəyazid qəzasının şərq torpaqlarını əhatə edirdi və Göyçə gölünün şimalındakı Maralicə dağın qərbindən başlayaraq gölün şərq tərəfi ilə cənuba doğru uzanır və Maraldağın qərbinə çatırdı [90, 57].

Azərbaycan Milli Şurasının 29 may 1918-ci ildə qəbul etdiyi bu qərar, atdığı bu addım həqiqətən də "kobud səhv və ümummilli

mənafeyə vurulmuş ağır zərbə", tələsik çıxarılmış qərar idi. Lakin onu da qeyd edək ki, 23 aylıq fəaliyyəti dönəmində milli hökumət bütün istiqamətlərdə olduğu kimi qonşu dövlətlərlə ərazi problemləri məsələsinin həllində də ardıcıl və qətiyyətli şəkildə yalnız milli mənafelərimizi nəzərə almaqla fəaliyyət göstərirdi. Gərgin proseslər fonunda cümhuriyyət rəhbərliyinin Göyçə gölünün heç olmazsa şərq hissəsinin əlimizdə saxlamasına nail olması və burada Göyçə dairəsi adlı inzibati vahidin yaradılması özü böyük bir uğur idi. Bölgəyə nəzarətə tam nail olunmamasının səbəbini isə təkcə milli hökumətin qətiyyətsiz mövqeyi ilə yox, həm də o zamankı gərgin beynəlxalq siyasi vəziyyət, Cənubi Qafqazda cərəyan edən proseslər, Osmanlı dövlətinin ziddiyyətli mövqeyi, ən əsası isə çar Rusiyasının yüz illik məqsədyönlü işğalçılıq fəaliyyətinin nəticələrində axtarmaq lazımdır.

Mübahisəli ərazilər nəzərə alınmasa Azərbaycan Xalq Cümhuriyyətinin qərb sərhədləri Naxçıvanın cənubi-qərbində Sədərək yaşayış məntəqəsinə çatır və buradan şimali-şərq istiqamətində, Soğanlı məntəqəsindən isə birbaşa şimala gedərək Göyçə gölünə qovuşurdu. Göyçə gölü Azərbaycan Xalq Cümhuriyyəti ilə Ararat Respublikası arasında sərhəd idi və Göyçə mahalının şərq hissəsi Azərbaycanın, gölün qərbi isə Ararat Respublikasının tərkibində idi [90, 59].

Azərbaycan Xalq Cümhuriyyətinin mübahisəsiz sahələrinin inzibati-ərazi bölgüsü – quberniyalar, qəzalar, dairələr demək olar ki, əvvəlki kimi qalmışdı, yeganə dəyişiklik Göyçə gölünün şərq hissəsində təsis olunmuş "Göyçə dairəsi" idi [90, 59].

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ümumi sahəsi təxminən 16,6 min kv. km olan mübahisəli ərazilərin əsas hissəsi Ermənistanla mübahisələrin obyektinə çevrilmişdi. 1920-ci ildə tərtib olunmuş xəritədən göründüyü kimi, Ermənistanla mübahisəli ərazilər Göyçə gölünün bir az cənubundan və Naxçıvan və Şərur-Dərələyəzin qərbindən tutmuş Kasak çayına kimi Arazın hər iki sahili – Böyük Vedi, Eçmiədzin, İğdır və s. ərazilər idi.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra ərazi məsələsinə baxıldıqda, Yeni Bəyazid qəzasının 1-ci və 2-ci polis sahələri mübahisəsiz Azərbaycan ərazisi, 3-cü polis sahəsinin bir hissəsi isə

mübahisəli ərazilər sırasına daxil edilmiş, Azərbaycan daxilində Göyçə dairəsi yaradılmışdı. Xarici işlər nazirliyinin məlumatına görə, "Göyçə rayonu" adı altında Göyçə gölü və Kiçik Qafqaz dağları arasında yerləşən İrəvan quberniyası Yeni Bəyazid qəzasının şərq hissəsi nəzərdə tutulurdu. Göyçə mahalının əhalisi özünü Azərbaycan Xalq Cümhuriyyətinin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı [7, 429].

Azərbaycan hakimiyyətinin son günlərində parlamentin qəbul etdiyi sonuncu qanun da bu qəbildən əhəmiyyətli məzmun daşıyır. 1920-ci il aprelin 22-də Şamxor qəzasının yaradılması barədə 5 bənddən ibarət xüsusi qanun qəbul edildi. Şamxor qəzası Gəncə qəzasının qərb hissəsində və keçmiş İrəvan quberniyasının Yeni Bəyazid qəzasının ona bitişik hissələrində yaradılırdı. 34 kənd icmasının daxil edildiyi Şamxor qəzasına İrəvan quberniyasının Yeni Bəyazid qəzasının, yəni tarixi Göyçə mahalının kəndləri də (Cil, Məzrə, Zod, Basarkeçər, Sarıyaqub və b.) daxil idi. Lakin 5 gün sonra cümhuriyyət hakimiyyətinin devrilməsi bu qanunun gerçəkləşdirilməsinə imkan vermədi [33, 63].

Bu faktlar da aydın şəkildə göstərir ki, bütün beynəlxalq təzyiqlərə və daxili gərginliklərə baxmayaraq Cümhuriyyət rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və qorunub saxlanmasında nə dərəcədə böyük israrlı mövqe nümayiş etdirirdi.

Rus-bolşevik təcavüzü nəticəsində Azərbaycanın müstəqilliyinə son qoyulduqdan, 1920-ci ilin aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıldıqdan, onun ərazisində Azərbaycan Sovet Sosialist Respublikası təsis olunduqdan sonra ölkə ərazilərinin itirilməsi prosesi daha da sürətləndi. Aprel çevrilişindən sonra ermənilərin Azərbaycana qarşı olan ərazi iddiaları daha da genişləndi. Sovet Rusiyasının, daha sonra isə Sovet rəhbərliyinin havadarlığına bel bağlayan ermənilər XI Qızıl Ordunun köməyindən istifadə edərək hələ Azərbaycan Xalq Cümhuriyyəti vaxtında mübahisəli ərazilər kimi qələmə verilən, əslində isə mübahisəli ərazilər olmayan Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ və Şərur-Dərələyəz torpaqları ilə yanaşı Göyçə gölünün şərq ərazilərini qa-

marlamaq niyyətlərini də həyata keçirməyə başladılar. 1920-ci ilin yayında Dro və Njdenin başçılığı altında ermənilərin bölgədə, o cümlədən Göyçənin mərkəzi Basarkeçərdə həyata keçirdikləri qırğınlar nəticəsində əslində bu bölgə də erməni daşnaklarının nəzarəti altına keçdi. 1920-ci il avqustun 10-da Sovet Rusiyası ilə Ararat Respublikası arasında imzalanan müvəqqəti sazişə görə qeyd-şərtsiz Ermənistana keçən ərazilərə Şərur-Dərələyəzlə yanaşı Göyçə gölünün şərq hövzəsi də aid idi.

Erməni daşnakları ilə apardığı bir neçə aylıq müharibəni uğurla başa çatdıran yeni Türkiyə hökuməti də Sovet Rusiyasının maraqlarını nəzərə alaraq əlində olan imkanlardan tam istifadə etmədi və 1920-ci ilin dekabrın 2-də Ermənistan ilə imzaladığı Gümrü (Aleksandropol) müqaviləsi ilə bütün digər Ermənistan ərazilərini himayəsinə alsa da İrəvan bölgəsi və Göyçə gölü hövzəsinin ermənilərdə qalmasına razılıq verdi. Bu addım Göyçə gölü hövzəsinin itirilməsi prosesini daha da sürətləndirdi.

Beləliklə, XX əsrin 20-ci illərində Sovet rəhbərliyinin ərazi məsələlərinin birtərəfli, daşnak-bolşevik sayağı "həlli" nəticəsində mübahisəli ərazilər bədnam qonşularımızın ixtiyarına keçdi və bundan əlavə 11.000 kv km ərazimiz Ermənistana verildi. Buraya əsasən Zəngəzur qəzası, Şərur-Dərələyəz qəzası ilə yanaşı Göyçə dairəsinin torpaqları daxil idi. Beləliklə, həmin illərdə Azərbaycanın itirilən 27.599 kv km ərazisinə Göyçə hövzəsi torpaqlar da daxil idi [90, 63].

SSRİ-nin 1926-cı il yanvarın 1-ə olan ərazi inzibati bölgüsündə ZSFSR-in tərkibinə daxil olan Ermənistan SSR-nin inzibati cəhətdən 8 qəzadan, 936 nahiyədən və 827 kənd sovetindən ibarət olduğu bildirilirdi [211, 21]. Həmin qəzalardan biri də Göyçə gölü hövzəsini əhatə edən Yeni Bəyazid qəzası idi.

XX əsrin 20-ci illərinin sonunda Cənubi Qafqazda inzibati-ərazi bölgüsü baxımından dəyişikliklər aparıldı və rayonlaşdırma sistemi həyata keçirildi. Həmin dəyişikliklərin gedişində qəzaların ləğv edilməsi lazım bilindi və rayonlaşdırmanın əsasında üç dərəcəli bölgü – dairə, rayon, kənd sovetləri yaradıldı.

1930-cu ildə "İrəvan quberniyası" inzibati bölgüsü ləğv olundu.

Ermənistan SSR-nin ərazisində 5 dairə təşkil olundu: Zəngəzur, Leninakan, Lori, Sevan və Yerevan. Göyçə gölü hövzəsinə daxil olan torpaqlar Sevan dairəsinin tərkibinə daxil idi. Bu ərazilərdə 3 rayon – Basarkeçər, Yeni Bəyazid (Kamo) və Martuni rayonları yaradıldı.

1930-cu il sentyabrın 9-da Göyçə mahalında yaradılmış rayonlardan biri də Basarkeçər rayonu idi. Ümumi sahəsi təxminən 1151 kv km olan rayon bir tərəfdən Göyçə gölü, Ermənistanın Çəmbərək(Krasnoselo) və Martuni rayonları, digər tərəfdən isə Azərbaycan SSR-in Kəlbəcər və Gədəbəy rayonları ilə həmsərhəd idi. Rayonun mərkəzi Basarkeçər şəhər tipli qəsəbə idi. 1985-ci il siyahıya almalarına görə rayon əhalisinin ümumi sayı 60633 nəfər idi [32, 271-273].

Basarkeçər adlı kənd kimi hələ "İrəvan əyalətinin icmal dəftəri"ndə [46, 61] Məzrə nahiyəsinə daxil olan kəndlərin sırasında qeyd edilmişdir. İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra təşkil olunan Erməni vilayətinin Göyçə qəzasına daxil olan 59 kənddən biri də Basarkeçər idi [216, 592]. Toponim qıpçaq mənşəli bazar//basar etnoniminə qeyri-qəti gələcək zamanda işlənən "keçər" sözünün qoşulmasından əmələ gəlmişdir, "Bazar //basar tayfasının keçdiyi, getdiyi yer" mənasını bildirir. "...bazar sözü mürəkkəb toponimlərin tərkibində tayfa adı kimi işləndikdə toponimik adın bir komponenti... yerində işlənir" [28, 122]. Basarkeçər də 1849-cu ildə təşkil olunan İrəvan quberniyasının Yeni Bəyazid qəzasına daxil edilmişdi.

1918-1919-cu illərdə daşnak hökumətinin təşkilatçılığı ilə Basarkeçərdə onlarla azərbaycanlı kəndi dağıdılsa da, onların əhalisi qanlı qırğınlar vasitəsilə didərgin salınsa da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu ərazini öz əlində qoruyub saxlamağı bacardı. Lakin 1920-ci ildə Sovet ordusunun köməyi ilə ermənilərin işğal etdiyi ərazilərdən biri də Basarkeçər idi və elə həmin dövrdən etibarən bu ərazi də Ermənistan SSR-nin tərkibinə qatıldı və Azərbaycanın nəzarətindən tamamilə çıxarıldı. Hələ 1918-1920-ci illərdə Basarkeçərdən didərgin salınaraq Azərbaycanın digər ərazilərində, habelə Cənubi Azərbaycan və Türkiyə torpaqlarında sığınacaq tapmış azərbaycanlı əhalinin (26918 nəfər) bir hissəsi

(11413 nəfər) sovet hakimiyyətinin ilk dövrlərində çox çətinliklə də olsa öz yurdlarına geri qayıtmağı bacardı.

1948-1953-cü illərdə Ermənistan SSR və SSRİ rəhbərliyinin ciddi cəhdlərinə baxmayaraq bu bölgədən azərbaycanlı əhalinin kütləvi köçürülməsi prosesi baş tutmadı. Ona görə də Basarkeçər rayonu sonrakı sovet dövründə Ermənistan SSR-nin azərbaycanlılar yaşayan elə bir rayonu idi ki, burada əhalinin etnik çoxluğunu həmişə azərbaycanlılar təşkil etmişdi və bu hal XX əsrin 80-ci illərinin sonuna qədər davam etdi.

Basarkeçər rayonunun adı 1969-cu ildə növbəti dəfə dəyişdirildi və Vardenis adlanmağa başladı. Bu rayonda ümumilikdə 48 yaşayış məntəqəsi var idi. Həmin yaşayış məntəqələrinə Allahverdi bəy, Altundağ, Ağyoxuş, Ağkilsə (Azad), Aşağı Zağalı (Zovak), Aşağı Şorca, Babacan (Qızılkənd), Basarkeçər, Bahar, Buğdatəpə, Buzxana, Böyük Məzrə, Qayabaşı, Qamışlı, Qaraiman, Qoşabulaq (Kefli), Qızılvəng (Makenis), (Çiçəkli), Qırxbulaq (Aqunk), Daşkeyti, Daşkənd, Dərə (Babacan dərəsi), Əzizli, (Böyük Qaraqoyunlu), Zərkənd (Zərzebil), Zod, İnəkdağ (Yenikənd), Yarpızlı (Lcavan), Yuxarı Zağalı (Axbradzor), Yuxarı Şorca, Karvansaray (Səməd Ağa dərəsi), Kefli (İkinci Qoşabulaq), Kərkibaş (Şəfəq), Kiçik Qaraqoyunlu, Kiçik Məzrə, Gödəkbulaq (Qarcaxbur), Göyçə, Göysu, Göytəpə, Güney (Sətənəxac), Günəşli, Nərimanlı, (Hüseynqulu ağalı), Quşçu dərəsi (Pəmbəkli), Sarıyaqub, Seyidlər, Subatan, Tatul qışlağı, Həsənli, Çaxırlı (Sovatakert), Şişqaya daxil idi [32, 277].

Yeni Bəyazid rayonu da 1930-cu il sentyabrın 9-da Ermənistan SSR-nın şimalında, Göyçə gölü sahilində təşkil olunmuşdu. O, Abovyan, Axta (Hrazdan), Sevan və Martuni rayonları ilə həmsərhəd idi. Ərazisi 637 kv km idi. 1978-ci il məlumatına görə rayonda 26704 nəfər əhali yaşayırdı [32, 295]. 1959-cu ildən etibarən rayonun adı dəyişdirilərək Kamo adlandırılmışdır. Rayona verilən bu ad erməni daşnak və bolşevik təşkilatının üzvü olan Simon Arşakoviç Ter-Petrosyanın inqilabı təxəllüsü olmuş "Kamo" adından götürülmüşdür.

Yeni Bəyazid (Kamo) rayonunun tərkibinə Abbasgölü (Güllücə),

Ağqala, Ağzıbir, Başkənd, Qul Əli, Əyrivəng, Əli kənd, Çopur Əli, Əhmədli, Kəvər (Yeni Bəyazid), Noraşen, Hacı Muğan, Hüseynbəyli kimi kənd və yaşayış məntəqələri daxil idi [32, 295].

Amma hamıya məlum idi ki, buranın erməni əhalisinin Qafqaz kökləri yox idi. Buranın yerli, avtoxton əhalisi məhz Azərbaycan türkləri olmuşdur. Təsadüfi deyildir ki, K.Sevanskinin hələ 1926-cı il 12 oktyabr tarixli 1299 saylı "Zarya Vostoka" qəzetində dərc olunmuş məqaləsində ermənilərin ancaq 1828-ci ildə Osmanlı imperiyasının Bəyazid paşalığından Göyçə mahalına köçürül-düyünün 100 illiyinin tamam olduğu qeyd edilirdi [210].

Aşağı Qaranlıq (Martuni) rayonu Göyçə gölünün cənub-qər-bindəki əraziləri əhatə edirdi. O Yeni Bəyazid (Kamo) və Basarkeçər (Vardenis) rayonları ilə həmsərhəd idi. Sahəsi 1185 kv km olan bu rayonda 1981-ci il məlumatlarına görə 71727 nəfər əhali yaşayırdı. Martuni rayonun adı əvvəl Yeni Bəyazid qəzasına daxil olan Aşağı Qaranlıq kəndinin adı idi və ancaq 1926-cı ildən etibarən belə adlandırılmışdı [32, 301-302]. Martuni adı Aleksandr Fyodroviç Myasnikyan adlı erməni sovet inqilabçısının təxəllüsü olan "Martuni" adından götürülmüşdür.

Martuni rayonunun tərkibinə Aşağı Alçalı (Ardzvanisit), Aşağı Gözəldərə (Vartenik), Vəli Ağalı (Zorakyuğ), Qızılxaraba (Əyricə), Yanıq, Yuxarı Alçalı (Ardzvanisit), Karvansara, Kəsikbaş (Lernkert), Mədinə, Xartlıq (Zaxqaşen) kəndləri daxil idi [32, 301-302].

1996-cı ildə Ermənistan Respublikasında rayon bölgüsü ləğv edilmişdi və ərazi 10 marza, yəni vilayətə bölünmüşdü: Araqatsotn, Ararat, Armavir, Vayots Dzor, Geğarkunik, Kotayk, Lori, Sünik, Tavuş, Şirak və marz hüquqlu Yerevan. Beləliklə, demək olar ki, İrəvan xanlığı dövrünün inzibati-ərazi bölgüsü bərpa edilmişdi, yalnız "mahal" sözü "marz" ilə əvəz olunmuşdu. Əslində "mərz" özü də elə türk sözüdür və "sərhəd", habelə "əkin yeri" mənalarını daşıyır. Keçmiş Dərəçiçək mahalının ərazisini əhatə edən Axta (Hrazdan) rayonu Kotayk marzının tərkibinə, Göyçə mahalı və Yeni Bəyazid qəzası ərazisində təşkil olunan Basarkeçər, Yeni Bəyazid və Martuni rayonları isə Geğarkunik marzının tərkibinə qatılmışdı [91, 229-230].

XX əsrin 20-30-cu illərindən etibarən Ermənistan SSR rəhbərliyinin ardıcıl və planlı siyasətinin tərkib hissəsinə yeni bir istiqamət də əlavə olundu: Qərbi Azərbaycanın türk mənşəli toponimlərinin tamamilə dəyişdirilməsi siyasəti. Əslində türk mənşəli toponimlərin uzun illər boyu dəyişdirilib erməni mənşəli adlarla əvəz edilməsi azərbaycanlıların min illər boyu bu ərazidə yaşamasını sübut edən faktları saxtalaşdırmaqla yanaşı, müxtəlif elm sahələrində aparılan tədqiqatlar üçün tarixi mənbə olacaq onomastik vahidlərin izini itirmək məqsədini daşıyır [98, 2].

Əziz Ələkbərli Ermənistanda türk mənşəli toponimlərin müxtəlif prinsiplər əsasında dəyişdirilməsini faktlar əsasında şərh etməyə çalışmışdır. O, "Qədim türk-oğuz yurdu indiki Ermənistan" adlı əsərində türk mənşəli toponimlərin dəyişdirilməsinin aşağıdakı səkkiz prinsipini qeydə almışdır: 1) sovet ideologiyasının təbliğatı bəhanəsi ilə (Gümrü-Aleksandropol-Leninakan); 2) erməni millətindən olan tarixi şəxsiyyətlərin adını əbədiləşdirmək bəhanəsi (Kəvər-Yeni Bəyazid-Abovyan); 3) hərfi tərcümə (Daşqala – Karaberd); 4) bəzi adlardakı "böyük", "kiçik", "yuxarı", "aşağı" sözlərinin erməniləşdirilməsi (Böyük Ayrım – Medz Ayrum); 5) bəzi adlardakı "kənd" sözünün erməniləşdirilməsi (Lalakənd-Lalıgyuğ); 6) erməni tələffüzünə uyğunlaşdırma (Həkəri-Akori); 7) qədim tarixi adın müasir azərbaycanlı adı ilə dəyişdirilməsi (Haqqıxlı-Səməd Vurğun); 8) tarixi adı itirmək üçün onun bir neçə dəfə dəyişdirilməsi (Hacıqara-Makodaşen-Lernapat) [34, 5-6].

Tədqiqatçı K.İ.Səmədova qeyd edir ki, Ə.Ələkbərlinin müəyyənləşdirdiyi prinsipləri belə qruplaşdırmaq da mümkündür: 1) siyasi motivləşdirmə yolu ilə toponimin dəyişdirilməsi; 2) yeni tarixə və mədəniyyətə istinadla toponimin dəyişdirilməsi; 3) tərcümə yolu ilə dəyişdirmə; 4) fonetik uyğunlaşdırma yolu ilə dəyişdirmə; 5) qədim adın izini itirmək məqsədilə dəyişdirmə [98, 12].

Bu siyasət Göyçə mahalından da yan keçmədi. Belə ki, Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 3 yanvar 1935-ci il fərmanı ilə Ağkilsə kəndinin adı Azat, Qırxbulaq kəndinin adı Akunk, Böyük Qaraqoyunlu kəndinin adı Əzizli, Zərzebil kəndinin adı Zərkənd, 7 dekabr 1945-ci il fərmanı ilə Aşağı Gözəldərə

kəndinin adı Vardenik, Kəsikbaş kəndinin adı Lernakert, 12 iyul 1946-cı il fərmanı ilə Qanlı Allahverdi kəndinin adı Qamışlı (Qarnışlı), Gödəkbulaq kəndinin adı Qarcaxpyur, Ağzıbir kəndinin adı Lçap, Başkənd kəndinin adı Qeğarkuni, Zağalı kəndinin adı Tsovak (Göllü), 5 may 1967-ci il fərmanı ilə Yarpızlı kəndinin adı Lçavan (Gölkənd), Kərkibaş kəndinin adı Şəfəq, 25 may 1967-ci il fərmanı ilə Yarpızlı kəndinin adı Lçavan (Gölkənd), Kərkibaş kəndinin adı Şəfəq, 5 iyul 1968-ci il fərmanı ilə Qaranlıq kəndinin adı Qexovit, 27 sentyabr 1968-ci il tarixli fərmanı ilə Aşağı Alçalı kəndinin adı Ardzvanist, 25 yanvar 1978-ci il tarixli fərmanı ilə Babacan kəndinin adı Tsanatağ, Kəsəmən kəndinin adı Bahar, Qaraiman kəndinin adı Sovetkənd, Qızılvəng kəndinin adı Makenis, İnəkdağ kəndinin adı Yenikənd, Yuxarı Zağalı kəndinin adı Axpadzor, Tatul qışlağı kəndinin adı Sovetakert, Hacı Muxan kəndinin adı Dzovazard kimi dəyişdirildi [107, 92; 32, 286-287].

Ermənistan Respublikası prezidentinin 19 aprel 1991-ci il fərmanı ilə Göyçə gölü hövzəsinin kənd adlarına qarşı sonuncu soyqırımı həyata keçirildi. Həmin fərmanla Kəsəmən (Bahar) kəndinin adı dəyişdirilərək Artunk, Böyük Məzrə kəndinin adı Mets Masrik, Kiçik Məzrə kəndinin adı Pokr Masrik, Qayabaşı kəndinin adı Keğamabak, Qaraiman (Sovetkənd) kəndinin adı Kaxaki, Qoşabulaq kəndinin adı Şadcrek, Dərəkəndi (Səmədağa Dərəsi) kəndinin adı Daranak, Böyük Qaraqoyunlu (Əzizli) kəndinin adı Norabak, Zərzebil (Zərkənd) kəndinin adı Kut, Zod kəndinin adı Sotk, İnəkdağ (Yenikənd) kəndinin adı Tretuk, Kərkibaş (Şəfəq) kəndinin adı Vanevan, Göysu (Günəşli) kəndinin adı Kutakan, Hüseynquluağalı (Nərimanlı) kəndinin adı Şatavan, Sarıyaqub kəndinin adı Caxqadzor, Subatan kəndinin adı Keğakar, Tatul qışlağı (Sovetakert) kəndinin adı Qarcaxbuyr, Şişqaya kəndinin adı Quqariç, Əyrivəng kəndinin adı Hayravan kimi dəyişdirildi [107, 92; 32, 286-287].

Tanınmış tədqiqatçı alim Nazim Mustafanın ermənilərin öz mənbələrinə əsaslanaraq yazdığı “Vandalizm. Tarixi adlara qarşı soyqırımı” adlı kitabında Göyçə mahalında adları dəyişdirilən azərbaycanlı yaşayış məntəqələrinin siyahısı aşağıdakı cədvəldə ümumiləşdirilmişdir [107, 7-54]:

*Cədvəl 1.*

**Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanlarına əsasən Ermənistan ərazisində (Göyçə mahalında) adları dəyişdirilmiş azərbaycanlılara məxsus yer adları**

| № | Azərbaycanlılara məxsus olan əvvəlki tarixi adı | Erməniləşdirilmiş yeni adı | Yerləşdiyi rayon | Adın dəyişdirilməsi haqqında fərmanların tarixi |
|---|---|---|---|---|
| 1 | Adamxan | Vardadzor | Martuni | 03.07.1968 |
| 2 | Ağbulaq | Ağperek | Krasnoselo | 09.04.1991 |
| 3 | Ağkilsə | Azat | Vardenis | 03.01.1935 |
| 4 | Ağqala | Berdunk | Kamo (Kəvər) | 09.04.1991 |
| 5 | Ağzıbir | Lçap | Kamo (Kəvər) | 07.12.1945 |
| 6 | Aşağı Adıyaman | Nerkin Getaşen | Martuni | 07.12.1945 |
| 7 | Aşağı Alçalı | Artsvanist | Martuni | 27.09.1968 |
| 8 | Aşağı Gözəldərə | Vardenis | Martuni | 07.12.1945 |
| 9 | Aşağı Qaranlıq rayonu | Martuni rayonu | ---- | 09.09.1930 |
| 10 | Aşağı Zağalı | Tsovak | Vardenis | 12.08.1946 |
| 11 | Avdalağalı | Vağaşen | Martuni | 03.01.1935 |
| 12 | Babacan | Qızılkənd Çanatağ | Vardenis | 15.07.1978 09.04.1991 |
| 13 | Bahar | Artunk | Vardenis | 09.04.1991 |
| 14 | Basarkeçər | Vardenis | Vardenis | 11.06.1969 |
| 15 | Başkənd | Geğarkunik | Kamo (Kəvər) | 04.04.1946 |
| 16 | Böyük Qaraqoyunlu | Əzizli Norabak | Vardenis | 03.01.1935 09.04.1991 |
| 17 | Böyük Mərzə | Medz Masrik | Vardenis | 09.04.1991 |
| 18 | Canəhməd (Sultanəliqışlağı) | Günəşli Kutakan | Vardenis | 03.07.1969 09.04.1991 |
| 19 | Çaxırlı | Sovetakert | Vardenis | 25.01.1978 |
| 20 | Çəmbərək | Krasnoselo Cambarak | Krasnoselo (Cambarak) | 1991-ci ildən sonra |

| № | Azərbaycanlıla ra məxsus olan əvvəlki tarixi adı | Ermənilәş dirilmiş yeni adı | Yerləşdiyi rayon | Adın dəyişdiril-məsi haqqında fərmanların tarixi |
|---|---|---|---|---|
| 21 | Çırçır | Varser | Sevan | 26.04.1946 |
| 22 | Çubuxlu | Tsovagyuğ | Sevan | 03.01.1935 |
| 23 | Daşkənd | Hayrk | Vardenis | 09.04.1991 |
| 24 | Dəlikdaş | Tsakkar | Martuni | 21.06.1948 |
| 25 | Dəliqardaş | Saruxan | Kamo (Kəvər) | 21.06.1948 |
| 26 | Dərə | Daranak | Vardenis | 09.04.1991 |
| 27 | Əfəndi | Noraşen | Sevan | 04.01.1938 |
| 28 | Əliqırıx | Astğadzor | Martuni | 03.01.1935 |
| 29 | Gödəkbulaq | Qarcaxpyur | Vardenis | 12.08.1946 |
| 30 | Göl | Liçk | Martuni | ------ |
| 31 | Güney | Arevuni | Vardenis | 09.04.1991 |
| 32 | Hacı Muğan | Tsovazard | Kamo (Kəvər) | 25.01.1978 |
| 33 | Hüseynquluağal ı | Nərimanlı Şatavan | Vardenis | 09.04.1991 |
| 34 | İnəkdağı | Yenikənd Tretuk | Vardenis | 25.01.1978 09.04.1991 |
| 35 | Kərimkənd | Tsaxkaşen | Kamo (Kəvər) | 02.03.1940 |
| 36 | Kərkibaş | Şəfəq Vanevan | Vardenis | 25.05.1967 09.04.1991 |
| 37 | Kəsəmən | Bahar | Vardenis | 25.01.1978 |
| 38 | Kəsikbaş | Lernakert | Martuni | 07.12.1945 |
| 39 | Qanlı | Qamışlı | Vardenis | 12.08.1946 |
| 41 | Qaranlıq | Geğhovit | Martuni | 03.07.1968 |
| 42 | Qayabaşı | Geğemabak | Vardenis | 09.04.1991 |
| 43 | Qırxbulaq | Akunk | Vardenis | 03.01.1995 |
| 44 | Qızılbulaq | Qarçaxbuyur | Vardenis | 1991-ci ildən |
| 45 | Qızılkənd | Tsovatağ | Vardenis | 09.04.1991 |
| 46 | Qızılvəng | Çiçəkli Makenis | Vardenis | 24.07.1940 |
| 47 | Qoşabulaq | Şadcrek | Vardenis | 09.04.1991 |
| 48 | Nərimanlı | Şatavan | Vardenis | 09.04.1991 |
| 49 | Oğruca | Qaraiman Sovetkənd Kaxakn | Vardenis | -- 25.01.1978 09.04.1991 |

| № | Azərbaycanlılara məxsus olan əvvəlki tarixi adı | Erməniləşdirilmiş yeni adı | Yerləşdiyi rayon | Adın dəyişdirilməsi haqqında fərmanların tarixi |
|---|---|---|---|---|
| 50 | Ördəkli | Lcaşen | Sevan | 26.04.1946 |
| 51 | Sarıyaqub | Çaxqadzor | Vardenis | 09.04.1991 |
| 52 | Satanağac | Güney Arevuni | Vardenis | 03.01.1935<br>09.04.1991 |
| 53 | Subatan | Geğakar | Vardenis | 09.04.1991 |
| 54 | Şəfəq | Vanevan | Vardenis | 09.04.1991 |
| 55 | Şişqaya | Quqariç | Vardenis | 09.04.1991 |
| 56 | Toxluca | Draxtik | Krasnoselo (Cambarak) | 19.04.1991 |
| 57 | Tüstülü | Lusakunk | Vardenis | 25.01.1978 |
| 58 | Vəliağalı | Dzoragyuğ | Martuni | -- |
| 59 | Yarpızlı | Lçavan | Vardenis | 25.05.1967 |
| 60 | Yaycı | Dzovaber | Sevan | 25.01.1978 |
| 61 | Yenikənd | Tretunk | Vardenis | 09.04.1991 |
| 62 | Yuxarı Adıyaman | Verin Getaşen | Martuni | 07.12.1945 |
| 63 | Yuxarı Zağalı | Axbradzor | Vardenis | 25.01.1978 |
| 64 | Zərkənd | Kut | Vardenis | 09.04.1991 |
| 65 | Zərzebil | Zərkənd | Vardenis | 03.01.1935 |
| 66 | Zod | Sotk | Vardenis | 09.04.1991 |
| 67 | Zolaxaç | Zolakar | Martuni | 03.01.1935 |

Bu cədvəldən də göründüyü kimi, erməni siyasi dairələri Azərbaycan türklərini etnik soyqırıma məruz qoymaqla yanaşı, xalqımızın tarixini və mənəvi mədəniyyətini özündə yaşadan toponimləri də vəhşicəsinə tarix səhnəsindən silmişlər. Bu, mənəvi-mədəni soyqırımın başlıca məqsədi ermənilərin müxtəlif yollarla qamarladıqları Azərbaycan torpaqlarının əsl sahiblərini unutdurmaq siyasətinə qulluq etməkdir.

### 1.2. Çar Rusiyasının işğalından sonra Göyçə mahalında ermənilərin məskunlaşdırılması və demoqrafik vəziyyətin dəyişməsi prosesi

Məlumdur ki, XVIII əsrin ortaları – XIX əsrin əvvəllərini əhatə edən xanlıqlar dövrünə aid yerli statistik qaynaqlar yox dərəcəsin-

dədir. O da məlumdur ki, İrəvan xanlığının inzibati bölgüsü haqqındakı məlumatlar əsasən Rusiya işğalından sonrakı dövrdə tərtib olunmuş qaynaqlarda saxlanıldığı üçün xanlıq dövründə mahallardakı, o cümlədən Göyçə gölü bölgəsini təmsil edən Dərəçiçək və Göyçə mahallarına daxil olan kəndlərin əhalisinin sayı və milli tərkibi haqqında səhih məlumatlar yox dərəcəsindədir.

Uzun sürən Rusiya-Qacar müharibələrinin faciəli nəticələri Göyçə gölü hövzəsindən də yan keçməmiş, Göyçə və Dərəçiçək mahallarında kəndlərin çoxu boşalmış, əhalisi qaçqın düşmüş və yaxud dağlara çəkilərək çox ağır vəziyyətdə yaşamışdır. İrəvan xanlığının sonuncu xanı Hüseynqulu sərdar Qacar (1807-1827) 1814-cü ildə qarapapaq tayfalarını bu ərazilərə köçürmək fikrinə düşdüyü zaman, burada dağıdılmış kəndlərin adlarını heç kim xatırlaya bilməmişdir. Sonralar aparılmış siyahıyaalmalarda 40-dan çox kəndin adının unudulduğu qeyd edilmişdir [216, 446].

10 fevral 1828-ci il Türkmənçay və 2 sentyabr 1829-cu il Ədirnə sülh müqavilələrinin müvafiq olaraq 15-ci və 13-cü maddələrinə əsasən Qacar və Osmanlı imperiyalarında yaşayan ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsinə başlanıldı.

Rusiya çarı I Nikolayın 1828-ci il 21 mart tarixli fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ərazisində "Erməni vilayəti" yaradıldı. 14 may 1829-cu ildə çar I Nikolayın fərmanı ilə Qafqazda əhalinin kameral siyahıyaalınmasının keçirilməsi qaydaları təsdiq olundu. İlk belə kameral siyahıyaalma İ.Şopen tərəfindən 1829-1832-ci illərdə keçirilmişdir.

1829-cu ilin əvvəlində qraf Paskeviç-Erivanskinin tapşırığı ilə kollec assesoru İ.Şopen Erməni vilayətində kameral siyahıyaalma keçirmişdir. Əlyazması 20 cilddən ibarət olan bu siyahıyaalmanın nəticələri müəllifin 1852-ci ildə nəşr edilən "Erməni vilayətinin Rusiya imperiyasına birləşdirilməsi dövrünün tarixi abidəsi" əsərində verilmişdir.

İ.Şopenin kameral siyahıyaalmasına görə Erməni vilayətində ümumilikdə 1111 kənd mövcud olmuşdur [216, 486]. Bu kəndlərdən179-u Göyçə hövzəsini əhatə edən 2 mahalın Göyçə (126 kənd) və Dərəçiçək (53 kənd) mahallarının payına düşürdü. Bu kəndlərdən 83-ü Rusiya-Qacar müharibələri dövründə tamamilə dağıdılıb viran edilmiş, əhalisinin böyük əksəriyyəti hərbi əməliyyatlar

zamanı tələf olmuş, az bir hissəsi isə doğma yurdlarından didərgin salınmışdı. Yuxarıda da qeyd olunduğu kimi, Dərəçiçək mahalında 16, Göyçə mahalında isə 67 belə kənd var idi. Daha da konkretləşdirsək kameral siyahıyaalma keçirilən vaxtda artıq Dərəçiçək mahalının Ada, Kiçik Ördəkli, Allahapənah, Barat, Qonaqgirməz, Eşşəkquduran, Çobanpölü, Keğab, Maman, Aydın, Şakirbaşı, Misxana, Sutökülən, Çiçəkli, Pirpalıd, Zeynalağa kəndlərində, Göyçə mahalının isə Buğdatəpə, Hacı Muxan, Allahverdibəy, Üçtəpə, Kərimkəndi, Yuxarı Altuntaxt, Aşağı Altuntaxt, Dəmirçi, Poqos, Əyricə, Atdaş, Axsaxtovuz, Karvansaray, Qasımbaşı, Mədinə, Baş Gözəldərə, Xancığazoğlu, Qızılkilsə, Böyükağa, Ağkilsə, Göyçə, Sultanəli, Sətənaxaç, Karvansaray, Əyricə, Kərimkəndi, Dəli Harutyun, Qəməsar və adı tamamilə unudulan digər 37 kənd büsbütün dağıdılmışdı və bu ərazilərdə adam yaşamırdı [216, 515-517].

Hər iki mahalda 96 kənd yaşayış üçün yararlı, qismən dağıdılmış kəndlər idi. Göyçə mahalında dağıdılmamış 59 kənddən 36-sında, Dərəçiçək mahalının 37 kəndindən 20-sində yaşayış olmuşdur [216, 591-599].

İ.Şopenin həyata keçirdiyi siyahıyaalmanın nəticələrini təhlil etməklə XİX əsrin 20-30-cu illərində Göyçə hövzəsi əhalisinin say və etnik tərkibi ilə bağlı müəyyən qənaət hasil etmək mümkündür.

Bu siyahıyaalmadan məlum olur ki, ermənilərin keçmiş İrəvan xanlığının ərazisinə köçürülüb gətirilməsinədək Dərəçiçək mahalında 231 müsəlman 92 erməni ailəsi olmaqla ümumilikdə 323 ailə, Göyçə mahalında isə 999 müsəlman və cəmi 15 erməni ailəsi olmaqla 1014 ailə yaşamışdır. Dərəçiçək mahalında yaşayış olan 20 kənddən 4-də (Arzakənd, Bjni, Tsaxkunq, Yaycı) ermənilər azərbaycanlılarla qarışıq şəkildə, yalnız 1 kənddə (Qomadzor) kompakt halda yaşamışdır. Göyçə mahalının yaşayış olan 36 kəndindən yalnız birinin – Heyranis kəndinin (13 ailə) 81 nəfərdən ibarət olan əhalisi tamamilə ermənilərdən ibarət olmuşdur. Zərzebil kəndində yaşayan 43 ailədən isə vur-tut 2 ailə (9 nəfər) erməni ailəsi olmuşdur.

Beləliklə, rus işğalından sonrakı ilk illərdə Göyçə hövzəsinin yerli əhalisinin ümumi sayı 7549 nəfər olmuşdur ki, onlardan da 1852 nəfər Dərəçiçəkdə, 5697 nəfər isə Göyçə mahalında yaşamışdır. Dərəçiçək mahalında azərbaycanlıların sayı 1300 nəfər, ermənilərin

sayı 552 nəfər, Göyçə mahalında azərbaycanlıların sayı 5607 nəfər, ermənilərin sayı isə cəmi 90 nəfər olmuşdur. Hər iki mahalda yaşayan ermənilərin ümumu sayı cəmi 642 nəfər olduğu halda Azərbaycan türklərinin sayı 6907 nəfər təşkil edirdi. Başqa sözlə desək, işğal başa çatandan sonrakı ilk illərdə ermənilər Göyçə hövzəsi əhalisinin yalnız 8,5%-ni təşkil etdiyi halda, azərbaycanlı türklərinin ümumi faiz nisbəti 91,4 % idi.

Göyçə hövzəsinin yaşayış olan kəndləri əsasında müharibə zamanı dağıdılmış və yaşayış olmayan kəndlərin əhalisinin və ümumilikdə işğal ərəfəsində bölgədə yaşayan əhalinin ümumu sayını da təxmini olaraq müəyyənləşdirmək mümkündür. Məlum olduğu kimi, işğaldan sonrakı ilk illərdə hər iki mahalın ümumilikdə 56 kəndində 1337 ailə yaşayırdı. Ailələrin sayını kəndlərin sayına bölməklə aydın olur ki, hər kənd orta hesabla təxminən 23 ailədən ibarət olmuşdur. Bu nisbətlə götürsək Göyçə hövzəsindəki 123 dağıdılmış və yaşayış olmayan kənddə təxminən 2829 ailənin yaşadığı məlum olur. Tarixşünaslıqda qəbul olunmuş ümumi bölgüyə əsaslanaraq hər ailəni orta hesabla 5 nəfərdən ibarət olaraq götürsək onda dağıdılmış kəndlərdə işğal ərəfəsində 14.145 nəfərin yaşadığı məlum olur. Bu rəqəmlə 1829-1831-ci illər kameral siyahıyaalması nəticəsində müəyyənləşmiş rəqəmi (7549) toplasaq işğal ərəfəsində Göyçə hövzəsində 22 mindən çox azərbaycanlının yaşadığı qənaətinə gəlmək olar. Yuxarıda adı çəkilən, eləcə də 1 və 2-ci cədvəllərdə əks olunmuş adlardan da göründüyü kimi, dağıdılan kəndlərin demək olar ki, hamısı azərbaycanlılar yaşayan kəndlər olmuşdur. Yuxarıda sadalanan faktları ümumiləşdirsək, birmənalı olaraq söyləmək mümkündür ki, Qərbi Azərbaycanın bütün bölgələri kimi Göyçə gölü hövzəsi də Azərbaycan türklərinin tarixən məskun olduğu və dominantlıq təşkil etdikləri bir ərazi olmuşdur. XIX əsrin 20-30-cu illərində də burada Azərbaycan türkləri bölgə əhalisinin etnik əksəriyyətini təşkil edirdi və ermənilərlə müqayisədə mütləq say üstünlüyünü qoruyub saxlamışdı.

İndi isə işğaldan sonrakı dövrdə İ.Şopenin təqdim etdiyi siyahı əsasında çar Rusiyasının müstəmləkəçilik siyasətinin nəticəsi olaraq bölgədə etnik-demoqrafik vəziyyətin necə dəyişildiyini izləyək:

*Cədvəl 1.2*

**Göyçə mahalı əhalisinin etnik və say tərkibi (1829-1831-ci illər) [216, 591-599]**

| № | Yaşayış yerləri | Yerli əhali (azərbaycanlı və erməni) | | | | | Köçürülənlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Qacarlar imperiyasından | | | | Osmanlı imperiyasından | | | |
| | | Ailə | Kişi | Qadın | Cəmi | Milliyyəti | Ailə | Kişi | Qadın | Cəmi | Ailə | Kişi | Qadın | Cəmi |
| 1 | Bığlı Hüseyn | 5 | 14 | 12 | 26 | Azərb. | | | | | | | | |
| 2 | Zeynalağalı | 10 | 27 | 18 | 45 | -//- | - | - | - | - | - | - | - | - |
| 3 | Rəhmankənd | 8 | 16 | 12 | 28 | -//- | - | - | - | - | - | - | -- | - |
| 4 | Ağqala | 7 | 21 | 18 | 39 | -//- | - | - | - | - | - | - | - | - |
| 5 | Əyrivəng | 12 | 41 | 24 | 65 | -//- | - | - | - | - | - | - | -- | - |
| 6 | Qızılçıq (Əbülkənd) | 19 | 68 | 40 | 108 | -//- | - | - | - | - | - | - | - | - |
| 7 | Noradüz | - | - | - | - | -//- | - | - | - | - | - | - | -- | - |
| 8 | Qışlaq | - | - | - | - | -//- | - | - | - | - | 30 | 93 | 86 | 179 |
| 9 | Kəvər | - | - | - | - | -//- | - | - | - | - | 258 | 698 | 648 | 1346 |

| № | Yaşayış yerləri | Yerli əhali (azərbaycanlı və erməni) | | | | | Köçürülənlər: Qacarlar imperiyasından | | | | Köçürülənlər: Osmanlı imperiyasından | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Ailə | Kişi | Qadın | Cəmi | Milliyyəti | Ailə | Kişi | Qadın | Cəmi | Ailə | Kişi | Qadın | Cəmi |
| 10 | Qul Əli | - | - | - | - | -//- | - | - | - | - | 140 | 361 | 348 | 709 |
| 11 | Kosa Məmməd | - | - | - | - | -//- | - | - | - | - | 73 | 252 | 237 | 489 |
| 12 | Paşakənd | - | - | - | - | -//- | - | - | - | - | 81 | 245 | 219 | 464 |
| 13 | Dəliqardaş | - | - | - | - | -//- | - | - | - | - | 116 | 352 | 342 | 700 |
| 14 | Kuzəcik | - | - | - | - | -//- | - | - | - | - | 42 | 132 | 134 | 266 |
| 15 | Başkənd | - | - | - | - | -//- | - | - | - | - | 28 | 86 | 92 | 178 |
| 16 | Heyranis | 13 | 47 | 34 | 81 | erm. | - | - | - | - | 44 | 127 | 124 | 251 |
| 17 | Atamxan | - | - | - | - | - | - | - | - | - | 28 | 101 | 68 | 169 |
| 18 | Vəli Ağalı | - | - | - | - | - | - | - | - | - | 56 | 162 | 160 | 322 |
| 19 | Təzəkənd | - | - | - | - | - | - | - | - | - | 12 | 37 | 40 | 77 |
| 20 | Dəlikdaş | - | - | - | - | - | - | - | - | - | 20 | 68 | 59 | 127 |
| 21 | Gölkəndi | - | - | - | - | - | - | - | - | - | 49 | 130 | 143 | 273 |
| 22 | Aşağı Adyaman | - | - | - | - | - | - | - | - | - | 62 | 178 | 153 | 331 |

| № | Yaşayış yerləri | Yerli əhali (azərbaycanlı və erməni) | | | | | Köçürülənlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Qacarlar imperiyasından | | | | Osmanlı imperiyasından | | | |
| | | Ailə | Kişi | Qadın | Cəmi | Milliyyəti | Ailə | Kişi | Qadın | Cəmi | Ailə | Kişi | Qadın | Cəmi |
| 23 | Yuxarı Adyaman | - | - | - | - | - | - | - | - | - | 16 | 50 | 44 | 94 |
| 24 | Əbdul Ağalı | - | - | - | - | - | - | - | - | - | 15 | 52 | 44 | 96 |
| 25 | Gözəldərə | - | - | - | - | - | - | - | - | - | 97 | 296 | 264 | 560 |
| 26 | Ağqıraq | - | - | - | - | - | - | - | - | - | 30 | 97 | 83 | 180 |
| 27 | Aşağı Qaranlıq | - | - | - | - | - | - | - | - | - | 54 | 153 | 150 | 303 |
| 28 | Yuxarı Qaranlıq | - | - | - | - | - | - | - | - | - | 60 | 212 | 177 | 389 |
| 29 | Zolağaç | - | - | - | - | - | - | - | - | - | 46 | 166 | 132 | 298 |
| 30 | Kolanı Qırılan | - | - | - | - | - | - | - | - | - | 23 | 77 | 74 | 151 |
| 31 | Alçalı | 16 | 54 | 45 | 99 | Azərb. | - | - | - | - | - | - | - | - |
| 32 | Qarasaqqal Qışlağı | 2 | 5 | 5 | 10 | -//- | - | - | - | - | - | - | - | - |
| 33 | Yarpızlı | 19 | 62 | 59 | 121 | -//- | - | - | - | - | - | - | - | - |
| 34 | Zağalı | 17 | 56 | 42 | 98 | -//- | - | - | - | - | - | - | - | - |

| № | Yaşayış yerləri | Yerli əhali (azərbaycanlı və erməni) | | | | | Köçürülənlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Qacarlar imperiyasından | | | | Osmanlı imperiyasından | | | |
| | | Ailə | Kişi | Qadın | Cami | Milliyyəti | Ailə | Kişi | Qadın | Cami | Ailə | Kişi | Qadın | Cami |
| 35 | Qızılbulaq | 36 | 117 | 95 | 212 | -//- | - | - | - | - | - | - | - | - |
| 36 | Qırxbulaq | 39 | 133 | 114 | 247 | -//- | - | - | - | - | - | - | - | - |
| 37 | Qanlı Allahverdi | 16 | 49 | 50 | 99 | -//- | - | - | - | - | - | - | - | - |
| 38 | Basarkeçər | 31 | 91 | 87 | 178 | -//- | - | - | - | - | - | - | - | - |
| 39 | Qoşabulaq | 16 | 60 | 57 | 117 | -//- | - | - | - | - | - | - | - | - |
| 40 | Aşağı Keyti (Salman kənd) | 29 | 85 | 79 | 161 | -//- | - | - | - | - | - | - | - | - |
| 41 | Baş Keyti | 15 | 46 | 29 | 75 | -//- | - | - | - | - | - | - | - | - |
| 42 | Yellicə | 71 | 215 | 164 | 379 | -//- | - | - | - | - | - | - | - | - |
| 43 | Daşkənd | 69 | 188 | 169 | 357 | -//- | - | - | - | - | - | - | - | - |
| 44 | Daş Keyti | 25 | 68 | 56 | 124 | -//- | - | - | - | - | - | - | - | - |
| 45 | Tatul Qışlağı | 29 | 81 | 67 | 148 | -//- | - | - | - | - | - | - | - | - |
| 46 | Zərzebil | 41/2 | 119/5 | 83/4 | 202/9 | qarışıq | - | - | - | - | - | - | - | - |

| № | Yaşayış yerləri | Yerli əhali (azərbaycanlı və ermənı) | | | | | Köçürülənlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Qacarlar imperiyasından | | | | Osmanlı imperiyasından | | | |
| | | Ailə | Kişi | Qadın | Cəmi | Milliyyəti | Ailə | Kişi | Qadın | Cəmi | Ailə | Kişi | Qadın | Cəmi |
| 47 | Zod | 44 | 145 | 100 | 245 | -//- | - | - | - | - | - | - | - | - |
| 48 | Ağyoxuş | 36 | 114 | 78 | 192 | -//- | - | - | - | - | - | - | - | - |
| 49 | Əyriçə (Ogruca) | 30 | 124 | 83 | 207 | -//- | - | - | - | - | - | - | - | - |
| 50 | Böyük Məzrə | 49 | 150 | 143 | 293 | -//- | - | - | - | - | - | - | - | - |
| 51 | Kiçik Məzrə | 39 | 130 | 97 | 227 | -//- | - | - | - | - | - | - | - | - |
| 52 | Kəsəmən | 31 | 94 | 72 | 166 | -//- | - | - | - | - | - | - | - | - |
| 53 | Şisqaya | 51 | 141 | 110 | 251 | -//- | - | - | - | - | - | - | - | - |
| 54 | Cil | 45 | 159 | 106 | 265 | -//- | - | - | - | - | - | - | - | - |
| 55 | Ardanış | 20 | 67 | 52 | 119 | -//- | - | - | - | - | - | - | - | - |
| 56 | Adatəpə | 22 | 82 | 47 | 129 | -//- | - | - | - | - | - | - | - | - |
| 57 | Şor Əli | 24 | 86 | 54 | 140 | -//- | - | - | - | - | - | - | - | - |
| 58 | Ağbulaq | 26 | 79 | 57 | 136 | -//- | - | - | - | - | - | - | - | - |
| 59 | Toxluca | 50 | 177 | 119 | 296 | -//- | - | - | - | - | - | - | - | - |

*Cədvəl 1.3*

**1829-1831-ci illərdə Dərəçiçək mahalı əhalisinin etnik və say tərkibi [216, 591-599]**

| № | Yaşayış yerləri | Yerli əhali (azərbaycanlı və erməni) | | | | | Köçürülənlər: Qacarlar imperiyasından | | | | Köçürülənlər: Osmanlı imperiyasından | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Ailə | Kişi | Qadın | Cəmi | Milliy-yəti | Ailə | Kişi | Qadın | Cəmi | Ailə | Kişi | Qadın | Cəmi |
| 1 | Alpars | 21 | 100 | 82 | 182 | qarışıq | 14 | 47 | 36 | 83 | 1 | 1 | 1 | 2 |
| 2 | Rövzanlar | 5 | 8 | 7 | 15 | Azərb | - | - | - | - | - | - | - | - |
| 3 | Gümüş | 9 | 29 | 19 | 48 | - | - | - | - | - | - | - | - | |
| 4 | Arzakənd | 345 | 922 | 813 | 1733 | qarışıq | - | - | - | - | 6 | 13 | 14 | 27 |
| 5 | Dəllər | 33 | 99 | 82 | 181 | Azərb. | - | - | - | - | - | - | - | - |
| 6 | Qabar Əli | 5 | 10 | 12 | 22 | -//- | - | - | - | - | - | - | - | - |
| 7 | Bjni | 3440 | 6912 | 6210 | 13122 | qarışıq | - | - | - | - | 8 | 32 | 15 | 47 |
| 8 | Solaq | 21 | 52 | 42 | 94 | Azərb. | - | - | - | - | 37 | 135 | 134 | 269 |
| 9 | Qaxsı | | | | | | 41 | 124 | 118 | 242 | 1 | 1 | 3 | 4 |
| 10 | Ağpara | | | | | | 34 | 97 | 77 | 174 | 5 | 10 | 13 | 23 |
| 11 | Makravəng | | | | | | 8 | 26 | 25 | 51 | 26 | 67 | 66 | 133 |

| № | Yaşayış yerləri | Yerli əhali (azərbaycanlı və erməni) | | | | | Köçürülənlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Qacarlar imperiyasından | | | | Osmanlı imperiyasından | | | |
| | | Ailə | Kişi | Qadın | Cəmi | Milliy-yəti | Ailə | Kişi | Qadın | Cəmi | Ailə | Kişi | Qadın | Cəmi |
| 12 | Aşağı Axta | | | | | | 53 | 162 | 146 | 308 | 5 | 15 | 16 | 31 |
| 13 | Yuxarı Axta | | | | | | 49 | 149 | 158 | 307 | 8 | 22 | 20 | 42 |
| 14 | Gəmiyov | | | | | | 42 | 116 | 123 | 239 | 30 | 90 | 89 | 179 |
| 15 | Rəndəməl | | | | | | 99 | 300 | 267 | 567 | 47 | 118 | 105 | 223 |
| 16 | Zəncirli | | | | | | - | - | - | - | 13 | 49 | 38 | 87 |
| 17 | Faruq | | | | | | - | - | - | - | 23 | 85 | 71 | 156 |
| 18 | Babakişi | | | | | | 21 | 64 | 53 | 117 | 16 | 62 | 51 | 113 |
| 19 | Dəlipaşa | 13 | 44 | 32 | 76 | Azərb. | - | - | - | - | - | - | - | - |
| 20 | Sərincan | 8 | 22 | 21 | 43 | -//- | - | - | - | - | - | - | - | - |
| 21 | Taycanx | - | - | | - | - | - | - | - | - | 52 | 180 | 156 | 236 |
| 22 | Qorçulu | 14 | 45 | 37 | 82 | -//- | - | - | - | - | - | - | - | - |
| 23 | Çopur Əli | 7 | 16 | 12 | 28 | Azərb. | - | - | - | - | - | - | - | - |
| 24 | Dədəqışlaq | 5 | 12 | 11 | 23 | -//- | - | - | - | - | - | - | - | - |
| 25 | Təkəlik | 7 | 24 | 17 | 41 | -//- | - | - | - | - | - | - | - | - |

| № | Yaşayış yerləri | Yerli əhali (azərbaycanlı və erməni) | | | | | Köçürülənlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Qacarlar imperiyasından | | | | Osmanlı imperiyasından | | | |
| | | Ailə | Kişi | Qadın | Cəmi | Milliy-yəti | Ailə | Kişi | Qadın | Cəmi | Ailə | Kişi | Qadın | Cəmi |
| 26 | Üləşik | 12 | 36 | 30 | 66 | -//- | - | - | - | - | - | - | - | - |
| 27 | Qaraqala | 13 | 37 | 39 | 76 | -//- | - | - | - | - | - | - | - | - |
| 28 | Qoruqgüney | 12 | 22 | 18 | 40 | -//- | - | - | - | - | - | - | - | - |
| | Yaycı | 1 | 2 | 2 | 4 | erm. | 41 | 14 7 | 129 | 276 | 14 | 26 | 33 | 59 |
| 30 | Tutmaşen | - | - | - | - | - | 60 | 212 | 179 | 391 | 17 | 44 | 33 | 77 |
| 31 | Tsaxkunq | 134 | 5612 | 4606 | 10218 | qar. | 33 | 130 | 117 | 247 | 89 | 74 | 71 | 145 |
| 32 | Şahruz | - | - | - | - | - | 49 | 169 | 161 | 330 | 13 | 47 | 45 | 92 |
| 33 | Çer-çer | - | - | - | - | - | - | - | - | - | 17 | 70 | 56 | 126 |
| 34 | Böyük Ördəkli | - | - | - | - | - | 31 | 98 | 105 | 203 | 27 | 94 | 82 | 176 |
| 35 | Qomadzor | 20 | 79 | 63 | 142 | erm. | | | | | 10 | 23 | 23 | 46 |
| 36 | Çaxmaberd | - | - | - | - | - | - | - | - | - | 4 | 12 | 13 | 25 |
| 37 | Çubuxlu | 13 | 47 | 34 | 81 | erm. | | | | | 130 | 450 | 395 | 845 |

Məlum olduğu kimi, çar hökumətinin bütün dövrlər ərzində ermənilərlə bağlı yeritdiyi siyasətin kökündə imperator I Pyotrun 1724-cü il noyabr tarixli fərmanı dururdu. Hələ 1722-1723-cü illərdə I Pyotrun ordusunun Xəzərətrafı vilayətlərə işğalçı yürüşü ərəfəsində və bu yürüş zamanı böyük canfəşanlıq göstərən, özünü çarizmə "sədaqətli xalq" kimi təqdim etməyi bacaran ermənilər çar hakim dairələrinin nəzər-diqqətini öz üzərlərinə çəkməyi bacardılar və bu fərmanla sonrakı mövcudluqlarını davam etdirmək üçün etibarlı təminat almağa çalışdılar. 1826-1828-ci illərdə baş vermiş II Rusiya-Qacar müharibəsinin gedişində İrəvan və Naxçıvan xanlıqlarının Rusiya tərəfindən işğalı çarizmin ermənilərlə bağlı planlarını həyata keçirmək üçün real şərait yaratdı.

Qeyd olunduğu kimi, 1828-ci il fevralın 10-da Qacarlar dövləti ilə imzalanan Türkmənçay, 1829-cu il sentyabrın 2-də isə Osmanlı imperiyası ilı imzalanan Ədirnə sülh müqavilələri çar hakim dairələrinin əlində ermənilərin tarixi Azərbayçan torpaqlarında, o cümlədən də Göyçə mahalında məskunlaşdırılması üçün təminat oldu.

Əvvəlcə Türkmənçay müqaviləsi əsasında ermənilərin bölgəyə köçürülməsi məsələlərini nəzərdən keçirək: Qatı ermənipərəst mövqeləri ilə və bütün qeyri-rus, qeyri-xristian xalqlarına, xüsusən də müsəlmanlara qarşı xüsusi nifrəti ilə seçilən Rusiyanın Qacarlar dövlətindəki yeni səfiri A.S.Qriboyedov və Qafqazdakı rus qoşunlarının komandanı Paskeviçin səyləri ilə Türkmənçay müqaviləsinin mətninə salınmış XV maddədə "traktatın bağlandığı gündən hesablanaraq məmur və sakinlərə öz ailəsi ilə birgə İran əyalətlərindən Rusiyaya sərbəst keçmək, daşınar əmlakını aparmaq və ya satmaq üçün bir il vaxt verilir; daşınmaz əmlaka gəldikdə onun satışı üçün beş il müddət müəyyən edilir"di [104, 65]. Müqavilədə konkret qeyd edilməsə də hadisələrin sonrakı gedişi göstərdi ki, məhz bu maddə çarizmin ermənilərlə bağlı köçürmə planlarını özündə ehtiva edirdi. Rusiyanın Qacarlar dövlətindəki səfiri Qriboyedov da, rus yazıçısı və jurnalisti Sergey Qlinka da öz əsərlərində Türkmənçay müqaviləsinin "ermənilərin köçürülməsinə tam hüquq verdiyini" qeyd edirdilər [155, 339-341; 154, 97].

Rus hökuməti Qacarlar dövləti ərazisindən ermənilərin köçürülməsi ilə bağlı hazırlıq işlərinə hələ 1827-ci ildə başlamışdı və bu məqsədlə həmin ilin mayında ermənilər arasında böyük nüfuza malik olan erməni polkovnik Lazarev (Eqiazar-Qazaros Lazaryan) Peterburqdan xüsusi tapşırıqla Paskeviçin sərəncamına göndərilmişdi [154, 97]. Çox keçmədən Lazarevin yaxından iştirakı ilə Cənubi Azərbaycan erməniləri arasında iş aparmaq üçün bu əraziyə xüsusi dəstə təhkim olunmuşdu. Rusiya və Qacarlar dövlətinin nümayəndələri arasında 1827-ci ilin noyabrında Dehqarqanda keçirilən danışıqlar zamanı erməni arxiyepiskopu Nersesin göndərdiyi nümayəndələr Qriboyedovla Paskeviçdən ermənilərin köçürülməsi qayğısına qalmağı da xahiş etmişdilər. Dekabr ayında Paskeviç Tiflisin hərbi qubernatoru Sipyaginə göndərdiyi məktubunda Urmiya ətrafında yaşayan15 min yunan və ermənının Rusiyanın əyalətlərinə köçmək istədiyini bildirmiş, Sipyagin də cavabında onların İrəvan və Naxçıvan əyalətlərində yerləşdirilməsinin daha münasib olacağını bildirmişdi [158, 129].

Türkmənçay müqaviləsi imzalandıqdan dərhal sonra, 1828-ci il fevralın 14-də Lazarev tərəfindən Paskeviçə göndərilən xüsusi raportda "müharibə zamanı rusların qələbəsi üçün fədakarcasına çalışan ermənilərin" Rusiya əyalətlərinə köçmək istəyi bir daha ifadə olunur və təxirə salınmadan köçürmə işlərinə başlamaq təklif edilirdi.

Paskeviç 1828-ci il fevralın 26-da Lazarevə və fevralın 29-da isə Müvəqqəti İrəvan idarəsinə göndərdiyi 19 maddəlik xüsusi təlimatda "həmin ərazilərdə xristian əhalisinin sayını mümkün qədər artırmaq üçün köçürülənlərin İrəvan və Naxçıvan əyalətlərinə istiqamətləndirilməsinin zəruriliyini" vurğulayırdı. Köçürülən ermənilər üçün geniş güzəşt və imtiyazlar nəzərdə tutulurdu. Təlimata əsasən köçürülən ailələrin sayına uyğun xəzinə fondundan müvafiq torpaq sahələrinin ayrılması, köçürülənlərin 6 il müddətində bütün vergilərdən, 3 il müddətində isə mükəlləfiyyətlərdən azad edilmələri, adət-ənənələrinin və təsərrüfat vərdişlərinin saxlanmasına şərait yaradılması, xəstəlik və ölümdən qorunmaları üçün məskunlaşdırıldıqları ərazilərin iqlim şəraitinə xüsusi diqqət yetirilməsi (dağlıq ərazilərdən köçürülənlərin dağlıq, düzən ərazilərdən köçürülənlərin isə düzən əra-

zilərdə yerləşdirilməsi), ilkin taxıl səpini və təsərrüfatın dirçəldilməsi üçün köçürülənlərə bərabər miqdarda faizsiz kredit verilməsi nəzərdə tutulurdu. Mümkün qarşıdurmalardan qaçmaq üçün köçürülənlərin müsəlmanların yaşadıqları kəndlərdə yox, ayrıca dairə və mahallarda yerləşdirilməsi planlaşdırılırdı [154, 98-107].

Bir çox hallarda Lazarev və onun yerlərə göndərdiyi nümayəndələr Türkmənçay müqaviləsini və onlara verilən təlimatı pozaraq erməniləri könüllü deyil, zorakılıqla köçürməyə cəhd göstərirdilər. Bununla əlaqədar Abbas Mirzə iki dəfə polkovnik Lazarevə müraciət edir ki, onun itaətində olan zabitlərin erməniləri zorla köçürməsi hallarına son qoysun və Türkmənçay müqaviləsinin şərtlərinə əməl etsin [5, 28].

Lazarev erməniləri köçürməyə həvəsləndirmək məqsədilə 1828-ci il martın 30-da onlara xüsusi müraciət də ünvanlamışdı və bu müraciətdə o, Rusiyanın ermənilərə vəd etdiyi güzəştləri sadalayırdı [154, 98-107].

Nəhayət ki, cəmi bir neçə ay ərzində Qacarlar dövləti ərazisindən ermənilərin keçmiş İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərinə köçürülməsi həyata keçirildi. Polkovnik Lazarevin köçürmənin yekunları ilə bağlı qraf Paskeviç – Erivanskiyə yazdığı 24 dekabr 1829-cu il tarixli hesabatda 1828-ci il 26 fevral – 11 iyun tarixləri ərzində 100-ə qədər aysor ailəsi də daxil olmaqla 8249 xristian ailəsinin (qalanları ermənilər olmuşdur) İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürüldüyünü, köçürmə işlərinə xəzinədən 16000 çervon və 400 gümüş manat xərcləndiyini bildirirdi [154, 112-134]

İ.Şopenin statistik məlumatları əsasında köçürülən ermənilərin Göyçə mahalında yerləşdirilməsi prosesini də nisbətən dəqiqliklə izləmək mümkündür. Belə ki, Qacarlar dövləti ərazisindən – Marağa, Urmiya, Maku və Xoydan ümumilikdə Erməni vilayətinə köçürülmüş 6949 ailədən (35560 nəfər) 575 ailə (3535 nəfər) Dərəçiçək mahalında yerləşdirilmişdir. 2-ci cədvəldən də göründüyü kimi ermənilər mahalın Qaxsı (41 ailə, 242 nəfər), Ağpara (34 ailə, 174 nəfər), Makravəng (8 ailə, 51 nəfər), Aşağı Axta (53 ailə, 308 nəfər), Yuxarı Axta (49 ailə, 307 nəfər), Qarnigöv (42 ailə, 239 nəfər), Rəndamal (99 ailə, 567 nəfər), Babakişi (21 ailə, 117 nəfər),

Yaycı (41 ailə, 276 nəfər), Tutmaşen (60 ailə, 391 nəfər), Çaxkunq (33 ailə, 247 nəfər), Şahriz (49 ailə, 330 nəfər), Böyük Ördəkli (31 ailə, 203 nəfər) kəndlərində məskunlaşdırılmışdılar. Bu kəndlərdən ikisində – Yaycıda 4 nəfərdən ibarət 1 erməni ailəsi, Çaxkunqda isə 13 nəfərdən ibarət 4 müsəlman ailəsi və 102 nəfərdən ibarət 56 erməni ailəsi daha əvvəldən yaşayırdı. Adı çəkilən digər kəndlər isə ermənilərin köçürüldüyü dövrdə ümumiyyətlə yaşayış olmayan kəndlər idi [216, 593-595].

Onu da qeyd edək ki, Qacarlar dövlətindən Göyçə mahalına ermənilərin köçürülməsi qeydə alınmamışdır.

1826-1828-ci illər Rusiya-Qacar müharibəsi Osmanlı-Rusiya münasibətlərini də son dərəcə kəskinləşdirdi və 1828-ci ilin aprelində iki dövlət arasında müharibəyə gətirib çıxardı. Hərbi əməliyyatların elə ilk vaxtlarından üstünlüyü ələ alan rus qoşunları Paskeviçin komandanlığı altında Şərqi Anadoluya hücuma başladı və Qars, Ahalkələk, Ahıska, Ərdəhan, Bəyazidi ələ keçirdi. 1829-cu ildə baş verən hərbi əməliyyatlar gedişində isə osmanlılar Ərzurum, Muş, Oltun, Bayburdu itirdilər. Rus qoşunlarının sürətlə irəliləməsi Osmanlı sultanı II Mahmudu barışıq istəməyə məcbur etdi.

Osmanlı və Rusiya dövlətləri arasında 1829-cu il sentyabrın 2-də imzalanan Ədirnə müqaviləsinə görə, Rusiya Ahalkələk və Ahıska bölgələri istisna olmaqla iki ildə işğal etdiyi bütün digər əraziləri Osmanlı dövlətinə qaytardı. Bu müqaviləyə əsasən Osmanlı dövləti Şimali Azərbaycanın və bütün Cənubi Qafqazın Rusiya tərəfindən zəbt olunmasını tanımalı oldu, Rusiyanın Orta Şərqdə və Balkanlarda mövqeləri daha da möhkəmləndi, Qara dənizdə ticarətin genişlənməsi üçün şərait yarandı [20, 52].

Ədirnə müqaviləsinin 13-cü maddəsində Osmanlı dövlətinin işğal olunmuş ərazilərində qalan ermənilərin 18 ay müddətində daşınan əmlakları ilə birgə Rusiya ərazilərinə köçürülməsi nəzərdə tutulurdu. Müqaviləyə bu maddənin salınması təsadüfi deyildi. Çünki 1828-1829-cu illərdə baş verən hərbi əməliyyatlar zamanı Qars, Ərdəhan, Bəyazid, Ərzurum və başqa bölgələrdə yaşayan ermənilər Osmanlı hökumətinə xəyanət edərək ruslara böyük kömək göstərmişdilər. Rus qoşunlarının komandanlığı isə ermənilərin

imperator sarayına növbəti “sədaqətli xidməti”nin qarşılığı olaraq onları yeni işğal edilmiş ərazilərə köçürməyi və bununla da Osmanlı ilə sərhəd boyu ərazilərdə xristianların say üstünlüyünü təmin etməyi qərara almışdı.

1829-cu il oktyabrın 10-da imperator I Nikolaya yazdığı raportunda da Paskeviç hərbi əməliyyatlar zamanı ruslara yaxından yardım göstərən ermənilərə “diqqət yönəltməyi, Rusiyaya göstərdikləri məhəbbətə görə osmanlıların onlardan qisas almasına yol verməməyi” xahiş edir və imperatordan erməni ailələrini Gürcüstan və Erməni vilayətlərində yerləşdirmək üçün icazə istəyirdi [5, 35].

Paskeviçin təklifi Rusiya imperator sarayında razılıqla qarşılandı və bundan sonra ermənilərin Osmanlı imperiyası ərazisindən köçürülməsi istiqamətində əməli fəaliyyətə başlanıldı. Rusiya hökumətinin tapşırığı əsasında köçürmə işlərinə və köçürülən ailələrin məskunlaşdırılması işinə rəhbərlik etmək üçün xüsusi komitə təsis edildi. Komitənin fəaliyyəti üçün Paskeviç tərəfindən müəyyən edilən 12 maddəlik ümumi qaydalar Qacarlar ərazisindən ermənilərin köçürülməsi üçün tərtib olunan təlimatlardan, demək olar ki, fərqlənmirdi. Bu qaydalarda da Osmanlı imperiyası ərazisindən köçürülən ermənilərə hər cür dövlət qayğısının göstərilməsi, hər kənddə ailələrin, hər ailədə nəfərlərin sayına münasib olaraq köçürülənlərin lazımi qədər torpaqla təmin edilməsi, onların 6 il müddətinə vergilərdən, 3 il müddətinə mükəlləfiyyətlərdən azad edilməsi, köçürülən hər bir ailəyə orta hesabla 25 rubl gümüş pul həcmində köməklik göstərilməsi nəzərdə tutulurdu. Köçürülən ermənilərin yığcam halda, təbii gözəlliyi, yaxşı iqlimi, saf suyu olan dağətəyi rayonlarda və şəhərlərdə yerləşdirilməsi xüsusi olaraq nəzarətdə saxlanılmalı idi. Osmanlı imperiyası ərazisindən ermənilərin köçürülməsi işlərini həyata keçirmək məsələsi general Pankratyevə həvalə edilmişdi.

Ərazisində pərakəndə halda yaşayan ermənilərin ruslar tərəfindən köçürülüb sərhəd boyu ərazilərdə yığcam halda yerləşdirilməsindən ehtiyat edən Osmanlı hökuməti köçürməyə mane olmaq üçün bir sıra tədbirlər həyata keçirdi. 1830-cu il fevralın 17-də

verilən "Əfvnamə"lərdə rusların gəlişi zamanı ermənilərin türklərə etdiyi xəyanətin, törətdikləri vəhşiliklərin bağışlanması vəd olunsa da ermənilərin əksəriyyəti köçmək niyyətindən əl çəkmədilər.

Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında verilən və 1831-ci il aprelin 3-nə aid olan sənəddə Osmanlı imperiyası ərazisindən köçürülən erməni ailələrinin təxmini sayı və məskunlaşdırıldıqları ərazilərin adları göstərilmişdir. Həmin siyahıda İrəvan bölgəsinə köçürülən 14044 ailədən, Göyçə gölü ətrafına və Baş Abaran mahalına Osmanlı imperiyasının Bəyazid paşalığından 4215 ailənin (25290 nəfər erməni) köçürüldüyü göstərilir [134, 830].

Rus imperatorunun fərmanı ilə 1831-ci il aprelin 24-də Osmanlı imperiyasından köçürülən ermənilərin təsərrüfat ehtiyaclarını ödəmək üçün 6 il müddətinə faizsiz olaraq qaytarmaq şərti ilə xəzinədən 380 min gümüş rubl ayrılmışdı [5, 40].

Osmanlı imperiyası ərazisindən köçürülən 539 erməni ailəsi (3535 nəfər) Dərəçiçək mahalında, 1485 ailə (8557 nəfər) isə Göyçə mahalında yerləşdirilmişdir. Dərəçiçək mahalında ermənilər aşağıdakı kəndlərdə yerləşdirilmişdilər: Alapars 1 ailə (2 nəfər), Arzakənd 6 ailə (27 nəfər), Bjni 8 ailə (47 nəfər), Sollak 37 ailə (269 nəfər), Qaxsı 1 ailə (4 nəfər), Ağpara 5 ailə (23 nəfər), Makravəng 26 ailə (133 nəfər), Aşağı Axta 5 ailə (31 nəfər), Yuxarı Axta 8 ailə (42 nəfər), Gərniyov kəndi 30 ailə (179 nəfər), Rəndəməl 47 ailə (223 nəfər), Zəncirli 13 ailə (38 nəfər), Faruq 23 ailə (156 nəfər), Babakişi 16 ailə (113 nəfər), Tayçarıx 52 ailə (336 nəfər), Yaycı 14 ailə (59 nəfər), Tutmaşen 17 ailə (77 nəfər), Tsaxkunq 29 ailə (145 nəfər), Şahruz 13 ailə (92 nəfər), Çer-çer 17 ailə (126 nəfər), Böyük Ördəkli 27 ailə (176 nəfər), Qomadzor 10 ailə (46 nəfər), Çaxmaberd 4 ailə (25 nəfər), Çubuxlu 130 ailə (845 nəfər) [216, 591-598].

Göyçə mahalında isə ermənilər kəndlər üzrə aşağıdakı sayda yerləşdirilmişdilər: Qışlaq 30 ailə (179 nəfər), Kəvər 258 ailə (1346 nəfər), Qul Əli 140 ailə (709 nəfər), Kosa Məmməd 73 ailə (489 nəfər), Paşakənd 81 ailə (464 nəfər), Dəliqardaş 116 ailə (700 nəfər), Kuzəcik 42 ailə (266 nəfər), Başkənd 28 ailə (178 nəfər), Heyranis 44 ailə (251 nəfər), Atamxan 28 ailə (169 nəfər), Vəliağalı 56 ailə (322 nəfər), Təzəkənd 12 ailə (77 nəfər), Dəlikdaş 20 ailə (127

nəfər), Gölkəndi 49 ailə (273 nəfər), Aşağı Adyaman 62 ailə (331 nəfər), Yuxarı Adyaman 16 ailə (94 nəfər), Əbdulağalı 15 ailə (96 nəfər), Gözəldərə 97 ailə (560 nəfər), Ağqıraq 30 ailə (180 nəfər), Aşağı Qaranlıq 54 ailə (303 nəfər), Yuxarı Qaranlıq 60 ailə (389 nəfər), Zolağaç 46 ailə (298 nəfər), Kolanıqırılan 23 ailə (151 nəfər) [216, 591-598].

Beləliklə, rus işğalından sonrakı ilk illərdə həyata keçirilən köçürmələrdən sonra Göyçə hövzəsində etnik-demoqrafik vəziyyət kəskin şəkildə dəyişdirilməyə başladı. Dərəçiçək mahalına Qacarlar dövlətindən 3535 (575 ailə), Osmanlı imperiyasından 3263 (539 ailə) erməni köçürüldükdən sonra mahalda əhalinin ümumi sayı 8650 nəfərə (1437 ailə) çatmışdır. Nəticədə mahaldakı ermənilərin xüsusi çəkisi 29,8%-dən 85%-ə qədər yüksəlmişdir. Göyçə mahalına 1828-1830-cu illərdə Bitlis, Alaşkert, Muş, Sasun və Bəyazid vilayətlərindən köçürülən 8557 nəfər erməni (1485 ailə) əhalisi hesabına mahalda əhalinin ümumi sayı 14254 nəfərə (2499 ailə), ermənilərin xüsusi çəkisi isə 1,5%-dən 60,7%-ə yüksəlmişdir.

Çar Rusiyasının Göyçə mahalında həyata keçirdiyi etnik siyasət nəticəsində sonrakı onilliklərdə də bölgənin demoqrafik vəziyyəti azərbaycanlıların ziyanına dəyişməkdə davam edirdi. Bunu aşağıda gətirilən cədvəllərdə də görmək mümkündür:

**Yeni Bəyazid qəzası üzrə**

*Cədvəl 1.4*

**Qəzanın cənub-qərb hissəsi üzrə (1873-cü ilin məlumatına görə) [187, 319]**

| № | Kəndlərin adı | Əhali | | | | |
|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | Milliy-yəti |
| 1 | Abdul-Ağalı | 41 | 227 | 223 | 450 | erm |
| 2 | Yuxarı Adyaman | 74 | 395 | 386 | 781 | erm |
| 3 | Aşağı .Adyaman | 107 | 579 | 522 | 1101 | -//- |
| 4 | Əliqırıx | 97 | 461 | 492 | 953 | -//- |
| 5 | Atamxan | 72 | 398 | 342 | 740 | -//- |
| 6 | Yuxarı Alçalı | 61 | 255 | 214 | 469 | azərb |
| 7 | Aşağı Alçalı | 114 | 494 | 506 | 1000 | erm |
| 8 | Basarkeçər | 164 | 831 | 806 | 1637 | -//- |
| 9 | Başkənd | 73 | 391 | 342 | 733 | qar. |
| 10 | Baş Gözəldərə | 38 | 117 | 119 | 236 | azərb |

| № | Kəndlərin adı | Əhali | | | | |
|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | Milliy-yəti |
| 11 | Vəliağalı | 132 | 625 | 680 | 1305 | erm |
| 12 | Gödək bulaq | 68 | 347 | 328 | 675 | qar. |
| 13 | Gölkənd | 101 | 514 | 568 | 1082 | erm |
| 14 | Gözəldərə | 241 | 1124 | 1181 | 2305 | erm |
| 15 | Dəliqardaş | 189 | 1240 | 1117 | 2357 | Erm |
| 16 | Zağalı | 66 | .316 | 347 | 663 | -//- |
| 17 | Zolaxaç | 148 | 768 | 773 | 1541 | -//- |
| 18 | Eşək-Karvan-Saray | 33 | 119 | 126 | 245 | azərb |
| 19 | Aşağı Qaranlıq | 95 | 500 | 512 | 1012 | erm |
| 20 | Yuxarı Qaranlıq | 123 | 597 | 551 | 1148 | erm |
| 21 | Kolanıqırılan | 85 | 523 | 466 | 989 | erm |
| 22 | Qızılbulaq (Çaxırlı) | 86 | 523 | 466 | 989 | erm |
| 23 | Qızılvəng | 59 | 238 | 206 | 444 | -//- |

| № | Kəndlərin adı | Əhali | | | | |
|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | Milliy-yəti |
| 24 | Qızılxaraba | 17 | 62 | 58 | 120 | -//- |
| 25 | Qızılxaraba (B.Zağal) | 65 | 294 | 398 | 692 | -//- |
| 26 | Qırxbulaq | 62 | 352 | 398 | 750 | -//- |
| 27 | Qışlaq | 112 | 555 | 450 | 1005 | erm |
| 28 | Qanlıallahverdi | 25 | 154 | 139 | 293 | azərb |
| 29 | Kosaməmməd | 107 | 638 | 645 | 1283 | erm |
| 30 | Quluəli | 186 | 707 | 663 | 1370 | |
| 31 | Küzəcik | 74 | 440 | 430 | 770 | erm |
| 32 | Kərimkənd | 37 | 216 | 206 | 422 | -//- |
| 33 | Kərkibaş | 23 | 124 | 115 | 239 | azərb |
| 34 | Yuxarı Mədinə | 13 | 71 | 60 | 131 | rus |
| 35 | Aşağı Mədinə | 15 | 71 | 51 | 122 | -//- |
| 36 | Nadejdino (Şorça) | 41 | 100 | 113 | 213 | rus |

*Cədvəl 1.5*

| № | Kəndlərin adı | Əhali | | | | |
|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | Milliy-yəti |
| 37 | Noradüz | 236 | 1018 | 1030 | 2048 | erm |
| 38 | Paşakənd | 234 | 945 | 884 | 1819 | erm |
| 39 | Subatan | 28 | 122 | 121 | 243 | azərb |
| 40 | Təzəkənd | 76 | 364 | 396 | 760 | erm |
| 41 | Tüstülü | 27 | 149 | 136 | 285 | erm |
| 42 | Xartlıq | 20 | 89 | 60 | 139 | azərb |
| 43 | Çakkar (Dəlikdaş) | 46 | 235 | 310 | 545 | erm |
| 44 | Çamırlı | 37 | 144 | 145 | 289 | azərb |
| 45 | Heyranıs | 111 | 682 | 634 | 1316 | erm |
| 46 | Yanıx | 57 | 181 | 162 | 243 | kürd |
| 47 | Yarpızlı | 39 | 236 | 216 | 452 | azərb |

**Yeni Bəyazid qəzasının şimal-şərq hissəsi üzrə [187, 320]**

| № | Kəndlərin adı | Əhali | | | | |
|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti |
| 1 | Ağbulaq | 75 | 305 | 22 | 527 | azərb. |
| 2. | Ağverən | 35 | 126 | 113 | 239 | -//- |
| 3. | Ağzıbir | 67 | 290 | 240 | 530 | -//- |
| 4. | Əyrivəng | 57 | 229 | 213 | 442 | -//- |
| 5. | Alapars | 178 | 902 | 841 | 1743 | erm. |
| 6. | Aleksandrovka | 31 | 77 | 63 | 140 | rus |
| 7. | Ardanış | 52 | 29 | 235 | 526 | azərb. |
| 8. | Ağqala | 31 | 143 | 105 | 248 | -//- |
| 9. | Ağkilsə | 30 | 179 | 147 | 326 | -//- |
| 10. | Ağpara | 43 | 253 | 284 | 537 | erm. |
| 11. | Yuxarı Axta | 118 | 645 | 587 | 1232 | -//- |
| 12. | Aşağı Axta | 195 | 770 | 696 | 1966 | -//- |
| 13. | Aşağı Axta | 47 | 157 | 165 | 322 | rus |
| 14. | Babakişi | 54 | 298 | 302 | 600 | erm. |
| 15. | Babacan dərəsi | 16 | 68 | 58 | 126 | azərb. |
| 16. | Bığlı Hüseynsaraşlı | 43 | 263 | 225 | 488 | -//- |
| 17. | Hacı Muxan | 60 | 12 | 13 | 625 | -//- |
| 18. | Hüseynquluağalı | 65 | 367 | 354 | 721 | -//- |
| 19. | Gümüş | 31 | 163 | 150 | 313 | -//- |
| 20. | Dəvəxaraba | 28 | 152 | 152 | 304 | kürd |
| 21. | Dəvəqışlaq | 21 | 155 | 129 | 284 | azərb. |
| 22 | Dəlləkli | 20 | 138 | 131 | 269 | azərb. |
| 23 | Dəlipaşa (Paşakənd) | 44 | 245 | 203 | 448 | -//- |
| 24 | Cil | 63 | 294 | 271 | 565 | -//- |
| 25 | Yelenovka | 182 | 583 | 559 | 1142 | rus |
| 26 | Zərzebil | 48 | 314 | 276 | 590 | azərb. |
| 27 | Zod | 119 | 541 | 501 | 1042 | -//- |
| 28 | İnəkdağı | 23 | 239 | 220 | 459 | -//- |
| 29 | Qabaxlı (Zar) | 13 | 73 | 69 | 142 | kürd |
| 30 | Qaraqoyunlu | 33 | 217 | 194 | 411 | azərb. |

| № | Kəndlərin adı | Əhali | | | | |
|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti |
| 31 | Ellicə | 20 | 106 | 105 | 211 | -//- |
| 32 | Karvansaray (Qarnıyarıx) | 116 | 701 | 692 | 1393 | erm. |
| 33 | I Qaraqala (Misxan) | 17 | 113 | 113 | 226 | azərb. |
| 34 | II Qaraqala (Qırxbulaq) | 44 | 236 | 207 | 443 | -//- |
| 35 | Qaxsı | 119 | 616 | 565 | 1181 | erm. |
| 36 | Qayabaşı | 21 | 89 | 78 | 167 | azərb. |
| 37 | Yeni Keyti | 54 | 275 | 236 | 511 | -//- |
| 38 | Qızqala | 14 | 103 | 93 | 196 | -//- |
| 39 | Konstantinovka (Dərəçiçək) | 37 | 149 | 120 | 269 | rus |
| 40 | Qoruxgüney | 18 | 93 | 82 | 175 | azərb. |
| 41 | Qorçalı (Allahverdi kənd) | 18 | 107 | 124 | 231 | -//- |
| 42 | Qoşabulaq | 33 | 214 | 207 | 422 | -//- |
| 43 | Küylü | 26 | 107 | 91 | 198 | azərb. |
| 44 | Quşçudərəsi | 23 | 112 | 110 | 222 | -//- |
| 45 | Kankan | 66 | 375 | 386 | 761 | -//- |
| 46 | Kəsəmən | 46 | 228 | 227 | 455 | -//- |
| 47 | Böyük Məzrə | 162 | 629 | 598 | 1227 | -//- |
| 48 | Kiçik Məzrə | 119 | 484 | 455 | 939 | -//- |
| 49 | Makravəng | 68 | 315 | 289 | 604 | erm. |
| 50 | Novo-Mixayılovka (Misxan kənd) | 19 | 82 | 58 | 140 | yunan |
| 51 | Orğuca (Qaraiman) | 49 | 304 | 255 | 559 | azərb. |
| 52 | Ördəkli | 137 | 651 | 581 | 1232 | erm. |
| 53 | Rəndəməl | 184 | 939 | 928 | 1867 | -//- |
| 54 | Rəhmankənd (Əfəndi kənd) | 48 | 194 | 161 | 355 | azərb. |
| 55 | Sarıyaqub | 33 | 226 | 190 | 416 | -//- |
| 56 | Semyonovka | 51 | 153 | 160 | 313 | rus |

| № | Kəndlərin adı | Əhali | | | | |
|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti |
| 57 | Sədənəxaç | 17 | 105 | 100 | 205 | azərb. |
| 58 | Solak | 129 | 568 | 527 | 1095 | erm. |
| 59 | Soyuqbulaq | 31 | 144 | 126 | 270 | kürd |
| 60 | Sultanəli qışlağı (Canəhməd) | 46 | 171 | 125 | 296 | azərb. |
| 61 | SuxoyFontan | 29 | 73 | 70 | 143 | rus |
| 62 | Tayçarıx | 87 | 539 | 504 | 1043 | erm. |
| 63 | Təkəli | 45 | 239 | 225 | 464 | azərb. |
| 64 | Daşkənd | 88 | 427 | 314 | 741 | -//- |
| 65 | Tezxarab | 52 | 220 | 214 | 434 | qaraçı |
| 66 | Toxluca | 93 | 340 | 306 | 646 | azərb. |
| 67 | Tutmaşen | 106 | 822 | 844 | 1566 | erm. |
| 68 | Üləşik | 26 | 155 | 149 | 304 | azərb. |
| 69 | Faruk | 50 | 347 | 322 | 669 | erm. |
| 70 | Çaxkunq (Çiçəkli) | 118 | 662 | 620 | 1282 | -//- |
| 71 | Çerçer | 61 | 319 | 305 | 624 | erm. |
| 72 | Çobanqorxmaz | 6 | 17 | 19 | 36 | azərb. |
| 73 | Çubuqlu | 146 | 749 | 713 | 1462 | erm. |
| 74 | Şahriz | 115 | 562 | 546 | 1108 | -//- |
| 75 | Şişqaya | 78 | 403 | 375 | 778 | azərb. |
| 76 | Şorca | 13 | 87 | 79 | 166 | -//- |
| 77 | Yaycı | 61 | 452 | 417 | 869 | erm. |

*Cədvəl 1.6*

**Yeni Bəyazid qəzası (1886-cı il) [209, 52-60]**

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti | Sünni | Şiə | Erməni qriq. | Rus | Sekt. |
| | **DƏRƏÇİÇƏK SAHƏSİ** | | | | | | | | | | |
| 1 | Ağverən | 50 | 155 | 147 | 302 | azərb. | | + | | | |
| 2. | Arzakənd (I kənd cəmiyyəti) | 94<br>39 | 415<br>180 | 319<br>132 | 734<br>312 | qar. | | + | + | | |
| 3. | Bjni | 94<br>75 | 391<br>294 | 273<br>262 | 564<br>554 | qar. | | + | + | | |
| 4. | Gümüş | 46 | 172 | 139 | 311 | azərb. | | + | | | |
| 5. | Dəllər | 43 | 146 | 121 | 267 | -//- | | + | | | |
| 6. | Uzunlar (Ozanlar) | 33 | 125 | 104 | 229 | -//- | | + | | | |
| 7. | Aşağı Axta (II kənd cəmiyyəti) | 206 | 800 | 723 | 1523 | erm. | | | + | | |
| 8. | Alparas | 257 | 1000 | 923 | 1923 | -//- | | | + | | |
| 9. | Yuxarı Axta | 150 | 720 | 636 | 1356 | -//- | | | + | | |
| 10. | Qaxsı | 151 | 680 | 615 | 1295 | -//- | | | + | | |

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti | Sünni | Şiə | Erməni qriq. | Rus | Sekt. |
| İL | Solak | 162 | 589 | 527 | 1116 | -//- | | | + | | |
| 12. | Aşağı Axta (III kənd cəmiyyəti) | 55 | 174 | 176 | 350 | rus | | | | + | |
| 13. | Konstantinovka (Dərəçiçək) | 44 | 147 | 119 | 266 | -//- | | | | + | |
| 14. | Quru Fontan | 31 | 72 | 71 | 143 | -//- | | | | + | |
| 15. | Yelenovka | 207 | 622 | 604 | 1226 | -//- | | | | + | |
| 16. | Aleksandrovka<br>(Zeynalabdin) | 3<br>26 | 9<br>80 | 6<br>63 | 15<br>143 | qar. | | | | | |
| 17. | Semyonovka | 52 | 161 | 177 | 338 | rus | | | | + | + |
| 18. | Kankan | 122 | 408 | 364 | 772 | azərb. | | + | | | |
| 19. | Dəvəxaraba | 41 | 155 | 150 | 305 | kürd | + | | | | |
| 20. | Dəİləkli | 48 | 168 | 149 | 317 | azərb. | | + | | | |
| 21. | 2-ci Qaraqala | 77 | 276 | 234 | 510 | -//- | | + | | | |
| 22 | Küylü | 38 | 126 | 100 | 226 | azərb. | | + | | | |
| 23 | Qızqala | 35 | 102 | 108 | 210 | -//- | 1 | + | | | |
| 24 | Tezxarab | 53 | 207 | 192 | 399 | erm. | | | | | |

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti | Sünni | Şiə | Ermәni qriq. | Rus | Sekt. |
| | | 8 | 24 | 23 | 47 | azərb | | | | | |
| 25 | Çobanqorxmaz | 5 | 17 | 19 | 36 | azərb. | | | | | |
| 26 | Rəndəmal | 226 | 1095 | 1043 | 2138~ | erm. | | | | | |
| 27 | Ağpara | 2<br>68 | 11<br>290 | 8<br>306 | 19<br>587 | kürd<br>erm. | + | | | | |
| 28 | Babakişi | 1<br>64 | 3<br>313 | 1<br>307 | 4<br>620 | Kürd<br>erm. | + | | | | |
| 29 | Karvansaray (Qamıyarıx) | 139 | 741 | 745 | 1486 | erm. | | | | | |
| 30 | Makrovənk | 76 | 321 | 300 | 621 | -//- | | | | | |
| 31 | Faruq | 68 | 373 | 347 | 720 | -//- | | | | | |
| 32 | Yaycı | 78 | 471 | 434 | 905 | -//- | | | | | |
| 33 | Tayçanx | 108 | 579 | 524 | 1103 | -//- | | | | | |
| 34 | Dədəqışlaq | 26 | 155 | 123 | 278 | azərb. | | | | | |
| 35 | Dəlipaşa (Paşakənd) | 52 | 247 | 189 | 436 | -//- | | + | | | |
| 36 | Qabaxlı | 17 | 73 | 65 | 138 | -//- | | + | | | |

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti | Sünni | Şiə | Ermәni qriq. | Rus | Sekt. |
| 37 | 1-ci Qaraqala | 25 | 114 | 113 | 227 | -//- | | + | | | |
| 38 | Qoruxgüney (Allahverdi) | 24 | 81 | 67 | 148 | -//- | | + | | | |
| 39 | Qorçalı (Allahverdikənd) | 26 | 124 | 133 | 257 | -//- | | + | | | |
| 40 | Novomixaylovka (Misxana, Berzen) | 24 | 71 | 47 | 118 | qar. | | | | | |
| 41 | Soyuqbulaq | 32 | 138 | 131 | 269 | kürd | yezid | | | | |
| 42 | Təkəli (Mollaəlikənd) | 49 | 245 | 224 | 469 | azərb. | | + | | | |
| 43 | Üləşik | 35 | 159 | 154 | 313 | -//- | | + | | | |
| 44 | Çerçer | 70 | 331 | 308 | 639 | erm. | | | + | | |
| 45 | Qumadzor | 50 | 226 | 209 | 435 | erm. | | | + | | |
| 46 | Tutmaşen | 206 | 869 | 789 | 1658 | kürd erm | + | | + | | |
| 47 | Tsaxmaberd (Qarakeşiş) | 43 | 181 | 175 | 356 | erm. | | | + | | |
| 48 | Çaxkunq (Çiçəkli) | 142 | 717 | 616 | 1333 | erm. | | | + | | |
| 49 | Çubuxlu | 166 | 783 | 733 | 1521 | erm. | | | + | | |

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti | Sünni | Şiə | Erməni qriq. | Rus | Sekt. |
| 50 | Şahriz | 116 | 595 | 558 | 1153 | erm. | | | + | | |
| 51 | Ağzıbir | 78 | 307 | 250 | 557 | azərb. | | + | | | |
| | **II GÖYÇƏ SAHƏSI** | | | | | | | | | | |
| 52 | Ağqala | 36 | 140 | 113 | 253 | azərb. | | + | | | |
| 53 | Əyrivəng | 66 | 240 | 211 | 451 | azərb. | | + | | | |
| 54 | Bığlı Hüseyn Saraşlı | 65 | 274 | 231 | 505 | azərb. | | + | | | |
| 55 | Qışlaq | 115 | 597 | 494 | 1091 | erm. | | | + | | |
| 56 | Qul Əli | 1<br>158 | 2<br>777 | 3<br>717 | 5<br>1494 | azərb.<br>erm. | | + | + | | |
| 57 | Noradüz | 261 | 1148 | 185 | 2233 | erm. | | | + | | |
| 58 | Ördəkli | 125 | 695 | 603 | 1298 | erm. | | | + | | |
| 59 | Rəhmankənd | 51 | 171 | 143 | 314 | azərb. | 81<br>90 | 62<br>81 | | | |
| 60 | Hacımuxan (Hacıavdı) | 80 | 313 | 297 | 610 | azərb. | | + | | | |
| 61 | Gölkənd (II kənd cəmiyyəti) | 95 | 550 | 564 | 1114 | erm. | | | + | ++ | |

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti | Sünni | Şiə | Erməni qriq. | Rus | Sekt. |
| 62 | Yuxarı Adyaman | 65 | 435 | 360 | 795 | erm. | | | + | | |
| 63 | Aşağı Adyaman | 131 | 667 | 595 | 1262 | erm. | | | + | | |
| 64 | Atamxan | 86 | 439 | 365 | 804 | erm. | | | + | | |
| 65 | Vəliağalı | 126 | 690 | 653 | 1343 | erm. | | | + | | |
| 66 | Təzəkənd | 78 | 411 | 416 | 827 | erm. | | | + | | |
| 67 | Tsakarkar (Dəlikdaş) | 51 | 318 | 294 | 612 | erm. | | | + | | |
| 68 | Heyranıs | 1<br>116 | 5<br>779 | 4<br>690 | 9<br>1469 | azərb.<br>erm. | + | | + | | |
| 69 | Dəliqardaş | 259 | 1311 | 1163 | 2474 | erm. | | | + | | |
| 70 | Baş kənd (Göyçə) | 34<br>45 | 125<br>215 | 118<br>170 | 243<br>385 | azərb.<br>erm. | + | | + | | |
| 71 | Kosaməmməd | 144 | 706 | 674 | 1380 | erm. | | | + | | |
| 72 | Küzəcik | 82 | 477 | 442 | 919 | erm. | | | + | | |
| 73 | Kərimkənd | 47 | 256 | 233 | 489 | erm. | | | ++ | | |
| 74 | Paşakənd (Məmmədağalı) | 244 | 1030 | 935 | 1965 | erm. | . | | + | | |

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti | Sünni | Şiə | Erməni qriq. | Rus | Sekt. |
| | **III GÖZƏLDƏRƏ SAHƏSİ** | | | | | | | | | | |
| 75 | Basarkçər (1-k/cəmiyyəti) | 188 | 927 | 764 | 1691 | erm. | | | + | | |
| 76 | Zağalı | 83 | 344 | 345 | 689 | erm. | | | + | | |
| 77 | Qanİı (Allahverdi) | 46 | 170 | 147 | 317 | azərb. | + | | | | |
| 78 | Qayabaşı | 30 | 95 | 86 | 181 | azərb. | + | | | | |
| 79 | Yeni Keyti (Şorçalı) | 82 | 283 | 241 | 524 | azərb. | + | | | | |
| 80 | Qızılbulaq (Çaxırlı) | 160 | 540 | 480 | 1020 | azərb. | + | | | | |
| 81 | Qırxbulaq | 8<br>74 | 32<br>425 | 24<br>379 | 56<br>804 | Kürd<br>erm. | | + | + | | |
| 82 | Qoşabulaq | 62 | 218 | 201 | 419 | azərb. | | + | | | |
| 83 | Kərkibaş | 33 | 139 | 116 | 255 | azərb. | | + | | | |
| 84 | Sarıyaqub | 69 | 234 | 182 | 416 | azərb. | | + | | | |
| 85 | Subatan | 43 | 135 | 128 | 263 | azərb. | | + | | | |
| 86 | Daşkənd | 129 | 446 | 370 | 816 | azərb. | | + | | | |
| 87 | Tüstülü | 39 | 179 | 47 | 326 | erm. | | | + | | |

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti | Sünni | Şiə | Ermәni qriq. | Rus | Sekt. |
| 88 | Şorca | 24 | 83 | 75 | 158 | azərb. | 29<br>26 | 54<br>49 | | | |
| 89 | Hüseynquluağalı | 101 | 418 | 342 | 760 | azərb. | 554 | 363 | | | |
| 90 | Gözəldərə (2-ci k/cəmiyyəti) | 316 | 1415 | 1327 | 2742 | erm. | | | + | | |
| 91 | Yuxarı Alçalı | 84 | 279 | 226 | 505 | azərb. | | + | | | |
| 92 | Aşağı Alçalı | 120 | 541 | 519 | 1060 | erm. | | | + | | |
| 93 | Gödəkbulaq | 4<br>78 | 15<br>348 | 11<br>326 | 26<br>674 | azərb.<br>erm | | + | + | | |
| 94 | Qızılvəng | 74 | 259 | 210 | 469 | azərb. | | + | | | |
| 95 | Qızılxaraba (Tatar Zağalısı) | 112 | 371 | 346 | 717 | azərb. | | + | | | |
| 96 | Kolanıqırlan | 105 | 576 | 549 | 1125 | erm. | | | + | | |
| 97 | Yarpızlı | 78 | 247 | 218 | 465 | azərb. | | + | | | |

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti | Sünni | Şiə | Erməni qriq. | Rus | Sekt. |
| 98 | Çamırlı | 55 | 176 | 153 | 329 | azərb. | | + | | | |
| 99 | Yuxarı Qaranlıq | 130 | 655 | 616 | 1271 | erm. | | | + | | |
| 100 | Əbdülağalı | 59 | 271 | 272 | 543 | erm. | | | + | | |
| 101 | Əliqırıx | 121 | 537 | 512 | 1049 | erm. | | | + | | |
| 102 | Zolaxaç | 204 | 893 | 803 | 16% | erm. | | | + | | |
| 103 | Karvansaray | 25 | 105 | 101 | 206 | azərb. | | + | | | |
| 104 | Aşağı Qaranlıq | 143 | 694 | 613 | 1307 | erm. | | | + | | |
| 105 | Qızıl Xaraba | 18 | 70 | 66 | 136 | azərb. | | + | | | |
| 106 | Mədinə | 41 | 161 | 135 | 296 | azərb. | | + | | | |
| 107 | Siçanlı | 36 | 156 | 146 | 302 | kürd | + | | | | |
| 108 | Xartlıq | 21 | 92 | 70 | 162 | azərb. | | + | | | |

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti | Sünni | Şiə | Erməni qriq. | Rus | Sekt. |
| 109 | Yanıx | 23<br>30 | 81<br>148 | 6997 | 150<br>245 | kürd<br>azərb. | 81<br>69 | 148<br>97 | | | |
| | **IV MƏZRƏ SAHƏSİ** | | | | | | | | | | |
| 110 | Cil (1-ci k/cəmiyyəti) | 98 | 306 | 281 | 587 | azərb. | | + | | | |
| 111 | Ağbulaq | 83 | 318 | 257 | 575 | azərb. | + | | | | |
| 112 | Babacandərəsi | 23 | 92 | 81 | 173 | azərb. | | + | | | |
| 113 | Quşçu dərəsi(Pəmbəkli) | 47 | 120 | 117 | 237 | azərb. | | | | 89<br>14 | 107<br>16 |
| 114 | Nadejdeno (Şorcalı) | 44 | 103 | 123 | 226 | rus | | + | | | |
| 115 | Ardanış | 91 | 329 | 273 | 602 | azərb. | | + | | | |
| 116 | Sədənəxaç | 35 | 117 | 97 | 214 | azərb. | | + | | | |
| 117 | Toxluca | 104 | 371 | 310 | 681 | azərb. | | + | | | |
| 118 | Böyük Məzrə Quluağalı) | 207 | 726 | 653 | 1379 | azərb. | | =<br>+ | | | |

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti | Sünni | Şiə | Erməni qriq. | Rus | Sekt. |
| 119 | Kiçik Məzrə | 134 | 508 | 470 | 978 | azərb. | | + | | | |
| 120 | Ağkilsə | 54 | 180 | 141 | 321 | azərb. | | + | | | |
| 121 | Yellicə Qaraqoyunlu | 85 | 315 | 276 | 591 | azərb. | 85 | 23<br>0 | | | |
| 122 | Zərzebil | 94 | 349 | 304 | 653 | azərb. | | + | | | |
| 123 | Zod | 162 | 610 | 478 | 1088 | azərb. | 337<br>246 | 273<br>232 | | | |
| 124 | İnəkdağı | 62 | 248 | 221 | 469 | azərb. | 186 | 62 | | | |
| 125 | Kəsəmən | 81 | 247 | 245 | 492 | azərb. | | + | | | |
| 126 | Oğruca (Qaraiman) | 91 | 312 | 257 | 569 | azərb. | | + | | | |
| 127 | Sultan Əli Qışlağı (Canəhməd) | 67 | 192 | 156 | 348 | azərb. | | + | | | |
| 128 | Şişqaya | 136 | 482 | 423 | 905 | azərb. | | + | | | |

1873-cü ildə aparılmış kameral siyahıyaalmaya görə, Yeni Bəyazid qəzası 60 azərbaycanlı, 44 erməni, 7 rus, 7 qarışıq, 2 kürd, 1 yunan yaşayan 121 kənddən ibarət olmuşdur [187, 319].

Qəzada ümumilikdə 64567 nəfər (7106 ev-təsərrüfat), o cümlədən 19897 azərbaycanlı (2335 ev-təsərrüfat), 42270 erməni (4388 ailə), 2056 rus (malakan 328 ailə), 248 kürd (36 ailə), 96 yunan (19 ailə) yaşamışdır. Əhalinin xüsusi çəkisində 65,46% erməni, 30,81% azərbaycanlı, 3,18% rus, 0,38% kürd, 0,14% yunanlar təşkil edirdilər [187, 317-318]. Erməni əhalisinin artması əsasən 1877-ci ildə erməni generalı Ter-Qukasovun rəhbərliyi ilə Osmanlı dövlətindən köçürülən erməni ailələrinin hesabına baş vermişdir [187, 319].

1886-cı ildə aparılmış kameral siyahıyaalmanın nəticəsinə görə Yeni Bəyazid qəzasında 16 kənd icmasında birləşmiş 128 kənd qeydə alınmışdır. Qəzada əhalinin ümumi sayı 103611 nəfər (10104 ev) idi. Bunlardan 29523 nəfər azərbaycanlı (4392 ev), 68793 nəfər erməni (7868 ev), 2567 nəfər rus (436 ev), 2443 nəfər kürd (353 ev), 143 nəfər mordvan (26 ev) idi. Əhalinin xüsusi çəkisində ermənilər 66,4%, azərbaycanlılar 28,49%, ruslar 2,48%, kürdlər 2,36% və nəhayət, mordvanlar 0,14% təşkil edirdilər [209, 52-60].

Müxtəlif illərdə aparılmış siyahıyaalmalar da Yeni Bəyazid qəzasında etnodemoqrafik vəziyyətin qeyri-sabitliyindən xəbər verir. Belə ki, 1897-ci ildə burada azərbaycanlıların sayı 37,7 min nəfər, 1905-ci ildə 41,8 min nəfər, 1916-cı ildə 50,7 min nəfər olmuşdur. Azərbaycanlıların xüsusi çəkisi 1897-ci ildə 28,3%, 1905-ci ildə 28,7%, 1916-cı ildə 26,9% olmuşdur. Ermənilərin sayı 1897-ci ildə 81,1 min, 1905-ci ildə 91,6 min, 1916-cı ildə 129,6 min nəfər olmuşdur [91, 28].

Bu faktlardan göründüyü kimi, qəzada ermənilərin sayı köçürülən ermənilər hesabına xeyli artmış, azərbaycanlıların sayında isə orta illik artım 3-10 min nəfər arasında tərəddüd etmişdir. Əlbəttə ki, azərbaycanlıların artımının ermənilərə nisbətən geriləməsinin səbəblərindən biri də onların gəlmə ermənilər tərəfindən sıxışdırılmaları olmuşdur. Bu, daha çox 1905-1906-cı illərdə İrəvan quberniyasında azərbaycanlılara qarşı törədilən qırğınlar zamanı özünü daha qabarıq şəkildə büruzə vermişdir.

Beləliklə, XX əsrdə çar Rusiyasının aborigen türk əhalisinin deportasiyası, ermənilərin köçürülməsi hesabına Göyçə mahalının yenidən məskunlaşdırılması istiqamətində həyata keçirildiyi planlı, məqsədyönlü siyasətin gedişində bölgənin etnik-demoqrafik xəritəsi büsbütün dəyişmiş, burada ermənilərin sayının sürətlə artmasına müvafiq olaraq azərbaycanlıların sayı kəskin surətdə azalmış, bu yolla Qərbi Azərbaycanın digər əraziləri ilə yanaşı Göyçə mahalının da aborigen Azərbaycan türklərindən təmizlənməsi üçün zəmin hazırlanmışdır.

Onu da qeyd etmək lazımdır ki, həm XIX əsrin ilk illərinin müharibələri dövründə hərbi əməliyyatlar zamanı, həm də kütləvi erməni köçürmələri nəticəsində Göyçənin aborigen türk əhalisinin müxtəlif yollarla sıxışdırılması prosesləri həyata keçirilmiş, nəticədə əhalinin müəyyən hissəsi qonşu bölgələrə, hətta qonşu müsəlman ölkələrinə üz tutmuşdu ki, bu da demoqrafik duruma, əhalinin etnik tərkibindəki nisbətin dəyişməsinə təsir etməyə bilməzdi.

# II FƏSİL

# XX ƏSRİN ƏVVƏLƏRİNDƏ GÖYÇƏ MAHALINDA AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMLAR və DEPORTASİYA SİYASƏTİ

## 2.1. 1905-1920-ci illərdə azərbaycanlıların qətliamı və soyqırımı

XIX əsrin əvvəllərindən başlayaraq tarixi Azərbaycan ərazilərinə köçürülərək burada məskunlaşdırılmış ermənilər XX əsrin əvvəllərində Cənubi Qafqazda, xüsusən də indiki Ermənistan ərazisində Azərbaycan türklərinə qarşı kütləvi şəkildə qırğınlar törətmişdilər. Ermənilərin törətdikləri bu qırğınlar, onların tarixi Azərbaycan torpaqlarında "Erməni dövləti" yaratmaq siyasətinin tərkib hissəsi idi. Bu işə rəhbərliyi ermənilərin "Daşnaksutyun" və "Hnçak" siyasi-terrorçu təşkilatları öz üzərlərinə götürmüşdülər.

Ötən yüzilliyin əvvəllərində erməni şovinizminin, millətçi-terrorçu erməni partiyalarının maddi və mənəvi dəstəyi, erməni kilsəsinin birbaşa rəhbərliyi ilə bədnam qonşularımız Azərbaycanının əksər bölgələrində kütləvi qırğınlar törətmiş, on minlərlə insanı qətlə yetirmişlər.

1903-cü ildə erməni Qriqoryan kilsə əmlakının Rusiya Torpaq və Əmlak Nazirliyinin sərəncamına keçirilməsi haqqında çıxarılan qanun kilsənin maliyyələşdirdiyi siyasi təşkilatların maddi vəziyyətinə zərbə vurduğu üçün erməni terrorizminin genişlənməsinə, antitürk, antimüsəlman əhval-ruhiyyəsinin qızışmasına səbəb olmuşdu. Erməni kilsəsi İrəvan və Eçmiədzində bu qanun əleyhinə qiyamlar təşkil etmişdi. Həmin il avqustun 29-da Yelizavetpolda (Gəncədə), sentyabrın 2-də Qarsda və Bakıda, sentyabrın 12-də Şuşada, oktyabrın 14-də Tiflisdə ermənilər iğtişaşlar və terror aktları törətmişdilər. 1905-ci ildə Rusiyanın özündə baş verən iğtişaşlar, çarizmə qarşı narazılıq dalğasının güclənməsi Cənubi Qafqazda güclü əks-səda doğururdu. Bu qarışıqlıqdan ermənilər məharətlə istifadə

edirdilər. Rusiyanın hakim şovinist dairələri də zərbəni özlərindən yayındırmaq üçün ermənilərin antitürk, antimüsəlman kampaniyasını hər vasitə ilə qızışdırırdılar. Qafqaz canişinliyinin yüksək rütbəli erməni və ermənipərəst məmurları vasitəsilə silahlandırılan erməni dəstələri 1905-ci ildə Bakıda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Yelizavetpolda (Gəncədə), Tiflisdə və başqa yerlərdə yaşayan azərbaycanlılara qarşı silahlı hücumlar edib, həmin ərazilərdən onları sıxışdırıb çıxarmaq, qalanını qırmaqla ermənilərin say üstünlüyünə nail olmaq istəyirdilər. Çünki həmin dövrdə Qafqazdakı 54 qəzadan yalnız beşində ermənilər çoxluq təşkil edirdilər.

Rusiya imperiyasının bu çirkin siyasəti haqqında tarixçi Cahangir Zeynaloğlu yazırdı: "...Rusiya hökuməti müsəlmanların bu qəflətindən istifadə edib, Peterburqdan xüsusi surətdə yüz otuz xəfiyyə məmuru göndərərək, türklər ilə ermənilər arasında icra etdiyi propaqanda ilə biri digəri əleyhinə silah işlətməyə təşviq edib iki milləti biri digərinə qırdırdı. 1324-də (1905) Bakıda bu qırğın başladı. Sonra digər yerlərə də sirayət etdi. 18 oktyabrda Gəncədə, o birisi il 18 iyulda İrəvanda, Qazaxda, Qarabağda və sair yerlərdə qanlı toqquşmalar başlandı. Zavallı türklər əsgəri elmlərdən və müasir silahlardan məhrum idilər. Amma daşnaklar əlli ildən bəri tədarük etdikləri silah və pul ilə bu toqquşmalarda çox işlər gördülər... Ruslar bu qırğınlardan istifadə edib millətləri biri digəri əleyhinə təhrik etməklə zəifliyə düçar və bu əsnada daxili iğtişaşı yatırmağa müvəffəq olduqdan sonra Qafqaz qitəsindəki keçmiş nüfuzunu əldə etdi..." [111, 107].

Rusiyanın hakim dairələri də 1905-1906-cı illər erməni-müsəlman iğtişaşlarından öz məqsədləri üçün istifadə etməklə ikili oyun oynayırdılar. Çar məmurları Qafqazda güclənən narazılıq dalğasının hökumət əleyhinə istiqamətlənəcəyindən qorxduqlarından, ermənilərin müsəlmanların yaşadığı ərazilərdə törətdikləri qırğınlara biganə qalmış, bəzi hallarda isə onların tərəfini saxlamaqla hər iki tərəfin gücünün etnik toqquşmalara sərf edilməsinə nail olmuşdular.

1905-1906-cı il erməni-müsəlman iğtişaşlarında kütləvi şəkildə qırğınlara məruz qalan bölgələrdən biri də İrəvan quberniyası idi. 1905-ci il fevral ayının 20-21-də İrəvanda "Daşnaksutyun" terror

təşkilatının quldur qrupları şəhərin azərbaycanlı sakinlərinə qarşı əsl qırğın törətdilər. Dinc sakinlərin vəhşicəsinə öldürülməsi şahidləri dəhşətə gətirmişdi. “Kavkaz” qəzetinin yazdığına görə, bu qətlləri Parisdə və ya Venesiyada nəşr edilmiş erməni dərsliklərindən tərbiyə almış adamlar törətmişdilər. Bu kitabların müəllifləri öz şagirdlərini bəşəriyyətə qarşı gələcək cinayətlərə sanki qabaqcadan proqramlaşdırırdılar.

1905-ci ildə Məmməd Səid Ordubadi İrəvan quberniyasında ermənilərin törətdikləri vəhşilikləri belə qələmə almışdır: “İrəvan mahalı bir yanar dağa, vulkana dönüb nəcib islam millətini yandırmaqda, boğmaqda idi” [84, 29].

Mir Möhsün Nəvvab isə İrəvanda müsəlmanların qırğınlarını bu şəkildə əks etdirmişdir: “ Fürsət tapıb qaça bilməyən beş nəfər övrət və üç nəfər uşaq bir evin küncünə qısılaraq qorxudan titrəyə-titrəyə ağlayırdılar. Əllərinə düşən kitablara və Qurani-Kərimə od vurub yandırdılar. Ermənilərin qoca qadın və kişilərə, eləcə də uşaqlara etdikləri zülmü qələmə almaq çox çətindir” [81, 20-21].

Bu dövrdə İrəvan quberniyasında azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilməsini rəsmi statistik məlumatlardan da görə bilərik. Belə ki, 1897-ci ildə İrəvan quberniyasında 313176 nəfər azərbaycanlı əhali qeydə alındığı halda, 10 ildən sonra – yəni 1907-ci ildə 302965 nəfər qeydə alınmışdı. Deməli, 1905-ci və 1906-cı illərdə İrəvan quberniyasında əhalinin 10 illik təbii artımından əlavə daha 10 min nəfərdən artıq azərbaycanlı qətlə yetirilmişdi [5, 47].

İrəvan quberniyasında öz məqsədlərinə nail olan erməni silahlı dəstələri Qarabağda qırğınlar törətməyə başlamışdılar. 1905-ci il iyunun 1-dən başlayan erməni hücumları nəticəsində Cəbrayıl-Qaryagin bölgəsində Veysəlli, Qacar, Çəmənli, Arış, Qışlaq, Məzrə kəndləri darmadağın edilirdi. Avqustun 16-da Şuşada qırğınlar törədildi. 1905-ci ilin noyabrında Yelizavetpol (Gəncə) şəhərində, Cavanşir və Qazax qəzalarında, Tiflis şəhərində ermənilər iğtişaşlar törədərək minlərlə günahsız azərbaycanlını qətlə yetirirdilər [5, 47].

XX əsrin əvvəllərində İrəvan quberniyasının Göyçə mahalında yaşayan azərbaycanlılar da ermənilər tərəfindən kütləvi şəkildə qətliama və soyqırıma məruz qalmışdılar.

Hal-hazırda Ermənistan Respublikasının tərkibində olan Göyçə mahalı qeyd etdiyimiz kimi, Vardenis (Basarkeçər), Çambarak (Krasnoselo-Çəmbərək), Sevan (Çubuqlu, Yelenovka), Martuni (Aşağı Qaranlıq), Kamo (Kəvər, Yeni Bəyazid), rayonlarının inzibati hüdudlarını tam, Yeğeqnadzor (Dərələyəz), Abovyan (Elcər və Gədəbəy), Hrazdan (Axta), Dilican, habelə Azərbaycan ərazisindəki Kəlbəcər və Gədəbəy rayonlarının inzibati hüdudlarını isə qismən əhatə edən tarixi Azərbaycan torpağı olmuşdur [109, 63; 32, 271; 44, 56-60].

XX əsrin əvvəllərində Azərbaycanın bu tarixi ərazisində də erməni şovinistləri Azərbaycan türklərini kütləvi şəkildə qətlə yetirmiş, çar Rusiyasının dəstəyi ilə bu bölgədən yerli azərbaycanlıları əsl deportasiyaya məruz qoymuşdular.

1905-1906-cı illərdə erməni-müsəlman iğtişaşlarında Azərbaycan türklərinin kütləvi surətdə qətliama məruz qalmasını dövrün canlı tədqiqatçısı M.S.Ordubadi özünün "Qanlı sənələr" əsərində geniş şəkildə əks etdirmişdir. XX əsr Azərbaycan nəsrinin yaradıcılarından biri, böyük yazıçımız Məmməd Səid Ordubadi qələminin məhsulu olan, uzun illərin siyasi təbəddülatlarından keçmiş bu əsər tarixi həqiqətlərin üzə çıxarılmasına kömək edən dəyərli bir qaynaqdır. Yazıçının 1908-ci ildə "Qanlı sənələr" adı ilə yazıb başa çatdırdığı kitab ilk dəfə onun "Tazə həyat" qəzeti vasitəsilə millətin sərvət sahiblərinə müraciətindən sonra Bakı milyonçu-xeyriyyəçisi Murtuza Muxtarovun maddi yardımı ilə 1911-ci ildə nəşr olunmuşdur. XX əsrin əvvəllərində baş vermiş erməni-müsəlman toqquşmalarının müxtəlif bölgələrdən gələn müxbir məktubları əsasında təsviri münaqişənin məzmunu və gedişi haqqında oxucuda tam təsəvvür yaradır.

M.S.Ordubadi öz əsərində Azərbaycanın digər bölgələrində baş verən azərbaycanlıların kütləvi qırğınları ilə yanaşı İrəvan quberniyasında baş verən faciələri də geniş şəkildə qələmə almışdır.

Müəllifin verdiyi məlumatlara əsasən bu hadisələrdə Göyçə mahalında ən dəhşətli hadisələr Gözəcik kəndində törədilmişdir. M.S.Ordubadi bu barədə yazırdı: "... iyun ayının birinci günü (1905-ci il – B.Ə.) qovğa və iğtişaş meydan bulub ən əvvəl 20 evdən ibarət

olan Gözəcik faciəsi baş verdi. Qonşu Tirjabat erməni kəndindən necə hücum başlandığını sıra ilə hamısını oxuculara ərz və təqdim edirik. ... 1905-ci ilin 31 iyununda axşama bir az qalmış ermənilər Gözəcik kəndinin ətrafını kəsib şiddətli atəşə başlayırlar. Müsəlmanlar bütünlüklə silahları olmadığından ailələrini götürüb arası yarım verst məsafədə olan Mənkus (Qızılvəng-Magenis) adlı islam kəndinə pənah aparırlar. Ermənilərə gəldikdə islamları təqib halında Mənkus kəndinə də hücum etmək istəyirdilər. Bu qədər ki, kəndin ağası Hümmət bəy Hüseynbəyzadə şəhərə köçdüyündən kənddə 50 yaşında bir qoca böyük qalmışdı. Bu qoca Novruz Kazım oğlu camaatın erməni qabağından qaçdığını görüb uca bir yerə qalxıb, "camaat, hara qaçırsınız"... Vətənpərvər Novruz Kazım oğlu kəndi boşlamadıqda bir azdan ermənilər tərəfindən nişana alınır. Qohumları Novruz Kazım oğlunu mühasirədən xilas etməyə gəlsələr də, düşmənin çoxluğundan qeyrətli qocanı qurtarmaq mümkün olmur. Novruz Kazım oğlu qoşalülə tüfəngi ilə otağa yaxınlaşan erməni dəstəsindən birini vurub, qalanını geri çəkilməyə məcbur edir. Bu sözlərin hamısı bir erməninin dilindən eşidilmişdir. Bir az sonra ermənilər yenə hücuma keçirlər. Novruz Kazım oğlu onlardan birini də öldürüb qalanlarını qaçmağa məcbur edir. Gülləsi qurtaran Novruz Kazım oğlu həyəcanlı halda tüfənginə saçma doldurarkən ermənilər hücum edir, evin qapısını odlayıb onu diri əsir alırlar. Kəndin əksər yerlərini odlayıb, məscidi, minbəri, müqəddəs kitabları və Novruz Kazım oğlunun evini də odlayıb onu əli bağlı Tirjabat adlı erməni kəndinə aparırlar. Orada min cəfa və əziyyətlə başını kəsirlər. Erməninin dediyinə görə, Novruz Kazım oğlunun başını kəndin keşişi Ayrapet kəsmişdir. Zira, Gözəcikdə Novruz Kazım oğlunun vurduğu ermənilərin birisi keşişin oğlu imiş. Beləliklə, Novruz Kazım oğlunun başını "min beş yüz müsəlman sərkərdəsinin başıdır", deyə əvvəlcə Aleksandropol, sonra isə Bakı şəhərinə göndərmişlər" [37, 10; 84, 30-31].

M.S.Ordubadi ermənilərin vəhşiliklərinin qurbanı olmuş Mənkus (Qızılvəng) kəndində baş verən hadisələri bu şəkildə qələmə almışdır: "İyun ayının ikisində (1905-ci il – B.Ə) müsəlmanların o vaxta qədər pənahgahı olan Mənkus kəndinə hücum edilir. Bu dəfə

erməni alaylarının sayı 10 mini keçmiş bir toplu qüvvədən ibarət idi. Hər dəfə də beş min tüfəngdən kənd üstünə atəş açılırdı. Kənd müsəlmanlarının çoxu silahsız olduqlarından fürsət düşdükcə ailələrinin əlindən tutub qaçırdı. Kənd tamam boşaldıqdan sonra yerindən tərpənə bilməyən 80 yaşlı əlil bir qoca erməni əlinə düşüb şəhid olmuşdur. Deyildiyinə görə, onu təndir şişi ilə öldürmüşlər...” (84, 31).

Müəllif baş verən növbəti hadisələri təsvir edərək yazırdı: “Gözəcik müharibəsində, ətrafda müsəlmanlar köməyə çağırdığı vaxt, 15 fərsəx aralı, öz mahalı Qaladibi kəndindən olan kənd ağası Cahanbəxş bəy iki nəfər kürd atlısı da yanında Mənkus kəndində imiş. Bu vaxtda üç nəfər də tüfəngini götürüb kəndin şimal-şərq tərəfində uca bir dağa çəkilib qaçan qadınları təqibə başlayan erməni dəstələrinə yüksək qalaların üstündən atəş açırmışlar. Bu atəşdə erməni dəstəsindən ikisini vurub qətlə yetirirlər. Beləliklə, arvad-uşaqlar qaçıb 15 fərsəx məsafədə olan Təzəkəndə doluşurlar. On iki dağılmış islam köylərinin hamısı bu kənddə toplanmışdılar...” (84, 31). Qeyd olunduğu kimi, erməni vəhşilikləri başlayarkən artıq on iki azərbaycanlı kəndi tamamilə boşaldılmışdır.

Bu hadisələrdə Göyçə mahalında erməni vəhşiliklərinə məruz qalan kəndlərdən biri də Güllücə kəndi olmuşdur. Bu haqda M.S.Ordubadi yazırdı: “... İyun ayının 3-də (1905-ci il – B.Ə.) yüz əlli evli və aralıqda qalan Güllücə adlı islam kəndinə ermənilər tərəfindən hücum başlanır... yüz evli Başkend adlı erməni kəndindən hücum edib Güllücə kəndini nişana almaqla güllə yağdırırdılar. Ermənilərin məqsədi müsəlmanları özlərinə əlaltı etmək, yaxud onları məhv edib çoxdan bəri arzusunda olduqları istiqlaliyyəti əldə etmək imiş. Buna görə bütün məmləkət erməniləri əldə silah müsəlmanlar əleyhinə qiyam etmişdilər. Güllücədə olan islam əhalisi silahsız olduqlarına görə qaçıb kəndi ermənilərin işğalına verirlər. Camaat artıq kənddən uzaqlaşandan sonra, sərvət və dövlət ilə məşhur olan Məşədi Qənbər, Mahmud, Hacı Hüseyn və başqaları – 15 nəfər mallarını mühafizə üçün kənddə qalıb silah götürməklə səkkiz ermənini qətl edirlər... Nəhayət, ermənilər Mahmudu öldürüb, kənd içində bir qadını da səkkiz güllə yarasıyla qətl və edam edirlər.

Qalan müsəlmanlar qaçıb verst yarım məsafədə olan Tutya, Damagirməz, Kamal adlı islam kəndlərinə pənah aparırlar. Bu qaçaqaçda hamıdan dala qalmış Mir Süleyman Seyid Mustafa oğlu adlısı at ilə qaçarkən ermənilər vurub atını öldürür, o isə bir erməni öldürməklə canını təhlükədən qurtara bilmişdir...” (84, 32).

1905-1907-ci illər hadisələrində Kamal və Damagirməz kəndləri də dağıntılara məruz qalmış kəndlərdən idilər. M.S.Ordubadinin yazdığına görə, 1905-ci il iyun ayının 4-də aralıqda qalmış 150 evli Kamal kəndi mövqelərini təhlükədə gördüklərindən hələ kəndə hücum edilməmiş, arvad-uşaqlarını götürüb cənub tərəf düzlərlə Damagirməz kəndinə qaçırlar. Bu kəndlərin camaatı da onlara qoşulub 20 verst məsafədə olan Təzəkənd kəndinə pənah aparmışdılar (78, 131-132; 84, 32).

1905-1907-ci illər qətliamlarında lokal döyüşlər aparan daşnak terror qrup və birləşmələri İrəvan quberniyasında 188 kəndi dağıtmış, onların əhalisini qılıncdan keçirərək qətliamlar törətmiş, sağ qalanları da yurd-yuvalarından didərgin salmışdılar. İrəvan, Naxçıvan, Tiflis, Ordubad, Yelizavetpol (Gəncə), Şuşa, Bakı şəhərlərində qətliamlar daha çox kütləvi hal almışdı. Bu mərhələdə ümumilikdə 150000 Azərbaycan türkü qətlə yetirilmiş, 350000 nəfər dədə-baba yurdlarından qovulmuşdur (38, 167).

Bu iki il müddətində təkcə İrəvan quberniyasında təbii artım nəzərə alınmadan 10000 nəfərdən çox azərbaycanlı ermənilər tərəfindən qətliama və soyqırıma məruz qalmışdır (5, 50).

XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilən soyqırımı bu diyarın demoqrafik vəziyyətinə də ciddi təsir etmişdir. Belə ki, bu dövrdən etibarən başlayaraq azərbaycanlıların xüsusi çəkisi və təbii artım sürəti azalmağa doğru getmişdi. 1905-ci və 1908-ci illərdə hadisələrin təsiri bunda özünü kəskin surətdə göstərmişdir. Əhalinin bir hissəsi yaşayış yerlərini tərk etmiş, doğum azalmış, ölüm halları isə çoxalmışdır. Bu kimi səbəblər üzündən 1905-ci illə 1916-cı il arasında artım 107,5 faiz, illik orta artım isə cəmisi 0,7 faiz təşkil etmişdir.

1886-1897-ci illər arasındakı müddətdə Göyçə mahalında azərbaycanlı əhalinin mütləq artımı təqribən 40 min nəfər təşkil etdiyi

halda, 1905-ci illə 1916-cı il arasındakı müddət ərzində mütləq artım 17 min nəfər olmuşdur. Halbuki 1905-ci ildə azərbaycanlı əhalinin sayı 1886-cı ildəkindən 61 min nəfər çox idi. Ermənilərin mütləq artımı isə 1905-ci illə 1916-cı il arasında 139 min nəfərə çatmış, 132,1 faiz təşkil etmişdir (91, 30).

1905-1907-ci illərdə azərbaycanlıların kütləvi qırğınından sonra Göyçənin daha 3 kəndi (Basarkeçər, Quləli, Nərədüzü) erməniləşdirilmişdir. Altı yaşayış məntəqəsi isə yer üzündən tamamilə silinmişdir. Erməni faşizminin qurbanı olmuş o qədim türk kəndləri bunlardır: 1. Əhmədli. 2. Əyricə – 2. 3. Əyricə – 3. 4. Göytəpə (Göyrənis). 5. Qamışlı. 6. Qasımbaşı. Ümumilikdə 1850-1907-ci illərdə üst-üstə 20 kənd tamamilə dağıdılmış, 4 kənd isə erməniləşdirilmişdir (109, 386).

Ümumiyyətlə, XX əsrin əvvəllərində erməni-müsəlman toqquşmalarında Göyçə mahalının demək olar ki, əksər kəndləri ermənilər tərəfindən dağıdılmış və yerli azərbaycanlı əhali kütləvi şəkildə qətlə yetirilmiş və doğma yurdlarından qovulmuşdur.

Erməni şovinistlərinin "Erməni dövləti" yaratmaq planları Birinci Dünya müharibəsi dövründə də aktuallığını saxlamaqda idi və onlar bu istiqamətdəki fəaliyyətlərini davam etdirirdilər.

Həmişə olduğu kimi, Birinci Dünya müharibəsi dövründə də Rusiyanın hakim dairələri ermənilərə böyük etimad göstərir, həlledici cəbhələrdə, xüsusilə Osmanlı imperiyasına qarşı döyüşlərdə onlardan geniş istifadə edirdi. Ermənilər də öz növbəsində Rusiya qoşun hissələrinə əllərindən gələn yardımı göstərirdilər. Ermənilərin Rusiyanın qələbə çalmasında əsas marağı Rusiyanın osmanlıdan ələ keçirə biləcəyi əraziləri İrəvan quberniyasına qatmaq, bununla da "Böyük Ermənistan" dövləti yaratmağa nail olmaq idi. Hələ 1914-cü il sentyabrın əvvəllərində İrəvan quberniyasında könüllü erməni birləşmələri təşkil olunmağa başlamışdı. Qısa müddətdə 7 könüllü erməni alayı təşkil olunmuşdu ki, onların da tərknbində müharibə ərəfəsində 6000 nəfərdən çox əsgər və zabit var idi. Bu birləşmələrə müxtəlif vaxtlarda Andranik Ozanyan, Arşak Qafafyan, Vardan Mehrabyan, Hamazasp Srvandzyan, Qriqor Avşaryan, Hayk Byşkyan (Haj), Havsep Arğutyan komandanlıq etmişlər. Ümumiyyətlə, Rusiya

imperiyasında yaşayan ermənilərdən 250 min nəfərdən çox adam səfərbərliyə alınmışdı. Türklərə qarşı vuruşmalarda erməni könüllülərinin qəddarlıqla vuruşmaları haqqında onlarca faktlar vardır. Erməni birləşmələrinə maddi yardım üçün vəsait toplanması təşkil olunmuş, bu iş xüsusilə Moskvada, Petroqradda, Bakıda, Tiflisdə daha səmərəli şəkildə həyata keçirilmişdi. Yalnız 1915-ci ildə bu məqsəd üçün 1 milyon 444 min rubl vəsait (bunun 1 milyon 20 min rublunu Rusiya imperiyasında yaşayan ermənilər yığmışdı) toplanmışdı (91, 33).

Qeyd olunduğu kimi, "Erməni dövləti" yaratmaq üçün Osmanlı ərazisinin Şərqi Anadolu hissəsi hədəfə alınsa da baş verən siyasi hadisələr və beynəlxalq vəziyyət bunun reallıqdan kənar olduğunu göstərməkdə idi.

Osmanlı imperiyasının erməni əhalisi yaşayan vilayətləri əsasında "Ermənistan dövləti" yaratmaq barədə erməni-daşnak arzuları nə siyasi, nə də demoqrafik, nə də tarixi planda real bazaya malik deyildi. 1914-cü ildə üzdəniraq "Türkiyə Ermənistanı"nın heç bir yerində ermənilər yerli əhalinin böyük əksəriyyətini təşkil etmirdilər: "Nə bir şəhər, nə bir məhəllə, nə də bir kənd bütövlükdə ermənilər tərəfindən tam məskunlaşmamışdı. Əksinə, ermənilər türk əhalisinin üstünlük təşkil etdiyi ərazilərdə məskunlaşmışdılar. Bütün Anadoluda yalnız Van ərazisində ermənilər çox cəmləşmişdilər və orada onlar cəmi 43 faiz təşkil edirdilər. Fakt budur və bu məsələ ilə bağlı obyektiv statistik məlumatlar mövcuddur. Üstəlik, 1895-1896-cı illərin hadisələrindən sonra ermənilərin Rusiyaya köçməsinə qədər də, onlar şərqi Anadolunun bir vilayətində belə əhalinin mütləq əksəriyyətini təşkil etməmişlər. Buradan da aydın olur ki, erməni əhalisinin əksəriyyət təşkil etmədiyi torpaqlarda erməni dövlətinin yaradılması xəyalpərəstlikdən başqa bir şey deyildi (5, 229).

Bunu yaxşı anlayan "Daşnaksutyun" və "Hnçak" terrorçu təşkilatları "Erməni dövləti" ideyasını tarixi Azərbaycan torpaqlarında yaratmağa qərar verdilər. Çünki bu dövrdə Rusiya imperiyasının tərkibində olan Azərbaycan torpaqlarında dövlət yaratmaq imkanları daha böyük idi. Belə ki, XIX əsrdən etibarən Azərbaycanın tarixi torpaqlarında ruslar tərəfindən məskunlaşdırılan ermənilər Qərbi

Azərbaycan bölgəsinin müəyyən ərazilərində kompakt halda yaşayırdılar. Digər tərəfdən Rusiyanın hakim dairələri də Azərbaycanın osmanlı ilə qərb sərhəd bölgəsində "Erməni dövləti" yaratmaq ideyasını dəstəkləyir və bu məqsədlə siyasi və hərbi yardım göstərirdilər.

Məlumdur ki, Birinci Dünya müharibəsində rus imperiyası məğlubiyyətə uğradı, Osmanlı cəbhəsində məğlubiyyətə uğrayan hissələr də osmanlı qoşunlarının təzyiqinə tab gətirməyib zəbt etdikləri əraziləri buraxıb geri çəkilməyə məcbur oldular. Onlarla birlikdə erməni könüllü birləşmələri də geriyə çəkilməyə başladılar. Onlar iki əsas istiqamətdə İrəvana doğru hərəkət edirdilər. Birinci istiqamət Qars-Aleksandropol istiqaməti idi. Aleksandropola toplanan erməni birləşmələri burada iki hissəyə bölündü. Bu hissələrdən biri Aleksandropol Qurduqulu–Yuxarı Qarxun–Uluxanlı; Aleksandropol–Talın–Əştərək–Eçmiədzin yolu ilə İrəvana yollanıb burada toplaşırdılar. İkinci hissə isə İğdır–Kərimarx–Yuxarı Qarxun–Eçmiədzin–İrəvan istiqamətində geri çəkilirdi. Bu istiqamətlər, əsasən azərbaycanlı əhali yaşayan ərazilərdən keçirdi. İrəvana toplaşan hissələr uzun müddət burada qala bilməzdilər. Onlar kənd təsərrüfatı cəhətdən inkişaf etmiş bölgələrə – Zəngəzur və Şərur-Dərələyəz qəzalarına doğru hərəkət etməyə başladılar. İrəvan-Qəmərli (Artaşat) –Sədərək–Vedibasar istiqaməti ilə Dərələyəz bölgəsinə, digərləri isə İrəvan–Kotayk–Dərəçiçək–Göyçə (Sevan)–Yeni-Bəyazid–Martuni–Basarkeçər istiqaməti ilə Zəngəzur və Şərur–Dərələyəz qəzalarına doğru üz tutdular. Osmanlı türk əsgərlərinin zərbəsinin dadını yadından çıxarmayan, türklərə qarşı düşmənçilik ruhu ilə aşılanmış, ümumi təminatdan məhrum olan ac-yalavaç erməni qoşun birləşmələri daşnak təşkilatının digər qoşun hissələri ilə sıx əlaqədə fəaliyyət göstərir, yol boyu azərbaycanlılar yaşayan bütün kəndləri darmadağın edir, əhalini qılıncdan keçirir, var-yoxunu talan edirdi (91, 34).

Ararat Respublikası yaradıldıqdan sonra daşnak hökuməti T.Nazaryanın, Dro Qanyanın başçılıq etdikləri 25 min nəfərlik qoşun yaratdı. Üç diviziyadan ibarət qoşunun əsas vəzifəsi İrəvan quberniyası, Naxçıvan, Qarabağ bölgələrində kütləvi qırğınlar törədərək azərbaycanlıları bu ərazilərdən çıxarmaq idi. Üçüncü diviziya polkovnik Silikovun komandanlığı altında Göyçə gölü ətrafı

rayonlarda azərbaycanlıları məhv etməli idi (70, 29; 44, 61).

Hələ 1918-ci ilin fevralında Ərzurumun müdafiəsinin təşkili Andranikə tapşırılmışdı. Lakin osmanlı qoşunlarının zərbəsinə tab gətirə bilməyən Andranikin qoşun birləşmələri Sarıqamış–Qars–Aleksandropol istiqamətində geri çəkilməyə məcbur olur, xeyli erməni əhalisinin köçürülüb İrəvan quberniyasında yerləşdirilməsini təşkil edir. Bu birləşmələr sonra Dilicana üz tutur, yol boyu azərbaycanlılar yaşayan kəndləri darmadağın edir. Andranikin Dilicanda dincələn qoşun birləşmələri 1918-cı il iyunun 1-də Dilican–Yelenovka (Sevan) –Yeni Bəyazid–Martuni–Dərələyəz istiqamətində hərəkət edərək iyunun 17-də Naxçıvana çatır. Bu dəfə yol boyu yerləşən Rəhmankənd, Bığlı Hüseyn Saraclı, Hacı Muxan, Ağzıbir, Əyrivəng, Başkənd, Alçalı, Karvansaray, Yanıx, Mədinə, Siçanlı, Xartluq Çamırlı, Aşağı Alçalı, Tüstülü, Sədənəxaç, Böyük Məzrə kəndləri və bir sıra digər yaşayış məntəqələri dağıdılır. Andranikin qoşun birləşmələri ilə Türkiyədən gətirilən ermənilər bu kəndlərdə yerləşdirilir (91, 36).

Qeyd olunduğu kimi, 1918-1920-ci illərdə Şərqi Anadolu bölgələrindən gətirilmiş erməni əhalisinin böyük bir hissəsi Göyçə mahalında yerləşdirilmişdir. Rəsmi statistik rəqəmlərə nəzər yetirək:

Göyçə gölünün şimal-qərb sahilində, Sevan şəhərindən 9 km cənub-qərbdə, Sevan–Yeni–Bəyazid yolu üstündə yerləşən Rəhman kəndi. 1831-ci ildə bu kənddə 28 nəfər, 1906-cı ildə 479 nəfər, 1914-cü ildə 654 nəfər azərbaycanlı əhalisi olub. 1918-ci ildə dağıdılıb, Qarsdan gətirilmiş ermənilər burada yerləşdirilib. 1931-ci ildə həmin kənddə 339 nəfər erməni, qırğınlardan qurtaran 10 nəfər azərbaycanlı yaşayırdı. Azərbaycanlılar bu kəndi qəti olaraq 1930-cu ildə tərk etmişdilər (32, 299).

Sevan–Nop–Bəyazid yolu üstündə, Sevan şəhərindən 7 km məsafədə yerləşən Bığlı (Bığlı Hüseyn Saraçlı) kəndində 1831-çi ildə 26 nəfər, 1873-cü ildə 356 nəfər, 1897-ci ildə 646 nəfər, 1906-cı ildə 658 nəfər, 1914-cü ildə isə 846 nəfər azərbaycanlı əhalisi olub. 1918-ci ildə isə kənd bütünlüklə dağıdılmışdır (91, 37).

İrəvan quberniyasının Yeni Bəyazid qəzasında Ağqala adlı azərbaycanlı kəndində 1897-ci ildə 331 nəfər, 1904-cü ildə 424 nəfər, 1914-cü ildə 507 nəfər, 1916-cı ilə 520 nəfər azərbaycanlı

yaşamışdır. Bu kənd də 1918-ci ildə erməni-daşnak qüvvələri tərəfindən dağıdılmış, orada Osmanlı ərazilərindən gətirilmiş ermənilər yerləşdirilmişdir (32, 297).

Qeyd olunduğu kimi, erməni siyasi təşkilatlarının və şovinistlərinin Azərbaycan ərazisində "Erməni dövləti" yaratmaq planları və Rusiya hakim dairələrinin bu ideyanı dəstəkləməsi nəticəsində növbəti dəfə Azərbaycan türklərinin kütləvi qətliamları və deportasiyası prosesi başlandı. Bu mərhələ 1917-1920-ci illəri əhatə edən bir dövrdür. Bu mərhələdə Azərbaycanın bütün bölgələrində, xüsusilə də Qərbi Azərbaycan torpaqlarında azərbaycanlılar kütləvi şəkildə qətlə yetirilmiş, yerli əhali öz tarixi torpaqlarından didərgin salınmışdır (51, 15; 88, 13-14).

Rəsmi arxiv sənədlərinə əsasən demək olar ki, bu dövrdə təkcə İrəvan quberniyasında yüzlərlə azərbaycanlı kəndi dağıdılmış, yüz minlərlə insan qətlə yetirilmiş və deportasiya olunmuşdur.

Azərbaycan Dövlət Arxivində saxlanılan sənədlərin birində 1918-ci ilin mart ayınadək İrəvan quberniyasının Yeni Bəyazid qəzasında erməni quldurları tərəfindən dağıdılmış kəndlərin siyahısı haqqında aşağıdakı məlumatlar verilir:

***Cdvəl 2.1***

**Yeni Bəyazid qəzası**

| Qəzaların, milis sahələri və kəndlərin adı | Ümumi fəaliyyət göstərən təsərrüfatların sayı | Əhalinin sayı | | Cəmi |
|---|---|---|---|---|
| | | kişi | qadın | |
| **I milis sahəsi** | | | | |
| 1. Ərzəkənd | 80 | 295 | 298 | 593 |
| **II milis sahəsi** | | | | |
| 2. Ağzıbir | 116 | 413 | 342 | 755 |
| 3. Bığlı | 112 | 338 | 320 | 658 |
| 4. Ağqala | 62 | 218 | 206 | 424 |
| 5. Əyrivəng | 96 | 380 | 326 | 706 |
| 6. Hacı-Muğan | 130 | 530 | 504 | 1034 |
| 7. Rəhmankənd | 72 | 253 | 226 | 779 |
| Cəmi qəza üzrə | 668 | 2427 | 2222 | 4649 |

Bu rəsmi arxiv sənədindən göründüyü kimi, qeyd olunan dövrə qədər təkcə Yeni Bəyazid qəzasının 7 kəndi 668 ailə ilə birlikdə dağıdılmış, ümumilikdə 4649 yerli sakin qətlə yetirilmiş və deportasiya olunmuşdur (18, 220).

1916-cı ildə Yeni Bəyazid qəzasında 50754 nəfər azərbaycanlı yaşayırdısa 1926-cı ildə bu rəqəm 14065 nəfərə enmişdir. Yəni on il müddətində bu qəzada əhali 36689 nəfər azalmışdır (91, 39).

Tbilisidə nəşr edilən "Revolyussionnıy Vostok" jurnalı 1923-cü il aprel sayında yazırdı: "Daşnak hökuməti öz hakimiyyəti dövründə Ermənistandakı azərbaycanlıların 60 faizini qırıb... Təkcə 1914-1918-ci illərdə İrəvan quberniyasında 88 kənd dağıdılıb, 1920 ev yandırılıb, 131970 kişi öldürülüb" (201).

Bu hadisələrin canlı şahidi olmuş İdris Sadıqovun dediklərindən: "1918-ci ilin mart ayı idi. Novruz bayramına bir neçə gün qalırdı. Zaqafqaziyada baş verən hadisələr Yeni Bəyazid azərbaycanlılarını da maraqlandırırdı. Andranikin quldur dəstələrinin Zəngəzurda törətdiyi vəhşiliklər hamımızı həyəcanlandırırdı. Qarlı-boranlı bir gündə eşitdik ki, Andranikin quldur dəstələri azərbaycanlılar yaşayan kəndlərə hücum ediblər. Hadisələrin gərginləşdiyini görən azərbaycanlılar bir yerə toplaşıb Ağmanqan dağına tərəf yollandılar. Yollarda soyuqdan və şaxtadan 2500-dən çox qadın, uşaq, qoca qırıldı. Qarın üstündə uşaq, qadın meyitlərindən tərpənmək olmurdu. Çox çətinliklə tələfat verə-verə özümüzə yol açdıq və Göyçə gölünə çatdıq. Qayıqlarla üzüb Toxlucaya, Şorcaya, Ağbulağa keçdik. Göldə də xeyli adam itirdik. Göyçə gölünün üstü insan cəsədləri ilə dolu idi. Azərbaycanlılara edilən bu divanı heç nə ilə ölçmək olmaz" (32, 296-297).

Sonralar Basarkeçər rayonunun Böyük Məzrə kənd sakini, uzun müddət müxtəlif dövlət orqanlarında çalışmış Veys Veysov öz xatirələrində deyirdi: "Daşnaklar qış aylarında güllə yağışı altında bizi kənddən qovdular. Bu işə generallar Silikov və Tevasov rəhbərlik edirdilər. Bizim rayonda türk kəndləri tamamilə yandırılmış, onların yerində qara təpəciklər qalmışdır. Daşnaklar hansı vəhşilikləri eləmədilər! Onlar neçə-neçə adamları öldürdülər, çoxları isə onların ucbatından məhv oldular. Bizim 8 nəfərdən ibarət

olan ailəmizdən yalnız mən sağ qaldım. İndi gəzdiyimiz bu dağlarda çoxlu insan cəsədləri var idi. O zaman bu dağların daşları və suları da camaatı qorxudurdu. Biz adətən qaranlığın düşməsi ilə qorxu və həyəcanla soyğunçu qatillərin gəlməsini gözləyirdik" (178, 65).

1918-1920-ci illərdə Göyçə mahalında Azərbaycan türklərinin kütləvi şəkildə soyqırıma məruz qalmasını aşağıda verilmiş rəsmi xronoloji məlumatlardan da aydın şəkildə görmək olar:

"24 noyabr 1918-ci il: Daşnak terror qrupu Yeni Bəyazid qəzasının Toxluca kəndini bombalayıb dağıdırlar. Sağ qalan kənd əhalisi yurd-yuvasını biryolluq tərk edir. Ələ keçirdikləri kənd sakini İbrahim Hüseyn oğlunun gözlərini çıxarıb buraxırlar" (37, 27).

"24 yanvar 1919-cu il: Göyçə mahalının Çamırlı kəndinə basqın edən daşnak terrorçuları dörd kişinin başını, altı qadının döşlərini kəsərək on nəfər dinc sakini vəhşicəsinə qətlə yetirmişlər".

28 yanvar 1919-cu il: Daşnak terror qrupu Göyçə mahalının Zağalı kəndinə basqın edir. Terrorçular tərəfindən 25 Azərbaycan türkü qətlə yetirilir, kənd tamamilə dağıdılır. Öldürülənlər arasında qadınlar və uşaqlar da olmuşdur. Daha doğrusu, terrorçular Daşnaksutyunun "şəraitdən asılı olmayaraq türkləri məhv etmək" tezisini Zağalıda həyata keçirmişlər" (37, 30).

"30 yanvar 1919-cu il: Daşnak terror birləşmələri Kəvər mahalının Bığlı, Əfəndi, Hacı, Muğan, Əyrivəng, Ağzıbir kəndlərinə soxulmuş, əhalini kəndlərdən didərgin salmışlar, təqiblər nəticəsində əhali yayda belə başı qarla örtülü olan Ağmanqan dağının yuxarılarında mühasirədə saxlanılmış, üç min nəfər dinc sakin şaxtadan donaraq məhv olmuşdur. Hücum zamanı ələ keçirdikləri Əfəndi kənd sakini İbrahim Hacıhüseyn oğlunun gözlərini çıxarmış, sonra da diri-diri yandırmışlar".

"5 fevral 1919-cu il: Daşnak terror qrupları Göyçə mahalının Daşkənd oymağına basqın edirlər, 21 Azərbaycan türkünü qətlə yetirirlər. Daşkənd oymağından olan el sənətkarı Aşıq Nəcəf daşnaklar tərəfindən girov götürülür. Onu 2 gün ac-susuz çalıb-oxumağa məcbur edirlər. Sonra isə Aşıq Nəcəf Çaxırlı kəndi ilə Basarkeçər kəndləri arasındakı Kültəpə adlanan yerdə ağır işgəncə ilə qətlə yetirilir. Belə ki, kürəyinə qaynar samovar bağlayaraq onu küləyin əks istiqamətində

qaçmağa məcbur edirlər".

"5 fevral 1919-cu il: Daşnak terror qrupu Göyçənin Şorça kəndinə basqın etmişlər. Kənddəki bütün kişilər qılıncdan keçirilmiş, uşaqları isə təndirlərə atmışlar. 8 seçmə qadını isə kənddən aparıb 20 gün saxlamışlar, şərəflərinə toxunduqdan sonra buraxmışlar".

"6 fevral 1919-cu il: Daşnak terror qrupu Göyçə mahalının azərbaycanlılar yaşayan Nərimanlı kəndinə basqın etmişdir. 29 kişi, 10 qadın, 12 uşaq işgəncələr verilməklə qətlə yetirilmiş, cəsədləri eybəcər hala salınmışdır. Gözləri çıxarılmış, qulaqları kəsilmişdir. 37 evə od vurub yandırmışlar".

"7 fevral 1919-cu il: Daşnak terror qrupu Göyçənin Kələnti kəndinə soxulmuşdur. 15 kişi, 3 qadın və 5 uşaq öldürülmüş, meyitləri eybəcər hala salınmışdır".

İlaxır çərşənbə 1919-cu il: Polkovnik Hələbyanın başçılıq etdiyi daşnak terror qrupu "Göyçə mahalının Şişqaya kəndində xüsusi qəddarlıq aktı törədir, 640 nəfər dinc, əliyalın kənd sakinini alovlandırıb ətrafında dövrə vurdurduqları tonqala atıb yandırmışlar".

"23-24 mart 1919-cu il: Daşnak terror qrupları Göyçə mahalının Kiçik Məzrə və Hüseynquluağalı kəndlərinə həmlə edirlər. Kiçik Məzrədə 90, Hüseynquluağalı da isə 30 nəfəri türk olduqlarına görə qətlə yetirirlər".

"13 aprel 1919-cu il: Andronikin başçılıq etdiyi daşnak terror qrupları Göyçə mahalının 22 kəndinə, İnəkdağ və ətraf kəndlərə basqın etmiş, əhalisini yurd-yuvasından didərgin salmışlar. Söyüdlü aşırımından Kəlbəcər tərəfə aşmağa can atan 400 ailə qara, çovğuna düşərək Sümüktökülən dərədə kütləvi şəkildə donvurmadan məhv olmuşlar".

Ümumiyyətlə, 1917-ci ilin fevralı – 1920-ci illər ərzində Andronik, Dro, Njde kimi türkə qənim kəsilmiş qaniçən daşnakların başçılığı altında daşnak terror qrup və birləşmələri tərəfindən 1). Yeni Bəyazid qəzasının 84 kəndi dağıdılmış, 75000 nəfər (15 min ailə) qətlə yetirilmişdir; 2) Göyçə mahalının 22 kəndi yerlə-yeksan edilmiş, 22 min nəfər qətlə yetirilmişdir (37, 27-35).

1918-1920-ci illərdə Göyçə mahalında yaşayan Azərbaycan türklərinin soyqırımı və kütləvi şəkildə deportasiyası ilə bağlı

yüzlərlə rəsmi dövlət sənədləri və arxiv materialları mövcuddur.

1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini elan etdi. Mayın 29-da Müsəlman Milli Şurasının iclasında İrəvanın siyasi mərkəz kimi Ermənistana güzəşt edilməsi haqqında qərar qəbul edilir. İrəvan Müsəlman Milli Şurası bu güzəştə dərhal öz etirazını bildirmişdi. Milli Şuranın iyunun 1-də keçirilən iclasında Şuranın İrəvandan olan üzvləri Mirhidayət Seyidov, Bağır Rzayev və Nəriman bəy Nərimanbəyovun İrəvanın Ermənistana güzəşt edilməsi haqqında qərara yazılı şəkildə etirazlarını bildirsələr də bunun bir nəticəsi olmur. İrəvan quberniyasından alınan həyəcanlı xəbərləri yerində öyrənmək üçün nümayəndə heyəti göndərmək qərara alındı (73, 4).

İyunun 4-də Osmanlı imperiyası ilə Ermənistan arasında Batumda sülh müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən Ermənistan Respublikasının ərazisi təqribən 10 min kv km, əhalisi isə 321 min nəfər (o cümlədən 230 min erməni, 80 min müsəlman, 5 min yezidi kürdlər, 6 min digər millətlər) təşkil edirdi. Bu respublikanın ərazisinə Yeni Bəyazid qəzası, İrəvan qəzasının beşdə üçü, Eçmiədzin qəzasının dörddə biri, Aleksandropol qəzasının dörddə biri daxil idi. Lakin erməni silahlı dəstələri ətraf bölgələrin azərbaycanlı yaşayış məntəqələrini silah gücünə ələ keçirməklə respublikanın ərazisini genişləndirmək yolunu tutmuşdular.

Milli Şuranın iyunun 13-də keçirilən iclasında ermənilərin müsəlmanlara qarşı törətdikləri qırğınlar barədə İrəvandan gələn xəbərlər müzakirə edildi. İrəvan quberniyası ərazisində ev-eşiklərindən didərgin salınan və ac-yalavac dolanan qaçqınların sayının 150 min nəfərə çatdığı, ermənilərin 206 kənd dağıtdığı bildirildi. Milli Şura İrəvan quberniyasında qaçqınlara maddi yardım göstərilməsi üçün nümayəndə göndərməyi qərara alındı. Həmçinin İrəvan quberniyası ərazisində mövcud olan osmanlı qoşunlarının komandanlığından xahiş edilmişdi ki, qaçqınlara ərzaq yardımı etsin və onların öz yer-yurdlarına qayıtmaları üçün Ermənistan hökumətinə təsir göstərsin (73, 4).

Osmanlı qoşunlarının nəzarətindən kənarda qalan bölgələrdə ermənilər qırğınları bir gün də olsa dayandırmamışdılar. Azərbaycan

hökumətinin başçısı F.X.Xoyski AXC-nin Gürcüstandakı daimi nümayəndəsinə 1918-ci il avqustun 28-də göndərdiyi teleqramda Yeni Bəyazid qəzasının Çamırlı, Şorça, Qayabaşı, Sarıyaqub, Daşkənd, Təzəqoşabulaq, Yuxarı Alçalı və Kərkibaş kəndlərinin nümayəndələrinin onun yanına şikayətə gəldiklərini və ermənilərin həmin kəndlərə hücum etdiklərini, kəndləri yandırdıqlarını, əhalinin dağlara çəkildiyini, əkin sahələrinin məhsulunu ermənilərin yığdıqlarını bildirmiş, Azərbaycan hökumətinin adından etiraz verilməsini tapşırmışdır. Həmin il avqustun 30-da AXC-nin Gürcüstan Respublikasındakı diplomatik nümayəndəsi Ararat Respublikasının nümayəndəsinə Azərbaycan hökumətinin sədrinin Yeni Bəyazid qəzasında müsəlmanlara qarşı zorakılıqlara qarşı etiraz məktubu təqdim etmişdir.

Ermənilər 1918-ci ilin sentyabr-oktyabr aylarında Yelizavetpol (Gəncə) qəzasının Yeni Bəyazid qəzasına bitişik 9-cu sahəsini ələ keçirmək, orada Qarsdan və Gümrüdən olan qaçqınları məskunlaşdırmaq istəyirdilər. AXC-nin Gürcüstan Respublikasındakı diplomatik nümayəndəsi Ararat Respublikasının Gürcüstandakı müvəqqəti işlər vəkilinə göndərdiyi məktubda bildirirdi ki, Gəncə qəzasının 9-cu sahəsinin pristavı Gəncə şəhərinə gələrək bildirmişdir ki, oktyabrın 12-də Yeni Bəyazid qəzasının komissarı Basarkeçər kəndinə gəlib, kənd starşinalarını və ruhaniləri toplayaraq bəyan edib ki, 9-cu sahə bundan sonra Ermənistana tabe olacaq. Özünü pristav elan edən Çayxorski tələb edib ki, bir həftə ərzində vergilər ödənilsin, silahlar təhvil verilsin, bu tələbləri yerinə yetirməyənlər ərazini tərk etsinlər.

1919-cu il fevralın 12-də AXC XİN-in Ararat Respublikasının XİN-ə göndərdiyi notada bildirilirdi ki, erməni silahlı dəstələri Göyçə gölü ətrafında sərhədi keçərək Azərbaycan ərazisinə daxil olmuş, Qızılvəng, Subatan, Zağalı, Şahab və s. müsəlman kəndlərini viran etmişdir. Adları çəkilən kəndlərin kişilərinin bir hissəsini öldürmüşlər, bir hissəsi də qaçaraq canlarını qurtarmışlar.

Novo-Bəyazid qəzasının 26 azərbaycanlı kəndinin sakinlərinin 1919-cu il martın 26-da keçirdikləri yığıncaqda Azərbaycan hökumətinə və xalqına qəbul olunmuş müraciətdə qeyd edilirdi ki,

Ararat Respublikasının qoşunları, erməni şovinist və quldur dəstələri tərəfindən dəfələrlə dinc müsəlman kəndlərinə hücumlar edilərək kəndlər dağıdılır, sakinlərin başlarına görünməmiş müsibətlər açılır və qeyri-insani hərəkətlərlə təhqir edilirlər. 270-dən çox müsəlman kəndi dağıdılmışdır ki, bundan başlıca məqsəd İrəvan quberniyasında qalan müsəlman əhalisini sıxışdırıb oradan tamamilə qovmaqdan ibarətdir. “Müsəlman qardaşlar! Sonuncu dəfə sizə müraciət edirik. Ümidsiz vəziyyətimizi nəzərə alın, nə ilə kömək etmək mümkündürsə bizə kömək edin. İrəvan quberniyası ərazisində qalan 60 minlik bədbəxt müsəlman əhalisinin tiran, şovinist və daşnaksakanlar tərəfindən məhv edilməsinə yol verməyin” (73, 4).

Himayəçilik Nazirliyinin müvəkkili Abbasəli bəy Makinskinin (Teymur bəy Makinskinin əmisi oğlu idi) və doktor Qənizadənin 21 dekabr 1919-cu il tarixli məruzəsində bildirilirdi ki, həmin ilin payızına qədər İrəvan qəzasında 25 mindən artıq, Eçmiədzin qəzasında da bir o qədər, İrəvan şəhərində 13 min qaçqın və yerli əhali toplanıb. Novo-Bəyazid qəzasında Göyçə gölünün şərq sahili istisna olmaqla müsəlman qalmayıb. “Hazırda bütün qaçqınların sayı 70-80 min arasındadır və onlar əsasən Böyük Vedi, Aralıq, Başkənd, Yengicə və Naxçıvanda cəmləşiblər. Makinski qaçqınların vəziyyətinin həddindən artıq ağır olduğunu, çörəyin tapılmadığını, müsəlman kəndlərində Türkiyədən gələn erməni qaçqınlarının məskunlaşdığını, ev sahiblərinin isə evsiz-eşiksiz, ac-yalavac qaldıqlarını bildirirdi.

Məruzədə həmçinin təkcə 1919-cu ilin avqustun 2-ci yarısında Eçmiədzin, Yeni Bəyazid və Sürməli qəzalarında 50-dən artıq müsəlman kəndinin dağıdıldığı öz əksini tapmışdı (73, 4).

Bu dövrdə baş verən erməni vəhşiliklərini sonralar AXC Daxili İşlər Nazirinə Gəncə qubernatorunun göndərdiyi məruzəsində də görə bilərik: “...ermənilərin vəhşiliyinin həddi-hüdudu yoxdur. Onların yanında orta əsrin kədərli dəhşətləri çox solğun görünər. Adam inana bilmir ki, XX əsrdə bütün Avropada öz mədəniyyətindən dəm vuran bir xalq köməksiz dinc əhaliyə qarşı vəhşiliklərin bütün üsullarını tətbiq etmiş olsun. Hər gün quberniyanın hər yerindən alınan raportların, məlumatların yaratdığı dəhşətlərlə bu

sətirləri yazmaq çətindir: qadınlar zorlanır, uşaqlar odda yandırılır, dillər, qulaqlar kəsilir, işgəncələr, təhqirlər" (18, 192-194; 53, 98).

Erməni vəhşiliklərini özündə əks etdirən rəsmi sənədlərdən biri də 1919-cu il sentyabr ayının 9-da AXC İctimai İşlər Nazirliyinin İrəvandakı təmsilçisi T.Makinskinin AXC ictimai işlər naziri V.V.Klenevskiyə göndərdiyi raportdur. Bu raportda deyilir: "... erməni qətliamlarından qaçdıqları səbəbiylə mültəçi vəziyyətinə düşən müsəlmanların öz kəndlərinə dönə bilmədiklərinə görə çox sıxıntılı günlər yaşadıqları və hətta aclıqdan ölənlərin olduğu, qış aylarında bu ölümlərin artacağı, sağlamlıq probleminin olduğu, İrəvan, Eçmiədzin, Yeni Bəyazid, Sürməli, Zəngəzur əyalətləri başda olmaqla, bu bölgələrə təcili olaraq qida və sağlamlıq yardımının çatdırılması vacibdir" (52, 162).

AXC Gəncə qəzasının dağlıq hissəsinin 5-ci sahəsinin müsəlman əhalisinin müvəkkili İsmayıl Sultanovun Gəncə qəza rəisinə ünvanladığı 1919-cu il 12 aprel tarixli məlumatında deyilirdi: "Ararat Respublikasının hərbi hissələri Göyçə rayonunun, Yeni Bəyazid qəzasının dinc müsəlman əhalisinə qarşı hücuma keçmişdir. Məqsəd Göyçə gölünün şərq və şimal hissələrini burada yaşayan müsəlmanlardan təmizləməkdir. Hazırda 60.000 əhalisi olan 22 kənd dağıdılmış, yandırılmış, əhali isə qırılmışdır. Göyçə müsəlmanlarını qırmağı qarşısına məqsəd qoymuş və bunu yerinə yetirən erməni qoşunlarının atəşləri ilə bədbəxt müsəlman əhalisi rəhimsizcəsinə məhv olur. Erməni hökumətinin... öz təbəəliyində olan müsəlman vətəndaşlarına qarşı belə vəhşiliklərini gördükdə adam dəhşətə gəlir. Erməni qoşunları əllərinə düşən müsəlmanları heç vəchlə buraxmır, ağlagəlməz işgəncələrlə onlara zülm edir... Qadınları, uşaqları, qocaları və gəncləri öldürürlər, əhalinin malı, dövləti acgöz erməni qoşunları tərəfindən ələ keçirilib, öz aralarında bölüşdürülür... Erməni quldur dəstələri tərəfindən təqib olunanlar Gəncə qəzasının qarlı zirvələrində, dərələrdə gizlənirlər, qarın altında qalıb məhv olurlar... Artıq Göyçə rayonunda müsəlman qalmayıb. Hazırda Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır, onlardan 22 kənd aprel ayının 13-20 tarixlərində dağıdılmışdır. 15 mindən artıq evi olan Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Aşağı Şorca, Hü-

seynquluağalı, Ağkilsə, Zod, Quluağalı, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Zərzebil, Çanəhmədli, İnəkdağ, Qaraiman, Kəsəmən, Başkənd, Kiçik Məzrə, Şişqaya, Baş Hacı, Qəribqaya kəndlərinin əhalisi bütün malı, dövləti başlı-başına buraxıb qaçmışdır. Bütün bu mal-dövlət hazırda ermənilərə qalıb: qarət edilmiş əmlak bir neçə milyard dəyərindədir" (148).

Bu dövrdə baş verən erməni vəhşiliklərini hətta azərbaycanlılara qarşı soyqırım törətmiş erməni hərbçiləri və rəhbərlərinin özləri də etiraf etmişdilər:

"Mən Basarkeçərdə heç nəyi nəzərə almadan, türk əhalisini qırdım, lakin bəzən gülləyə heyfim gəlirdi. Bu köpəklərə qarşı ən düzgün vasitə odur ki, döyüşdən sonra bütün sağ qalanları toplayıb su quyularına doldurub üstündən ağır daşları tökəsən ki, onlardan əsər-əlamət qalmasın. Mən elə də etdim: bütün kişiləri, qadınları və uşaqları bir yerə topladım, əvvəlcə hamısını quyuya atdım, sonra isə quyunu ağzınadək daşla doldurub işlərini bitirdim". Bu sətirləri Yeni Bəyaziddən olan daşnak "qəhrəmanlarından" biri Vahram 1920-ci ildə öz "qoçaqlıqlarını" yuxarıdakı kimi təsvir etmişdir (179, 50; 32, 273).

Həmin dövrdə Ermənistanda daşnak hökumətinin yeritdiyi siyasətdən narazı qalan Q.Muradyan Göyçə gölünün şimal sahilində azərbaycanlılar yaşayan kəndlərinin dağıdılması barədə yazırdı: "... bizim hökumətin gördüyü tədbirlər nəticəsində bu kəndlərin əhalisi Ermənistanın sərhədlərini tərk etmişdir. Mən sahibsiz qalan kəndləri gördüm, orada bir pişikdən, sarsıdıcı sakitlikdən heyrətlənən itlərin qəribə hürüşməsini gördüm. Bu kəndlərin əhalisi çox böyük sahələrdə kartof, buğda və arpa əkini qoyub getmişlər. Hökumət bu kəndlərdən iki milyon pud buğda və yarım milyon pud kartof götürə biləcək" (65, 41).

Ermənilərin 1918-1920-ci illərdə müsəlmanlara qarşı həyata keçirdikləri soyqırımı, zorakılıq və cinayətlər sonrakı dövrdə ayrı-ayrı erməni tarixçiləri tərəfindən də etiraf edilmişdir. Belə ki, A.A.Lalayan "Daşnaksutyun" partiyasının əksinqilabi rolu" məqaləsində bu məsələyə toxunaraq yazırdı ki, "Daşnaksutyun" partiyası hakimiyyətdə olduğu otuz ay müddətində Cənubi Qafqazda erməni

əhalisinin otuz beş faizini və türk (azərbaycanlı) əhalisinin altmış faizini məhv etmişdir. "Daşnaksutyun" Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı silahlı mübarizə apararaq, dövlət tələblərinin yerinə yetirilməsi bəhanəsi ilə dinc əhalini talayır və öldürür, bütöv kəndləri məhv edirdi" (178, 42).

Qulağıkəsik qaniçən Andranikin ordusunun Azərbaycanın qərb torpaqlarında və Naxçıvanın əyalətlərində dəhşətli qırğınları davam etdirməsi barədə Gəncədə yerləşən Azərbaycan hökumətinə xəbərlər gəlmişdi. Nazirlər Şurasının sədri F.X.Xoyskinin İstanbuldakı Azərbaycan nümayəndə heyətinin sədri M.Rəsulzadəyə göndərdiyi məktubunda göstərilirdi ki, Yeni Bəyaziddə bir neçə müsəlman kəndi yenə də dağıdılmışdı. Onların generalı Andranik, öz ordusunu Zəngəzur tərəfdən Yelizavetpol və İrəvan quberniyalarının sərhədlərinə çəkərək Gorusa yaxınlaşmışdı" (2, 130).

Bu dövrdə ermənilərin vəhşilikləri ilə bağlı Göyçə mahalının yerli sakinlərinin də dövlət orqanlarına onlarla rəsmi müraciəti olmuşdur.

İrəvan quberniyası Yeni-Bəyazid qəzasının Daşkənd kəndinin sakinləri Məşədi Hacı Kərim oğlunun və Böyükalı Hacı Mirzə Ələkbər oğlunun AXC Daxili İşlər Nazirinə 23 yanvar 1919-cu il tarixli ərizəsində deyilirdi:

"Ermənistan məmurları qoşunları ilə müsəlman kəndlərini talan etdilər. 1) Zağalı, 2) Daşkənd, 3) Zod, 4) Hüseynquluağalı, 5) Sarıyaqub, 6) Böyük Qaraqoyunlu, 7) Yeni Keyti, 8) Aşağı Şorça, 9) Kiçik Qaraqoyunlu, 10) Qayabaşı, 11) Qoşabulaq, 12) Ağkilsə, 13) Zərzebil, 14) İnəkdağ, 15) Sultanəliqışlağı, 16) Şorça, 17) Böyük Məzrə, 18) Kəsəmən, 19) Şişqaya, 20) Sədənəxac, 21) Qızılvəng...

Aşağıdakı kəndlər yandırılmışdır: 1) Örkülü, 2) Alçalı, 3) Qanlı, 4) Yarpızlı, 5) Kərkibaşı, 6) Çaxırlı, 7) Böyük Məzrə, 8) Kefliyurdu, 9) Qaraimanlı..."(23, 87; 32, 273).

Digər bir məlumatda deyilirdi: "Yuxarı Zağalı kəndinin sakinləri… 311 müsəlman bildirirlər ki, yanvarın 28-də ermənilər onların kəndini məhv etdilər, 15 nəfər müsəlman öldürüldü, qalanları Azərbaycana qaçdı.." (23, 89).

Məşədi İsa Gəncə qubernatoruna və AXC Daxili İşlər nazirinə 13 mart 1919-cu il 2945 nömrəli təqdimatında bildirirdi ki, Basarkeçər rayonunun müsəlman kəndlərində erməni qoşunu əhalini evdən qovur, onların taxıl, alaf və heyvanlarını əllərindən alırlar (23, 91).

Basarkeçər rayonunun müsəlman kəndlərinin əhalisi adından Məşədi Qasım və Abbasəli Məhəmməd Tağı oğlunun həmin məzmunda ərizələri də AXC Daxili İşlər Nazirliyinə təqdim olunmuşdur (23, 91).

1919-cu il fevralın 28-də müsəlman kəndinə rotmistr Silikov, kornet Xaçaturovun və b.-nın başçılığı altında erməni silahlı dəstəsi Zod kəndinə daxil olur və hər kənddən 750 pud taxıl, 100 pud ot tələb etmişdilər. Camaat bu miqdarda taxıl və ot ödəməyə imkanlarının olmadığı üçün bu mükəlləfiyyətin götürülməsini xahiş etmişdi. Onda Silikov camaatı söyür, qamçı ilə döyür və Zod kənd sakini Məsi Süleyman oğlunu öldürür, qalan zabitlər 4 müsəlmanı yaralayırlar.

Həyəcanlanmış camaat qəzəb içərisində irəliyə atılıb 4 zabiti, 15 əsgəri öldürürlər. Bu hadisələr Zod kəndində olmuşdur. Martın 2-də ermənilər Qoşabulağı, Daşkəndi və Böyük Məzrəni tutmaq istəyirlər, ancaq geri oturdulurlar (23, 91-92).

Qaraimanlı Allahverdi Oruc oğlu və Rüstəm Məşədi oğlunun məlumatında deyilirdi ki, zabitlərdən Filimonov və Nişanovun başçılığı ilə erməni silahlı dəstəsi gecə Qızılvəng və Zağalı kəndlərinə girmişdilər. Kəndin bütün kişilərini guya pristav tələb edir deyə tələyə salaraq, özləri kəndləri talan etmişdilər. Kəndlilər deyirdilər ki, nə istəyirsiniz verək, bizi buraxın".

1918-1920-ci illərdə Ermənistanda azərbaycanlıların soyqırıma məruz qalmalarını sovet hakimiyyətinin ilk illərində Ermənistan KP Mərkəzi Komitəsinin nəzdində fəaliyyət göstərən azlıqda qalan millətlərlə iş şöbəsinin türk bölməsinin hesabatlarından aydın görmək olur. Bölmənin müdiri Bala Əfəndiyevin Ermənistan KP MK-ya təqdim etdiyi hesabatında göstərilirdi ki, daşnakların hakimiyyəti dövründə, 1920-ci ilin iyulunda İrəvan quberniyası ərazisində əvvəllər mövcud olmuş 300-dən artıq türk kəndindən yalnız biri – Uluxanlı

kəndi salamat qalmışdı. Onun yazdığına görə, daşnak Ermənistanında müsəlman "koloniyasını" bircə kənd və İrəvanda qalan bir neçə ailə təmsil edirdi (73, 4).

1918-1920-ci illərdə erməni faşistlərinin Azərbaycan türklərinə qarşı törətdiyi bu vəhşiliklərə baxmayaraq, Göyçənin müqavimətini qıra bilmədilər. Onlarla kəndi dağıdıb, yüzlərlə evi yandırsalar da bu cinayətkarlar ciddi müqavimətlə üzləşirdilər. Bu dövrdə Göyçəni oğuz türklərindən təmizləyə bilmədilər.

Həmin illərdə əsasən Göyçə gölü hövzəsində genişmiqyaslı hərbi əməliyyatlar aparan Andranikin və Sulikovun quldur dəstələri ən ciddi zərbəni də məhz Göyçədə almışdır. Heç də təsadüfi deyildir ki, Andranikin quldur dəstəsi Qafqazda ilk ciddi tələfatını məhz Göyçədə vermişdir.

1918-ci il dekabrın 31-də Filimonov və Nişanovun başçılıq etdikləri bölüklər Şəraba kəndini yerlə yeksan etmişdilər. 1919-cu il yanvar ayının 4-də həmin bölüklər Qızılvəng, Zağalı və Subatan kəndlərini dağıtmış, əhalinin böyük bir qismini qırmışdılar. Lakin erməni nizami qoşunlarının qarşısı Çamırlı kəndində alınmışdır. Kəndin və ümumən mahalın ağsaqqalı Hacı Nağının oğlanları Həsən və Mustafanın kəndin müdafiəsini lazımi səviyyədə təşkil etdikləri üçün ermənilər xeyli itki verib geri çəkilmişdilər. Bu gözlənilməz müqavimətdən qeyzlənən Sulikov növbəti bir həftə ərzində 31 azərbaycanlı kəndində ciddi dağıntılar törətmişdir (109, 99).

Düşmənin hücumlarının qarşısını almaq üçün Göyçə əhalisi müəyyən tədbirlər görürdü. Zodlu Səmənd ağa Vəli oğlu, qaraimanlı Məşədi İsa, daşkəndli Aşıq Nəcəf, şişqayalı Kor Tanrıverdi, çamırlılı Həsən Hacı Nağı oğlu, qaraqoyunlulu Alaboğaz Naxoyun iştirakı ilə məşvərət keçirilmiş və erməni quldur dəstələrinə qarşı mübarizəyə hazırlaşmışdılar. 1919-cu ilin mart ayında Sulikovun hərbi birləşmələri ilə Basarkeçər və Zod kəndi arasındakı düzənlikdə baş verən döyüşdə 450-500 nəfərlik azərbaycanlı könüllülər 1300 nəfərlik erməni quldurlarını darmadağın etmişdilər. Bu döyüşdə Sulikov əsir götürülür və edam olunur (109, 100).

Sulikovun edam olunduğunu eşidən Andranik kütləvi qırğınlara göstəriş versə də Göyçə əhalisinin özünümüdafiə qabiliyyətinin

güclənməsi bu vəhşiliklərin qarşısını ala bilirdi. Odur ki, ermənilər fitnəyə əl ataraq sülh danışıqlar aparmaq üçün özünümüdafiə qüvvələrinin rəhbəri Səmənd ağanı və Aşıq Nəcəfi dəvət edirlər. Ermənilər danışıqlara gələn bu iki şəxsi ələ keçirir və qətlə yetirirlər (109, 100).

Səmənd ağanın ölümündən sonra kəndlərin müdafiəsinin bir mərkəzdən təşkili mümkün olmadığından, Göyçə mahalından qadınların və uşaqların çıxarılması qərara alınır (109, 101).

Zod kəndində ciddi müqavimətlə rastlaşan daşnak hökuməti 1919-cu il mart ayının 28-də bölgədəki İngilis qoşunlarının komandanı general Tomsonun qarşısında məsələ qaldırmışdılar ki, Zod kəndindəki silahlı dəstələrin yığışdırılmasına nail olsunlar (147).

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi siyasi-hüquqi qiymət verilməsi məsələsi gündəmə gətirildi. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu cinayətin tədqiqi məqsədilə AXC Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya ilkin mərhələdə ermənilərin Şamaxıda, İrəvan quberniyası ərazisində törətdikləri ağır cinayətləri, vəhşilikləri araşdırmışdır. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün AXC XİN-nin nəzdində xüsusi qurum yaradılmışdır. Martın 31-də törədilmiş qırğın 1919 və 1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən 2 dəfə ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı aparılan soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı siyasətinə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin AXC-nin süqutu bu işin başa çatdırılmasına imkan vermədi (88, 58).

AXC Parlamenti və hökuməti türk müsəlman əhalisinə qarşı aparılan soyqırımı zamanı sosial gərginliyi aradan qaldırmaq məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirirdi. Qaçqınların maddi ehtiyaclarının ödənilməsi və yerləşdirilməsi, onlara tibbi xidmət göstərilməsinin təşkili və bununla bağlı başqa məsələlərə xüsusi qayğı göstərilirdi. Hökumətin "Qaçqınların yerləşdirilməsi məsələsini nizama salmaq üçün Şamaxı qəzasına komissiya göndərilməsi haqqında" (1919, 17 fevral), "Qaçqın və köçkünlərin vəziyyəti-

nin, onların daimi yaşayış yerlərinə qayıtması məsələsinin aydınlaşdırılması üçün mərkəzi komissiyanın yaradılması haqqında" (1919, 23 iyun), "Qaçqınların yerləşdirilməsi üçün təcili tədbirlərin görülməsi haqqında" (1919,8 noyabr) və s. qərarları parlamentin "Qaçqınların ehtiyacları üçün 21 milyon manat pul ayrılması haqqında" 1920, 8 yanvar), " Epidemiya ilə mübarizə və qaçqınlara tibbi yardım göstərilməsi üçün epidemiyaya qarşı 12 mübarizə dəstəsinin yaradılması haqqında" (1920, 26 fevral) qanunları bu istiqamətdə atılan mühüm addımlardan idi. Ölkədaxili ağır vəziyyətə baxmayaraq, Azərbaycan hökuməti Gürcüstan və Ermənistan ərazilərində yaşayan azərbaycanlı əhaliyə də müntəzəm yardım edirdi (88, 59).

1918-1920-ci illərdə erməni quldurlarının Azərbaycan türklərinə qarşı törətdikləri vəhşiliklər nəticəsində istər siyasi, istər iqtisadi, istərsə də demoqrafik baxımdan azərbaycanlı əhaliyə ciddi zərbə vuruldu.

Azərbaycan Xalq Cümhuriyyəti Himayədarlıq Nazirliyinin məlumatına görə, təkcə Yeni Bəyazid, Eçmiədzin və İrəvan qəzaları üzrə 1919-cu ilin sonunda qaçqınların sayı 200 min nəfərə çatmış, ümumiyyətlə isə 1 milyon nəfərdən az olmamışdır (79, 119).

İrəvan quberniyası müsəlmanlarının amerikalılara xatırlatmasında deyilirdi: "88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 131 min 970 kişi öldürülmüşdür" (65, 37).

Bu dövrdə ermənilər Göyçə mahalında 93 kəndi tamamilə dağıtmış, bu kəndlərdə yaşayan əhalinin böyük bir hissəsini qətlə yetirmiş, sağ qalanların hamısı isə bu kəndləri tərk etmişdir (109, 387).

1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə zəmanətindən sonra bu kəndlərin yalnız 65-nə azərbaycanlılar qayıda bilmişdilər. Qalan 28 kəndin 10-u (Abbasgölü, Alparus, Çamırlı, Hüseyinbəyli, II Karvansara, Kamilli, II Kərimkənd, Örkülü, Şəraba, Yaycı) tam mənada yer üzündən silinmiş, 18 kənd isə tamamilə erməniləşdirilmişdir (109, 387).

Daşnakların hakimiyyətdə olduğu dövrdə Qərbi Azərbaycanda 575.000 müsəlman türkündən 565.000 nəfəri öldürülmüş və ya dədə-

baba yurdlarından qovulmuşdur (65, 33).

Ümumiyyətlə, Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) Göyçə mahalında 1918-1987-ci illərdə yaşayış məntəqələri siyahısından silinmiş azərbaycanlı kəndlərinin adları aşağıdakı cədvəldə əks olunmuşdur [107, 44-54]:

*Cədvəl 2.2*

| № | Kəndin adı | Hansı rayonun ərazisində olub? | Nə vaxt? |
|---|---|---|---|
| 1 | Aşağı Alçalı | Martuni | 1918-20-ci illər |
| 2 | Bığlı | Sevan | 1918-20-ci illər |
| 3 | Çamırlı | Martuni | 1918-20-ci illər |
| 4 | Xartlıq | Martuni | 1918-20-ci illər |
| 5 | Kiçik Qaraqoyunlu | Basarkeçər (Vardenis) | 1930-cu illər |
| 6 | Siçanlı | Martuni | 1918-20-ci illər |
| 7 | Yanıx | Martuni | 1918-20-ci illər |
| 8 | Yuxarı Alçalı | Martuni | 1930-cu illər |

Ümumiyyətlə, 1905-1920-ci illərdə indiki Ermənistan Respublikası ərazisində erməni faşistlərinin apardıqları etnik təmizləmə siyasəti nəticəsində bu bölgədə Azərbaycan türklərinə qarşı əsl soyqırımı siyasəti həyata keçirilmiş, yüzlərlə kənd dağıdılmış, yüz minlərlə dinc müsəlman sakin öldürülmüş və ya doğma torpaqlarından qovulmuşdur. Bu qırğınlar nəticəsində onlarla kənd və yüzlərlə ailə yer üzündən silinmişdir.

## 2.2. 1948-1953-cü illər deportasiyası və onun nəticələri

Cənubi Qafqazda müsəlmanlara, ilk növbədə də Azərbaycan türklərinə qarşı genişmiqyaslı cinayətkar əməllərindən heç vaxt əl çəkməyən ermənilər və ruslar tərəfindən XX əsrin ortalarında azərbaycanlılara qarşı növbəti deportasiya siyasəti həyata keçirildi. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı qərarı və 1948-ci il 10 mart tarixli 754 saylı sərəncamı Azərbaycan xalqına

qarşı növbəti tarixi cinayət aktı oldu. Bu cinayətkar qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki tarixi torpaqlarından kütləvi surətdə və zorakılıqla sürgün olundu.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqilliyi – Respublika günü münasibətilə söylədiyi nitqində demişdir: "Azərbaycan xalqına bu dövrdə vurulan ən böyük zərbələrdən biri də 1948-1953-cü illərdə Azərbaycan xalqına qarşı sovet hakimiyyəti tərəfindən edilmiş ən böyük ədalətsizlikdir. Təssüflər olsun ki, tarixçilərimiz və hamımız nədənsə bu hadisəyə o vaxtlar da və indi də, xüsusilə dövlət müstəqilliyimizi əldə edəndən sonra da doğru-düzgün qiymət verə bilməmişik" [25, 4].

Həmin dövrdə bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu proses erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti nəticəsində həyata keçirilmişdir.

Azərbaycan türklərinin 1948-1953-cü illərdə Ermənistan SSR-dən deportasiyasının səbəbləri barədə müxtəlif fikirlər mövcuddur. Məsələn, A.Ə.Paşayev məcburi köçürülmənin əsas səbəbini Kremlin siyasi dairələrində özlərinə kök salmış erməni lobbisinin fəaliyyəti ilə əlaqələndirir [87, 6-7].

Tarixçi-alim B.Nəcəfov isə Azərbaycan türklərinin deportasiyasının "Daşnaksutyun" partiyasının xüsusi ssenarisi əsasında və onun birbaşa Kremlə göstərişi əsasında həyata keçirildiyini qeyd edirdi [78, 20].

Erməni tarixçilərinə gəlincə isə onlar Ermənistan SSR-dən Azərbaycan türklərinin deportasiyasının əsas səbəbini Azərbaycan K(b)P MK-nın I katibi M.C.Bağırovun İ.V.Stalinə ünvanladığı xahiş müraciətində görürlər. Onlar belə hesab edirlər ki, azərbaycanlıların köçürülməsi iqtisadi səbəblə bağlı olmuş, onlar Kür-Araz ovalığının inkişaf etdirilməsi ilə əlaqədar köçürülmüşlər [56, 11]. Bu da növbəti erməni yalanından başqa bir şey deyil və tarixi həqiqətdən çox-çox

uzaqdır.

Tarixi faktlar onu göstərir ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsi qərarı iqtisadi amillərlə bağlı olmayan sırf siyasi qərar idi. Məqsəd tarixi Azərbaycan torpaqları olan Ermənistan SSR ərazisindən azərbaycanlıları tamamilə çıxarmaq, əvəzində xaricdə yaşayan erməniləri bu ərazilərə köçürmək Türkiyə ilə sərhəd boyunca xristian koridorunu bir qədər də genişləndirmək idi.

Bunu 23 dekabr 1947-ci il Ermənistan SSR-dən "azərbaycanlı kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında SSRİ Nazirlər Sovetinin" qərarı da təsdiq edir. Bu qərarın 11-ci maddəsində açıqca deyilir: "Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər" [25, 83].

Tarixçi-alim Ə.Qurbanov haqlı olaraq 1948-1953-cü illərdə Azərbaycan türklərinin indiki Ermənistan ərazisindən köçürülməsini aşağıdakı səbəblərlə əlaqələndirir:

- birincisi, cənub sovet sərhədlərinin təhlükəsizliyi;
- ikincisi, ermənilərdən ibarət etibarlı sərhəd zolağının möhkəmləndirilməsi;
- üçüncüsü, Türkiyə ilə ola biləcək müharibə ehtimalı və Azərbaycan türklərinə etibar edilməməsi;
- dördüncü, sovet tələbləri ciddiliyinin nümayişi;
- beşincisi, Türkiyə əleyhinə siyasətdə ermənilərin iştirakı müqabilində onlara verilmiş vədin qismən yerinə yetirilməsi;
- altıncısı, Cənubi Qafqazda türk nüfuzunun zəiflədilməsi (57, 135-140).

Azərbaycanlıların Ermənistan SSR-dən bu deportasiyası ərəfəsində Göyçə mahalını əhatə edən inzibati ərazi hissələrində – Krasnoselo, Basarkeçər, Martuni, Yeni-Bəyazid rayonlarında ümumilikdə 37850 nəfər əhali yaşayırdı. Biz bu statistikanı yaşayış sahələri üzrə aşağıdakı cədvəldə izləyə bilərik:

*Cədvəl 2.3*

**Ermənistan SSR-in azərbaycanlılar yaşayan rayon və kəndlərin siyahısı** [25, 236]**:**

| № | Rayonların adları və burada məskunlaşmış əhalinin sayı | Azərbaycanlıların yaşadıqları kəndlər | Azərbaycanlılar və ermənilər qarışıq yaşadıqları kəndlər |
|---|---|---|---|
| 1 | Krasnoselo-7250 nəfər | Ardanış<br>Ağbulaq<br>Cil<br>Toxluca<br>Ərmixeyir | |
| 2 | Basakeçər-14750 nəfər | Babacan<br>Pəmbək<br>Güney<br>Şişqaya<br>Göysu<br>Kəsəmən<br>Canəhməd<br>Bala Məzrə<br>İnəkdağ<br>Zod<br>Qanlı<br>Azad<br>Zərkənd<br>Nərimanlı<br>Qayabaşı<br>Əzizli<br>Qaraqoyunlu<br>Sarıyaqub<br>Daşkənd<br>Aşağı Subatan<br>Çiçəkli<br>Qoşabulaq<br>Tüstülü | Böyük Məzrə<br>Yuxarı Zağalı<br>Yarpızlı<br>Çaxırlı |
| 3 | Martuni– 350 nəfər | | Yuxarı Alçalı<br>Karvansaray |

| № | Rayonların adları və burada məskunlaşmış əhalinin sayı | Azərbaycanlıların yaşadıqları kəndlər | Azərbaycanlılar və ermənilər qarışıq yaşadıqları kəndlər |
|---|---|---|---|
| | | | Mədinə |
| 4 | Yeni Bəyazid-<br>750 nəfər | | Başkənd<br>Əyrivənd<br>Ağzıbir |

Artıq yuxarıda da qeyd edildiyi kimi, 1947-ci il dekabr ayının 23-də "Ermənistan SSR-dən azərbaycanlı kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin qərarı çıxır. 1948-ci il mart ayının 10-da SSRİ Nazirlər Soveti həmin qərarın faktiki reallaşdırılması üçün xüsusi bir sərəncam qəbul edir. Köçürmə ilə əlaqədar tədbirlər bu sərəncamda ətraflı şərh olunurdu.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarında göstərilirdi ki, 1948-1950-ci illərdə "könüllülük prinsipləri əsasında" Ermənistan SSR-də yaşayan 100 min azərbaycanlı kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovlağına köçürülsün. Onlardan 10 min nəfərin 1948-ci ildə, 40 min nəfərin 1949-cu ildə və 50 min nəfərin isə 1950-ci ildə köçürülməsi nəzərdə tutulurdu. Azərbaycan SSR və Ermənistan SSR nazirlər sovetlərinə tapşırılırdı ki, köçürüləcək əhali arasında köçürmənin şərtləri və köçürülənlərə dövlət tərəfindən 7 güzəşt haqqında geniş izahat işləri aparılsın. Köçürülənlər ilə onların yola salınmasından ən geci 10 gün qabaq bütün hesablar aparılsın, qazandıqları əmək günlərinin haqqı ödənilsin, köçənlərin şəxsi istifadəsində olan bütün əmlakın, o cümlədən heyvan və quşların aparılmasına da şərait yaradılsın [87, 8-9].

Həmin qərarla Ermənistandan köçürülən azərbaycanlı əhaliyə aşağıdakı "güzəştlər" edilməsi nəzərdə tutulurdu: köçürülən hər ailəyə pulsuz olaraq iki tona yaxın ev əşyası və kənd təsərrüfatı

heyvanları aparılması; köçürülən ailələrin ailə başçısına 1000* manat, hər ailə üzvünə isə 300 manat pul yardımı göstərilməsi; köçürülənlər üçün Kür-Araz ovalığında nağd pulla hər ailə başçısına 1,5 sentner və hər ailə üzvünə isə 0,5 sentner taxıl satın almağa icazə verilsin və s.

"Kənd təsərrüfatında köçürmə işləri üzrə güzəştlər haqqında" SSRİ Mərkəzi İcraiyyə Komitəsi və SSRİ Xalq Komissarları Sovetinin 1937-ci il 17 noyabr tarixli qərarı Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhaliyə də şamil edilirdi. Həmin qərara əsasən Ermənistandan köçürülən kolxozçu və digər azərbaycanlı əhaliyə öz taxıl və kartoflarını Ermənistanda taxıl tədarükü orqanlarına, mal-qaranı isə ət birliklərinə təhvil verməyə icazə verilirdi. Azərbaycana gəldikdə isə burada onlar yerli taxıl tədarükü orqanlarından və ət birliklərindən müvafiq çəkidə taxıl-kartof və mal-qara ala bilərdilər. Qərarda kənd təsərrüfatı banklarına tapşırılırdı ki, Kür-Araz ovalığına köçürülənlərə hər ailəyə ev tikmək üçün 20 min rubl, mal-qara almaq üçün 3 min rubl kredit verilsin. Kreditlərin ödənilməsi onlar verildikdən üç il sonra başlamalı, ev tikmək üçün ayrılmış kredit on il müddətinə, mal-qara almaq üçün ayrılmış kredit 5 il müddətinə ödənilməli idi [87, 9]

1948-ci il mart ayının 10-da SSRİ Nazirlər Sovetinin İ.Stalinin imzası ilə "Ermənistan SSR-dən azərbaycanlı kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qəbul etdiyi sərəncamda göstərilirdi ki, o, "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarına əlavədir". 1948-ci il 10 mart tarixli sərəncamda artıq köçürmə ilə əlaqədar konkret tədbirlərdən bəhs olunurdu. Burada qeyd edilirdi ki, Ermənistan SSR-dən Kür-Araz ovalığına köçən kolxozçular özləri ilə əsas istehsal vasitələrini-kənd təsərrüfatı maşınlarını, avadanlığı, canlı və mexaniki qoşqu qüvvələrini, bütün növdən olan ev heyvanlarını və quşları, arı ailələrini, nəqliyyat vasitələri və başqa əşyaları da apara bilərlər. Dəyirmanlar, çoxillik ağaclar, elektrik stansiyaları və başqa mədəni-məişət tikililəri isə buraya daxil deyildir [87, 10].

---

* Sovet-alman müharibəsi və ondan sonrakı ilk illərin sürətli inflyasiyası şəraitində bu çox cüzi məbləğ idi – B.Ə.

Qərarda Ermənistan SSR və Azərbaycan SSR nazirlər sovetlərinə tapşırılırdı ki, bir ay müddətində Ermənistandan Kür-Araz ovalığına köçürüləcək azərbaycanlı kolxozçular və digər azərbaycanlı əhalinin Ermənistandan köçürülə bilməyən əmlakının haqqının ödənilməsi qaydaları müəyyənləşdirilsin. Bu respublikaların nazirlər sovetlərinə tapşırılırdı ki, öz əmlakını satmaqda köçürülən əhaliyə kömək etsinlər.

Qərarda Azərbaycan SSR Nazirlər Sovetinin köçürülən kolxoz təsərrüfatları və əhalinin yerləşdirilməsi şöbəsinin Azərbaycan SSR Nazirlər Soveti yanında köçürmə idarəsinə çevrilməsi məqsədəuyğun hesab edilirdi. Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadə İdarəsinə tapşırılırdı ki, köçürülən kolxozçulara texniki yardım göstərilməsi, yaşayış evləri tikilməsi və yardımçı təsərrüfatlar yaradılması üçün tikinti materialları ilə köməklik etsin.

Azərbaycan SSR Nazirlər Sovetinə və SSRİ Kənd Təsərrüfatı Nazirliyinə icazə verilirdi ki, "Azərköçürmətikinti" kontoru əsasında Kür-Araz Düzənliyi Suvarılan Torpaqların İstifadəsi İdarəsi tabeliyində "Azərköçürmətikinti" tresti yaradılsın və həmin trestin nəzdində Salyan, Şirvan, Sabirabad və Biləsuvar rayonlarında tikinti-quraşdırma kontorları təşkil edilsin.

Azərbaycan SSR Nazirlər Sovetinə icazə verilirdi ki, Ermənistan SSR-dən azərbaycanlı kolxozçular və başqa əhalinin Kür-Araz ovalığına köçürüləcəyi müddətdə Yerevanda özünün xüsusi nümayəndəliyini açsın. Ermənistan SSR-dən azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar olaraq hazırlıq işləri üçün (layihələndirmə, köməkçi müəssisələrin tikintisi, tikinti avadanlıqlarının alınması, tikinti təşkilatlarının yaradılması və s.) 1948-ci ildə respublika üçün ayrılmış limitdənkənar vəsaitdən 11 milyon manat istifadə edilsin [87, 11].

SSRİ Nazirlər Sovetinin qərarlarından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün Azərbaycan SSR Nazirlər Soveti 1948-ci il fevralın 2-də və aprelin 14-də xüsusi qərarlar qəbul etdi. Birinci qərarda həmin il Ermənistan SSR-dən köçürüləcək 10 min nəfər əhalini qəbul etmək və yerləşdirmək məsələlərindən bəhs olunurdu.

Burada Salyan, Saatlı, Sabirabad, Şirvan, Biləsuvar, Ağcabədi və Xıllı rayon icraiyyə komitələrinə bir vəzifə olaraq tapşırılırdı:

-1948-ci il fevralın 15-nə qədər köçürülənlərin yerləşdiriləcəyi kolxozlarda olan boş yaşayış evlərinin təmiri və bərpası üçün tikinti briqadaları yaratmaq;

-onları lazımı nəqliyyat vasitələri və əmək alətləri ilə təmin etmək;

- öz yaşayış evlərinin bir hissəsini köçürülənlərə vermək istəyən kolxozçuları müəyyən etmək və uçota götürmək;

- kolxozlarda Ermənistan SSR-dən azərbaycanlı kolxozçuların və digər azərbaycanlı əhalinin Kür-Araz ovalığına köçürülməsinin qaydaları, şərtləri, təsərrüfat-siyasi əhəmiyyəti haqqında geniş izahat işləri aparmaq.

Azərbaycan SSR-in sovxozlar, kənd təsərrüfatı, su təsərrüfatı nazirliklərinə, Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadəsi və Kür-Araz Su Tikintisi idarələrinə tapşırılırdı ki, 1948-ci ilin birinci yarısında köçürülənləri qəbul etmək üçün lazımi yaşayış sahələrinin hazırlanması, sovxozlarda, tikinti kontorlarında, su vuran qurğularda onların işlə təmin olunması üçün hazırlıq işləri görsünlər. Dövlət plan komitəsinə tapşırılırdı ki, kolxoz və sovxozlarda köçürülənlər üçün nəzərdə tutulmuş yaşayış evlərinin təmiri üçün lazımi tikinti materialları ayırsın [87, 12].

Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 14 aprel tarixli qərarında isə SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli və 1948-ci il 10 mart tarixli qərarları və bu qərarlardan irəli gələn vəzifələr geniş izah edilir, bunların yerinə yetirilməsi üçün respublikanın ayrı-ayrı təşkilatları qarşısında duran vəzifələr dəqiqləşdirilirdi.

Azərbaycan K(b)P Mərkəzi Komitəsi 1948-ci il aprel ayının 13-də "Ermənistan SSR-dən azərbaycanlı kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-ə köçürülməsi ilə əlaqədar kütləvi izahat işləri haqqında" qərar, Azərbaycan SSR Nazirlər Soveti isə 1948-ci il mayın 13-də bu məsələ ilə əlaqədar əlavə qərar qəbul etdi.

Hələ 1948-ci ilin martında Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyev və Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi H.Seyidov Ermənistanda olmuşdular. Onlar Ermənistan SSR

rəhbərləri ilə azərbaycanlılar yaşayan rayonlara yollanaraq kolxozçular arasında köçürmənin qaydaları və şərtləri haqqında izahat işləri aparmışdılar. Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 13 may tarixli qərarına əsasən həmin il Ermənistan SSR-in Yerevan şəhərinin Stalin və Spandaryan rayonlarından, habelə Basarkeçər, Vedi, Artaşat, Noyenberyan, Oktenberyan, Zəngibasar və başqa rayonlardan Azərbaycana 2757 təsərrüfatın (12177 nəfərin) köçürülməsi planlaşdırılırdı. Onlardan 6215 nəfərini Kür-Araz ovalığında, 5962 nəfərini isə Azərbaycanın digər rayonlarında yerləşdirmək nəzərdə tutulurdu. Köçürülənlər Bakının Əzizbəyov və Voroşilov rayonlarında, habelə Gədəbəy, Xanlar, Şamxor, Martuni, Səfərəliyev, Qasım İsmayılov, Göyçay, Quba, Bərdə, Ağstafa, Ucar, Ağcabədi, Salyan kənd rayonlarında yerləşdirilməli idi [87, 14].

Göyçə mahalının inzibati ərazi vahidlərindən 1949-cu ildə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-yə köçürülməsi ilə bağlı nəzərdə tutulan planı aşağıdakı cədvəldə görə bilərik:

***Cədvəl 2.3***

**1949-cu ildə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-yə köçürülməsi ilə bağlı plan** [25, 233]

| Rayonlar və kəndlər | Təsərrüfatların ümumi sayı | əhalinin ümumu sayı | Yazda köçürüləcək | | Payızda | |
|---|---|---|---|---|---|---|
| | | | Təsərrüfatların sayı | Əhalinin sayı | Təsərrüfatların sayı | Əhalinin sayı |
| 1. Basarkeçər r-nu | | | | | | |
| Yuxarı Zağalı | 71 | 287 | - | - | 71 | 287 |
| Çaxırlı | 148 | 748 | - | - | 148 | 748 |
| Qanlı | 66 | 343 | - | - | 66 | 343 |
| 2. Martuni r-nu | | | | | | |
| Mollalı | 33 | 193 | - | - | 33 | 193 |
| Karvansaray | 25 | 144 | - | - | 25 | 144 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 3. Yeni-Bəyazid r-nu | 18 | 69 | - | - | 18 | 69 |
| Qeqarakuni | 15 | 80 | - | - | 15 | 80 |
| Muxan | 31 | 204 | - | - | 31 | 207 |
| Ağqala | 57 | 337 | - | - | 57 | 337 |
| Lçap | | | | | | |

Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına ilk köçkünlər 1948-ci il iyunun əvvəllərində gəlmişdir. Azərbaycan SSR Sovxozlar Nazirliyinin həmin il iyunun 19 - da verdiyi məlumatda bildirilirdi ki, qəbul olunan ilk eşelonlarla 44 azərbaycanlı ailəsi gəlmiş, onlar Jdanov (indiki Beyləqan) rayonundakı sovxozlarda yerləşdirilmişdir. Məlumatda göstərilirdi ki, gələnlər təmir olunmuş mənzillərlə təmin edilirlər. Onlar özləri ilə lazımi ev əşyaları gətirmiş, sovxozlar onları miçətkən ilə təmin etmiş, istəyənlər üçün bostan sahələri ayrılmış və imkan daxilində onlara toxum da verilmişdir. Əmək qabiliyyətli əhali işlə təmin edilmişdir. Onlar əsasən bağlarda və bostanlarda işlə təmin edilmişlər. “Köçürülənlər arasında bir neçə nəfər ixtisaslı traktorçu da var və onlar müvəffəqiyyətlə pambıq tarlalarında kultivasiya işi ilə məşğul olurlar”. Məlumatda bildirilirdi ki, “bu günlərdə əlavə 23 ailəni qəbul etməyə hazırlaşırıq” [87, 16].

Köçürmənin birinci ili Kür-Araz ovalığında hazır yaşayış evləri, həyətyanı sahələr və suvarılan torpaqlar olmadığı üçün əhalinin bir hissəsi Azərbaycanın boş yaşayış evləri olan rayonlarına köçürülürdü. Habelə Ermənistan SSR-in bir sıra dağ rayonları sakinlərinin tələbi ilə onlar düzən rayonlarının təbii şəraitinə davam gətirə bilməyəcəkləri üçün onları Azərbaycanın dağ rayonlarına köçürməyi xahiş edir və birinci il buna nail olurlar.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarı ilə 1949-cu ildə Ermənistan SSR-dən Azərbaycana 40 min nəfər azərbaycanlının köçürülməsi planlaşdırılırdı. 1948-ci il köçürməsinin nəticələri göstərdi ki, qırx min nəfər adamı yerləşdirmək o qədər də asan məsələ deyil. Belə ki, 1948-ci ildə köçürülən 10 min nəfər nisbətən daha çox mənzil ehtiyatı olduğu onların eyni bir vaxtda köçürülməsinə, respublikanın müxtəlif rayonlarına paylanmasına

baxmayaraq onların çoxu qaramal tövlələrində yerləşdirilmişdi. Belə bir şəraitdə 40 min nəfəri Kür-Araz ovalığına köçürmək və yaşayış evləri, həyətyanı sahələrlə təmin etmək praktiki cəhətdən qeyri-mümkün idi [87, 17].

1948-1953-cü illərdə Ermənistan SSR-in tərkibində olan Göyçə mahalını əhatə edən Basarkeçər, Yeni Bəyazid (Kamo), Aşağı Qaranlıq (Martuni) rayonlarından da azərbaycanlı əhali zorla köçürülməyə məruz qalmışdır.

Basarkeçər rayonundan azərbaycanlı əhalinin köçürülməsi 1951-1953-cü illərin köçürülmə planına salınmışdır. Lakin rayonun ermənilərlə qarışıq olan Yarpızlı, Qızılvəng, Yuxarı Zağalı, Kərkibaş və Qanlı kəndlərinin əhalisi 1948-ci ildə köçürülməyə məruz qalmışdır [70, 195].

1948-1953-cü illərdə Basarkeçər rayonundan əhalinin Azərbaycan SSRİ-yə köçürülmə planını aşağıdakı cədvəllərdə izləyə bilərik.

*Cədvəl 2.4*

**1948-ci ildə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülmə planı**
[25, 171-173]

| Ermənistan SSR-dən haradan, nə qədər və nə vaxt köçürülənlər | | | | | | | | Azərbaycan SSR-də köçürülənlər üçün nəzərdə tutulmuş | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Rayon | Kənd | Miqdarı | | O cümlədən | | | | Rayon | Kənd | Kolxoz | Miqdarı | | O cümlədən | | | |
| | | | | Yazda | | Payızda | | | | | | | Yazda | | Payızda | |
| | | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər | | | | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər |
| Basarkeçər | Qızılvəng | 54 | 245 | 54 | 245 | - | - | Gədəbəy | Novosaratovka | «Qırmızı Oktyabr» | 70 | 320 | 70 | 320 | - | - |
| | Tüstülü | 10 | 56 | 10 | 56 | - | - | | Novosaratovka | «Qırmızı Oktyabr» | 10 | 56 | 10 | 56 | - | - |
| | Yarpızlı | 118 | 569 | 118 | 569 | - | - | Xanlar | Novosaratovka | Voroşilov adına | 118 | 569 | 118 | 569 | - | - |
| | Zağalı | 57 | 263 | 57 | 263 | - | - | | Arıqıran | «Zakfederasiya» | 57 | 263 | 57 | 263 | - | - |
| | Zod | 70 | 403 | 70 | 403 | - | - | Şamxor | Xanlar | Telman adına | 100 | 400 | 100 | 400 | - | - |
| | | | | | | | | | Leninkənd | Həzi Aslanov adına | 50 | 200 | 50 | 200 | - | - |
| | | | | | | | | | Şamxor | Klara Setkin adına | 50 | 200 | 50 | 200 | - | - |

*Cədvəl 2.5*

**1948-ci il üçün təsdiq olunmuş plana uyğun olaraq Ermənistan SSR-dən köçürülmüş kolxozçular haqqında Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin məlumatı sentyabr 1948-ci il** [25, 218]

| Haradan və nə qədər köçürülür | | | | Harada və nə qədər məskunlaşdırılır | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Rayon** | **Kənd** | **Təsərrüfat** | **Nəfər** | **Rayon** | **Kənd** | **Kolxoz** | **Təsərrüfat** | **Nəfər** |
| Basarkeçər | Yarpızlı<br>Zağalı<br>Çaxırlı | 118<br>57<br>145 | 569<br>263<br>515 | Gədəbəy<br>Gədəbəy<br>Gədəbəy<br>Gədəbəy<br>Gədəbəy<br>Gədəbəy | Novoivanovka<br>Arıqıran<br>Orconikidze<br>Ağamalı<br>Maarif<br>Alekseyevka | Voroşilov adına<br>«Zakfederasiya» | 118<br>57<br><br>145 | 569<br>263<br><br>515 |
| | **Cəmi:** | **320** | **1347** | | | **Cəmi:** | **320** | **1347** |

*Cədvəl 2.6*

**1948-ci ildə azırbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovlağına köçürülməsi haqqında** [25, 243]

| Haradan və nə qədər köçürülür | | | | | Məskunlaşdığı yer | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Rayon | Kənd | Kolxoz | Təsərrüfat | Nəfər | Rayon | Kənd | Kolxoz | Təsərrüfat | Nəfər |
| Basarkeçər | Qızılvəng | «İnternasional» | 87 | 358 | Gədəbəy | Novaya Saratovka | «Qırmızı Oktyabr» | 87 | 235 |
| Basarkeçər | Tustülü | «İnternasional» | 18 | 87 | Gədəbəy | Novaya Saratovka | «Qırmızı Oktyabr» | 18 | 87 |
| Basarkeçər | Zod | Kirov ad. | 95 | 502 | Xanlar | Xanlar | Telman ad. | 95 | 502 |
| Basarkeçər | Çaxırlı | | 26 | 136 | Gədəbəy | - | - | 26 | 136 |
| Basarkeçər | Yarpızlı | Kirov ad. | 151 | 662 | Gədəbəy | - | - | 151 | 662 |

*Cədvəl 2.7*

**1949-cu il noyabrın 5-dək Ermənistan SSR-dən kolxozçuların və onların təsərrüfatlarının köçürülməsi sahəsində həyata keçirilmiş işlərin vəziyyəti haqqında Köçürmə idarəsinin rəisi N.D.Allahverdiyevin Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini İ.K.Abdullayevə arayışı** [25, 336]

| Haradan və nə qədər köçürülür | | | Haradan və nə qədər məskunlaşdırılır | | |
|---|---|---|---|---|---|
| Rayon | Təsərrüfat | Nəfər | Rayon | Təsərrüfat | Nəfər |
| Basarkeçər | 373 | 1725 | Yevlax | 120 | 560 |
| | | | Ucar | 90 | 394 |
| | | | Gədəbəy | 163 | 771 |

*Cədvəl 2.8*

**1953-cü ildə azırbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovlağına köçürülməsi haqqında** [25, 681]

| Haradan və nə qədər köçürülür | | | | | Məskunlaşdığı yer | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Rayon | Kənd | Kolxoz | Təsərrüfat | Nəfər | Rayon | Kənd | Kolxoz | Təsərrüfat | Nəfər |
| Basarkeçər | Qaraimanlı | Molotov ad. | 55 | 273 | Mirbəşir | Qarraqan | Bağırov ad. | 55 | 273 |
| Basarkeçər | Qoşabulaq | Stalin ad. | 74 | 377 | Mirbəşir | Borsunlu | Stalin ad. | 74 | 377 |
| Basarkeçər | B.Məzrə | Kaqonoviç ad. | 17 | 90 | Mirbəşir | Borsunlu | H.Hacıyev ad. | 17 | 90 |
| Basarkeçər | K.Məzrə | Əzizbəyov ad. | 75 | 382 | Mirbəşir | Kəngərli | Kirov ad. | 75 | 382 |
| Basarkeçər | Basarkeçər | - | 1 | 6 | Bərdə | - | - | 1 | 6 |
| Basarkeçər | Nərimanlı | Nərimanov ad. | 34 | 152 | Bərdə | Şərəfli | Telman ad. | 34 | 152 |
| Basarkeçər | Daşkənd | «Krasnıy Paxar» | 127 | 583 | Bərdə | Şirvanlı | T.Quliyev ad. | 127 | 583 |
| Basarkeçər | Zarkənd | - | 24 | 114 | Bərdə | -Mirbəşir/ | - | 24 | 114 |
| Basarkeçər | Ağkilsə | «Qızıl Şəfəq» | 20 | 97 | Bərdə | İsmayıllı | Stalin ad. | 20 | 97 |
| Basarkeçər | Ağkilsə | «Qızıl Ordu» | 5 | 27 | Mirbəşir | Qapanlı k/s | «Bakı fəhləsi» | 5 | 27 |

Bu dövrdə Basarkeçər rayonunun partiya komitəsinin birinci katibi Talıb Musayevin və yerli azərbaycanlı əhalinin ciddi müqaviməti rayondan azərbaycanlıların kütləvi köçürülməsinə mane olmuşdu [32, 276].

Ermənistan rəhbərləri türk əhalisinin olduqca sıx yaşadığı Basarkeçər rayonunun əhalisini köçürmək üçün Ermənistan SSR Nazirlər Sovetinin sədr müavini Çarçoğluyan başda olmaqla respublikanın vəzifəli şəxsləri yük maşınları ilə birgə rayona gəlib, 600 ailənin köçməsini tələb etmişlər [70, 195].

Basarkeçər RPK-nın birinci katibi Talıb Müsayevin göstərişi ilə RPK-nın əməkdaşları Y.Rzayev, T.Əmiraslanov, Q.Məmmədov və başqalarının səyi ilə rayonun azərbaycanlı əhalisinin müqaviməti təşkil edilmiş, komissiya üç gün rayonda qaldıqdan sonra 150 boş maşınla geri qayıtmışdır [30, 200; 56, 10].

T.Musayev köçürmə işində yol verdiyi səhv və nöqsanlara görə Ermənistan K(b)MK və Kirovakan Dairə Komitəsi bürosunda işdən azad edilərək ciddi partiya cəzası almışdır [70, 223-224].

Basarkeçər rayonunun tamamilə deportasiyaya məruz qalan kəndlərindən biri də Yarpızlı kəndi olmuşdur. 1931-ci ildə kənddə 547 nəfər azərbaycanlı, 284 nəfər erməni yaşamışdır. 1948-ci ildə bu kəndin azərbaycanlı əhalisi tamamilə köçürülmüş, kənd tamamilə erməniləşdirilmişdir [32, 288].

1918-1920-ci illərdə ermənilər tərəfindən kütləvi qırğınlara məruz qalan və Türkiyədən köçürülən ermənilərin hesabına qarışıq kəndə çevrilən Qızılvəng kəndi də deportasiya edilən kəndlər siyahısındadır. 1931-ci ildə bu kənddə 282 nəfər azərbaycanlı, 421 nəfər gəlmə erməni əhalisi yaşayırdı. 1948-ci ildə yerli azərbaycanlı əhali zorla deportasiya edilmiş, kənd tamamilə erməniləşdirilmişdir [32, 284].

Basarkeçər rayonunun Yuxarı Zağalı kəndi də 1948-1953-cü illər deportasiyasına məruz qalmışdır. 1916-cı ilə qədər tamamilə Azərbaycan türklərinin yaşadığı bu kənddə, 1918-1920-ci illərdə ermənilər tərəfindən qırğınlara və sürgünlərə məruz qalmış bu kəndə Türkiyənin Muş vilayətindən ermənilər köçürülmüş və qarışıq kəndə çevrilmişdir. 1926-cı ildə bu kənddə 206 nəfər yerli azərbaycanlı, 397

nəfər gəlmə erməni yaşamışdır. 1948-ci ildə azərbaycanlı əhalinin bir hissəsi deportasiya edilmişdir [32, 288].

XX əsrin əvvəllərində erməni-daşnak qüvvələri tərəfindən qırğınlara məruz qalan kəndlərdən biri də Qanlı (Qamışlı) kəndi olmuşdur. 1916-cı ildə bu kənddə 483 nəfər azərbaycanlı yaşamış, 1918-1920-ci illərdə əhalinin bir qismi qətlə yetirilmiş, qalan hissəsi isə qovulmuşdur. 1922-ci ildə yalnız 165 nəfər kəndə qayıda bilmişdir. 1931-ci ildə azərbaycanlı əhalinin sayı 287 nəfər olmuşdur. 1948-1949-cu illərdə bütün əhali zorla Kür-Araz ovalığına köçürülmüşdür. Burada təbii-coğrafi və iqtisadi çətinliklər səbəbindən yaşaya bilməyən əhalinin bir qismi həlak olmuş, qalan hissəsi isə yenidən doğma yurdlarına qayıtmışdır* [32, 282].

Göyçə mahalının Kərkibaş kəndi də zaman-zaman deportasiyalara məruz qalan kəndlərdən olmuşdur. 1919-cu ildə daşnaklar bu kəndi dağıtmış və əhalisini didərgin salmışdılar. 1920-ci ildən sonra kəndin sağ qalan qaçqınları öz doğma kəndlərinə qayıtmışdılar. 1931-ci ildə bu kənddə 224 nəfər əhali yaşamışdır. 1948-ci ildə deportasiyaya məruz qalmış və əhalinin bir hissəsi kənddən çıxarılmışdır [32, 289].

Basarkeçər rayonunda deportasiyaya qismən məruz qalan kəndlərdən biri də Zod kəndi olmuşdur. 1948-1951-ci illərdə Zod kəndindən 100 ailə Xanlar (indiki Göygöl rayonu) rayonunda məskunlaşdırılmışdır.

Erməni vəhşiliklərinə dözə bilməyən Zod sakinləri məcburiyyət qarşısında qalaraq Azərbaycan rəhbərliyinə müraciət edərək onların köçürülməsini xahiş etmişdilər. 1948-ci ilin fevral ayında Zod kənd sakini Bala Hacıyev şəxsən özü Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin qəbulunda olmuş və öz həmkəndliləri adından xahiş etmişdir ki, 100 ailənin Azərbaycanın Xanlar rayonuna köçməsinə icazə versin. Onların xahişi yerinə yetirilmiş və 100 ailə Xanlar rayonuna köçmüşdür [25, 25].

1948-1953-cü illərdə Göyçə mahalından deportasiya olunan azərbaycanlılar arasında Yeni Bəyazid rayonunun əhalisi də olmuş-

---

* İ.V.Stalinin ölümündən bir müddət sonra – B.Ə.

dur. Bu rayonun azərbaycanlılar yaşayan bir neçə kəndi də köçürülməyə məruz qalmışdır. Bu kəndlərdən biri də Ağzıbir kəndidir. Bu kənddə 1947-ci ildə 600 nəfərdən çox azərbaycanlı yaşamışdır. 1948-ci ildə bütün azərbaycanlı əhalisi zorla köçürülmüş, Azərbaycan SSR-nin Ağdaş rayonunda məskunlaşdırılmışdır [91, 107].

Yeni Bəyazid rayonunun Başkənd kəndi də deportasiyaya məruz qalan kəndlər arasındadır. Bu kəndə ermənilərin kütləvi şəkildə köçürülməsi nəticəsində, 1931-ci ildə ermənilərin sayı 1156 nəfərə çatmışdır. Azərbaycanlı əhali isə 194 nəfər olmuşdur. 1948-1950-ci illərdə zorla deportasiya nəticəsində kənd sırf erməni kəndinə çevrilmişdir [32, 298].

1948-1953-cü illərdə Yeni Bəyazid rayonunun Hacı Muxan (1978-ci ildən sonra – Tsovazard), Ördəkli (Lcaşen – 1946), Güzəcik (Lancaxpyur – 1950), Ağqala kəndlərində də azərbaycanlıların deportasiyası həyata keçirilmişdir [5, 217-220].

Təkcə 1950-ci ilin yaz aylarında Yeni Bəyazid rayonunun Ağqala kəndinin Stalin adına kolxozundan 46 təsərrüfat – 237 nəfər, Muxan "Beynəlmiləl" kolxozundan 8 təsərrüfat – 46 nəfər, Ləncab kəndindən 66 təsərrüfat – 368 nəfər əhali Azərbaycan SSR-ə köçürülmüşdür [25, 414].

1950-ci ilin payızında isə Yeni Bəyazid rayonunun Ağqala kəndindən 135 nəfər, Ləncab kəndindən 180 nəfər, Muxan kəndindən isə 27 nəfər (cəmi 342 nəfər) Azərbaycan SSR-in Ağdaş rayonuna köçürülmüşdür.

XIX-XX əsrlərdə Göyçə mahalının kütləvi şəkildə soyqırıma məruz qalmış bölgələrindən biri də Aşağı Qaranlıq (Martuni rayonu) bölgəsi olmuşdur. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalına qədər bu bölgədə əsasən azərbaycanlılar yaşasa da, sonrakı dövrdə Osmanlı imperiyası ərazisindən ermənilər kütləvi şəkildə bu ərazilərə köçürülmüşdülər. Bunun nəticəsi idi ki, 1922-ci ildə burada 32104 nəfər erməni, cəmisi 363 nəfər azərbaycanlı yaşamışdır. 1948-1953-cü illərdə az sayda azərbaycanlılar yaşayan Karvansara, Mollalı, Mədinə, Qızılxaraba, Aşağı Alçalı (Artsvanist – 1968), Qaranlıq (Geğhovit – 1968) kəndlərindən bütün azərbaycanlı əhali deportasiya

olunmuşdur [32, 301-302; 5, 217-220].

Ümumiyyətlə, Azərbaycan SSR Nazirlər Soveti 1950-ci ildə cəmisi 2419 ailənin (14361 nəfər) köçürülməsi üçün qərar qəbul etsə də, həmin il əslində 65 min nəfər köçürülmüşdür. 1948-1950-ci illərdə Ermənistan SSR-dən köçürülmüş ailələrdən yalnız 4878-ni yaşayış evləri ilə təmin etmək mümkün olmuşdur. Bir çox ailələr tövlələrdə və digər insan yaşayışı üçün yararsız binalarda yerləşdirildikləri üçün bir çox xəstəlikdən, xüsusən də qızdırmadan əziyyət çəkirdilər.

1949-cu il sentyabrın 21-də vəziyyətin dözülməz olduğunu nəzərə alaraq Azərbaycan SSR Nazirlər Soveti SSRİ Nazirlər Sovetinə müraciət edir ki, həmin il üçün köçürülmə planını 10 min nəfərə endirsin.

1951-ci ilin əvvəlindən başlayaraq köçürülən əhalinin bir hissəsi məcbur olub Ermənistana – boşaldılmış kəndlərə geri qayıdır. Geri qayıtmanın kütləvi şəkil alacağından ehtiyat edən Ermənistan rəhbərliyi böyük hay-küy qaldırır, onları qəbul etməkdən imtina edir. Əslində isə xaricdən gələn erməniləri yerləşdirmək adı altında köçürülən kəndlər əsasən boş qalırdı. Məsələn, Ermənistan SSR Artaşat rayonunun Sabunçu kəndindən 1950-ci ildə köçürülmüş azərbaycanlıların bir hissəsi 5-6 il sonra 1955-1956-ci illərdə geri qayıtdıqda Sabunçunun xaricdən gətirilən ermənilərin cüzi hissəsi kənd rayonlarına gedirdi. Hər cür yağlı vədlərlə gətirilən ermənilərin əksəriyyəti özlərini aldadılmış hesab edir, sosial inkişaf baxımından bərbad vəziyyətdə olan azərbaycanlı kəndlərinə ayaq qoymaq istəmirdilər. Ermənilər kütləvi surətdə gəldikləri ölkələrə qayıtmağa can atırdılar.

1948-ci ildə Basarkeçər rayonunun Zod kəndindən gələn 100-dən çox ailənin 16-sı sonradan geri qayıtmışdır [25, 564].

Tarixçi Nazim Mustafayev mənbələrə söykənərək yazır: "1951-ci ildə Ermənistandan 1500 ailənin Kür-Araz ovalığına köçürülməsi planlaşdırılır. Onlardan 400 ailə İrəvan şəhərinin sakinləri nəzərdə tutulurdu. 1952-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin köçürmə planı haqqında qəbul etdiyi qərarda 1200 təsərrüfatın köçürülməsi nəzərdə tutulur və ilin axırında bu plan 124, 6 faiz yerinə yetirilir.

Həmin illərdə eyni zamanda qeyri-rəsmi surətdə Ermənistandan Azərbaycana mindən çox ailə köçüb gəlmişdi" (qayıtma prosesi sürətlənir) [5,118].

1948-1953-cü illərdə Göyçə mahalından deportasiya edilən azərbaycanlı yaşayış məntəqələri aşağıdakılardır:

**Kəvər (Yeni-Bəyazid – Kamo) rayonundan**

1. Ağzıbir (Lcap – 1945)
2. Hacı Muxan (Tsovazard – 1978)
3. Ördəkli (Lcaşen – 1946)
4. Güzəcik (Lancaxpyur – 1950)
5. Başkənd (Qexarkunik – 1946)
6. Ağqala

**Martuni (Aşağı Qaranlıq) rayonundan**

1. Karvansara
2. Mollalı
3. Mədinə
4. Qızılxaraba
5. Aşağı Alçalı (Artsvanist – 1968)
6. Qaranlıq (Geğhovit – 1968)

**Basarkeçər (Vardenis) rayonundan**

1. Zod (Sotk – 1991) – qismən
2. Yuxarı Zağalı (Axpradzor – 1978)
3. Çaxırlı (Sovetakert – 1978)
4. Qanlı
5. Qızılvəng
6. Kərkibaş
7. Yarpızlı [5, 217-220]

Azərbaycanlı köçkünlərin Ermənistan SSR-dən yola salınması prosesi də maraq doğuran məsələlərdən biridir. 1947-ci il dekabr ayının 23-də "Ermənistan SSR-dən azərbaycanlı kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin qərarının yeddinci bəndində Nəqliyyat Nazirliyinə bir vəzifə olaraq tapşırılırdı ki, azərbaycanlı əhalinin, onların mal-qarasının təchiz və dezinfeksiya edilmiş vaqon-

larda xüsusi təşkil edilmiş eşelonlarla Azərbaycan SSR-ə daşınmasını təmin etsin [56, 96].

Bu qərardan irəli gələrək Basarkeçər, Yeni-Bəyazid və Axtadan köçürülənlər Uluxanlı stansiyasından yük vaqonlarına doldurulub İrəvan-Naxçıvan-Mincivan-Horadiz-Saatlı istiqamətində yola salınırdı. Köçkün əhali kütləvi surətdə Kür-Araz ovalığındakı Ucar, Zərdab, Əli-Bayramlı, Salyan, Saatlı, Ağdaş, Kürdəmir, Yevlax, Jdanov, Sabirabad rayonlarında yerləşdirilirdi [56, 97].

1948-1953-cü illərdə Ermənistan ərazisindən azərbaycanlı əhalinin köçürülməsi çox ciddi etirazlarla qarşılanmışdır. Bunu Ermənistan SSR daxili işlər naziri general-mayor X.Qriqoryanın hazırladığı məxfi arayışdan da görmək olar:

"Ermənistanın azərbaycanlı əhalisi arasında Azərbaycan SSR-ə qarşıdakı köçürülmə ilə əlaqədar əhval-ruhiyyə haqqında arayış (tamamilə məxfidir):

Basarkeçər rayonu üzrə Çaxırlı kəndində, Türkiyənin Sovet İttifaqına müharibə elan etməsi və bununla əlaqədar olaraq azərbaycanlıları köçürmələri barədə yayılmış provokasiya nəticəsində fevral ayında üç gün ərzində kolxozçular işə çıxmamışlar.

Rayonun bir sıra kəndlərində (Daşkənd, Çaxırlı, Zod) belə şayiə yayılmışdır ki, guya K(b)P rayon komitəsinin katibi Musayev yoldaş, rayon icraiyyə komitəsinin sədri Məmmədov yoldaş və digər azərbaycanlı məsul işçilər ermənilərlə əvəz edilmişlər.

Bu provokasiyalı şayiələr nəticəsində Zod kəndinin kolxozçuları işə səhlənkar yanaşmağa başlamışlar. Bu kəndin kolxozçularının əhval-ruhiyyəsinə partiya təşkilatçısı Nəsirov Gürzalı Həmid oğlunun və kənd sovetinin sədri Hacıyev Bala Əsgər oğlunun kənddən getməsi xüsusilə mənfi təsir etmişdir; həmin şəxslər Azərbaycan SSR-ə qarşıdakı köçürülmə üçün özlərinə yer axtarmağa getmişlər.

Şişqaya kəndində kolxozçuların xeyli hissəsi Azərbaycan SSR-ə köçmək istəmədikləri barədə qəti bəyan edirlər.

Ermənistan SSR daxili işlər naziri general-mayor X.Qriqoryan

№ 01/3745

3 may 1948-ci il. Yerevan şəhəri" [56, 80-81].

Bu məxfi sənəddən göründüyü kimi, Göyçə əhalisi bu deportasiyaya çox ciddi etiraz etmiş və bu deportasiya prosesi ciddi gərginlik şəraitində həyata keçirilmişdir.

Araşdırmalar göstərir ki, 1948-1953-cü illərdə azərbaycanlıların indiki Ermənistan Respublikası ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası haqqında SSRİ hökumətinin qərarı artıqlaması ilə yerinə yetirilmişdir. Həmin qərarla Ermənistanın 23 rayonundan 100 min azərbaycanlı əhalinin könüllü köçürülməsi nəzərdə tutulmuşdusa da, əslində qərarın icrası zorakı təzyiqlər vasitəsi ilə həyata keçirilmiş, 24 rayondan və İrəvan şəhərindən (200 yaşayış məntəqəsindən) 150 minə yaxın azərbaycanlı deportasiya edilmişdi.

1989-cu ildə SSRİ rəhbərliyi 40-cı illərdə deportasiyaya məruz qalmış xalqların hüquqlarının bərpası haqqında qərar qəbul etsə də, 1948-1953-cü illərdə Ermənistandan deportasiya edilmiş azərbaycanlılar həmin xalqların siyahısına daxil edilmədi. Ümummilli lider Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanı [24] həmin illərdə xalqımıza qarşı həyata keçirilmiş tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi, onun beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması üçün çox ciddi bir zəmin yaratmışdır.

Ümumiyyətlə, 1948-1953-cü illərin deportasiyası dövründə Göyçə mahalını əhatə edən "Sevan", Kamo və Martuni rayonları ərazisində türk kəndləri birmənalı şəkildə ləğv edildi, hər üç rayon etnik tərkib etibarı ilə "saflaşdırıldı". Belə ki, Kamo (əvvəlki Kəvər) rayonunun Ağqala kəndinin 587, Ağzıbir kəndinin 1351, Başkənd kəndinin 941, Kuzəcik kəndinin 634, Hacı Muğan kəndinin 244, Martuni rayonunun (əvvəlki Aşağı Qaranlıq) Karvansara kəndinin 938, Mollalı kəndinin 439, Mədinə kəndinin 197, Qızılxaraba kəndinin 345, Aşağı Alçalı kəndinin 174, Aşağı Qaranlıq kəndinin 423, Yanıx kəndinin 181, Sevan rayonunun Ördəkli kəndinin 186, Əfəndi kəndinin 86, Çubuxlu kəndinin 37 nəfər türk əhalisinə qarşı həyata keçirilən deportasiya tədbirlərindən sonra bu rayonlarda türk izi silinmiş oldu.

Qeyd etdiyimiz kimi, Basarkeçər rayonunda bu aksiya qismən ağrısız oldu. Daha doğrusu, o illərdə Basarkeçərdə türklərin demoqrafik üstünlüyü səbəbiylə rəhbərlər arasında türklərin üstünlük təşkil etməsi burada ermənilərə istədikləri qədər əl-qol açmağa imkan vermədi. O zaman Basarkeçər rayon partiya komitəsinin birinci katibi olan Talıb Musayevin və SSRİ Ali Sovetinin Ermənistandan olan yeganə azərbaycanlı deputat Aydın Məmmədovun qətiyyəti sayəsində Basarkeçərdə türklərin deportasiyası kütləvi xarakter almadı. Bu iki şəxsiyyət çevik manevrlə erməniləri Basarkeçərin boşaldılmasından bir növ çəkindirməyə müvəffəq oldular. Belə ki, onların birgə təşəbbüsü sayəsində Mircəfər Bağırov Basarkeçərdən köçürülənlərin Gəncə, Xanlar, Tərtər, Bərdə zonasında yerləşdirilməsini təmin etdi və bu da ermənilərin gözləmədiyi əks prosesə təkan verdi. Deportasiyaya məruz qalmış Basarkeçər əhalisinin gəlişindən az sonra Gəncə, Xanlar, Tərtər zonasında məskunlaşmış ermənilərin Ermənistan SSR-ə üz tutması erməni ideoloqlarının planları ilə əsla uyuşmurdu və ona görə də onlar Basarkeçərdən deportasiyanı dayandırmaq məcburiyyətində qaldılar. Bununla belə, Talıb Musayevin və Aydın Məmmədovun cidd-cəhdlərinə baxmayaraq, 1948-1953-cü illərdə Basarkeçərin 7 kəndindən təxminən 5591 türk deportasiyaya məruz qaldı ki, bu faciəvi statistikanın da göstəriciləri belədir: Yarpızlıdan 1400, Qanlıdan 640, Qızılvəngdən 1421, Zoddan 1400, Yuxarı Zağalıdan 400, Çaxırlıdan 200, Kərkibaşdan 130 nəfər hökumət səviyyəsində öz dədə-baba yurdundan didərgin salınmışdır. Amma bu, rəsmi qərarla köçürülənlərin sayıdır. Həmin dövrdə müəyyən təzyiqlər səbəbiylə Ağkilsə, Daşkənd, Göysu, Canəhməd, Tüstülü, Subatan kəndlərindən qeyri-rəsmi olaraq köçənlərin sayı təxminən rəsmi statistikadakı rəqəmə bərabər idi. Düzdür, sonrakı illərdə bu adamların bir qismi öz boş qalmış yurdlarına döndülər, amma dönənlərin ümumi sayı köçürülənlərlə müqayisədə heç 20 faiz belə təşkil etmirdi. Bu qayıdışı əngəlləyən əsas səbəblərdən biri həmin illərdə türk toponimlərinə və türk ziyalılarına qarşı həyata keçirilən total genosid faktı idi.

Yuxarıda təqdim olunan araşdırmaya yekun vuraraq belə bir nəticəyə gəlirik ki, 1948-1953-cü illərdə Moskva-İrəvan tandeminin növbəti cinayətkar əməlləri nəticəsində Azərbaycanın qərb

torpaqlarından aborigen azərbaycanlı türk əhalisinin deportasiya edilməsinin növbəti mərhələsi reallaşdırıldı. Ermənistan-Rusiya tandemi Göyçə mahalında öz məqsədlərinə tam nail ola bilməsə də hər halda buradakı demoqrafik durumun ermənilərin xeyrinə dəyişdirilməsi istiqamətində mənfur əməlləri reallaşdırıldı.

# III FƏSİL

# GÖYÇƏ MAHALINDA AZƏRBAYCANLILARA QARŞI DİSKRİMİNASİYA SİYASƏTİ VƏ 1988-1989-CU İLLƏR DEPORTASİYASI

## 3.1. 1960-1980-ci illərdə erməni şovinizminin yenidən dirçəlməsi və azərbaycanlılara qarşı diskriminasiya siyasəti

Ermənistanda antitürk, antimüsəlman təbliğatı XX əsrin 60-cı illərində yenidən var gücü ilə işə salınmışdır. N.S.Xruşşovun hakimiyyətinin son illərində "Böyük Ermənistan" ideyası A.İ.Mikoyanın təşəbbüsü ilə sovet idarə aparatının gündəliyinə qaldırıldı. N.S.Xruşşovun aqrar siyasətindən – SSRİ-nin iqtisadi regionlara bölünməsi siyasətindən istifadə edən Mikoyan ona təklif etdi ki, Ermənistan SSR-də və Naxçıvan MSSR-də iqtisadiyyatın əlverişli inkişafı üçün Naxçıvan MSSR-nin Ermənistan SSR-ə birləşdirilməsi vacibdir. Xruşşov bu işi Azərbaycan ziyalılarının müzakirəsinə verdi. Nəticədə bu sərsəm ideya baş tutmadı. Bu illərdə Ermənistanda yaşayan azərbaycanlılara qarşı münasibətdə müəyyən sabitlik baş verdi. Bu dövrdə respublikanın stalinçi rəhbərlərinə qarşı həyata keçirilən kəskin və ədalətli tədbirlər yerlərdə məsuliyyət hissini müəyyən qədər artırır, hər hansı bir ekstremist hərəkətin qarşısı alınırdı. Lakin ermənilərin "mets yeğerni" – "böyük qırğın" adlandırdıqları 1915-ci il hadisələrinin 50-ci ildönümü yaxınlaşdıqca ərazi tələbləri, türklərə qarşı ögey münasibət baş qaldırmağa başlamışdı. 1962-1963-cü illərdə Ermənistan KP MK bürosunda Azərbaycan və Türkiyəyə torpaq iddiaları haqqında Moskvaya göndərilən ərizələrlə əlaqədar məsələlər müzakirə olunan zaman gizli söhbətlərdə belə bir fikir də söylənirdi ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri A.İ.Mikoyan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə verilməsi məsələsini N.S.Xruşşov qarşısında qaldırmış, Xruşşov isə buna cavab olaraq demişdir ki, kifayət qədər hərbi avtomaşınlar ayırıb ermənilərin bir gecə ərzində Dağlıq Qarabağdan Ermənistana köçürülməsi barədə

tapşırıq verə bilər [91, 74].

Lakin 1964-cü ildə N.S.Xruşşovun hakimiyyətdən kənarlaşdırılması müvəqqəti sakitliyi pozdu. Ermənistanda "mets yeğerni" – "böyük qırğın" adlandırdıqları hadisəsinin 50-ci ildönümünü qeyd etməyə hazırlıq işləri genişləndi. Bu tədbirin keçirilməsində xarici ölkələrdə fəaliyyət göstərən "Daşnaksutyun" partiyasının və digər irticaçı-millətçi partiya və qrupların məqsədləri, son qayəsi Ermənistan SSR rəhbərliyinin fəaliyyəti ilə üst-üstə düşür, hər iki tərəfdə aparılan təbliğat işi bu məqsədə yönəldilirdi. Belə ki, iddia edirdilər ki, "qırğın" üçün Türkiyə hökuməti və xalqı məsuliyyət daşıyır, "əzəli Ermənistan" torpaqları yenidən birləşdirilməli, "Böyük Ermənistan" dövləti yaradılmalıdır [53, 112].

Hələ 1960-cı illərdən başlayaraq Ermənistan SSR-də azərbaycanlılardan rəhbər vəzifədə olanların böyük əksəriyyətini ermənilərlə əvəz etdilər. Göyçə mahalının Basarkeçər, Krasnoselo, həmçinin Qarabağlar, Zəngibasar, Vedi rayonlarında (bu bölgələrdə əhalinin 75-90% azərbaycanlılar idi) rayon partiya komitələrinin azərbaycanlı olan birinci və ikinci katibləri heç bir əsas olmadan işdən azad edildilər [32, 54].

1964-cü ildə Ermənistan SSR-in rəsmi dairələri Moskvanın razılığı ilə uydurma "Erməni genosidi"nin 50 illiyinin qeyd edilməsi haqqında qərar qəbul etdilər. Erməni millətçiləri 1965-ci ilin fevralında cəllad Andranik Ozanyanın anadan olmasının 100 illiyini təntənəli surətdə qeyd etdilər. Həmin dövrdə Ermənistanı Yenidən Birləşdirmə Komitəsi yaradılmışdır. Bu hərəkata gizli surətdə Ermənistan KP MK-nın o zamankı birinci katibi Y.N.Zarobyan, ikinci katibi H.Bağdasaryan, Ermənistan SSR Elmlər Akademiyasının prezidenti V.Hambarsumyan və b. rəhbərlik edirdilər [5, 123].

Bunu Ermənistanın KP MK-nın o zamankı birinci katibi Y.N.Zarobyanın 1964-cü ildə etdiyi məruzəsindən də görmək olar: "...Vəzifə xarici ölkələrin mütərəqqi təşkilatları ilə əlaqəni bundan sonra da genişləndirməkdir... Xaricdəki ermənilərin kütləvi surətdə Sovet Ermənistanına qayıtmasının təşkil edildiyi xəbəri həmvətənlərimiz tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmışdır. 1962-1963-cü

illərdə İrandan, Kiprdən, BƏR-dən, Yunanıstan və digər ölkələrdən bizə üç mindən artıq erməni gəlmişdir. Respublika, partiya, sovet və komsomol təşkilatlarının şərəfli işini qeyd etmək lazımdır ki, onlar ermənilərin nümunəvi qəbulu və yerləşdirilməsində böyük işlər görmüşlər...” [99].

Bu dövrdə Ermənistan SSR rəhbərliyi erməni şovinizmini gənclərin beyninə yeritmək üçün ideoloji təbliğatdan geniş istifadə edirdi. Bunun məntiqi davamı olaraq siyasi qərarla İrəvan şəhərində uydurma 1915-ci il “erməni soyqırımı”na abidə də qoyulmuşdur. Ermənistan SSR Nazirlər Sovetinin 18 mart 1965-ci il tarixli qərarı ilə 1915-ci il hadisələrində uydurma qurban getmiş ermənilərin xatirəsini əbədiləşdirmək üçün İrəvan şəhərində daş abidə qoyulması qərara alınmışdır. Bu qərarda deyilirdi: “Sultan Türkiyəsi hakimləri tərəfindən təşkil edilən erməni qırğınının əlli illiyi ilə əlaqədar olaraq respublika zəhmətkeşlərinin arzularını nəzərə alaraq Ermənistan SSR Nazirlər Soveti 1915-ci il qırğınlarının qurbanı olmuş ermənilərin xatirəsini əbədiləşdirmək üçün İrəvan şəhərində daş abidə qoymağı qərara almışdır” [100].

1965-ci il aprel ayının 23-25-ində İrəvan şəhərində keçirilən tədbirlər kulminasiya nöqtəsinə çatdı. İrəvan şəhərində 400 min erməni küçələrə çıxaraq, “genosid qurbanları”nın xatirəsinə ucaldılmış memoriala doğru axışırdı. Kütlənin önündə erməni katolikosu ilə birlikdə respublikanın rəhbərləri addımlayırdılar. Kütlənin başı üzərində qara parça ilə örtülmüş rəmzi tabut və “Böyük Ermənistan”, “Qoparılmış ərazilər Ermənistana qaytarılmalıdır!”, “İntiqam!” sözləri yazılmış şüarlar aparılırdı. Bu hadisədən sonra Ermənistan SSR-in azərbaycanlı əhalisinin sıxışdırılmasına başlanıldı, xüsusən İrəvanda, Göyçədə, Leninakanda, Kirovakanda, Qafanda avtobuslarda, bazarlarda, ictimai yerlərdə azərbaycanlılar təhqir olunur, döyülürdü [53, 113; 32, 55].

XX əsrin 60-cı illərində Ermənistan SSR-də aparılan milli ayrı-seçkilik və diskriminasiya siyasəti nəticəsində İrəvan və onun ətraf rayonlarından minlərlə ailə Azərbaycana köçməyə məcbur olmuşdur.

1961-ci ildə SSRİ hökuməti xaricdə yaşayan ermənilərin yeni dəstəsinin qəbul edilməsi haqqında qərar qəbul etmişdir. Ermənistan

KP MK-nın 1961-ci il oktyabr plenumunda qərara alınmışdır ki, ermənilərin 1946-1948-ci illərdə köçürülməsi zamanı əldə edilən təcrübəyə əsaslanaraq, onlara mənzil fondu ayırmaqla, məktəblər və s. sosial obyektlər təşkil etməklə repatriantların yerləşdirilməsinə başlanılsın. 1962-ci ilin əvvəlindən başlayaraq Kiprdən, Misirdən, İrandan, ABŞ-dan, Türkiyədən, Uruqvaydan, Argentinadan ermənilərin yeni köç dalğası başladı. 1962-1965-ci illərdə xarici ölkələrdən Ermənistan SSR-ə 7 min erməni köçürülmüşdür. Ümumiyyətlə isə 1962-1973-cü illərdə xaricdən gəlmiş 26 min nəfər erməni burada yerləşdirilmişdir [5, 124].

Bu dövrdə xaricdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçürülməsi faktlarını, "Sovet Ermənistanı" qəzetində çap olunmuş məqalələrdən də görmək olar.

Bu qəzetin 3 oktyabr 1964-cü ildə çap olunmuş sayında "Misir erməniləri Leninakana gəlmişlər" adlı məqalədə yazılmışdı: "Ermənistan SSR Xarici İşlər naziri B.Martirosyan yoldaş Misirdən Sovet Ermənistanına gəlmiş ermənilərin yeni qrupunu salamladı və təbrik etdi... Sovet Ermənistanının yeni vətəndaşları, Misirdən gəlmiş 41 ailənin üzvləri münasib və işıqlı mənzillərdə yerləşdirildilər" [99].

Bu qəzetin 10 noyabr 1964-cü ildə çap olunmuş 133-cü sayında "Suriyadan vətənə qayıdan ermənilərin ikinci karvanı Sovet Ermənistanına gəlmişdir" adlı məqalədə yazılmışdı: "Suriyadan vətənə qayıdan ermənilərin ikinci karvanı noyabrın 9-da xüsusi qatarla Batumdan Sovet Ermənistanına gəlmişdir. 329 nəfər erməni doğma torpaqda əbədi məskən salmışdır... Təkcə son iki ildə Kiprdən, Birləşmiş Ərəb Respublikasından, İrandan, Suriyadan qayıtmış 1200 erməni Kirovakanda məskən salmışdır..." [99]

"Sovet Ermənistanı" qəzetinin 1965-ci il 13 mart tarixli 31-ci sayında Sovet Ermənistanının yeni vətəndaşlarının respublika toplanışında çıxış edən təqaüdçü Nşan Hovhannesyan deyirdi: "Biz Ermənistana qayıtdıqdan dərhal sonra həm mənzillə, həm də işlə təmin olunmuşuq. İndi təkcə Kirovakanda repatriantlardan 682 nəfər dövlətdən təqaüd alır. Son iki ildə Kirovakanda 1187 repatriant qayıdan məskən salmışdır…" [100].

Bu dövrdə də həyata keçirilən diskriminasiya siyasəti nəticəsində

azərbaycanlıların Ermənistan SSR ərazisindən Azərbaycana kütləvi axını davam etmişdir.

1918-ci ildə Ermənistanda azərbaycanlılar respublika əhalisinin 45 faizini (575 min) nəfər təşkil etdiyi halda, 1979-cu ildə keçirilən Ümumittifaq siyahıyaalmasına görə, Ermənistan SSR-də azərbaycanlılar 160841 nəfər, yaxud Ermənistan əhalisinin (3037259 nəfər) cəmisi 5,3 faizini təşkil edirdilər. Məlumdur ki, 1926-cı ildə Ermənistan SSR-də türklərin sayı 84,6 min nəfər olmuşdur. Həmin dövrlə müqayisədə azərbaycanlılar cəmi 89 faiz, yaxud 1,9 dəfə artmışdır. Müqayisə olunan müddətdə ermənilər 743,6 min nəfərdən 2725000 nəfərə çatmışdır. Onların artımı 280 faiz yaxud 3,7 dəfə olmuşdur. Bu rəqəmlər azərbaycanlıların Ermənistanda nə dərəcədə diskriminasiya və repressiyaya məruz qaldıqlarının əyani nümunəsidir [5, 125; 32, 56]. Bu, əslində gizli, üstüörtülü genosidin bir kökü, onun qanunauyğun nəticəsindən başqa bir şey deyildi.

### 3.2. 1988-1989-cu illərdə azərbaycanlıların deportasiyası

Tarix boyu azərbaycanlıların öz dədə-baba torpaqları olan indiki Ermənistan Respublikası ərazisindən məcburən və kütləvi zorakılıqla qovulmasının sonuncu mərhələsi 1988-1989-cu illərdə baş vermişdir.

1988-ci il fevralın 20-də keçmiş DQMV-nin Xalq Deputatları Soveti “Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibindən çıxarılaraq Ermənistan SSR-in inzibati-ərazi bölgüsünə daxil edilməsi haqqında” qərar qəbul etməsi millətlərarası münasibətləri daha da kəskinləşdirdi.

Bu qərardan sonra Ermənistanın siyasi dairələrində də milli münaqişəyə təhrik edən siyasi tələblər irəli sürülməyə başladı. 1988-ci il iyun ayında keçirilən on birinci çağırış Ermənistan SSR Ali Sovetinin yeddinci sessiyasında DQMV Xalq Deputatları Sovetinin bu qərarı müzakirəyə çıxarıldı. Bu sessiyada erməni deputatlar öz siyasi riyakarlıqlarını nümayiş etdirərək bu qərarı ciddi cəhdlə müdafiə etdilər. Sevan seçki dairəsindən deputat olan A.M.Kirakosyan öz nitqində deyirdi: “Deputat yoldaşlar! Ali Sovetin bugünkü sessiyasında müzakirə olunan məsələ-Azərbaycanın

tərkibindən çıxarılıb Ermənistanın tərkibinə keçməsi barədə DQMV Sovetinin qərarı qanuni tələbdir və bu, həyata keçirilməlidir...” [101]. Bu sessiyada DQMV qəbul etdiyi qeyri-qanuni qərarı müdafiə olundu və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edildi.

Dağlıq Qarabağ ermənilərinin bu əsassız qərarı erməni katolikosu Vazgen tərəfindən də birmənalı şəkildə müdafiə olunmuşdur. Onun 1988-ci il iyulun 7-də Ermənistan televiziyası ilə çıxışında erməniçilik təfəkkürünə əsaslanılaraq tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi qərarını alqışlanılmışdır. O, öz çıxışında ermənilərə müraciət edərək deyirdi: “Mən bütün dünya ermənilərinin katolikosu müqəddəs Eçmiədzindən yenidən öz sözümlə sizə müraciət edirəm. Keçən fevralın sonlarında Qarabağın erməni əhalisi birgə qərarla ana Ermənistana birləşmək arzusunu ifadə etdi. Sovet Ermənistanı və xarici ermənilər fəxr ediləcək birlik və intizamla qarabağlıların ədalətli arzularına tərəfdar çıxdılar... Erməni analar, bacılar, qardaşlar, xüsusilə siz gənclər xalqın və vətənin ali mənafeyini unutmayın. Araratı qoruyun...” [101].

Ermənistan siyasi və dini dairələrinin bu mənfur addımlarından sonra ermənilər, hər yerdə olduğu kimi, Göyçədə də açıq hərbi təcavüzə cəhd göstərdilər. 1988-ci il mart ayının 26-nı “Sumqayıtın qisas günü” elan etmiş “Krunk” cəmiyyətinin çağırışına cavab olaraq ermənilər Basarkeçərdə də qanlı aksiyalar törətmək iddiasına düşmüşdülər. Guya bu qırğının qarşısını almaq istəyən SSRİ rəhbərliyinin hiyləgər taktikası da əslində hələ 1988-ci il martın 26-da, yəni faciəvi 1918-ci il qırğınlarının 70-ci ildönümü günlərində Ermənistanın türklərdən təmizlənilməsi üçün real şərait yaratmışdı. Belə ki, guya millətlərarası toqquşmaya yol verməmək mahiyyəti daşıyan fövqəladə vəziyyət rejimi, o vaxt cəmi 300-500 türkün yaşadığı Yerevan şəhərində, bir nəfər türkün belə yaşamadığı Leninakanda tətbiq edilmiş, türklərlə ermənilərin qarışıq yaşadıqları kənd rayonları isə “unudulmuşdu”. Əlverişli şəraitdən yararlanan “Krunk” əsasını Türkiyə və İrandan köçürülənlərin təşkil etdiyi Martuni və Kamo rayonlarındakı fəalları səfərbər edərək, onları

demoqrafik üstünlük türklər tərəfdə olan Basarkeçərə yeritmişdilər və …martın 26-da “Krunk” fəalları gözlənilənin tam əksi olan mənzərə ilə rastlaşdılar. Basarkeçər rayon mərkəzinin türk kəndlərinə yaxın qəsəbəsində – “Zod ORS” deyilən hissədə yaşayan ermənilər gecə ikən qəsəbəni tərk edərək, təhlükəsiz evlərə çəkilmişdilər. Elə həmin gün Zod mədənlərində işləyən Nərimanlı kənd sakini Fazil adlı bir türk oğlu onunla axmaq zarafat edən bir ermənini ağır traktorun təkərləri altında əzərək öldürmüş, cəmi 11 türk ailəsinin yaşadığı Tüstülü kəndindən isə gənc bir türk balası onu hədələyən erməni həmyaşıdını bıçaqla yaralamışdı [109, 113].

1988-ci il iyun ayının 15-də Göyçə mahalında ermənilərin yaramaz hərəkətlərinə qarşı azərbaycanlılar öz etiraz səsini qaldırmalı oldular. Krasnoselo rayonunun Şorca və Gölkənd kəndlərində on min əhalinin mitinqi keçirildi. Səhərisi gün Basarkeçər rayonunun Şişqaya və Nərimanlı kəndlərində də azərbaycanlılar mitinqə çıxdılar. Ümumilikdə bu mitinqlərdə iyirmi mindən çox adam iştirak etmişdir [49, 22].

Nəhayət, 1988-ci ilin yazında 17 türk kəndi nümayəndələrinin iştirakı ilə Nərimanlı kəndi ərazisindəki Göy körpüdə və Krasnoselo rayonu ərazisindəki türk kəndlərinin birləşmiş səyi ilə Şorça kəndində başlamış bu mitinqlərdə “Göyçənin Ermənistan SSR-in tərkibindən çıxarılaraq, Azərbaycan SSR-in ərazi – inzibati bölgəsinə daxil edilməsi” tələbi irəli sürülmüşdür. Təəssüflər olsun ki, Göyçə azərbaycanlılarının bu haqlı tələblərinə dəstək olaraq, noyabr ayının 17-də Bakıda “Azadlıq” meydanında yüzminlərlə insanın iştirakı ilə keçirilən mitinq zamanı Ermənistanda yaşayan azərbaycanlılara muxtariyyət verilməsi tələbi ilə qətnamə qəbul olunsa da, bu tələb o zamankı Azərbaycan SSR rəhbərliyi tərəfindən dəstəklənmədi [109, 114].

1988-ci ilin sentyabr-oktyabr aylarında erməni millətçiləri ardıarası kəsilməyən mitinqlər keçirir, bu bölgələrdən türklərin çıxarılmasını tələb edirdilər. Azərbaycanlıların evlərinə od vurulur, insanlar işgəncə ilə öldürülür, qadınların sinəsinə xaç çəkilir, uşağa, qocaya rəhm edilmirdi. Bu ərazilərin iqtisadi blokadası davam etdirilirdi. SSRİ rəhbərliyi isə bütün bunlara laqeydcəsinə göz

yumurdu.

1988-ci il noyabr ayında Ermənistanın SSR Ali Sovetinin sessiyasında aprelin 24-nün 1915-ci il ermənilərinin genosid günü elan edilməsi erməni şovinizmini daha da fəallaşdırdı. Bu haqda "Sovet Ermənistanı" qəzetinin 17 noyabr 1988-ci il tarixli sayında yazılmışdı: "Aprelin 24-nün 1915-ci ildə ermənilərin genosid qurbanlarının xatirə günü elan edilməsi barədə Ermənistan KP MK sentyabr (1988) plenumuna verilən məruzədəki təklif respublika zəhmətkeşləri tərəfindən bəyənilmişdir. Bu təklifin qəbul edilməsi məqsədəmüvafiq hesab edilmişdir..." [101].

1988-ci il noyabr ayının 22-də Ermənistanın SSR Ali Sovetinin sessiyası öz işini yarımçıq dayandıraraq, bütün instansiya rəhbərlərinə "noyabr ayının 28-dək respublikanın türklərdən təmizlənməsini təmin etmək" tapşırığı verildi. Ermənistanın bütün rayonlarına şamil edilən bu qərarın təsir dairəsinin mərkəzinə şübhəsiz ki, Göyçə mahalı və Ağbaba bölgəsi düşürdü. Çünki 1988-ci ilin noyabr ayınadək Ermənistan SSR-in digər rayonlarından türklərin deportasiyası, demək olar ki, başa çatdırılmışdı. Odur ki, Göyçə və Ağbabadan türklərin deportasiyasına rəhbərlik Ermənistan SSR-in ali rəhbərliyinə həvalə edilirdi.

1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan SSR-dən azərbaycanlıların çıxarılması üçün son hazırlıq işlərinə başlandı. İllərdən bəri həyata keçirilən "Türksüz Ermənistan" planının son mərhələsinə start verildi.

Bu planın həyata keçirilməsində bütün vasitələrdən istifadə olunmağa başladı. Hətta bu plana qarşı çıxan rayon rəhbərləri də işdən azad edilirdi.

Azərbaycanlıların kompakt yaşadığı Basarkeçər rayonunda birinci katibi dəyişməyə ehtiyac olmadı. Çünki Razmik Yenqoyan ikinci katib Aşot Akopyanla birlikdə həyata keçirilməkdə olan fitnəkarlıq hərəkatının başında dayanmışdılar. Rayon daxili işlər şöbəsinin rəisi Bahar Boxyan, Torf İstehsalat Birliyinin rəisi Qurgen Harutyunyan, Çaxırlı sovxozunun direktoru Arkadi Petrosyan, quşçuluq fabrikinin direktoru Albert Petrosyan "Türksüz Ermənistan" uğrunda başlanan avantürist kampaniyanın aparıcı

liderlərindən idilər [49, 26].

Bu daşnak-kommunistlərin rəhbərliyi sayəsində Göyçə əhalisi öz dədə-baba yurdlarından tamamilə qovularaq Azərbaycan SSR-ə “yola salındılar”. Onlarla azərbaycanlı döyülərək yaralandılar və qarlı-boranlı dağ yollarında həlak oldular.

Bu dövrdə ermənilərin Göyçədə törətdikləri vəhşilikləri görmüş yüzlərlə canlı şahidlər var. Göyçədə baş vermiş hadisələrin tam mənzərəsini təsəvvür etmək üçün o zaman Göyçə qızıl mədənlərində çalışan, milliyyətcə rus olan L.V.Tolstyakın şahid ifadəsindən bir məqama diqqət yetirmək kifayətdir. O, öz şahid ifadəsində deyirdi: “1988-ci il noyabr ayının 27-də Ermənistan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonradan Ermənistan KP MK-nın birinci katibi olmuş V.Movsesyan Vardenis (Basarkeçər) rayonunun Zod kəndinə gələrək, yerli əhalinin kəndi tərk etməsi üçün 3 gün vaxt verdiyini, əks halda təhlükəsizliyə təminat verilməyəcəyini bildirdi. Elə həmin gün kəndə elektrik enerjisi və ərzaq verilməsi dayandırıldı, gecələr kənd atəşə tutuldu” [5, 135].

Bu dövrdə Göyçə mahalının yerli sakinlərinin ifadələri də heç bir ölçüyə sığmayan erməni vəhşiliklərini əyani şəkildə sübut edir.

**Şahidlərin ifadələrindən:**

Pəmbək kəndində kənd sovetinin sədri işləmiş Yusif Əhmədov: “Noyabrın sonuncu günü idi. Bütün ermənilər ayağa qalxmışdılar. Yaraqlıların əlindən tərpənmək olmurdu. Yollar boyu dağıdılmış maşınların, talanmış küçələrin, odlanmış pal-paltarın yerinə baxanda adamın ürəyi suya çəkilirdi. Mən ev əşyalarımı və mal-qaramı çıxara bilməmişdim... Dekabrın 5-də gəlib Gəncədən yük maşını apardım ki, köçümü aradan çıxarım. Krasnoselonun içindən keçəndə maşınımıza bir neçə güllə atdılar. Bu barədə Cil kəndinin altında postda dayanan hərbçilərə məlumat verdik. Lakin bizim şikayətimizə heç məhəl qoyan olmadı. Bu ümid yerimiz də qırıldı... Deməli, bu qurğu yaman qurulub. Bacarıb canını bu fitnəkar məngənədən qurtarmaqdan başqa özgə işıq yolu görünmədi... Kəndimizə çatanda məni iki “Jiquli” qarşıladı. Kənd artıq ermənilərə qalmışdı. Altı nəfər

yaraqlı qabağımı kəsib öncə kəndi tərk etməyimi tələb etdilər. Nədənsə sonra köçü yükləməyimə razılıq verdilər. Arxamca evə daxil oldular. Beş dəst yorğan-döşək, iki xalça, telefon aparatını və ov tüfəngini götürdülər. Evin əşyalarını səhərə kimi yükləyib aradan çıxa bilmədim. Həmin quldurlar səhər tezdən gəldilər. Bu dəfə onların arasında olan Vanik Hunanyanı görüb sevindim. Çünki Hunanyanla duz-çörək kəsmişdik. V.Hunanyan "dostluğumuza" görə məni öldürməyəcəyini dedi. Lakin onun əmri ilə 16 baş qoyun, 1 baş inək və 1 baş dananı əlimdən alıb əvəzində 100 manat pul uzadıb dedi ki, götür korluq çəkərsən. Mən pulu götürmədim...." [49, 26-27].

Masis (Zəngibasar) rayonunun Uluxanlı kəndinin sabiq sakini, Yerevan Pedaqoji İnstitutunun müəllimi Bahadur Qafarovun təqdim etdiyi izahatından:

"... On aydan bəri ardı-arası kəsilməyən erməni təcavüzü Zəngibasar camaatını cana yığmışdı. Bu müddət ərzində cəhənnəm əzabını diri gözlə görən azərbaycanlıların başına nələr gəlməmişdi... Tarixi abidələr dağıdılıb, məscid və qəbiristanlıqlar yerlə yeksan edilmişdi. İlk həmlələrdən birindəcə Cəfərabad kəndində XV əsrdən qalmış tarixi abidə də erməni xəyanətinə məruz qaldı. Rayonda əllidən artıq ev yandırılmış, xeyli adam öldürülmüşdü. Ağır zədə alanların sayı isə hədsiz dərəcəyə çatırdı.

Vəziyyət bütövlükdə noyabrın 20-dən sonra dəyişdi. Birdən-birə əsl qanlı qırğınlar başladı. Yerevan kimi nəhəng şəhərin bir addımlığında olan Zəngibasar əhalisi – bir milyona qədər erməninin ayağı altda çığnanırdı. Vəziyyətə nəzarət etməli olan hərbçilər ermənilərin silahını əlindən almaq əvəzinə, azərbaycanlıların yerdən əyilib daş götürməsinə belə imkan vermirdilər. Arxalandığımız Sovet hökumətindən ümidimiz üzülmüşdü. Qədim Uluxanlı – Zəngibasar torpağını tərk etməli idik. Vətəni yadlara verib getmək isə ölümdən betər idi. Nə etməli?... Hər tərəfdən erməni içində olan zəngibasarlıların heç nəyə inamı qalmamışdı. Yalnız sərhəd zonasından Türkiyə ilə həmsərhəd olan bu mahalın camaatı bir an imkan olsa sərhədi belə keçməkdən çəkinməzdi. Ancaq buna da imkan olmadığından, yolların büsbütün yaraqlılarla bağlandığından ölümlə əlbəyaxada yola çıxmalı olurdular. Rayon və respublika rəhbərləri

kənd-kənd gəzib camaata xəbərdarlıq etdilər ki, onların sizi qorumağa gücü qalmayıb. Neçə rayon birlikdə Göyçə-Qaraqoyunlu əhalisinin üstünə yeriməyə hazırdır. Ermənistan rəhbərliyinin xəbərdarlığından sonra kəndlərə basqınlar geniş şəkil aldı. Əsgərlər elə bil ki, hadisəni izləyən müxbirlər idi. Evlər yandırılır, qarətlər, qətllər ara vermirdi. Müqavimət göstərən azərbaycanlılar üçün dərhal cinayət işi qaldırılır və yaxalanırdılar. Köç karvanının əvvəli Qazax-da, sonu Basarkeçərdə idi. Qazaxa gedən köç maşınlarını talamaq və-zifəsi İcevan rayonu ərazisindəki yolkəsənlərə, Gədəbəyə gedən köçlərin talanması isə Orconikidzedəki quldurlara həvalə olunmuşdu. Əhalinin yönü isə Şahdağ silsiləsinə yönəldilmişdi. Qarlı-boranlı gədiklər, qar basmış uçurumlar, buzlamış dərələr... Bu maneələri dəf edənlər isə qucağı uşaqlı analar, hamilə qadınlar, qocalar, uşaqlar, əlillər və onları ölümdən qurtarmağa çalışan cavanlar, ortayaşlılar... Bir sözlə, azərbaycanlılar...” [49, 29].

**Şahid İsa Əhmədovun dediklərindən:**

“Topaşan deyilən yerdən keçirdik. Soyuqdan əllər-ayaqlar tutul-muşdu. Ağlaşma, ah-nalə göyə bülənd olmuşdu. Üzüqoylu dərələrə tərəf sürüşən kim, yamacdan ayağı qaçıb xəndəklərə yuvarlanan kim, yorğunluq və taqətsizlikdən qar sovruğu altında qalan kim, nəhayət, ömrünün son dəqiqələrini yaşayan kim? ... Camaat isə dağların beli ilə aşıb gedirdi. Bu vaxt Qara adlı bir nəfər ağsaqqalın üzünü Göyçəyə tərəf tutub qışqıra-qışqıra danışdığı bizi heyrətə saldı. Sanki dəli olmuşdu yurd-yuvasından perikmiş qartalmisallı bu qoça: “Haraya gedirsiniz, deyin görüm haraya? Haraya gedirsiniz, ay sa-hibsiz, köməksiz yazıqlar?... Qayıdın, qayıdın, ay evi yıxılmışlar, nəyiniz varsa çiyninizə yükləyin! Qoymayın bir çöpünüz də oğraş düşmənə qalsın! Qayıdın, məni də qaytarın, Göyçəni qaldırın arxama! Dəngizli, çaylı, bulaqlı, dağlı-daşlı, qəbiristanlı Göyçənin hamısını özümlə aparacağam, öz çiyinlərimdə! Qaytarın məni, Göyçəni qaldırın çiynimə! Göyçəni kimə qoyub gedirik?! O müqəddəs torpaq murdarlanacaq, qaytarın məni, Göyçəni qoymaram qala!!!” Qoca bu sözləri dedikcə elə bil dağ-daş lərzəyə gəlirdi. Onun

ağlaya-ağlaya dediyi bu sözlər altında hamı hönkürürdü. Ömründə ağlamayan kişilər də ağlayırdılar... Onlar düşmənə cavab verə bilmədiklərinə görə, arxasız olduqlarına görə ağlayırdılar! .... Bir həftə sonra eşitdik ki, "Göyçəni çiynimə qaldırın" deyən Nərimanlı kəndindən olan Qara Elləzov boranda həlak olub, meyiti dörd gündən sonra tapılıb və onu gədəbəylilər ədəb-ərkanla dəfn ediblər.

Təkcə Şişqaya kəndindən dörd nəfər adam dağlarda borana düşüb həlak oldu. 16 yaşlı Şahin, bu günahsız yeniyetmənin meyiti beş aydan sonra qar altından çıxdı. Onu Şamxor rayonunun Cəyir kəndində dəfn etdilər" [49, 76].

Basarkeçər rayonunun Zərzebil kənd sakini Şəfiqə Məmməd qızı Zeynalovanın göndərdiyi məktubundan:

"1988-ci ilin 28 noyabr günü həyat yoldaşım Mehbalı İsmayılov sovxozumuzun direktoru Mehmandar Əliyev ilə birlikdə mövcud vəziyyət barədə rayon partiya komitəsinə məlumat vermək üçün rayon mərkəzinə getdilər. Rayon mərkəzinə çatan kimi ermənilər "Villis"i mühasirəyə alırlar, "Nə üçün gəlibsiniz?" – deyə soruşurlar. Direktor deyir:

– Camaat edilən hücumdan qorxub kəndi tərk edir, mal-qara sahibsiz qalır.

– Demək, siz hələ qalmaq fikrindəsiniz? – deyə quduzlaşmış ermənilər onları əzişdirməyə başlayırlar. Öldürmək istərkən rayon partiya komitəsinin birinci katibi Yenqoyan hadisə yerinə gəlib çıxır və onları xilas edir. Özlərinə də tapşırır: "Bilin və agah olun, bu iş mənlik deyil, başınıza çarə qılın!"

Bu hadisədən sonra mən 8 uşağımla birlikdə dağlarla Kəlbəcərə tərəf üz tutmalı olduq. Qardan-borandan göz-gözü görmürdü. Tez-tez cığırı itirir, uçuruma yuvarlanırdıq. Beş yaşlı kiçik uşağımı arxamda apardığımdan və qoca qaynanama tez-tez kömək əli uzatdığımdan on yaşlı Fəxrəndə elə bil unudulmuşdu. O, addımbaşı yıxılıb-qalxır, getdikcə gücdən düşürdü. Ondan böyük uşaqlarım isə özlərini birtəhər apara bilirdilər. Nəhayət, belə bir çətin şəraitdə, gözlərim görə-görə körpə Fəxrəndəmi itirdim" [49, 77].

Bala Məzrə kəndinin sakini, 1952-ci ildə anadan olmuş Vaqif Yaqub oğlu Rüstəmovun dediklərindən:

“Digər kəndlərdə olduğu kimi, bizim Bala Məzrə kəndinə də güclü basqın edildi. Qaniçən erməni quldurları məni ölümcül vəziyyətə saldılar. Qarın nahiyəmdən iki bıçaq yarası və çoxlu zədə aldım. Həmçinin qıçımı üç yerdən sındırdılar. Həmin basqında kəndçilərimizdən Qurban Sadıqov, Musa Mustafayev, Şamo Musayev və Cibi Nigar qızı da ölümcül döyülmüşdülər. Onlar aldıqları ağır yaralardan sonra vəfat etdilər.

Ermənilərin vəhşiliyinə dair faktlar bir deyil, beş deyil. Elə bir kənd, elə bir oba yoxdur ki, erməni təcavüzü ondan yan ötmüş olsun. Basarkeçərin Qayabaşı kəndindən olan Koroğlunun və Çaxırlıdan olan Sayadın maşınlarını vurub qəzaya uğradan ermənilər Krasnoselodan (Gölkənd) Cahan Qocayevi öz evində, İcevan rayonundan (Polad) Yaqub Rüstəmovu işgəncə ilə öldürdülər.

Krasnoselo rayonunun Gölkənd, Çaykənd, Əmirxeyir, Bəryabad, Yanıqpəyə və Qaraqaya kəndlərinin əhalisinə çox böyük işgəncə verən qatillər mal-qaranı azərbaycanlılardan zorla alır, dağ yolu ilə Azərbaycana keçirilən qoyun və malın qabağını kəsib aparırdılar.

Dağlarda uşağa yatan və həlak olan ananı da eşitmişik, ananın qolları arasında boranda donub can verən körpəni də. Qardaşının bir qıçını, oğlunun başını qoltuğuna vurub dəli-divanə olmuş ana və bacını da görmüşük. Amma heç kimin yadına düşməyən bir ölümdən istifadə edən ermənilər bir daha öz “qədim mədəniyyətlərini” nümayiş etdirmişlər.

Qoşabulaq kəndinin sakini Tapdıq vaxtında maşın tapa bilmədiyinə görə əşyalarını çıxarmağa gecikibdi. “Lələ köçüb, yurd ağlayandan” sonra maşın tapıb əşyalarını yükləməli olarkən saqqallılar gəlib oraya çıxırlar. Tələsdirirlər ki, tezləşdir, çıx aradan, yoxsa ölümünü gözünün altına almalı olacaqsan. Maşın yüklənib qurtarmağa az qalmış onlar da Tapdığın ardınca evə daxil olurlar. Bir qədərdən sonra çıxıb getmişlər. Sürücü içəri girib ki, görsün Tapdıq harada qaldı. Nə görsə yaxşıdı... Elektrik cərəyanı onu vurmuşdur... Məsələ aydın idi. Ermənilər müxtəlif işgəncələrlə türk öldürmək planlarına bir ölüm növü də əlavə etdilər: “Gözü baxa-baxa elektrik xəttinə birləşdirib öldürmək!” [49, 77-78].

Basarkeçər rayonunun Qoşabulaq kəndinin müəllimi Əli Zey-

nalabdın oğlunun dediklərindən:

"Göyçənin nağıllı-dastanlı dünyası bizi başqa kökdə kökləmiş, başqa ruhda cilalamışdı. Hər şeydə şeir-sənət ölçüsü axtarır, nağıllı bir aləmlə ovuşurduq. Öz dünyamıza qapılıb rahat yaşadığımız bir zamanda "erməni barmağı" dünyanı bir-birinə çalxadı. Elə bir oğraşlıq əməliyyatı həyata keçirdi ki, bu haqq-hesab dünyada heç bir insanlıq qanunu ilə ölçülə bilməz. Hər gün kəndlərə silahlı basqınların təşkili daha camaatı canından da usandırmışdı. Nə qədər bu vəziyyətə dözmək olardı... Artıq on ay olardı ki, həyasız erməni təcavüzünə məruz qalan azərbaycanlılar əldən-ayaqdan düşmüşdülər. Əliyalın, silahlı düşmənlə üz-üzə durmaq, eyni zamanda müqavimət göstərildiyi təqdirdə cinayət məsuliyyəti daşımaq camaatı mənəvi cəhətdən sarsıtmışdı. Getdikcə ürək xəstəliyindən ölənlərin sayı artırdı. Bir sözlə, mənəvi genosid azərbaycanlıları bütövlükdə bürümüşdü.

Növbəti hücumlardan birində on yaşlı Rüxsarə özünü evə güclə çatdırdı. "Ay ana, ermənilər gəldi" – deyib hönkürtü ilə ağlamağa başladı. Bağrı yarılmaq dərəcəsinə çatırdı. Onu heç cürə ovundura bilmirdik. Su da içirə bilmədik, dişləri kilidlənmişdi. Getdikcə körpə qız çiçək kimi solurdu. Heç yana əlimiz çatmadı. Bu məsum körpə gözümüzün qabağındaca çıraq sönən kimi söndü.

Məni sarsıdan təkcə Rüxsarə balamın ölümümü oldu. Bala dərdi dözülməz dərd olsa da, aman Allah, daha dəhşətli, daha zülmlü ölümlər gördüm. Bu səhnənin şahidi olduğum üçün elə bil indi də kino lentinə baxıram. Gözümün önündə Azərbaycana dağlarla aşan adamların faciəsi canlanır. Yəqin ki, mən bu dərdi ömrüm boyu unuda bilməyəcəyəm!

Bir qədər öndə, Kəlbəcər dağlarına çathaçatda on-on beş adamın toplaşdığını gördük. Oraya tərəf yaxınlaşanda dedilər ki, cavan bir gəlin uşağa yata bilməyib, indicə canını tapşırdı. Sağ olsun igid oğlanlarımız belə bir vəziyyətdə həmin gəlinin meyitini Kəlbəcərə çatdırdılar.

Əlini-ayağını soyuq alanlar saysız-hesabsız idilər. Onlardan bir qismi az bir vaxtda həmin dərdlə dünyasını dəyişdi.

Gördüyüm bir səhnə daha maraqlı idi. Sarıyaqubdan olan bir

oğlan arxasına vurduğu bağlamanı göz bəbəyi kimi qoruya-qoruya gedirdi. Daha çox ehtiyatlı hərəkət etdiyindən ürəyimdə onu "qorxaqlıqda" qınadım. Sonra da düşündüm ki, yəqin pulları-paraları var, ona görə ehtiyatlanır.

Oğlan, deyəsən, mənim ona qarşı ürəyimdən keçənləri sezmişdi. Üzümə baxmadan, yoluna davam edə-edə dedi:

–Mən Sarıyaqubdanam. Nəsibin oğluyam. Mənim arxamdakı əmanətin beş yüz il yaşı var. Miskin Abdalın sənədləri və əşyalarıdır. Şah İsmayıl Xətainin ona verdiyi möhürlü sənəd də bu bağlamadadır. Çalışıram ki, babamın nişanələrini Azərbaycana çatdırım. Axı o, xalqımızın tarixidir" [49, 83-84].

Basarkeçər rayonunun Qoşabulaq kəndinin sakini Əli Alı oğlu Əliyevə qarşı törədilən vəhşiliklər haqqında şahid ifadəsi:

"... Əli Zod geoloji-kəşfiyyat idarəsində sürücü işləyirdi. Yoldaşları arasında işgüzarlığı ilə seçilirdi. 1988-ci ilin noyabrında azərbaycanlılar güclə işdən qovulurdular. Əli isə ermənilərin bu haqsız tələbinə riayət etməkdən boyun qaçırdı. Nəhayət ayın 29-da saat 16 radələrində Əlini zorla işdən azad edir və 595 manat da haqq-hesab verirlər. Əlacı kəsilmiş Əli idarəni tərk edir, mağazadan iki baş pendir alıb işlədiyi qarajın sürücüsü Abo adlı erməninin idarə etdiyi maşınla Qoşabulağın altına kimi gəlməli olur. Azərbaycanlıları rayon mərkəzinə buraxmamaq üçün Qoşabulaq yolundan 500-600 metr Basarkeçərə tərəf olan yolun üstündə saqqallılar post qurmuşdular. Saqqallılar Abonun maşınını saxladıb, posta çatmamış düşürdüyü adamın kim olduğunu soruşdular.

Abo bildirdi ki, sürücüdür, işdən çıxarıb haqq-hesabını veriblər. Saqqallılar dərhal "UAZ" markalı villis maşınına oturub kəndin iki kilometrliyində Əliyə çatır və onu tutub aparırlar. Postda olan 6 nəfər erməni Əlini ölümcül hala salır. Dəmirlə vurub ağzındakı qızıl dişlərini çıxarıb kağıza bükürlər. Çibində olan pulu və pendiri də götürürlər. Bundan sonra Əlini ölmüş bilən quduz vəhşilər onu gətirib Qoşabulağın yaxınlığında atıb gedirlər. Döyüləndən dörd saat sonra Əliyə azərbaycanlılar rast gəlir və onu kəndə gətirirlər..." [49, 85].

Şişqaya kəndinin sakini Tərlan Əli qızı İbrahimovanın yazdığı izahatdan sətirlər:

“Həyat yoldaşım uzun illər idi ki, müəllim işləyirdi: Bir sıra azərbaycanlılar kimi o da Böyük Vətən müharibəsində can qoymuş, qan axıtmışdı. Müharibə əlili idi. Hələ də uğrunda vuruşduğu quruluşun və dövlətin qanunlarına elə inanırdı ki, onu inamından döndərmək mümkün deyildi. Tariximizdə qara ləkələrlə gözə çarpan 1988-ci ilin noyabr günlərində vəziyyətimiz daha da ağırlaşmışdı. Ayın 10-da sovet milisi günü Əziz iş dalınca rayon mərkəzinə gedəcəyini söylədikdə biz etirazımızı bildirdik. Lakin Əziz inadından dönmədi.

Əziz Basarkeçərə çatanda böyük nümayişlə üz-üzə gəlir. Təsəvvür edin, bir nəfər türk, nümayiş keçirən minlərlə erməniyə rast gələ... Aldığımız məlumata görə, nümayiş iştirakçıları döyülüb yerə sərilmiş Əzizin üstündən tapdalayıb keçmişdilər. Ağır bədən xəsarəti almış bu günahsız türkü xəstəxanaya götürürlər. Bu dövrdə azərbaycanlıları xəstəxanaya götürməkdə məqsəd saxta diaqnozla həqiqəti ört-basdır etməkdən ibarət idi” [49, 87-88].

Göyçə mahalının Nərimanlı kənd sakini Teymur Yusif oğlu Cabbarovun erməni vəhşiləri tərəfindən qətlə yetirilməsi haqqında məlumat:

“Teymur Yusif oğlu Cabbarov Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdi. Öz doğma kəndində zootexnik və kolxoz həmkarlar təşkilatının sədri işləyirdi. İstər kənd camaatı arasında, istərsə də kollektivdə yaxşı hörmətə və nüfuza malik idi.

Teymurun ev əşyalarını aparan yük maşını da ucu-bucağı görünməyən köç karvanına (əgər belə demək mümkünsə) qoşuldu. Karvan getdikcə Göyçə kiçilir, Göyçə dağları uzaqda qalırdı. Karvan gedir, ürək getmirdi, gözlərdən yaş axırdı. Hamının ürəyində bir tüstülü sual dolanırdı: “İlahi, bir də bu yerləri görəcəyikmi?!”

Teymuru da düşündürən, daha doğrusu içindən yandıran bu ağrı idi. Göyçənin uzununa 80 kilometr yol gələndən sonra, Hörükdaş deyilən yerdə artıq Göyçə ilə vidalaşmağa məcbur olan Teymurun gözündən qeyri-ixtiyari iki damla yaş axdı. Teymur bu göz yaşlarını körpə uşaqlarından gizləməyə çalışdı. Nə edəsən. Bu da dövrün, zəmanənin bir amansızlığı idi... Teymurgilin maşını Köhnə Başkəndə çatanda ermənilər maşının qabağını kəsdilər. Teymuru çəkib

maşından yerə salaraq ona işgəncə verməyə başladılar. Quldurların biri onu vurur, biri tapançanın lüləsini ağzına soxur, digəri tüfəngin lüləsini onun çənəsinin altına dirəyir. Teymurun körpə uşaqları qışqırıb-bağırır, fəryadları dağa-daşa səs salırdı. Qatillər isə öz amansız oyunlarında davam edirlər.

Bu vaxt təxminən 70 yaşlı, topal bir kişi gəlir və quldurlara hücum çəkir:

– Nə istəyirsiniz, bu yazıqlardan? – deyir. Dədə-baba yurdlarından çıxartdınız – bu sizin işinizdir. Bəs niyə öldürürsünüz? Elə bilirsiniz bu haqq-hesab beləcə ötəcək. Balam, gəlib dolduq bunların içinə, bizə nə pislik etdilər? İndi ilan olub boyunlarına dolaşmışıq. Buraxın, getsin... Bir gün biz bu azğınlığımıza cavab verəndə görərsiniz...

Qoca erməni Teymuru quduzlaşmış ermənilərin əlindən alıb buraxdı. Amma aldığı bədən xəsarətləri öz işini görmüşdü… Erməni quldurları bir ailənin də çırağını söndürdülər... [49, 89-90].

Qeyd olunan şahid ifadələrindən göründüyü kimi, erməni vəhşiləri Göyçə mahalında yaşayan yüzlərlə azərbaycanlıya qarşı ən ağır cinayətlər törətmiş, qadınları, qocaları, uşaqları vəhşicəsinə qətlə yetirmiş, sağ qalan əhalini isə bir nəfər kimi öz doğma yurdlarından didərgin salmışdılar.

Təəssüflər olsun ki, 1988-ci ilin noyabrında ermənilərin Göyçədə həyata keçirdikləri soyqırımı və deportasiya siyasətinə o zamankı Azərbaycan hökuməti tam laqeydliklə yanaşdı. Ə.X.Vəzirov bilavasitə ermənilərin tərəfdaşı rolunda çıxış etdi. Deportasiyanı həyata keçirmək üçün erməni tərəfinə nəqliyyat yardımı göstərən Azərbaycan KP MK-nın birinci katibi qaçqınların Azərbaycanın ermənilər yaşayan bölgəsində yerləşməsinə rəsmi qadağa qoydu ki, bunun da çox ciddi nəticələri oldu.

1988-1989-cu illərdə Göyçə mahalında ermənilərin törətdikləri vəhşiliklərin aşağıda gətirilən xronologiyasına nəzər salaq:

26 noyabr 1988-ci il: Daşnak terrorçuları Sevan rayonunun Çubuqlu kəndində Nəsrəddin və Həbib Əliyevlərin şəxsi minik maşınlarını – “Jiquli” avtomobilini əllərindən alıb əzir, parça-parça edirlər. Özlərini isə vəhşicəsinə döyüb ölümcül hala salırlar;

27 noyabr – 7 dekabr 1988-ci il: Daşnak terror qrupları son məqsədə çatmaq, Qərbi Azərbaycanda türksüz Ermənistan terror dövləti yaratmaq üçün ayrı-ayrı bölgələrin şəhər və kəndlərinə kütləvi basqınlar edirlər. Aşağıda göstərilən çoxsaylı insan tələfatı ilə nəticələnən sayı yüzləri aşan terror aktları törədirlər: Allahverdi (Tumanyan) rayonunda 4 nəfər, Amasiyada 13 nəfər (o cümlədən, 5 qadın və 1 uşaq), Axtada (Razdan) 3 nəfər (1 qadın), Baranada (Noyemberyan) 3 nəfər (1 uşaq), Basarkeçərdə (Vardenis) 44 nəfər (8 qadın, 4 uşaq), Böyük Qarakilsədə (Quqark) 23 nəfər (6 qadın, 1 uşaq), Vedidə (Ararat) 6 nəfər (1 qadın), Kalininoda 12 nəfər (5 qadın), Qarakilsədə (Sisian) 5 nəfər (4 qadın), Qafanda 7 nəfər (3 qadın, 1 uşaq), Zəngibasarda (Masis) 22 nəfər (4 qadın, 3 uşaq), Karvansarayda (İcevan) 7 nəfər (1 qadın), Keşişkənddə (Yeğeqnadzor) 2 nəfər, Gorusda 2 nəfər, Mığrıda (Meqri) 1 nəfər, Soylanda (Vayk) 15 nəfər (4 qadın, 2 uşaq), Hamamlıda (Spitak) 15 nəfər (5 qadın, 1 uşaq), Çəmbərəkdə (Krasnoselo) 18 nəfər (7 qadın, 2 uşaq), Calaloğluda (Stepanavan) 8 nəfər (2 qadın) günahsız, əliyalın, köməksiz, evini tərk etmək istəməyən dinc və təhlükəsiz azərbaycanlılar müxtəlif cür vəhşiliklərlə qətlə yetirilirlər. Bu qurbanlardan 41 nəfər döyülməklə öldürülmüş, 2 nəfərin başı kəsilmiş, 11 nəfər diri-diri yandırılmış, 1 nəfər asılmış, 3 nəfər doğranmış, 29 nəfər maşınların təkəri altına atılmış, 1 nəfər elektrik cərəyanına verilmiş, 16 nəfər isə güllələnmişdir. Ümumiyyətlə, qətlə yetirilmiş 216 nəfərin 57-si qadın, 23-ü isə uşaq olmuşdu. Bu amansız qətl hadisələrini törədənlərin böyük bir qisminin şəxsiyyəti məlum olsa da, onlardan heç biri nə İrəvanın, nə də Moskvanın hüquq mühafizə orqanları tərəfindən cinayət məsuliyyətinə cəlb edilməmişlər;

28 noyabr 1988-ci il: Daşnak terror qrupları Basarkeçər rayonunun Çaxırlı, Qanlı, Kərkibaş, Şişqaya, Zod kəndlərinə basqınlar edirlər. Nəqliyyat vasitəsi olmayan imkansız, əliyalın əhalidən 34 nəfər döyülərək, işgəncə verilməklə qətlə yetirilir. Sağ qalanlar Gədəbəyə, Kəlbəcərə adlamaq çün Sarınər, Urumbasar gədiklərindən aşmalı olurlar. Qarda-çovğunda borana, şaxtaya düşən qaçqınların 12 nəfəri donvurmadan tələf olur;

29 noyabr 1988-ci il: Daşnak terror qruplarının təzyiq və təcavüzlərinə davam gətirməyən Basarkeçərin Aşağı və Yuxarı Şorca, Qayabaşı, Qoşabulaq, Subatan, Zağalı, Sarıyaqub, Qaraqoyunlu, Nərimanlı, Ağkilsə, Zərkənd, İnəkdağı kəndlərinin əhalisi 44 nəfər itki verərək qarlı dağlar aşıb Kəlbəcər rayonu ərazisinə qaçmalı olurlar. Bir çox yaşlı nəslin nümayəndələri, uşaq və qadınlar isə qarlı-çovğunlu havada donvurmadan həyatlarını itirirlər;

30 noyabr 1988-ci il: Sevan şəhərində yerləşən respublika ruhi xəstəxanasındakı azərbaycanlı xəstələrə rəhmi gəlməyən daşnak terrorçuları 22 nəfər Azərbaycan türkünü su ilə doldurulmuş quyuya ataraq boğub qətlə yetirirlər [37, 47]. Belə faktların sonu isə görünmür...

Təqdim olunan hadisələrin bu qısa xronologiyasından da görünür ki, erməni faşistləri bu illərdə azərbaycanlılara qarşı ağlasığmaz vəhşiliklər törətmiş, sözün əsl mənasında soyqırımı siyasəti həyata keçirmişlər.

Ermənilərin bu vəhşi siyasətini 1988-1989-cu illərdə Göyçə mahalından deportasiya edilmiş azərbaycanlı yaşayış məntəqələrinin siyahısında da görə bilərik:

**Vardenis (Basarkeçər) rayonu üzrə:**

1. Hüseynquluağalı (Nərimanlı, 1991-ci ildən – Şatavan), 2. Böyük Qaraqoyunlu (Əzizli – 1935, Norabak – 1991), 3. Aşağı Şorca, 4. Yuxarı Şorca, 5. Daşkənd (Ayrk – 1991), 6. Sarıyaqub (Çaxkadzor – 1991), 7. Qayabaşı (Qeğamabak – 1991), 8. Qoşabulaq (Şadcrek – 1991), 9. Zərzebil (Zərkənd – 1935, Kut – 1991), 10. Ağkilsə (Azad – 1935), 11. Zod (Cotk – 1991), 12. Babacan (Qızılkənd – 1978), 13. Pəmbək, 14. Dərə (Daranek – 1991), 15. Şişqaya (Qukariç – 1991), 17. Bala Məzrə (Pokr Masrik – 1991), 18. Qaraiman (Sovetkənd – 1978, Kaxank – 1991), 19. Kəsəmən (Bahar – 1978, Arpunk – 1991), 20. İnəkdağı (Yenikənd – 1978, Tretuk – 1991), 21. Qanlı (Qamışlı – 1946), 22. Kərkibaş (Şəfəq – 1967, Vanevan – 1991), 23. Subatan (Qexakar – 1991), 24. Canəhməd (Günəşli – 1969, Kutakan – 1991), 25. Ağyoxuş, 26. Sətənəxaç (Güney – 1935, Arevuni – 1991)

**Rayonun qarışıq əhalili yaşayış məntəqələri:**

27. Yuxarı Zağalı (Axpradzor – 1978), 28. Çaxırlı (Sovetakert – 1978, Kaxakn – 1991), 29. Tüstülü (Lusaqeunk – 1978), 30. Böyük Məzrə (Medz Masrik – 1991), 31. Qızılvəng (Çiçəkli – 1940, Makenis – 1978), 32. Torf

**Krasnoselo (Çəmbərək) rayonu üzrə:**

1. Cil, 2. Ardanış, 3. Şorca, 4. Toxluca (Draxtik – 1991), 5. Ağbulaq (Axperek – 1991), 6. Gölkənd (Ayqut – 1991), 7. Çaykənd (Dprabak – 1991), 8. Əmirxeyir (Kalavan – 1991), 9. Bəryabad (Barepat – 1991), 10. Yanıqpəyə (Meşəkənd – 1978), 11. Cıvıxlı, 12. Qaraqaya (Coravank – 1991),

**Rayonun qarışıq əhalili yaşayış məntəqələri:**

13. Çəmbərək (Krasnoselo), 14. Orconikidze [27, 112-113].

Ümumiyyətlə, 1988-ci il noyabrın 27-dən dekabrın 5-dək ermənilərin həyata keçirdikləri qətliamlar nəticəsində Göyçə 56 nəfər (45 nəfər Basarkeçər, 11 nəfər Çəmbərək rayonu ərazisində) qətlə yetirilmiş, Göyçənin son 80 min nəfər əzəli sakini doğma yurdlarından didərgin salınmış, əhaliyə şəxsi əmlak qismində 500 milyon, ictimai təsərrüfatların əmlakı qismində 1 milyard dollar həcmində ziyan vurulmuşdu [109, 115].

Düşünürük ki, məhz bu hadisələr mahiyyətcə hərtərəfli genosiddir. Təəssüflər olsun ki, özünü demokratiyanın banisi və beşiyi kimi qələmə verməyə çalışan Qərb aləmi bunu görüb obyektiv şəkildə qiymət verməyib bir çox hallarda təcavüzü və təcavüzkarı hər vasitə ilə əslində dəstəkləmək mövqeyində dayanır.

# NƏTİCƏ

Çar Rusiyası tərəfindən Cənubi Qafqazın, ilk növbədə də Şimalı Azərbaycanın işğalının reallaşdırıldığı XIX əsrin əvvəllərindən etibarən romanovlar hakimiyyəti tərəfindən başlanılan, daha sonra sovet bolşevik kommunist rejimi tərəfindən daha qəddar üsullarla davam etdirilən Azərbaycanın ərazi bütövlüyünə qəsd, milli mənafelərimizin tapdanılması, tarixi sərhədlərimizin kobudcasına dəyişdirilməsi kimi məqsədyönlü, ardıcıl və planlı şəkildə həyata keçirilən siyasətin mühüm tərkib hissəsi kimi Qərbi Azərbaycanda Göyçə gölü ətraflarında, İrəvan bölgəsində və b. ərazilərimizdə yaşayan azərbaycanlı türk əhalinin öz tarixi yurdlarından didərgin salınması, onlara qarşı zorakı deportasiya və soyqırımı siyasətinin həyata keçirilməsi məsələlərinin araşdırılması öz aktuallığını və əhəmiyyətini Vətən tarixşünaslığında bu gün də qorumaqdadır. Uzun illər üzərindən sükutla keçilən, hətta araşdırılmasına ciddi qadağalar qoyulan bu problem müstəqillik əldə etdiyimiz dövrdən etibarən obyektiv və əsaslı şəkildə araşdırılmağa başlanmış və gec də olsa bu istiqamətdə çox ciddi nəticələr əldə edilmişdir. Son dövrlərdə bu istiqamətdə tarixi tədqiqatların genişlənməsi əslində bu məsələnin ümumdövlət siyasəti və ümummilli mənafe baxımından nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyini bariz şəkildə göstərir. Azərbaycanlıların soyqırımı və deportasiyası məsələləri ildən-ilə nə qədər dərindən, dönə-dönə araşdırılsa da beynəlxalq ictimaiyyət qarşısında bu məsələ özünün dürüst hüquqi və siyasi qiymətini almayana qədər Azərbaycan tarixşünaslığının bir nömrəli problemlərindən biri olaraq qalacaq və bu problemin bir çox qaranlıq, kölgəli aspektlərinin tədqiq olunması davam etdiriləcəkdir.

Təcavüzkar erməni millətçi dairələri və onları himayə edən böyük dövlətlərin mürtəce qüvvələri tərəfindən mərhələli şəkildə 1905-1906, 1918-1920, 1948-1953, 1988-1994-cü illərdə həyata keçirilmiş kütləvi qırğınlar, soyqırımları əslində Azərbaycana və azərbaycanlılara qarşı yönəlmiş total miqyaslı etnik düşmənçilik siyasətinin tərkib hissəsidir və bu siyasət bu gün də davam etməkdədir.

Bu siyasətin əsl mahiyyətini anlamaq və dürüst nəticə əldə etmək zərurəti problemin tarixi köklərini, gedişini dönə-dönə, dərin həssaslıqla araşdırmağı vacib məsələ kimi ortaya çıxarır.

Məlum olduğu kimi Azərbaycan türklərinin soyqırımı və deportasiyası XIX əsrin birinci yarısından başlanmış XX əsrdə isə bu cinayətkar siyasətin geniş miqyas alması xalqımız üçün çox faciəli nəticələrə gətirib çıxarmışdır.

XX əsrdə Azərbaycanın ermənilər və ruslar tərəfindən soyqırım və deportasiyaya məruz qalmış əsas bölgələrindən biri də Göyçə mahalı olmuşdur. Tarix boyu Azərbaycanın tərkib hissəsi olan bu bölgədə, ermənilər və ruslar tərəfindən mütəmadi həyata keçirilən kütləvi qırğınlar və deportasiya nəticəsində Azərbaycan türkləri zaman-zaman məhv edilmiş, bu ərazilər də tarixi Azərbaycan ərazisində qurulan erməni dövlətinin tərkibinə qatılmışdır.

Məlumdur ki, XIX əsrin əvvəllərində Göyçə gölü hövzəsi inzibati cəhətdən İrəvan xanlığının tərkibinə daxil idi. Xanlığa daxil olan 15 mahaldan ikisi - Dərəçiçək və Göyçə mahalları bu ərazidə yerləşirdi.

Tarixi-coğrafi məlumatlara görə, topoqrafik cəhətdən İrəvan xanlığının mahalları dağlıq, orta və düzənlik olmaqla 3 qrupa ayrılırdı. Abaran, Dərəçiçək və Göyçə mahalları bütünlüklə dağlıq ərazidə yerləşən mahallar idi. XIX əsrin 30-cu illərinə doğru Göyçə mahalının inzibati ərazisində 59, Dərəçiçək mahalının inzibati ərazisində 37 dağıdılmamış kənd mövcud olmuşdur.

10 aprel 1840-cı ildə Çar hökumətinin verdiyi qanuna əsasən 1828-ci ildə yaradılmış “Erməni vilayəti” ləğv edildi. Cənubi Qafqaz 2 böyük inzibati əraziyə – Gürcüstan-İmeretiya quberniyasına və Xəzər vilayətinə bölündü. Bu qanuna əsasən Göyçə mahalı Gürcüstan-İmeretiya quberniyasının İrəvan qəzasının tərkibinə daxil edildi.

1849-cu il iyunun 9-da Rusiya çarı I Nikolayın (1825-1855) fərmanı ilə İrəvan quberniyası yaradıldı. 1850-ci yanvarın 1-dən qüvvəyə minən həmin fərmanla İrəvan quberniyası tərkibində təşkil olunan qəzalardan biri də Yeni Bəyazid qəzası idi ki, Göyçə gölü hövzəsi bütövlükdə bu qəzanın tərkibinə daxil edilmişdi. Buraya

sonralar Hrazdan, Sevan, Yeni Bəyazid, Martuni, Vardenis adlandırılmış rayonların, Kotayk rayonu Qırxbulaq bölgəsinin azərbaycanlılar yaşayan kəndləri, habelə Krasnoselo rayonunun Göyçə gölü ətrafı əraziləri daxil idi.

Beləliklə, XIX əsrin ortalarından etibarən əhalisinin mütləq əksəriyyətini 98%-ni azərbaycanlılar təşkil edən Göyçə gölü hövzəsi torpaqlarında tamamilə yeni inzibati ərazi vahidi – Yeni Bəyazid qəzası təşkil edildi.

Yeni Bəyazid qəzası (4239 kv verst) ərazisinə görə İrəvan quberniyasının ən böyük qəzası idi. Yeni Bəyazid qəzasının 4 sahəsinə-nahiyəsinə 16 kənd icması, bu kənd icmalarına da 127 kənd daxil idi.

XIX əsrin II yarısı – XX əsrin əvvəllərində də İrəvan bölgəsinin inzibati-ərazi bölgüsündə nəzərə çarpacaq əhəmiyyətli dəyişikliklər baş vermədi. Bütün bu dövr ərzində Göyçə mahalı Yeni Bəyazid qəzasının tərkibində qaldı.

XX əsrin əvvəllərində bütün Rusiya imperiyası ərazilərində və o cümlədən də Cənubi Qafqazda baş verən inqilabi çıxışlar və milli azadlıq hərəkatın gedişində çar üsul-idarəsinin devrilməsi və yeni müstəqil milli dövlətlərin yaranması bütün sahələrdə olduğu kimi bölgənin tarixi coğrafiyasında da yeni reallıqlar yaratdı. Uzun fasilədən sonra milli dövlətçilik ənənələrimizin yenidən bərpa olunması və Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından sonra milli dövlətimizin xarici siyasətinin əsas prioritet kəsb edən hədəflərindən biri də tarixi torpaqlarımızın yenidən milli dövlətimizin tərkibinə qatılması məsələsi oldu. 1918-ci ilin yazında Cənubi Qafqazda üç dövlətin Azərbaycan, Ararat və Gürcüstan respublikalarının təxminən eyni vaxtda öz müstəqilliklərini elan etməsi bu dövlətlərin təcili öz sərhədlərini müəyyən etmək zərurətini də meydana çıxardı. İrəvan şəhərinin Ararat Respublikasının paytaxtı elan edilməsinə icazə verilməsi barədə erməni nümayəndələrinin Azərbaycan hökumətinə israrlı müraciətindən sonra Batumda 1918-ci ilin mayın 29-da iki dövlətin nümayəndələri arasında danışıqlar keçirildi. Osmanlı dövlətinin ciddi təzyiqlərindən sonra Azərbaycan tərəfi İrəvanın, eləcə də, Eçmiədzin qəzasının Ermənistana verilməsinə razılaşdı və bununla bağlı Azərbaycanın Müvəqqəti Milli

Şurasının iclasında qərar qəbul edildi. Lakin bunun əvəzində ermənilər Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəkməli idilər.

Elə həmin qərarla da tarix boyu çoxsaylı Azərbaycan dövlətlərinin üzvi tərkib hissəsi olmuş, XVIII əsrin ortalarından isə İrəvan xanlığının tərkibində olan Göyçə mahalının qərb hissəsi faktiki olaraq əldən çıxdı. Azərbaycanın qərb sərhədləri Göyçə gölü ilə məhdudlaşdırıldı. Göyçə gölü iki respublika – Azərbaycan və Ararat respublikaları arasında sərhəd zonasına çevrildi. Gölün şərq hissəsi "Göyçə dairəsi" statusu ilə Azərbaycan Cümhuriyyətinin tərkibində qaldı. Onun ərazisi əsrin ilk illərindəki Yeni Bəyazid qəzasının şərq torpaqlarını əhatə edirdi və Göyçə gölünün şimalındakı Maralicə dağının qərbindən başlayaraq gölün şərq tərəfi ilə cənuba doğru uzanır və Maraldağın qərbinə çatırdı.

XX əsrin əvvəllərində ermənilər Cənubi Qafqazda, xüsusən də indiki Ermənistan ərazisində Azərbaycan türklərinə qarşı kütləvi şəkildə qırğınlar törətdilər. Ermənilərin törətdikləri bu qırğınlar, onların tarixi Azərbaycan torpaqlarında "Erməni dövləti" yaratmaq siyasətinin tərkib hissəsi idi. Bu işə rəhbərliyi ermənilərin "Daşnaksutyun" və "Hnçak" terrorçu-siyasi təşkilatları öz üzərlərinə götürmüşdülər.

XX əsrin əvvəllərində erməni şovinizminin, millətçi erməni partiyalarının maddi və mənəvi dəstəyi, erməni kilsəsinin birbaşa rəhbərliyi ilə ermənilər Azərbaycanının əksər bölgələrində kütləvi qırğınlar törətmiş, on minlərlə insanları qətlə yetirmişdilər.

1905-1907-ci illər qətliamlarında lokal döyüşlər aparan daşnak terror qrup və birləşmələri İrəvan quberniyasında 188 kəndi dağıtmış, onların əhalisini qılıncdan keçirərək qətliamlar törətmiş, sağ qalanları da yurd-yuvalarından didərgin salmışdılar. İrəvan, Naxçıvan, Tiflis, Ordubad, Gəncə, Şuşa, Bakı şəhərlərində qətliamlar daha çox kütləvi hal almışdı. Bu mərhələdə ümumilikdə minlərlə Azərbaycan türkü qətlə yetirilmiş, on minlərlə azərbaycanlı tarixi yurdlarından qovulmuşdular.

Bu iki il müddətində təkcə İrəvan quberniyasında təbii artım nəzərə alınmadan 10000 nəfərdən çox azərbaycanlı ermənilər tərəfindən qətliama və soyqırıma məruz qalmışdılar.

XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilən soyqırımı bu bölgələrdəki demoqrafik vəziyyətə də ciddi təsir etmişdir. Belə ki, bu dövrdən etibarən başlayaraq bir çox tarixi bölgələrimizdə azərbaycanlıların xüsusi çəkisi və təbii artım sürəti azalmağa doğru getmişdi. 1905-1907-ci illər hadisələrinin təsiri bunda özünü kəskin surətdə göstərmişdir. Əhalinin bir hissəsi yaşayış yerlərini tərk etmiş, doğum azalmış, ölüm halları isə çoxalmışdır. Bu kimi səbəblər üzündən 1905-ci illə 1916-cı il arasında artım 107,5 faiz, illik orta artım isə cəmisi 0,7 faiz təşkil etmişdir.

Birinci Dünya müharibəsi dövründə də Rusiyanın hakim dairələri ermənilərə böyük etimad göstərir, həlledici cəbhələrdə, xüsusilə Osmanlı imperiyasına qarşı döyüşlərdə onlardan geniş istifadə edirdi. Ermənilər də öz növbəsində Rusiya qoşun hissələrinə əllərindən gələn yardımı göstərirdilər. Ermənilərin Rusiyanın qələbə çalmasında əsas marağı Rusiyanın osmanlıdan ələ keçirdə biləcəyi əraziləri İrəvan quberniyasına qatmaq, bununla da “Böyük Ermənistan” dövləti yaratmağa nail olmaq idi.

Qeyd olunduğu kimi, erməni terrorçu-siyasi təşkilatlarının və şovinistlərinin Azərbaycan ərazisində “Erməni dövləti” yaratmaq planları və Rusiya hakim dairələrinin bu ideyanı dəstəkləməsi nəticəsində növbəti dəfə Azərbaycan türklərinin kütləvi qətliamları və deportasiyası prosesi başlandı. Bu mərhələ 1917-1920-ci illəri əhatə edən bir dövrdür. Bu mərhələdə Azərbaycanın əksər bölgələrində, xüsusilə də Qərbi Azərbaycan torpaqlarında azərbaycanlılar kütləvi şəkildə qətlə yetirilmiş, yerli əhali öz tarixi torpaqlarından didərgin salınmışdır.

Rəsmi arxiv sənədlərinə əsasən demək olar ki, bu dövrdə təkcə İrəvan quberniyasında yüzlərlə kənd dağıdılmış, yüz minlərlə insan qətlə yetirilmiş və deportasiya olunmuşdur.

Ermənilər tərəfindən 1918-1920-ci illərdə müsəlmanlara, ilk növbədə də Azərbaycan türklərinə qarşı həyata keçirilən soyqırımı, zorakılıq və cinayətlər sonrakı dövrdə ayrı-ayrı erməni tarixçiləri tərəfindən də etiraf edilmişdir. Belə ki, A.A.Lalayan “Daşnaksutyun” partiyasının əksinqilabi rolu” məqaləsində bu məsələyə toxunaraq yazırdı ki, “Daşnaksutyun” partiyası hakimiyyətdə olduğu otuz ay

müddətində Cənubi Qafqazda erməni əhalisinin otuz beş faizini və türk (azərbaycanlı) əhalisinin altmış faizini məhv etmişdir. “Daşnaksutyun” Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı silahlı mübarizə apararaq, dövlət tələblərinin yerinə yetirilməsi bəhanəsi ilə dinc əhalini talayır və öldürür, bütöv kəndləri məhv edirdi”.

Bu dövrdə ermənilər Göyçə mahalında 93 kəndi tamamilə dağıtmış, bu kəndlərdə yaşayan əhalinin böyük bir hissəsi qətlə yetirilmiş və sağ qalanların hamısı bu kəndləri tərk etmişdir.

XX əsrin ortalarında azərbaycanlılara qarşı növbəti deportasiya siyasəti həyata keçirildi. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı qərarı və 1948-ci il 10 mart tarixli 754 saylı sərəncamı Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktları oldu. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki tarixi torpaqlarından kütləvi surətdə və zorakılıqla deportasiya olundu.

Həmin dövrdə bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliklərinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu proses erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti nəticəsində həyata keçirilmişdir.

Tarixi faktlar onu da göstərir ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsi iqtisadi deyil, sırf siyasi maraqlara xidmət edirdi. Məqsəd tarixi Azərbaycan torpaqları olan Ermənistan SSR ərazisindən azərbaycanlıları tamamilə çıxarmaq, əvəzində xaricdə yaşayan erməniləri bu ərazilərə köçürmək olmuşdur. Türkiyə və İranla olan sərhədlər boyunca xristian-erməni koridorunu bir qədər də genişləndirib, möhkəmləndirmək əsas məqsədlərdən biri idi.

1948-1953-cü illərdə Ermənistan SSR-nin tərkibində olan Göyçə mahalını əhatə edən Basarkeçər (1969-cu ildən Vardenis), Yeni Bəyazid (Kamo), Aşağı Qaranlıq (Martuni) rayonlarından da azərbaycanlı əhali zorla köçürülməyə məruz qalmışdır.

Basarkeçər rayonundan azərbaycanlı əhalinin köçürülməsi 1951-1953-cü illərin köçürülmə planına salınmışdır. Lakin rayonun ermənilərlə qarışıq olan Yarpızlı, Qızılvəng, Yuxarı Zağallı, Kərkibaş və Qanlı kəndlərinin əhalisi 1948-ci ildə köçürülməyə məruz qalmışdır.

Bu dövrdə Basarkeçər rayon partiya komitəsinin birinci katibi Talıb Musayevin və yerli azərbaycanlı əhalinin ciddi müqaviməti rayondan azərbaycanlıların kütləvi köçürülməsinə mane olmuşdu.

Ümumiyyətlə, 1948-1953-cü illər deportasiyası dövründə, Göyçə mahalını əhatə edən Sevan, Kamo və Martuni rayonları ərazisində türk kəndləri birmənalı şəkildə ləğv edildi, hər üç rayon etnik tərkib etibarı ilə "saflaşdırıldı".

Qeyd etdiyimiz kimi, Basarkeçər rayonunda isə bu aksiya qismən ağrısız oldu. Daha doğrusu, o illərdə Basarkeçərdə türklərin demoqrafik üstünlüyü səbəbiylə rəhbərlər arasında türklərin üstünlük təşkil etməsi burada ermənilərə istədikləri qədər əl-qol açmağa imkan vermədi.

Ermənistan SSR-də antitürk, antimüsəlman təbliğatı XX əsrin 60-cı illərində yenidən var gücü ilə işə salınmışdır. N.S.Xruşşovun hakimiyyətinin son illərində "Böyük Ermənistan" ideyası A.İ.Mikoyanın təşəbbüsü ilə sovet idarə aparatının gündəliyinə qaldırılmışdı. N.S.Xruşşovun aqrar siyasətindən – SSRİ-nin iqtisadi regionlara bölünməsi siyasətindən istifadə edən Mikoyan ona təklif etmişdi ki, Ermənistan SSR-də və Naxçıvan MSSR-də iqtisadiyyatın əlverişli inkişafı üçün Naxçıvan MSSR-in Ermənistan SSR-ə birləşdirilməsi vacibdir. Xruşşov bu işi Azərbaycan ziyalılarının müzakirəsinə verdi. Nəticədə iş baş tutmadı. Bu illər Ermənistanda yaşayan azərbaycanlılara qarşı münasibətdə qısamüddətli müəyyən sabitlik bərqərar oldu.

Lakin 1964-cü ildə N.S.Xruşşovun hakimiyyətdən kənarlaşdırılması bu müvəqqəti sakitliyi də pozdu. Ermənistanda "mets yeğerni" – "böyük qırğın" adlandırılan hadisəsinin 50-ci ildönümünü qeyd etməyə hazırlıq işləri genişləndi. Bu tədbirin keçirilməsində xarici ölkələrdə fəaliyyət göstərən "Daşnaksutyun" partiyasının və digər irticaçı-millətçi partiya və qrupların məqsədi, son qayəsi

Ermənistan SSR-in rəhbərliyinin fəaliyyəti ilə üst-üstə düşür, hər iki tərəfdə aparılan təbliğat işi bir məqsədə yönəldilmişdi. Belə ki, iddia edirdilər ki, "qırğın" üçün Türkiyə hökuməti və xalqı məsuliyyət daşıyır, əzəli Ermənistan torpaqları yenidən birləşdirilməli, "Böyük Ermənistan" dövləti yaradılmalıdır.

Hələ 1960-cı illərdən başlayaraq Ermənistan SSR-də azərbaycanlılardan rəhbər vəzifədə olanların böyük əksəriyyəti ermənilərlə əvəz edildilər. Göyçə mahalının Basarkeçər, Krasnoselo, həmçinin Qarabağlar, Zəngibasar, Vedi rayonlarında (bu bölgələrdə əhalinin 75-90% azərbaycanlılar idi) rayon partiya komitələrinin azərbaycanlı olan birinci və ikinci katibləri heç bir əsas olmadan işdən azad edildilər.

XX əsrin 60-cı illərində Ermənistanda aparılan milli ayrı-seçkilik siyasəti və diskriminasiya nəticəsində İrəvan və onun ətraf rayonlarından minlərlə ailə Azərbaycana köçməyə məcbur olmuşdur.

Tarixlər boyu azərbaycanlıların öz dədə-baba torpaqları olan indiki Ermənistan Respublikası ərazisindən məcburən və kütləvi zorakılıqla qovulmasının sonuncu mərhələsi 1988-1989-cu illərdə baş vermişdir.

Bu dövrdə ermənilərin həyata keçirdikləri qətliamların gedişində Göyçədə 56 nəfər günahsız, dinc Azərbaycan türkü qətlə yetirildi (45 nəfər Basarkeçər, 11 nəfər Çənbərək rayonu ərazisində), Göyçənin son 80 min nəfər aborigen, avtoxton sakini didərgin salındı, əhalinin şəxsi əmlakına, əhaliyə şəxsi əmlakına 500 milyon, ictimai təsərrüfatların əmlakına isə 1 milyard dollar həcmində ziyan vuruldu.

Beləliklə, XIX-XX əsrlərdə rus-erməni tandeminin yürütdüyü cinayətkar siyasət nəticəsində əzəli Azərbaycan torpaqları olan qərb bölgələrimiz, o cümlədən Göyçə mahalı, onların tarixi sakinləri, sahiblərindən – Azərbaycan türklərindən tamamilə, silah gücünə "təmizləndi". Bu cinayətkar siyasətin son mərhələsi – Göyçənin tamamilə türksüzləşdirildiyi 1988-1989-cu illərdə Moskva rəhbərliyinin və M.Qorbaçovun cinayətkar siyasəti nəticəsində həyata keçirildi.

Monoqrafiyanın yazılmasında başlıca məqsəd yuxarıda qeyd olunan həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, xalqımızın öz hüquq və haqlarının bərpa olunmasına yardımçı olmaqdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

### Azərbaycan dilində


1. Abdullayev Ə.İ. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti tarixindən. Bakı: Elm, 1995, 167 s.
2. Abışov V.Ş. Azərbaycanlıların soyqırımı. 1918-1920-ci illər. Bakı: Qartal, 2001, 174 s.
3. Ağalarov M.Z. XV-XVI əsrlərdə Azərbaycan beynəlxalq münasibətlər sistemində. Avtoreferat. Bakı: 2013, 26 s.
4. Ağayev Ə. Böhtan və iftiranın intihası (qarelərimizdən əvfü xahiş ediriz) // "Həyat" qəzeti, 23 iyun 1905 №14.
5. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırımı, Qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.
6. Aslan Q. Göyçə şəhidləri. Basarkeçər bölgəsi. Bakı: İşıq, 1997, 238 s.
7. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı: Lider nəşriyyat, 2005, 440 s.
8. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı: Lider nəşriyyat, 2005, 472 s.
9. Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Sənədlər toplusu: 3 cilddə. I c. Ön sözün müəllifi: Y.Mahmudov; tərt. ed.: N.Məmmədzadə, İ.Niftəliyev, K.İsmayılov. "26 Bakı komissarları"nın əsl tarixi. Bakı: Çaşıoğlu, 2009. 776 s.
10. Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. sənədlər toplusu: 3 cilddə. II cild. I kitab. Gəncə quberniyası. Bakı: Çaşıoğlu, 2011, 460 s.
11. Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. sənədlər toplusu: 3 cilddə. II c. II kitab. İrəvan quberniyasında soyqırımı. Bakı: Çaşıoğlu, 2011, 456 s.
12. Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Sənədlər toplusu: 3 cilddə. III c. Ön sözün müəllifi Y.Mahmudov. Xatirələr (sənədlər toplusu). Bakı: Çaşıoğlu, 2010. 448 s.
13. Azərbaycan tarixi arxiv sənədlərində. I cild. Rusiya Dövlət Tarix Arxivinin sənədlərində. Bakı: Çaşıoğlu, 2012, 660 s.
14. Azərbaycan tarixi arxiv sənədlərində. II cild. Rusiya Dövlət Tarix

Arxivinin sənədlərində. Bakı: Çaşıoğlu, 2012, 660 s.
15. Azərbaycan tarixi arxiv sənədlərində. III cild. Rusiya Dövlət Tarix Arxivinin sənədlərində. Bakı: Çaşıoğlu, 2012, 560 s.
16. Azərbaycan tarixi arxiv sənədlərində: 1917-1920-ci illər. I cild. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi. Bakı: 2010. 768 s.
17. Azərbaycan tarixi arxiv sənədlərində: XVIII-XX əsrin əvvəlləri. II cild. Rusiya Dövlət Tarix Arxivi. Bakı: 2010. 616 s.
18. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Z.M.Bünyadovun redaktəsi ilə. Bakı: Elm, 1990, 384 s.
19. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 1989, 321 s.
20. Azərbaycan tarixi. 7 cilddə, IV c., Bakı: Elm, 2007, 504 s. + 48 s. illüstrasiya.
21. Azərbaycan tarixi. 7 cilddə, V c., Bakı: Elm, 2007, 696 s. + 40 s. illüstrasiya.
22. Azərbaycan tarixi. 7 cilddə, VI c., Bakı: Elm, 2007, 568 s. + 48 s. illüstrasiya.
23. Azərbaycan Respublikası Elmlər Akademiyasının "Xəbərləri", Bakı: Elm, 1989, № 4, s.172
24. Azərbaycanlıların 1948-1953-cü illərdə Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Əliyev Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Oktyabr, 1997 - dekabr, 1997. 13-cü Kitab:- Bakı: Azərnəşr. 2004.- 520 s. (s.397-398).
25. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər). Müqəddimənin müəllifi və məsul redaktor A.Ə.Paşayev. Bakı: Zərdabi LTD, 2013, 784 s.
26. Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Heydər Əliyev. Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 26 mart 1998-ci il) // http://www.president.az/azerbaijan/memories
27. Azərbaycanlıların soyqırımı və deportasiyası. Bakı: PK, 2010, 189 s.
28. Bayramov İ.M. Qərbi Azərbaycanın türk mənşəli toponimləri.

Bakı: Elm, 2002, 696 s.
29. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, 453 s.
30. Deportasiya: azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası. Bakı: "Azərbaycan Ensiklopediyası" NPB, 1998. 440 s.
31. Didərginlər. Bakı: Gənclik, 1990. 384 s.
32. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Tərtib edən S.Əsədov. Bakı: Gənclik, 1995, 464 s.
33. Əhmədova F. Cümhuriyyət parlamentinin sonuncu qanunu: Gerçəkləşməyən qanunda itiriləcək Azərbaycan torpaqlarına sahiblik təsbit olunmuşdu // Füyuzat jurnalı №5(49), Bakı, 2009, s. 16-17.
34. Ələkbərli Ə.Y. Qədim Türk-Oğuz yurdu – "Ermənistan". Bakı: Sabah, 1994, 204 s.
35. Əliyev Ə. Göyçədə Zod kəndində ermənilərin törətdikləri soyqırımları // Xalq qəzeti, 31 mart 2011.
36. Əliyev F.M., Həsənov U. İrəvan xanlığı. Bakı: Şərq-Qərb, 2007, 144 s.
37. Əroğul Ə. Azərbaycanda erməni-daşnak terrorunun xronologiyası (bədii, tarixi publisistika). Bakı: Təknur, 2009, 200 s.
38. Əzizov E.Ə. Difai. XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri. Bakı: CBS Polygraphic Production, 2009, 360 s.
39. Fəna M.R. 1905-ci il hadisəsi. Bakı: Nurlan, 2009, 252 s.
40. Gözəlova N.R. Azərbaycanın türk-müsəlman əhalisinin soyqırımı. Britaniya kitabxanasının arxiv sənədləri əsasında (1918-1920). Bakı: Turxan, 2014, 76 s.
41. Həsənov C.P. "Ağ ləkə"lərin qara kölgəsi. Bakı: Gənclik, 1991. 200 s.
42. Həsənov C.P. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920. Bakı: Azərnəşr, 1993, 362 s.
43. Həsənov H. Erməni terroru // Xalq qəzeti, 31 mart 2009.
44. Həsənov K. And yerimiz. Bakı: Əbilov, Zeynalov və oğulları, 2001, 352 s.
45. "Həyat" qəzeti. 1905-1906-cı illər. №25-35.

46. İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyadov və H.Məmmədov (Qaramanlı). Bakı: Elm, 1996, 186 s.
47. İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Elmi red. Y.M.Mahmudov. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Regionların İnkişafı İctimai Birliyi. Bakı: Azərbaycan, 2010. 616 s.
48. İsgəndərov A. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı: Mütərcim, 1997, 184 s.
49. İsmayıl E. Ermənistan türklərinin 1988-ci il soyqırımı. Bakı: Qızıl Şərq, 112 s.
50. İsmayılov K.N. Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920). Bakı: Turxan, 2014, 248 s.
51. Qaraoğlu F. Ermənilər və həqiqətlər: rəsmi sənədlərlə: I cild. Bakı: Nurlar NPM, 2007. 400 s.
52. Qasımlı M.C. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na. Gerçək tarix axtarışında (1724-1920). Bakı: Mütərcim, 2014. 464 s.
53. Qazıyev Y. Erməni məsələsi. Yalanlar və gerçəklər. Bakı: Nurlar NPM, 2009, 344 s.
54. Qeybullayev Q. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 140 s.
55. Quliyev V.M. Azərbaycanda erməni zülmü. Bakı: Ozan, 1999. 228 s.
56. Qurbanlı Ə.C. Azərbaycan türklərinin Ermənistandan deportasiyası (1947-1953-cü illər). Bakı: Ağrıdağ, 2004, 116 s.
57. Qurbanlı Ə.C. Deportasiyanı doğuran şərait və səbəblər (1948-1953) // Dirçəliş XXI əsr – № 82-83, 2004-2005, s. 135-140.
58. Mahmudov Y.M. Azərbaycan: Qısa dövlətçilik tarixi. Bakı: Təhsil, 2005. 140 s.
59. Mazanov A.Ə. Göyçə qətliamı // "Ülfət" qəzeti, 2 aprel 2004.
60. Məhərrəmov N.K. Tehran-47: Daşnaksutyun və Azərbaycanın taleyi. Bakı: Azərbaycan, 1995, 96 s.
61. Məmmədov X. Azərbaycan milli hərəkatı (1875-1918-ci illər). Bakı: Sabah, 1996, 174 s.

62. Məmmədov İ.S. Erməni kilsəsi və Türk-Azərbaycan torpaqlarında dolaşmaqda olan "Böyük Ermənistan" kabusu. Etnik təmizləmə, fiziki və mənəvi soyqırımı. Dünənin tarixi, bu günün gerçəyi. Bakı: Nurlan, 2010, 240 s.
63. Məmmədov İ.S. İrəvan dəftəri. Bakı: 2002. 210 s.
64. Məmmədov İ.S. Tariximiz, torpağımız, taleyimiz. Bakı: Adiloğlu, 2003,700 s.
65. Məmmədov İ.S., Əsədov S. Ermənistan Azərbaycanlıları və onların acı taleyi. Bakı: Azərbaycan, 1992, 72 s.
66. Məmmədzadə M.B. Ermənilər və İran. Bakı: Azərnəşr, 1993, 42 s.
67. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, 246 s.
68. Musalı N. Azərbaycan Səfəvilər dövləti I Şah İsmayılın hakimiyyəti dövründə. Bakı: 2008, 476 s.
69. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1998, 385 s.
70. Musayev T.Q. Ermənilər və faciələrimiz. XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr. Bakı: Nurlar, 2008, 320 s.
71. Müstafa N.Y. İrəvan quberniyasında azərbaycanlıların soyqırımı (1918-1920). Bakı: Turxan, 2014, 328 s.
72. Mustafa N.Y. 1905-1906-cı illərdə İrəvan Quberniyasında və Zəngəzur qəzasında ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar. T.ü.f.d. diss. avtoreferatı. Bakı: 2014, 32 s.
73. Mustafa N.Y. 1918-1920-ci illərdə İrəvan quberniyası ərazisində azərbaycanlıların soyqırımı // Xalq qəzeti, 2010, 31 mart; 1 aprel; 3 aprel; 4 aprel.
74. Mustafa N.Y. Mənbələr azərbaycanlıların 1905-1907-ci illər soyqırımı haqqında // Xalq qəzeti, 2009, 31 mart.
75. Münşi İsgəndər bəy. Dünyanı bəzəyən Abbasın tarixi, II cild. Bakı: "Şərq-Qərb" Nəşriyyat Evi, 2014, 1400 s.
76. Nəcəfli G.C. Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgələrində

ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlar (1918-1920). Bakı: Turxan, 2014, 248 s.
77. Düşmənin iç üzü: XIX-əsrin sonu – XX əsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi. I hissə. Bakı: Çaşıoğlu, 2007, 440 s.
78. Nəcəfov B.İ. Düşmənin iç üzü: XIX əsrin sonları və XX əsrin əvvəllərində Zaqafqaziyada erməni millətçiliyinin tarixi. II cild. Bakı: Çaşıoğlu, 2006, 436 s.
79. Nəcəfov B.İ. Düşmənin iç üzü: XIX əsrin sonları və XX əsrin əvvəllərində Zaqafqaziyada erməni millətçiliyinin tarixi. III cild. Deportasiya. Bakı: Çaşıoğlu, 2006, 320 s.
80. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair. İ.V.Stalinə məktub. Bakı: Azərnəşr, 1992, 80 s.
81. Nəvvab Mir Möhsün. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: Azərbaycan, 1993, 124 s.
82. Niftəliyev R.Y. XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlilərinin azadlıq hərəkatı. Bakı: ADPU, 2006, 138 s.
83. Onullahi S.M. Erməni millətçiləri və İran. Bakı: Maarif, 2002, 88 s.
84. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman tarixi. Bakı: Maarif, 1991. 141 s.
85. Paşayev A.Ə. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərbaycan, 2001, 536 s.
86. Paşayev A.Ə. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında). Bakı: Çaşıoğlu, 2011, 328 s.
87. Paşayev A.Ə. Köçürülmə. Bakı: Azərnəşr, 1995, 40 s.
88. Paşayeva U. XX əsrin əvvəllərində Azərbaycanda köçkün və qaçqın problemi barədə // Tarix və onun problemləri, 2010, №3, s. 57-61.
89. Piriyev V.Z. Azərbaycanın tarixi coğrafiyası. Bakı: Araz, 2002, 152 s.
90. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim, 2006, 148 s.
91. Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar. Bakı: Azərnəşr,

1997, 260 s.
92. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
93. Rəsulzadə M.Ə. Bolşeviklərin şərq siyasəti. Bakı: Sabah, 1994, 134 s.
94. Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, 112 s.
95. Rusiyanın Van və Ərzurumdakı Baş Konsulu Mayevskinin xatirələri. Bakı: Şərq-qərb, 1994, 40 s.
96. Saleh bəy. Dünyanın taleyi. Bakı: Elm, 1998, 688 s.
97. Seyidzadə D.B. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Azərbaycan Respublikası "Kitab" cəmiyyəti. Bakı: 1998. 256 s.
98. Səmədova K.İ. Qərbi Azərbaycan – indiki Ermənistan etnotoponimlərinin arealları. Bakı: Nurlan, 2008. 155 s.
99. "Sovet Ermənistanı" qəzeti, 1964, 3 oktyabr, №117, 10 noyabr, №133
100. "Sovet Ermənistanı" qəzeti, 1965, 13 mart, №31.
101. "Sovet Ermənistanı" qəzeti, 1988, 12 iyul, №85; 23 iyun, №76; 17 noyabr, №138.
102. Süleymanov M.S. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, Hərbi nəşriyyat, 1997, 160 s.
103. Şirinoğlu V. 1918-1920-ci illərdə Azərbaycanlıların soyqırımı. Sənədlər və materiallar. Bakı: Qartal, 2001, 176 s.
104. Şükürov K.K. Türkmənçay – 1828: Tarixi xronika. Bakı: 2006, 188 s.
105. Təkləli M. Türk kitabı: unudulan tarix – dəyişdirilən adlar. Bakı: Nurlar, 2009. 319 s.
106. Uimz S. Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri. Bakı: OKA, 2004, 386 s.
107. Vandalizm: Tarixi adlara qarşı soyqırımı. Tərtib edən N.Mustafa. Bakı: Turxan, 2014. 128 s.
108. Vəlizadə İ., Muradov B. Ermənistan azərbaycanlılarının soyqırımı. Bakı: Gənclik, 172 s.
109. Vilayətoğlu S. Oğuz elinin müqəddəs ocağı: Göyçə. Bakı:

[s.n.], 2006, 512 s.
110. Yasinzadə Ə.H. Göyçədən başlayan yol. Bakı: Göytürk, 1997. 90 s.
111. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1992. 144 s.

## Türk dilində

112. Altan Deliorman. Türklere qarşı ermeni komiteleri. İkinci nəşri. İstanbul: Bağıçı Başım və Yayıcı evi, 1975. 360 s.
113. Azerbaycan Belgelerinde Ermeni sorusu (1918-1920). Ankara: T.C. Başbakanlık Devlet Arşivi Genel Müdürlüğü, Cumhuriyet Arşivi Daire Başkanlığı, Yayın Nu. 28, 2001. XXXII + 682 s.
114. Ermeni komiteleri (1891-1895). T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı; yayın nu. 48. Ankara: Başbakanlık Basımevi, 2001. - XIV, 120 s.
115. Ermeni Meselesi Kronolojisi (1878-1923). Karacakaya Recep Kaynakçalı. T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı; yayın nu. 52. Ankara: Başbakanlık Basımevi, 2001. - XV, 261 s.
116. Ermeni meselesinin siyasi tarihçesi (1877-1914). Münir Süreyya Bey. T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı; yayın nu. 53. Ankara: Başbakanlık Basımevi, 2001. - XVII, 1079 s.
117. Ermeni sorusu. 1914-1923. Ankara: Türk tarih kurumu basımevi. 1991. 295 s.
118. Ermeniler Tarafından Yapılan Katliam Belgeleri (1914-1919): Cilt I. = Documents on massacre perpetrated by Armenians. T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı; yayın nu. 49. Ankara: Başbakanlık Basımevi, 2001. – XXII. 740 s.
119. Ermeniler Tarafından Yapılan Katliam Belgeleri (1919-1921): II cilt.= Documents on massacre perpetrated by Armenians. T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı; yayın nu. 50. Ankara: Başbakanlık

Basımevi, 2001. – X. 589 s.
120. Osmanlı Belgelerinde Ermeniler (1915-1920)”. T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı. Ankara: 1995. 307 s.
121. Osmanlı belgelerınde ermeni-rus iliskileri (1841-1898). Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü. Cilt I. Ankara: 2008. XII+457 s.
122. Osmanlı belgelerınde ermeni-rus iliskileri (1899-1906). Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü. Cilt II. Ankara: 2008. VII+502 s.
123. Osmanlı belgelerınde ermeni-rus ilişkileri (1907-1921). Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü. Cilt III. Ankara: 2009. IX+521s.
124. Osmanlı Belgelerinde Ermeni-Amerikan İlişkileri (1839-1895). T.C. Başbakanlık, Devlet Arşivleri Genel Müdürlüğü, Osmanlı Arşivi Daire Başkanlığı Yayın nu: 85. Cilt: 1. Ankara: 2007. XV+578 s.
125. Osmanlı belgelerinde ermeni-amerikan ilişkileri (1896-1919). Başbakanlık, Devlet Arşivleri Genel Müdürlüğü, Osmanlı Arşivi Daire Başkanlığı. Yayın nu: 85. Cilt: 2. Ankara: 2007. XIII+583 s.
126. Osmanlı belgelerinde ermeni-ingiliz ilişkileri (1894-1895). Cilt III. Osmanlı Arşivi Daire Başkanlıgı. Ankara: 2006. XIX+547 s.
127. Osmanlı belgelerinde ermeni-ingiliz ilişkileri (1896-1922). Cilt IV. Osmanlı Arşivi Daire Başkanlıgı. Ankara: 2006. XVIII+460 s.
128. Sarıahmetoğlu N. Azeri-Ermeni ilişkileri: 1905-1920. Ankara: Türk Tarih Kurumu, 2006. 535 s.

**Rus dilində**

129. Агамалиева Н.А., Худиев Р.Н. Азербайджанская Республика. Страницы политической истории 1918-1920 гг. Баку: Сабах, 1994, 112 с.
130. Адрес-Календарь Азербайджанской Республики на 1920-й

г. Под. ред. А.И.Ставровского]. Баку: Правительственная типография газ. “Азербайджан”, 1920, 336 с. Переиздание. - Баку: Nağıl evi, 2011. - 336 с.
131. Азербайджанская Демократическая Республика (1918-1920). Баку: Элм, 1998, 306 с.
132. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы). Баку: Азербайджан, 1998, 632 с
133. Азербайджанская ССР в экспансионистских планах армян (20-е годы XX века). Баку: Тахсил, 2010, 292 с.
134. Акты, собранные Кавказскою Археографическою Комиссией. Архив главного управлений наместника Кавказа (АКАК). Том VII. Тифлис: Типография Главного Управления Наместника Кавказского, 1878. 1010 с.
135. Асадов С.Дж. Исторические проблемы Западного Азербайджана. Дисс. на соиск. учен. степени докт. ист. наук в форме научного доклада. Баку: 1999.
136. Асадов С.Дж. Миф о Великой Армении. Баку: издательство “Азербайджан”, 1999. 280 с.
137. Ахмедов А. Азербайджанские тюрки в революции 1905 года. Баку: ИПО, Azərbaycan Milli Ensiklopediyası, 2002, 332 s.
138. Багиров М., Вердиева Х. В поисках истины… Лицо армянства. Баку: МБМ, 2011, 607 с.
139. Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века. 1900-1917. Баку: Элм, 1997, 335 с.
140. Балаев А. Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку: Элм, 1998, 279 с.
141. Беженцы: 1918-1920, 1948-1952, 1988-1989. Баку: Гянджлик, 1992, 448 с.
142. Вейденбаум Е.Г. Путеводитель по Кавказу. Тифлис: 1888. 434 с.
143. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Санкт-Петербург: Тип. Артели Печатнаго дела, 1904,

220 с.
144. Вердиева Х.Ю., Гусейнзаде Р.А. “Родословная” армян и их миграция на Кавказ с Балкан. Баку: Общественное Объединение Азербайджанских Историков, 2013. 216 с.
145. Газета “Азербайджан”, №20, 28 октября 1918 г.
146. Газета “Азербайджан”, №23, 31 октября 1918 г.
147. Газета “Азербайджан” №24, 1 ноября 1918 г.
148. Газета “Азербайджан” №21, 30 января 1919 г.
149. Газета “Азербайджан” №102, 17 мая 1919 г.
150. Газета “Азербайджан” №122, 15 июня 1919 г.
151. Газета “Азербайджан” №128, 22 июня 1919 г.
152. Гарабаглы Салех бей. Армянство. Баку: Элм, 1994. 440 с.
153. Геноцид Азербайджанского народа 1918 года: организаторы и палачи. Баку: Турхан, 2013. 272 с.
154. Глинка С.Н. Описание переселения армян Аддербиджанских в пределы России. Москва: Тип. Лазаревых Института Восточных Языков, 1831. 145 с.
155. Грибоедов А.С. Записка о переселении армян из Персии в наши области // Соч. в двух томах, т.2. Москва: Изд-во “Правда”, 1971. 366 с. С. 339-341.
156. Гюрюн Камуран. Армянское досье. Баку: Язычы, 1993, 376 с.
157. Дашнаки (Составитель и автор вступительной статьи Б.Гаибов). Переиздание. Баку: Коммунист, 1990, 40 с.
158. Ениколопов И.К. Грибоедов и Восток. Ереван: Айпетрат, 1954. 196 с.
159. Жорж де Малевил. Армянская трагедия 1915 года. Баку: Элм, 1990. 126 с.
160. Земельные дачи Эриванской губернии. Вып. I-II. Дачи Эриванского уезда. Дачи Новобаязетского уезда. Труды Закавказского Статистического Комитета. Том 1. Тифлис: тип. К.П.Козловского, 1903-1905
161. Известия Кавказского Отдела Императорского Русского Географического Общества. Том VIII. №1-2. Тифлис: Типография Канцелярии Главнонач. гражданскою частью

на Кавказе, 1884-1885, 720 с.
162. Известия Кавказского Отдела Императорского Русского Географического Общества. Том IX. №1-7. Тифлис: Типография Канцелярии Главнонач. гражданскою частью на Кавказе, 1886-1888, 818 с.
163. Известия Кавказского Отдела Императорского Русского Географического Общества. Том X. №1. Тифлис: Типография Канцелярии Главнонач. гражданскою частью на Кавказе, 1889-91, 382 с.
164. Известия Кавказского Отдела Императорского Русского Географического Общества. Том XIII. №1. Тифлис: Типография Козловского К.Р., 1900, 256 с.
165. Известия Кавказского Отдела Императорского Русского Географического Общества. Том XIV. №1. Тифлис: Типография Канцелярии Главнонач. гражданскою частью на Кавказе, 1900, 298 с.
166. Иоакимов А.Я. Палеогеографические заметки о бывшем селении Гюмри // Известия Кавказского Отдела Императорского Русского Географического Общество. Том XV. Вып. 1. 1902, с. 1-2.
167. Исмаил-заде Д.И. И.И.Воронцов-Дашков. Кавказский Наместник. Москва: 2005. 512 с.
168. Исторический памятник Ереванский губернии на 1906 года.
169. История Азербайджана по документам и публикациям. Баку: Элм, 384 с.
170. Кавказский календарь на 1917 г. Тифлис: Типография Канцелярии Наместника Е.И.В. на Кавказе, 1916. 1608 с.
171. Кавказский календарь на 1855 г. Тифлис: Типография Канцелярии Наместника Кавказского, 1854. 788 с.
172. Кавказский календарь на 1905 г. Тифлис: Типография А.В.Кутателадзе. 1904. 788 с.
173. Кавказский календарь на 1907 г. Тифлис: Типография К.П.Козловскаго, 1906. 826 с.
174. Кавказский календарь на 1914 г., Тифлис: Типография Кан-

целярии Наместника Е. И. В. на Кавказе, 1913. 1366 с.
175. Качазнуни Ов. Дашнакцутюн больше нечего делать! Баку: Элм, 1990, 92 с.
176. Колониальная политика царизма в Закавказье. 1920. Колониальная политика российского царизма в Азербайджане в 20–60-х гг. XIX в. Ч. I. Москва-Ленинград: 1936. 478 с.
177. Кулиева В.А. Роль и позиция мусульманского духовенства в социально-культурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в X IX — начале XX в. Баку: Элм, 1999. 64 с.
178. Лалаян А. Контрреволюционная роль партии Дашнакцутюн // Известия АН Азербайджанской ССР. Серия истории, философии и права. 1990, №1
179. Лалаян А. Контрреволюционный "Дашнакцутюн" и империалистическая война 1914-1918 гг. // Известия АН Азербайджанской ССР. Серия истории, философии и права. 1989, №4.
180. Лястер А.Ф., Чурсин Г.Ф. География Кавказа. Природа и население. Тифлис: 1924. VIII, 352 с.
181. Маевский В. Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса. Тифлис: 1915, 48 с. Переиздание. Баку: Шур, 1993, 48 с.
182. Маккарти Дж., Маккарти К. Тюрки и Армяне. Руководство по Армянскому вопросу. Баку: Азернешр, 1996, 158 с.
183. Мамедов И.С. Об истории, исконной земле и горькой судьбе Азербайджанцев, изгнанных из нынешней Республики Армения. Баку, Гисмет, 2009, 376 с.
184. Мамедов И.С. Трилогия панарменизма – коварная стратегия чередующихся агрессий. В трех книгах. Книга II. Баку: Адильоглы, 2006, 168 с.
185. Мамедов И.С. Трилогия панарменизма – коварная стратегия чередующихся агрессий. В трех книгах. Книга III. Баку: Адильоглы, 2006, 176 с.
186. Мамедов И.С., Асадов С.Дж. Терроризм: Причина и следствие. Баку: Азернешр, 2001, 248 с.

187. Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Том 1. Тифлис: 1885–1887, 812 с.
188. Махмудов Я.М. Геноцид тюрко-мусульманского населения Азербайджана в 1918-1920 годах. Баку: Турхан, 2015, 100 с.
189. Мусаев Р.М., Мустафаев Д.М., Раджабов Р.А. Из общественно-политической истории Азербайджана начала XX столетия. Баку: Азернешр, 1998, 78 с.
190. Наджафов Б.И. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX – начале XX в. Часть первая. Баку: Элм, 1993, 392 с.
191. Наджафов Б.И. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX – начале XX в. Часть вторая. Баку: Шарг-Гарб, 1994, 336 с.
192. Насиров Т.М. Борьба за власть в Азербайджане (1917-1920 гг.). Баку: Азербайджан, 1993, 120 с.
193. Нифталиев И.В. Геноцид азербайджанцев в Иреванской гувернии (1918-1920). Баку: Турхан, 2014, 188 с.
194. Обзор Эриванской губернии за 1908. Эривань: Типография Эриванского Губернского правления, 1909, 71 с.
195. Обзор Эриванской губернии за 1909. Эривань: Типография Р.К. Эдельсона: 1910, 71 с.
196. Обзор Эриванской губернии за 1910. Эривань: Типография Эриванского Губернского правления: 1911, 71 с.
197. Обзор Эриванской губернии за 1913. Эривань: Типография Эриванского Губернского правления: 1914, 77 с.
198. Пагирев Д.Д. Эриванский сборник. Вып. 1. Эриван. 1892. 108 с.
199. Парвицкий В.А. Экономический быт государственных крестьян северо-восточной части Новобаязетского уезда Эриванской губернии // Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т., I, ч. 2. Тифлис: тип. Я.И.Либермана, 1887 (с. 209-381). 823 с.

200. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. Ленинград: Издательство ЛГУ, 1949. 382 с.
201. Революционный Восток. Тифлис: 1923. №56 (830).
202. Садыхлы М.З. Ответ тебе даст история. Геноцид азербайджанцев в цифрах, фактах, документах – XX век. Баку: Мутарджим, 1995, 382 с.
203. Сборник сведений о Кавказе. Том 2. Тифлис: Типография Главного Управления Наместника Кавказского. 1872. 353, 112 с.: табл., 2 л.к.
204. Сборник сведений о Кавказе. Том V. Ч. 1. Губернии: Эриванская, Кутаисская, Бакинская и Ставропольская и Терская область. Тифлис: Типография Главного Управления Наместника Кавказского. 1879. 343 с.
205. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Т. 1. Тифлис: Тип. Я.И.Либермана, 1887. 282 с.
206. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Т. 2. Тифлис: Тип. Я.И.Либермана, 1887. 427 с.
207. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Т. 3. Ч 1-2. Тифлис: Тип. Я.И.Либермана, 1887. 384 с.
208. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Т. 5. Тифлис: Тип. А.А.Михельсона. 1888. 704 с.
209. Свод статистических данных о населении Закавказскаго края, извлеченных из посемейных списков 1886 г. Города и уезды Эриванской губернии. Тифлис: Тип. И.Мартиросианца, 1893. 974 с.
210. Севанский К. Столетие Нор-Байазета // Заря Востока, 1926, 12 октября, №1299.
211. Территориальное и административное деление союза ССР на 1-е января 1926 г. Народный комиссариат внутренних дел. Статистический отдел. Издательство Главного Управ-

лений Коммунального Хозяйства НКВД. Москва: 1926. 284 с.
212. Халилов А.Х. Геноцид против мусульманского населения Закавказья в 1917 – 1920 гг. в исторических источниках. Баку: Азернешр, 2000, 168 с.
213. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. Баку: Элм, 1990, 156 с.
214. Шаумян С.Г. Избранные произведения. В 2-х томах. Т. 2. Москва: Госполитиздат, 1958, 411 с.
215. Шаумян С.Г. Избранные произведения. В 2-х томах. Т. 2. Москва: Политиздат, 1978, 463 с.
216. Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи. Санкт-Петербург: Типография императорской Академии Наук, 1852, 1231 с.

**İngilis dilində**

217. Swietochowski T. Russian Azerbaijan, 1905-1920: The Shaping of National Identity in a Muslim Community. 2e éd., Cambridge: UK, Cambridge University Press, 2004 (1ère éd. 1985), 256 p.

**İnternet resursları**

218. http://erevangala500.com/
219. http://1905.az/
220. http://karabakhinfo.com/
221. http://www.virtualkarabakh.az/read.php?lang=3&menu=89&id=205
222. https://az.wikipedia.org/wiki/İrəvan_qalası
223. https://az.wikipedia.org/wiki/Göyçə_mahalı

## MÜNDƏRİCAT

**GİRİŞ** .......... 3

**I FƏSİL. GÖYÇƏ MAHALININ TARİXİ COĞRAFİYASI, İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ, SOSİAL-DEMOQRAFİK VƏZİYYƏTİ** .......... 22
1.1. Göyçə mahalının tarixi coğrafiyası və inzibati-ərazi bölgüsü .......... 22
1.2. Çar Rusiyası işğalından sonra Göyçə mahalında ermənilərin məskunlaşdırılması və demoqrafik vəziyyətin dəyişməsi prosesi .......... 47

**II FƏSİL. XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ GÖYÇƏ MAHALINDA AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMI VƏ DEPORTASİYA SİYASƏTİ** .......... 86
2.1. 1905-1920-ci illərdə azərbaycanlıların soyqırımı .......... 86
2.2. 1948-1953-cü illər deportasiyası və onun nəticələri .......... 111

**III FƏSİL. GÖYÇƏ MAHALINDA AZƏRBAYCANLILARA QARŞI DİSKRİMİNASİYA SİYASƏTİ VƏ 1988-1989-CU İLLƏR DEPORTASİYASI** .......... 135
3.1. 1960-1980-ci illərdə erməni şovinizminin yenidən dirçəlməsi və azərbaycanlılara qarşı diskriminasiya siyasəti .......... 135
3.2. 1988-1989-cu illərdə azərbaycanlıların deportasiyası .......... 139

**NƏTİCƏ** .......... 155

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** .......... 163

**BƏXTİYAR ŞAHVƏLƏD OĞLU ƏHMƏDOV**

# GÖYÇƏ MAHALI AZƏRBAYCANLILARINA QARŞI DEPORTASİYALAR VƏ SOYQIRIMLAR

**(XX ƏSR)**

Formatı: 60*84 $^1/_{16}$. Tirajı: 100.
Buraxılışa məsul: **Faiq İsmayılov**
Kompüter dizaynı: **Esmira Kərimova**
Bədii tərtibat: **Rəvanə Mirzalıyeva**

"İdeal-Print" MMC-də çap olunmuşdur.
AZ1130, Azərbaycan, Bakı, Binəqədi rayonu,
Sumqayıt şossesi, 2-ci km.